AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASI
A.A.BAKIXANOV adına TARIX INSTITUTU

RƏSMİYYƏ MƏMMƏDOVA

# XIX ƏSRIN II YARISI–
# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ
# ŞIMALI AZƏRBAYCANDA
# VERGI SISTEMININ TARIXINDƏN

Bakı – 2010

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Elmi Şurasının qərarı ilə çap olunur*

**Baş elmi redaktoru** **T.T.Vəliyev**
t.e.d., professor

**Elmi redaktoru** **H.N.Həsənov**
tarix üzrə fəlsəfə doktoru

**Rəyçilər** **Z.A.Qafarova**
tarix üzrə fəlsəfə doktoru
**F.Ə.Tağıyev**
tarix üzrə fəlsəfə doktoru

**Məmmədova Rəsmiyyə Mürsəl qızı**.
XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin tarixindən. Bakı, «Elm və təhsil» nəşriyyatı, 2010. – 200 s.

**M** $\frac{0504030000\text{–}89}{\text{N098–2010}}$ *Qrifli nəşr*

**© Məmmədova R.M., 2010**

# Ön söz

XIX əsrin II yarısı– XX əsrin əvvəlləri çarizmin müstəmləkəçilik siyasətinin məngənəsində olan Şimali Azərbaycan tarixinin olduqca maraqlı dövrlərindən biridir. Bu dövrdə işğalçı rejimin Şimali Azərbaycanda yeritdiyi siyasətin kompleks şəkildə araşdırılmasına, həmçinin bu siyasətin ayrı-ayrı aspektlərinin, o cümlədən vergi və mükələffiyyətlər sisteminin öyrənilməsinə böyük ehtiyac vardır. Çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi müstəmləkəçilik, böyük millətçilik, şovinizm siyasətinin daha qabarıq formada təzahür etdiyi vergi siyasətinin sosial-iqtisadi mahiyyətinin hərtərəfli tədqiqi XX əsrin əvvəllərində Azərbaycan xalqının milli-istiqlal savaşının gerçək səbəblərinin aşkara çıxarılmasında müstəsna əhəmiyyət kəsb edir. Digər tərəfdən, tariximizin yaxın keçmişinin ibrətamiz örnəklərinin təbliğ edilməsi, tarixi səhvlərimizin saf-çürük edilməsi, XX əsrin sonunda növbəti dəfə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası üçün praktiki baxımdan da aktualdır. Kommunizm kabusunun dəmir barmaqlıqlarından savaş və mübarizə əzmi ilə qurtulmuş Azərbaycan xalqının böyük dövlətlərin məkrli, çirkin siyasətlərinin bir daha qurbanına çevrilməməsi üçün XIX-XX əsrlər tarixinin dərslərindən lazımi nəticələr çıxarmalıdır.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycan tarixinin sosial-iqtisadi tarixinin müxtəlif məsələləri ayrı-ayrı tədqiqatçıların əsərlərində öyrənilməsinə baxmayaraq, vergi siyasəti Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat obyekti olmamışdır. Ona görə də bu problemin kompleks şəklidə tədqiq olunması zərurəti ortaya çıxır. Azərbaycan tarixinin bu dövrünün tədqiqatçıları öz araşdırmalarının ağırlıq mərkəzini

əsasən kənd təsərrüfatı və sənayenin ayrı-ayrı sahələrinin inkişafının tədqiqinə həsr etmiş və məhz bu kontekstdə vergi siyasətinin bəzi məqamlarına diqqəti yönəltmişdər. Tarixçi alimlərimizin əsərlərində XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycan kəndlərində vergi siyasətinin ayrı-ayrı cəhətləri müxtəlif yönümdən işıqlandırıldığı halda, onun sənayesində çarizmin yeritdiyi vergi siyasəti isə demək olar ki, araşdırmalardan kənarda qalmışdır. Çar Rusiyasının Şimali Azərbaycanın dövlət və sahibkar kəndlərində, sənayenin müxtəlif sahələrində həyata keçirdiyi vergi siyasətinin mahiyyətini açmaq, onun özünəməxsus xüsusiyyətlərini, müstəmləkəçilik xarakterini müəyyənləşdirmək, bu siyasətin qaranlıq məqamlarını işıqlandırmaq elmi-tarixi baxımdan da böyük əhəmiyyətə malikdir. Bu mənada "XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin tarixindən" mövzusunun araşdırılmasının elmi, sosial-iqtisadi və praktiki dəyəri şəksizdir.

Azərbycanın XIX əsrin II yarısı – XX əsrin əvvəlləri tarixinin əsaslı şəkildə tədqiq olunmasına ötən əsrdən başlanılmışdır. Sovet hakimiyyəti dövründə yazılmış bir çox tədqiqat əsəri dövrün ideoloji qəlibi çərçivəsində qələmə alınsa da, həmin əsərlərdə cəsarətli mülahizələr də öz əksini tapmış, külli miqdarda faktiki materiallar elmi dövriyyəyə cəlb edilmişdir. Amma, çox təəssüf ki, XIX əsrin II yarısı – XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycandakı vergi siyasəti indiyədək ayrıca tədqiqat obyekti olmamışdır. Bununla belə, XIX-XX əsrlər Azərbaycan tarixinin bir sıra problemlərinə həsr edilmiş tədqiqat əsərlərində bəhs edilən dövrdə bu vergi siyasətinin müxtəlif aspektlərinə də toxunulmuşdur. Bu baxımdan XIX-XX əsrin əvvəlləri üzrə görkəmli mütəxəssis akad. Ə.S.Sumbatzadənin əsərlərini xüsusi olaraq qeyd etmək lazımdır [220; 219; 221]. Müəllif XIX əsrdə Şimali Azərbaycanın kənd təsərrüfatı və sənayesinə həsr etdiyi fundamental monoqrafiyalarında ölkənin iqtisadiyyatının mühüm sahələrinin vəziyyətini zəngin arxiv materialları

əsasında işıqlandırmış, həmçinin çarizmin kənd təsərrüfatı və sənaye sahəsində yeritdiyi vergi siyasəti, ayrı-ayrı vergi növləri və onların həcmi məsələlərinə də yer ayırmışdır. Azərbaycanın sosial-iqtisadi inkişaf tarixi tanınmış tədqiqatçı prof. M.Ə.Ismayılovun yaradıcılığında öz əksini tapmışdır. M.Ə.Ismayılovun tədqiqatları [82; 137; 140 və s.] xronoloji baxımdan Ə.S.Sumbatzadənin tarixi araşdırmalarının bir növ davamıdır. Müəllif Azərbaycanın kənd təsərrüfatına həsr etdiyi əsərlərində tətbiq edilən vergi və mükəlləfiyyətlərə yer ayırmış, həmçinin hər iki kateqoriyadan olan kəndlilərin torpaqla təminatı problemini arxiv materialları əsasında araşdırmışdır.

Görkəmli Azərbaycan tarixçisi prof.T.T.Vəliyev ipək emalı sənayesi və XX əsrin əvvəllərində Şimali Azərbaycanın digər sənaye sahələrinə həsr etdiyi monoqrafiyaları və çoxsaylı elmi məqalələrində zəngin arxiv materialları əsasında kapitalizmin inkişaf prosesini təhlil etmiş və çarizmin aksiz siyasətinə dair maraqlı məlumatlar vermişdir [97; 99 və s.].

XIX əsrdə Şimali Azərbaycanda aqrar münasibətlər, sahibkar və dövlət kəndliləri, onların vergi və mükəlləfiyyətləri probleminin tədqiqi ilə məşğul olan tarixçilərdən biri də tanınmış tədqiqatçı prof.I.M.Həsənovdur [118; 120; 122]. Müəllifin əsərlərinin əksəriyyəti XIX əsrin I yarısında aqrar siyasət və vergi sistemi problemlərinə həsr olunsa da, məhz XIX əsrin ortalarında sistem halına salınmış vergi siyasətinin XIX əsrin I yarısı və XX əsrin əvvəllərində də ciddi dəyişiklik olmadan qüvvədə qaldığını nəzərə alsaq onun əsərlərinin elmi əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. I.M.Həsənovun XIX əsrin sonunda dövlət kəndlilərinin vergi və mükəlləfiyyətlərinə həsr etdiyi məqalə birbaşa tədqiq etdiyimiz problemlə bağlıdır [121]. Müəllif bu məqaləsində dövlət kəndliləri üzərinə qoyulmuş torpaq töycüsü, zemski vergisi, hərbi vergi və çoxsaylı mükəlləfiyyətlər haqqında maraqlı məlumatlar vermişdir.

Azərbaycan tarixçisi Y.I.Ələsgərov 1870-ci il 14 may islahatından sonra Azərbaycanın sahibkar kəndlərində torpaq

sahibliyi və torpaqdan istifadə problemlərini araşdırarkən sahibkar kəndlilərinin vergi və mükəlləfiyyətlərinə də xüsusi yer ayırmişdir [104].

Professor M.M.Əfəndiyev öz məqalələrinin birini XIX əsrin 50-ci illərində Şimali Azərbaycanın dövlət kəndlilərindən alınan feodal rentasının mahiyyətinin açılmasına həsr etmişdir [235].

Rus tarixçisi N.Q.Boqdanova XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda aqrar münasibətlər tarixinə həsr etdiyi iri həcmli məqaləsində çarizmin aqrar sahədə vergi siyasətinə də qısaca toxunmuşdur [114].

C.X.Hüseynovun XX əsrin əvvəllərində qaçaq hərakatına həsr etdiyi monoqrafiyasında Şimali Azərbaycan kəndində vergi siyasəti probleminə bir paraqraf həsr edilmişdir [127].

I.A.Talıbzadənin suvarma və sudan istifadə probleminə həsr olunmuş əsərində isə Şimali Azərbaycan kəndlilərinin sudan istifadə müqabilində ödədikləri vergiyə də qısaca yer verilmişdir [95; 96].

Müəllif həmçinin 1912-ci il aqrar islahatına həsr etdiyi əsərində də sahibkar kəndində vergi siyasəti, islahatın vergilərlə bağlı maddəllərini araşdırmışdır.

Şimali Azərbaycanda vergi siyasəti probleminə üçcildlik Azərbaycan tarixinin 2-ci [142] və yeddicildlik Azərbaycan tarixinin 4-cü [50] və 5-ci [51] cildlərinin müvafiq bölümlərində də ümumi xarakterli münasibət bildirilmişdir.

Bütün bunlardan əlavə XIX əsrin II yarısı – XX əsrin əvvəlləri Azərbaycan tarixinin müxtəlif problemləri ilə məşğul olan tədqiqatçıların, o cümlədən Ə.A.Umayev [228], H.Ə.Dadaşov [131], B.Y.Axundov [110], M.C.Ibrahimov [134], V.D.Moçalov [168], E.B.Muradəliyeva [170], S.S.Əliyarov [105], T.Ə.Nəbiyev [88], V.A.Səmədov [209] və başqalarının əsərlərində tədqiq etdiyimiz mövzunun bu və ya digər aspektləri ilə bağlı verilmiş məlumatlar işin yazılmasında müəllifə müəyyən qədər kömək etmişdir. Tarixşünaslığın qısa icmalından göründüyü kimi “XIX əsrin II yarısı– XX əsrin əvvəllərində

Şimali Azərbaycanda vergi sisteminin tarixindən" mövzusu ayrıca tədqiqat obyekti olmamışdır. Doğrudur, qeyd edilən tədqiqatçıların bir qismi bəhs olunan dövrdə Şimali Azərbaycanın kənd təsərrüfatı, aqrar islahatları və aqrar münasibətlər kontekstində vergi siyasətinə yer ayırsalar da bu problem kompleks şəkildə araşdırılmamış, Şimali Azərbaycan sənayesində çarizmin vergi siyasəti məsələsi isə demək olar ki, işlənilməmişdir. Bu baxımdan təqdim olunan monoqrafiya problemin kompleks tədqiqi baxımından Azərbaycan tarixşünaslığında mühüm addım hesab edilə bilər.

Hər hansı bir tarixi problemin tədqiqində olduğu kimi XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin araşdırılması və öyrənilməsində də ilk mənbələrin müstəsna əhəmiyyəti vardır. Vergi siyasəti və xüsusilə də vergi sisteminin konkret statistik rəqəmlər, məlumatlarla bilavasitə bağlılığını nəzərə alsaq, bu problemin tədqiqində tarixi qaynaqların əvəzsiz olduğunu müəyyən etmək çətin deyildir. Qaynaqların şərhi və təhlilinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə Şimali Azərbaycanda vergi sistemi problemi ilə bağlı qaynaqlar çoxsaylı olmaqla yanaşı, həm də pərakəndə vəziyyətdədir. Belə ki, bu problemi əks etdirən qaynaqlar hazırda bir neçə dövlətin, o cümlədən Azərbaycan və Gürcüstan respublikaları, habelə Rusiya Federasiyasının müxtəlif arxiv fondlarında saxlanılır. Belə bir vəziyyət problemin araşdırılması üçün bəzi çətinliklər yaradır. Arxiv materialları ilə yanaşı mövzunun öyrənilməsi üçün nəşr edilmiş statistik məlumatlar, illik icmallar, siyahıyaalma materialları, dövlət məmurlarının yazışmaları, hesabatları və göstərişləri kimi rəsmi sənədlər də məsələnin öyrənilməsində tədqiqatçıya kömək edir. Mövzunun araşdırılmasına Azərbaycan və Gürcüstan respublikalarının dövlət tarix arxivlərinin materialları, nəşr edilmiş rəsmi sənədlərlə bərabər, rus alimləri və qafqazşünaslarının ilk qaynaq xarakterli əsərləri, həmçinin bir sıra dövri mətbuat nümunələrinin materialları da cəlb edilmişdir.

Öyrənilən dövrdə Şimali Azərbaycanda kənd təsərrüfatının ayrı-ayrı sahələrinin iqtisadi inkişafı aqrar münasibətlər, Şimali Azərbaycan kəndlərində vergi siyasəti və vergi sistemi haqqında Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (sonralar: DTA) saxlanılan materiallar qiymətlidir. Bu baxımdan Azərbaycan Respublikası DTA-nın 22-ci [3; 5; 4], 43-cü [6; 14; 15; 16; 17; 18; 19; 23; 24; 25] və 51-ci [31; 27; 30; 29] fondlarında saxlanılan sənədlər diqqəti daha çox cəlb edir. Bu fondlardakı materiallar bəhs edilən dövrdə Şimali Azərbaycan kəndində tətbiq edilən vergi siyasəti, ayrı-ayrı vergi növləri, onların həcmi, vergilərin dözülməz dərəcədə ağırlığı, kəndlilərin bu vergi siyasətinə qarşı ərizə, şikayət, etiraz və çıxışları ilə bağlı faktlarla zəngindir. Bununla yanaşı, Azərbaycan Respublikası DTA-nın 1-ci [1], 71-ci [33] və 351-ci [38] fondlarının materialları arasında da mövzu ilə bağlı diqqəti çəkən sənədlər vardır.

Azərbaycan Respublikası DTA-nin 429-cu [43; 44; 40; 41; 42; 45; 46; 39] fondunun sənədləri vergi sisteminin öyrənilməsi üçün zəngin materiallar verir. Belə ki, fondun materiallarında XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda suvarma suyundan istifadə qaydaları, sudan istifadə müqabilində ayrı-ayrı su sahələrinə görə kənd əhalisindən alınan vergilər, kəndlilərin sudan istifadəyə görə vergi borclarının məbləği, suya nəzarət edən və onu əhali arasında bölüşdürən məmurların – su müfəttişləri, mirab və cuvarların özbaşınalıqları haqqında konkret məlumatlar tapmaq mümkündür.

Araşdırılan dövrdə Şimali Azərbaycanın neft, dağ-mədən, yüngül yeyinti və digər sənaye sahələrinin inkişafı, sənayenin bəzi sahələrində tətbiq edilən aksiz vergisi, icarədarlıq sistemi haqqında da qiymətli arxiv sənədləri mövcuddur. Tədqiqat zamanı Azərbaycan Respublikası DTA-nın 9-cu [2], 50-ci [26], 92-ci [34; 35; 36], 702-ci [37], 509-cu [48] və 798-ci [49] fondlarının materiallarından geniş istifadə olunmuşdur.

Mövzunun araşdırılmasına Gürcüstan Respublikası Dövlət Arxivinin (bundan sonra – GRDTA) materialları da cəlb

edilmişdir. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı idarə edən baş hərbi rəisinin, sonradan isə canişinin iqamətgahı Tiflisdə yerləşdiyi üçün bu dövrə aid rəsmi sənədlərin demək olar ki, çoxu da Tiflis arxivlərində saxlanılır. Tədqiqat zamanı Gürcüstan respublikası arxivlərində saxlanılan və Şimali Azərbaycanın kənd təsərrüfatı, aqrar münasibətlər, eləcə də çarizmin Şimali Azərbaycanın sahibkar və dövlət kəndlərində tətbiq etdiyi vergi siyasətinə aid sənədlərə daha çox diqqət yetirilmişdir. Onu da qeyd etmək lazımdır ki, Gürcüstan Respublikası DTA-da saxlanılan sənədlər Şimali Azərbaycan quberniyaları və qəzaları üzrə vergi məbləğinin həcmi ilə bağlı rəqəmləri əks etdirdiyi üçün bəzi müqayisələrin aparılması baxımından daha qiymətlidir. Gürcüstan Respublikası DTA-nın 3-cü [53; 54], 12-ci [55; 56; 57; 60; 59; 58], 13-cü [65; 66; 64; 69; 68; 72; 62; 63], 14-cü [73], 113-cü [75] və 220-ci [78; 77; 79] fondlarında Şimali Azərbaycanın Yelizavetpol (Gəncə), Bakı quberniyaları, Irəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarında sahibkar və dövlət kəndlilərindən alınan torpaq, zemski, hərbi və s. vergilərin miqdarı haqqında zəngin statistik materiallar saxlanılır.

Arxiv materialları ilə yanaşı mövzunun tədqiqi üçün nəşr edilmiş külliyyat, dövri, həmçinin illik icmallar və statistik materialların əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Nəşr edilmiş sənədlər içərisində Rusiya imperiyasının qanunlar külliyyatının böyük əhəmiyyəti vardır [202; 204; 203]. 1847-ci il kəndli "Əsasnamə"ləri, pul vergisinə keçidlə bağlı 1852-ci il qanunu, 14 may tarixli 1870-ci il "Əsasnaməsi", 1887-ci il tarixli hərbi vergi haqqında qanun, Qafqaz su müfəttişliyi haqqında 1890-cı il qanunu, 1 may 1900-cu il tarixli dövlət kəndlilərinin torpaq quruluşunun əsasları haqqında qanun, sahibkar kəndliləri ilə bağlı 1912-ci il 20 dekabr tarixli qanunu və s. bu dövrdə çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi vergi siyasətinin əsl mahiyyətini, özünəməxsus xüsusiyyətləri və müstəmləkəçilik xarakterinin müəyyənləşdirilməsi baxımdan

əvəzsiz tarixi mənbələrdir. Çap edilmiş qaynaqlar içərisində maraq doğuran sənədlərdən biri də 1905-ci ildə senator Kuzminskinin Bakı şəhəri və Bakı quberniyasında həyata keçirdiyi təftişlə əlaqədar hazırladığı hesabatdır [117]. Kuzminskinin hesabatında Bakı quberniyasının şəhər və kənd əhalisi, onların məşğuliyyəti, sənaye və kənd təsərrüfatının vəziyyəti, həmçinin vergi və mükəlləfiyyətlərlə bağlı diqqətəlayiq materiallar öz əksini tapmışdır.

Statistika xarakterli qaynaqlar içərisində vergi sistemi, aqrar münasibətlər haqqında son dərəcə qiymətli materiallar Qafqaz təqviminin müxtəlif illər üzrə nəşrlərində də qorunub saxlanılmışdır. Problemin tədqiqi zamanı 1883, 1899, 1912, 1915 və 1917-ci illərin statistik məlumatlarını əks etdirən Qafqaz təqvimlərində [144] kəndlilərin torpaqla təminatı, vergi və mükəlləfiyyətləri, həmçinin sənayenin müxtəlif sahələri tarixini araşdırmağa imkan verən konkret rəqəmlərin müəyyən əhəmiyyəti olmuşdur.

XIX əsrin sonu – XX əsrin əvvəllərində nəşr edilmiş bütövlükdə Qafqazın, o cümlədən Şimali Azərbaycanın Bakı və Yelizavetpol quberniyalarının müxtəlif illər üzrə sosial-iqtisadi inkişafını əks etdirən rəsmi icmal materialları mövzunun araşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Bu baxımdan 1897 [182], 1903 [180] və 1910-cü [182] illər üzrə Bakı quberniyasının illik icmalları, 1910-cu il üzrə Yelizavetpol quberniyası [194] və Irəvan quberniyasının yaddaş kitabçaları [195], 1889-cü il üçün Qafqazın kənd təsərrüfatı [143], 1909-cu ilin 15-24 noyabrında keçirilmiş Qafqaz kənd təsərrüfatçılarının birinci qurultayının materialları [226], Cənubi Qafqazda köçürmə işinin icmalı [181] sənədlər külliyyatı xüsusi olaraq qeyd edilməlidir.

1936-1937-ci illərdə görkəmli rus şərqşünası I.P.Petruşevski tərəfindən nəşr etdirilmiş müxtəlif arxiv materialları əsasında tərtib edilmiş iki cildlik sənədlər toplusu [152] çarizmin vergi siyasətindəki müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq üçün qiymətli qaynaqlardan biridir. Bu

sənədlər toplusunun birinci cildi bütövlükdə XIX əsrin I yarısına aid olsa da, onun ikinci cildində XIX əsrin 50-60-cı illərində çarizmin Şimali Azərbaycanda yeritdiyi vergi siyasətini əks etdirən onlarla qiymətli sənədlər verilmişdir. I.P.Petruşevskinin bu topluda 1852-ci il vergi qanunu haqqında qiymətli arxiv sənədlərini çap etməsi və 1870-ci il 14 may tarixli "Əsasnamə"nin tam mətnini verməsi bu külliyyatın elmi-tarixi dəyərini daha da artırır.

XIX əsrin II yarısında Şimali Azərbaycanda aqrar münasibətlər, torpaq siyasəti, torpaqdan istifadə qaydaları, sahibkar və dövlət kəndlilərinin vergi və mükəlləffiyyətləri haqqında geniş məlumat verən statistik toplulardan biri də 1899-cu ildə Tiflisdə nəşr edilmiş statistik məcmuədir [211]. Bu məcmuə Cənubi Qafqazın beş quberniyası, o cümlədən Yelizavetpol, Bakı quberniyaları, həmçinin Naxçıvan və Şərur-Dərələyəz qəzalarının da daxil olduğu Irəvan quberniyasının kəndliləri haqqında ətraflı məlumatlar verir. Çarizmin Şimali Azərbaycan kəndlərində tətbiq etdiyi vergi siyasəti ilə erməni və gürcü kəndlərində yeridilən siyasəti müqayisə etmək baxımından da məcmuə materialları əhəmiyyətlidir.

Araşdırılan dövrdə Şimali Azərbaycanın neft sənayesində çarizmin həyata keçirdiyi icarədarlıq sistemi və vergi siyasətini tədqiq etmək üçün son dərəcə qiymətli qaynaqlardan biri də Hefter, A.N.Fursenko və L.E.Şepelevin redaktorluğu altında nəşr edilən iki iri həcmli sənəd və materiallar toplusudur. Rusiyanın müxtəlif arxivlərində saxlanılan minlərlə sənədi əhatə edən bu külliyatın birinci kitabı 1883-1914-cü illəri [167], ikinci kitabı isə 1914-1917-ci illəri [166] əhatə edir. Hər iki sənədlər toplusu XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanın neft sənayesində çar hökumətinin tətbiq etdiyi aksiz vergisi, gerb rüsumu vergisi və icarədarlıq sisteminin tətbiqində güdülən məqsədi açmaq üçün qiymətli materiallarla zəngindir. Onu da qeyd etmək istərdik ki, bu sənədlər toplusu neft sənayeçilərinin çarizmin aksiz siyasətinə münasibətini öyrənmək baxımından da əvəzsizdir.

XIX əsrin II yarısında Şimali Azərbaycanın dövlət kəndlərində həyata keçirilən vergi siyasəti ilə bağlı son dərəcə qiymətli mənbələrdən biri 1883-cü ildə Dövlət Əmlak nazirliyi tərəfindən yaradılmış xüsusi komissiyanın əldə etdiyi materiallardır. On nəfərdən ibarət olan komissiya Cənubi Qafqazın dövlət kəndlilərinin sayı, onların tərkibi, torpaqla təminatı səviyyəsi, onların meşə və otlaqlardan istifadə qaydaları, əkinçilik və maldarlıqdan başqa əlavə gəlir mənbələri, vergi və mükəlləfiyyətləri haqqında zəngin məlumatlar toplamış və bu məlumatlar Dövlət Əmlak Nazirliyi tərəfindən Tiflisdə nəşr edilmişdir. Biri 7 cilddən [213], o biri isə 5 cilddən [164] ibarət olan bu külliyyat Şimali Azərbaycanın dövlət kəndliləri haqqında ən müfəssəl məlumatlarla zəngindir. Komissiya üzvlərindən A.Q.Dekonski Şuşa və Cəbrayıl qəzalarının [164, IV c., II h.], I.L.Baxtadze Yelizavetpol və Bakı quberniyalarının bir çox qəzalarının [213, I c., III h.], P.N.Yaqodinski və P.V.Kotlyarovski Quba qəzasının [164, II c., I-II h.], N.A.Abelov Şamaxı və Göyçay qəzalarının [164, II c., II h.], A.D.Yeritsov Qazax qəzasının [164, II c., I h.], A.N.Arasxanyans Nuxa qəzasının [164, II c., I h.], A.E.Xanaqov Cavanşir qəzasının [164, VI c., II h.] dövlət kəndliləri, onların ödədiyi vergi və mükəlləfiyyətlərin həcmi və dözülməz dərəcədə ağır olması haqqında geniş məlumatlar vermişlər. Problemin tədqiqində bu komissiyanın topladığı materiallara xüsusi diqqət yetirilmişdir.

Haqqında bəhs edilən dövrdə Şimali Azərbaycanda vergi siyasəti mövzusunun araşdırılması prosesində dövri mətbuat orqanlarında öz əksini tapmış məlumatlara da müraciət edilmişdir. "Baku" [112], "Bakinskie qubernskie vedomosti" [111], "Novaə reçğ" [177], "Zakavkazskoe obozrenie" [133], "Novoe obozrenie" [178] kimi mətbuat orqanlarında XX əsrin əvvəllərində vergi problemləri ilə bağlı əksini tapmış faktlardan yetərincə faydalanmağa çalışmışıq.

XX əsrin əvvəllərində çar hökumətinin Şimali Azərbaycanın neft sənayesində həyata keçirdiyi aksiz siyasəti və

onun getdikcə artırılması prosesini izləmək, aksiz siyasətinə qarşı neft sənayeçilərinin mübarizə aparmaq cəhdlərini və aksiz vergisinin neft sənayesinin inkişafı prosesinə təsirini araşdırmaq üçün "Neftənoe delo" jurnalının [175, №24; 176, №3, №13, №21] müxtəlif nömrələrindəki materiallar da yeri gəldikcə tədqiqata cəlb edilmişdir.

Çarizmin yeritdiyi vergi siyasətinin ayrı-ayrı aspektlərinin öyrənilməsində həmin dövrə aid rus alimləri və qafqazşünaslarının ilk qaynaq xarakteri daşıyan əsərlərini də qeyd etmək lazımdır. Bu müəlliflərin bir çoxu Rusiya imperiyasının Cənubi Qafqazda idarəetmə aparatının müxtəlif sahələrində çalışan dövlət məmurları olduqdarı üçün öz əsərlərində rəsmi dövlət sənədlərindən geniş surətdə istifadə etmiş və tədqiq olunan problemlə bağlı çoxlu sayda faktiki materialları üzə çıxrmışlar. Ilk qaynaq xarakteri daşıyan bu əsərlərdə materiallar təhlil edilmədən verilmiş, faktlar sadəcə olaraq konstatasiya olunmuşdur.

Bu baxımdan Şimali Azərbaycanda aqrar münasibətlər, torpaq siyasəti, torpaqdan istifadə qaydaları, vergi qanunvericiliyi, aqrar sahədə vergi və mükələffiyyətlər kimi problemləri əks etdirən əsərlər içərisində O.Syomin [215], I.L.Seqal [214], S.L.Avaliani [101] kimi müəlliflərin əsərləri xüsusi qeyd olunmalıdır. Bu müəlliflərin əsərlərində çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanın həm sahibkar, həm də dövlət kəndlərində yeritdiyi vergi siyasətinin müstəmləkəçilik, qarətçilik xarakterini işıqlandırmaq üçün çoxsaylı faktiki materiallar öz əksini tapmışdır.

Rusiyanın, eləcə də Şimali Azərbaycanın neft sənayesinin inkişaf tarixi rus qafqazşünaslarının nəzər diqqətindən kənarda qalmamışdır. V.I.Raqozin [206], V.Simonoviç [216], S.A.Kader [145], L.L.Perşke [196; 198] və digər müəlliflər öz əsərlərində neft sənayesi, onun vəziyyəti və inkişaf perspektivləri, neft sənayesində icarədarlıq sistemi və s. problemlərlə bağlı zəngin faktiki materialları ortaya çıxarmışlar. Cənubi Qafqaz aksiz idarəsinin rəisi vəzifəsini icra edən L.L.Perşke öz əsərlərində çar hökumətinin neft emalı məhsullarına aksiz vergisi tətbiq etməsi,

aksiz siyasətinin təkamül prosesi və aksiz vergisinin məbləği haqqında çox qiymətli statistik məlumatlar vermişdir.

Cənubi Qafqazın sənaye müəssisələri, həmçinin neft, dağ-mədən, şərabçılıq, tütün, pambıqtəmizləmə və s. zavod və fabrikləri haqqında rəsmi statistik məlumatlar əsasında geniş məlumatlar verən müəlliflərdən biri də S.I.Qulişambarov olmuşdur [126]. Müəllifin əsərlərində tütün və şərabçılıq sənayesində tətbiq edilmiş aksiz siyasəti və gerb rüsumu vergisi haqqında məlumatları daha çox maraq doğurur.

1901-ci ildə Tiflisdə nəşr olunmuş Qafqazın dağ-mədən sənayesinin inkişafına həsr olunmuş tarixi oçerkində [141] 100 illik bir dövrdə (1801-1901) Qafqazda fəaliyyət göstərən dağ-mədən müəssisələri, həmçinin duz istehsalında tətbiq edilən aksiz vergisi haqqında qiymətli faktlar öz əksini tapmışdır. A.M.Morqoliusun Cənubi Qafqazın duz istehsal edən müəssisələrinin tarixinə həsr edilmiş əsərində [163] Şimali Azərbaycanın duz emalı müəssisələrinin tarixinə geniş yer verilmiş və duz istehsalına qoyulmuş aksiz vergisinin bu sahənin inkişafına mənfi təsir göstərməsi xüsusi vurğulanmışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, XX əsrin 60-cı illərinə qədər tarixşünaslıqda XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlı heç bir elmi əsası olmayan, kökündən yanlış bir fikir hakim kəsilmişdir. Bu dövrdə Şimali Azərbaycanı «ən geridə qalmış feodal-patriarxal münasibətlər» ölkəsi kimi xarakterizə edən I.V. Stalinin tezisi [94, V c., s. 52] sonralar bir ehkama çevrilərək demək olar ki, bütün tarixi tədqiqatlarda təkrar olunurdu. Keçmiş sovet tarixşünaslığında bundan daha da irəli gedərək, Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsinə görə nəinki Rusiyanın mərkəzi quberniyalarından, hətta Gürcüstan və Ermənistandan da geridə qaldığı iddiası ilə çıxış edənlər də tapılırdı [230, s. 14]. Bu fikirlər son dövrlərdə ara-sıra tənqid edilmişdir [52, s. 156].

Sov. IKP-nin XX qurultayında şəxsiyyətə pərəstiş və onun acı nəticələrinin kəskin tənqidindən sonra XIX əsrin sonu-XX

əsrin əvvəllərində Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsinin müəyyənləşdirilməsi məsələsinə yenidən nəzər salan tarixçilər I.M.Həsənov və H.Ə.Dadaşov Oktyabr çevrilişinə qədər Şimali Azərbaycanın «geridə qalmış feodal-patriarxal ölkəsi» olması tezisinin yanlış olduğunu etiraf edərək, göstərdilər ki, XIX əsrin sonunda Şimali Azərbaycanın dövlət (xəzinə) kəndlərində feodal istehsal münasibətləri dağılmaq ərəfəsində idi [119, s. 606] və XX əsrin əvvəllərində isə ölkə iqtisadiyyatında artıq kapitalist münasibətləri üstünlük təşkil edirdi [131, s. 152]. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin üstünlük qazanması tezisinin elmi baxımdan əsaslandırılması ötən əsrin 50-ci illərinin sonundan başlayaraq bu problemlə bağlı yazılmış əsərlərin leytmotivini təşkil etmişdir. Bu baxımdan görkəmli Azərbaycan tarixçilərindən Ə.S.Sumbatzadə [220; 219; 221], I.M.Həsənov [122], H.Ə.Dadaşov [129; 131], M.Ə.Ismayılov [82; 137; 140], I.A.Talıbzadə [95; 96], T.T.Vəliyev [97; 99; 100; 98], Ə.A.Umayev [228] və başqalarının tədqiqatlarını xüsusilə qeyd etmək lazımdır. Zəngin arxiv materialları, çoxsaylı hesabatlar və statistik materiallar əsasında Azərbaycan tarixçiləri inkar edilməz faktlar əsasında sübut etmişlər ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın iqtisadiyyatında yalnız Bakı şəhərində deyil, o cümlədən Şimali Azərbaycanın qəzalarında da kapitalist istehsal münasibətləri yüksələn xətt üzrə inkişaf edirdi. Bununla yanaşı aparılan dərin araşdırmalar göstərmişdir ki, Şimali Azərbaycan özünün sosial-iqtisadi inkişafına, habelə burada kapitalist münasibətlərinin inkişafı səviyyəsinə görə Cənubi Qafqazın digər ölkələrinə nisbətən çox yüksək inkişaf mərhələsində olmuşdur.

Tədqiq olunan dövrdə Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsinin müəyyənləşdirilməsi ayrıca və olduqca geniş tədqiqat obyekti olduğuna və həmin məsələ bizim tədqiqat vəzifələrimizə daxil olmadığına görə, biz bu problem üzərində ətraflı dayanmağa lüzum görmürük. Lakin araşdırma obyektinə

çevirdiyimiz "XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin tarixindən" mövzusu sosial-iqtisadi vəziyyətlə birbaşa bağlı olduğu üçün istər-istəməz bu problemə heç olmasa ümumi şəkildə toxunmaq fikrimizcə zəruridir.

Monoqrafiyanın yazılmasında əsas məqsəd XIX əsrin II yarısı – XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanda tətbiq etdiyi vergi siyasəti, onun mahiyyəti, özünəməxsus xüsusiyyətləri və s. məsələlərin kompleks şəkildə araşdırılmasından ibarətdir. Problemin müstəqil tədqiqat obyekti olmaması, mövzu ilə bağlı ilk mənbələrin müxtəlif ölkələrin arxivlərində dağınıq vəziyyətdə olması, şübhəsiz ki, onun öyrənilməsində müəyyən çətinliklər yaratmışdır. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur: problemin öyrənilməsi səviyyəsini müəyyənləşdirmək və onların elmi təhlilini vermək; mövzu ilə bağlı aşkara çıxarılmış arxiv materialları, çap edilmiş mənbələri dərindən öyrənmək, yeni elmi faktları üzə çıxarmaqla təhlil etmək, pərakəndə halda olan mülahizələri saf-çürük edərək sistemləşdirmək; bəhs edilən dövrdə Şimali Azərbaycanın kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf səviyyəsini, kənd təsərrüfatına kapitalist münasibətlərinin nüfuz etmə dərəcəsini müəyyənləşdirmək; Şimali Azərbaycanda sənayenin müxtəlif sahələrinin ümumi inkişafını nəzərdən keçirmək, ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi probleminə toxunmaq; Şimali Azərbaycanın sahibkar və dövlət kəndlilərinin sayını müəyyənləşdirmək; hər iki kateqoriyadan olan kəndlilərin torpaqla təminatı səviyyəsini aydınlaşdırmaq; kəndli təsərrüfatlarının gəlirlilik dərəcəsini aşkara çıxarmaq; çarizmin Şimali Azərbaycanın sahibkar və dövlət kəndlərində tətbiq etdiyi vergi qanunvericiliyinin təkamül prosesini izləmək; Şimali Azərbaycan kəndliləri üzərinə qoyulan vergilərin növlərini, miqdarını, mahiyyətini araşdırmaq; çarizmin Şimali Azərbaycanın neft sənayesinə tətbiq etdiyi aksiz siyasəti və onun neft sənayesinin inkişafına mənfi təsirini müəyyənləşdirmək;

Abşerondan kənardakı sənaye sahələrində tətbiq edilən vergi siyasəti, onun növləri və mahiyyətini təhlil etmək; çarizmin Şimali Azərbaycanda yeritdiyi vergi siyasətinin müstəmləkəçilik xarakterini konrket faktlar əsasında izah etmək.

Əsərin elmi yeniliyi bir neçə cəhətdən müəyyən olunur: tarixşünaslıqda ilk dəfə olaraq XIX əsrin II yarısı – XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanda vergi siyasəti müstəqil tədqiqat obyektinə çevrilmişdir; XIX əsrin ortalarından başlayaraq çarizmin süqutuna qədərki dövrdə vergi sistemi, onun xarakteri və mahiyyəti bütünlüklə izlənilmiş və araşdırılmışdır; çarizmin Şimali Azərbaycan sənayesində yeritdiyi vergi siyasəti demək olar ki, ilk dəfə olaraq ətraflı şəkildə öyrənilmiş və sənayenin müxtəlif sahələrində mövcud olan vergilərin mahiyyəti haqqında hərtərəfli məlumat verilmişdir; tarixi ədəbiyyatda vergi siyasəti ilə bağlı pərakəndə halda olan məlumatlar sistem halına salınaraq təhlil edilmiş və müvafiq nəticələr çıxarılmışdır.

Monoqrafiyada istifadə olunmuş zəngin faktiki materiallar və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində «Azərbaycan tarixi»nin tədrisində; ölkəmizin tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında, orta və ali məktəblər üçün dərsliklərin, eləcə də dərs vəsaitlərinin hazırlanmasında, geniş istifadə oluna bilər. Bütövlükdə bu əsər Vətən tarixi, xüsusən də XIX – XX əsrlər tariximizlə maraqlanan hər bir oxucu üçün maraqlı və dəyərli ola bilər.

# I FƏSIL

# XIX ƏSRIN II YARISI– XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ŞIMALI AZƏRBAYCANIN SOSIAL-IQTISADI VƏZIYYƏTINƏ DAIR

## 1.1. Kənd təsərrüfatının durumu.

XIX əsrin II yarısı – XX əsrin əvvəlləri Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf tarixində çox mühüm, mahiyyətcə yeni bir tarixi mərhələni təşkil edir. Bu tarixi mərhələnin əsas xüsusiyyətlərindən biri Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin sürətli inkişaf yoluna qədəm qoymasından ibarətdir. Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin meydana çıxması hələ XIX əsrin I yarısından başlasa da, onun kənd təsərrüfatına nüfuz etməsi XIX əsrin II yarısına təsadüf edir.

Məlumdur ki, bütün tarixi dövrlərdə vergi sistemi dövlətin əsas maliyyə mənbələrindən biri olmuş və büdcənin formalaşmasında çox mühüm əhəmiyyət kəsb etmişdir. Vergi gəlirlərinin miqdarı isə birbaşa ölkənin iqtisadi inkişaf səviyyəsindən və əhalinin, vergi obyektlərinin iqtisadi durumundan asılı olmuşdur. Digər tərəfdən normal cəmiyyətlərdə dövlətin və əhalinin durumu və rifahı elə vergi sisteminin vəziyyəti ilə birbaşa bağlıdır. Bütün bunlara görə, Şimali Azərbaycan iqtisadiyyatının əsas göstəricilərinə nəzər salmağa böyük ehtiyac yaranır.

Tədqiq etdiyimiz dövrdə Şimali Azərbaycan əhalisinin üçdə ikisindən çoxunu kənd əhalisi təşkil edirdi və bu əhali kənd təsərrüfatı sahələrində çalışırdı. 1873-cü ildə keçirilmiş kameral

sayım materiallarına görə Şimali Azərbaycanda qeydə alinmış 1.272.520 nəfər əhalinin yalnız 143,5 min nəfəri və yaxud 12,4% şəhərlərdə [50, s.256] (başqa bir hesablamaya görə isə 141.882 nəfəri) [170, s. 68], qalanı isə kəndlərdə yaşayırdı. 1897-ci ildə keçilmiş Ümumrusiya əhali sayımının materiallarına görə isə, Şimali Azərbaycanda yaşayan 1.890.126. nəfərin yalnız 14,6%-ni şəhər [170, s. 68], 85,4%-ni isə kənd əhalisi təşkil edirdi. Şəhər əhalisinin də müəyyən qisminin kənd təsərrüfatı sahələri ilə məşğul olduğunu nəzərə alsaq Şimali Azərbaycan əhalisinin həyatında kənd təsərrüfatının necə mühüm əhəmiyyət kəsb etdiyini təsəvvür etmək heç də çətin deyildir.

Haqqında bəhs olunan dövrdə Şimali Azərbaycanın kənd əhalisinin böyük əksəriyyətinin əsas məşğuliyyətini kənd təsərrüfatının ənənəvi sahələrindən olan əkinçilik və maldarlıq təşkil edirdi. XIX əsrin II yarısında çar Rusiyasının Şimali Azərbaycanda kommunikasiya xətlərinin bərpası və tikintisinə diqqəti artırması, yeni şose yollarının, çay və dəniz gəmiçiliyinin inkişafına, xüsusilə də dəmir yolu xətlərinin çəkilməsinə diqqəti artırması, 1883-cü ildə Cənubi Qafqaz dəmir yolunun Bakı-Tiflis, 1900-cu ildə isə Vladiqafqaz dəmir yolunun Bakı-Petrovsk [228, s. 24] xətlərinin işə salınması nəticəsində Şimali Azərbaycanın ümumrusiya və dünya bazarlarına cəlb edilməsi prossesi daha da gücləndi. Ümumrusiya bazarında ucuz kənd təsərrüfatı xammalına tələbatın getdikcə artması nəticəsində Şimali Azərbaycanda əkinə yararlı torpaqların və əkin sahələrinin sahəsi getdikcə genişlənirdi. Belə ki, XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda əkinə yararlı torpaq sahələri 800 min – 1 mln. desyatin, əkin sahələri isə 500-600 min desyatin idi. XIX əsrin sonunda bu nisbət müvafiq olaraq 1,5 mln. desyatin və 900-1 mln. desyatin, 1917-ci ildə isə 1,6 mln. desyatin və 1,3 mln. desyatin təşkil etmişdi [228, s. 24-25]. Göründüyü kimi, XIX əsrin 80-ci illərinə nisbətən XX əsrin əvvəllərində Şimali Azərbaycanda əkinə yararlı torpaqların və əkin sahələrinin

həcmi təxminən 2-2,5 dəfə artmışdı [228, s. 25].

Şimali Azərbaycanın kənd təsərrüfatında əkinçiliyin mühüm sahəsini taxılçılıq təşkil edirdi. Tədqiqatçıların hesablamalarına görə, Şimali Azərbaycanda yığılan dənli bitkilərin məhsulunun təxminən 95%-ni buğda, arpa və düyü təşkil edirdi [228, s. 25]. Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda yığılmış taxıl məhsullarının dəqiq həcmini müəyyənləşdirmək, demək olar ki, qeyri-mümkündür. Məhz buna görədir ki, müxtəlif tədqiqat əsərlərində ölkədə yığılmış taxıl məhsullarının illik miqdarı ilə bağlı fərqli rəqəmlərlə rastlaşmaq mümkündür. Tanınmış tədqiqatçı V.D. Moçalovun hesablamalarına əsasən, 1883-1885-ci illərdə Şimali Azərbaycanda orta hesabla 40 mln. pud, 1894-1898-ci illərdə isə 79 mln. pud taxıl məhsulları əldə edilmişdi [169, s. 132]. Görkəmli Azərbaycan tarixçisi prof. M.Ə.Ismayılovun araşdırmalarına görə isə 1896-1900-cu illərdə Şimali Azərbaycanda 57.047.168, 1901-1903-cü illərdə 42.226.766, 1907-1910-cu illərdə 33.465.916, 1911-1914-cü illərdə isə 39.222.208 pud [82, s. 32; 140, s. 81] taxıl istehsal edilmişdi.

Bu dövrdə Şimali Azərbaycanda istehsal edilmiş taxıl məhsullarının miqdarı barədə t.e.d. Ə.A.Umayev tərəfindən hazırlanmış cədvəldə [228, s. 26-27] də fərqli rəqəmlər göstərilir:

***Cədvəl №1***

Şimali Azərbaycanda istehsal edilən taxıl məhsulları (mln.pudla)

| Illər | Buğda | Arpa | Düyü | Bütün taxıl |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1873* | 16746431 | 9161180 | 913061 | 27383485 |
| 1882 | 29106646 | 17113542 | 5260204 | 52565302 |
| 1884 | 20893404 | 8277952 | 4811170 | 34978025 |
| 1885 | 20888296 | 10842090 | 2910754 | 35657259 |
| 1886 | 25569621 | 11880841 | 3693559 | 41893250 |

| | | | | |
|---|---|---|---|---|
| 1887 | 30020273 | 10613010 | 8017858 | 49499107 |
| 1888 | 23716776 | 9663317 | 7670710 | 43173128 |
| 1889 | 24074145 | 10243791 | 5292419 | 41414074 |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1890 | 25095127 | 10607513 | 5597032 | 39155067 |
| 1891 | 30044374 | 12103129 | 3023165 | 46514570 |
| 1892 | 29063436 | 9930930 | 5294278 | 45893642 |
| 1893 | 39768490 | 12029399 | 3968258 | 5240211 |
| 1894 | 41946795 | 14137115 | 4979831 | 63129495 |
| 1896 | 43235757 | 16676297 | 6314995 | 68775874 |
| 1897 | 38129161 | 15502010 | 6942905 | 62913507 |
| 1898 | 31482821 | 15014293 | 4799939 | 52183699 |
| 1899 | 27917656 | 11903773 | 4206699 | 45236513 |
| 1900 | 20427014 | 6812039 | 4617537 | 37757926 |
| 1901 | 16296030 | 7043025 | 3814290 | 35169192 |
| 1902 | 20459518 | 9745127 | 4841010 | 37906232 |
| 1903 | 11370041 | 13832927 | 3131671 | 41374003 |
| 1904 | - | - | - | 39607797* |
| 1905 | - | - | - | 16325519* |
| 1906 | - | - | - | 14231555* |
| 1907 | 12679417 | 6054097 | 1802565 | 21973183 |
| 1908 | 28509726 | 13256379 | 1738291 | 42525177 |
| 1909 | 21178708 | 10205831 | 2920053 | 35155449 |
| 1910 | 22159854 | 8512721 | 2449342 | 31384943 |
| 1911 | 22115335 | 8595306 | 2503415 | 31471026 |
| 1912 | 26122161 | 12136824 | 1373713 | 31609991 |
| 1913 | 22894024 | 14116114 | 1585034 | 39650908 |
| 1914 | 37733041 | 13402616 | 1924839 | 54369090 |

Beləliklə, XIX əsrin 70-ci illərinin birinci yarısında Şimali Azərbaycanda ildə orta hesabla 30 mln. pud [82, s. 32] taxıl

* 1873-cü ildə yığılan taxıl məhsullarının həcminə Zaqatala dairəsində yığılmış məhsul daxil deyildir.

* 1904, 1905, 1906-cı illərdə yığılmış taxıl məhsullarının həcminə Bakı və Irəvan quberinyaları, habelə Zaqatala dairəsi üzrə məhsul daxil deyildir.

yığıldığı halda, 1882-1890-cı illərdə bu göstərici orta hesabla 41,7 mln. puda, 1891-1900-cu illərdə 53,8 mln. puda, 1901-1913-cü illərdə isə 37,6 mln. puda bərabər olmuşdur. 1905-1907-ci illərdə Şimali Azərbaycanda baş vermiş məhsulsuzluq nəticəsində taxıl məhsullarının yığımı il ərzində orta hesabla 14-22 mln. pud arasında tərəddüd etmişdir [228, s. 27]. Tədqiq olunan dövrdə Şimali Azərbaycanda taxıl məhsulları yığımı üzrə rekord göstərici 1896-cı ildə qeydə alınmış və həmin il 71.543.784 pud taxıl becərilmişdi [82, s. 32; 50, s. 238].

Şimali Azərbaycanda taxıl məhsullarının istehsalı əsrin son rübündə inkişaf etdiyi halda XX əsrin əvvəlindən başlayaraq taxıl yığımı getdikcə azalmağa başlanmışdır. XX əsrin əvvəllərində taxıl istehsalı üzrə yalnız 1914-cü il istisna təşkil edir ki, həmin il bir məlumata görə 52.215.512 pud [82, s. 32], digər məlumata görə isə 54.369.090 pud [228, s. 27] taxıl yetişdirilmişdi. Taxıl məhsulları yığımının azalması və məhsuldarlığın aşağı düşməsi müxtəlif səbəblərlə bağlı idi. Məhsuldarlığın aşağı düşməsinə kənd təsərrüfatı texnikasından az istifadə edilməsi, torpağın ənənəvi üsullarla becərilməsi, aqrotexniki qaydalara əməl edilməməmi kimi texniki səbəblərlə bərabər, quraqlıq, daşqınlar, qışda soyuq, yayda isti küləklərin olması, çəyirtkə basqını və s. kimi təbii fəlakətlər böyük təsir göstərirdi [82, s. 34; 137, s. 35]. Bununla yanaşı, taxıl məhsulları yığılmasının azalmasına XIX əsrin sonu və xüsusilə də XX əsrin əvvəllərindən başlayaraq daha məhsuldar və qiymətli texniki bitkilərin əkilməsi üçün ayrılan torpaq sahələrinin artırılması da müəyyən təsir göstərirdi [228, s. 25; 140, s. 81].

Şimali Azərbaycanın ən iri taxılçılıq bölgələri Bakı quberniyasının Lənkəran qəzası, Yelizavetpol quberniyasının Yelizavetpol, Ərəş, Nuxa və Şuşa qəzaları olmuşdur [82, s. 32; 140, s. 81]. Bunu aşağıdakı statistik rəqəmlər də təsdiq edir. Hesablamalara görə, 1902-ci ildə Yelizavetpol quberniyasında yığılmış 28.280.480 pud taxıl məhsulunun 6.805.440 pudu Nuxa, 5.892.760 pudu Şuşa, 3.720.568 pudu Yelizavetpol,

3.094.416 pudu Ərəş, 2.405.536 pudu Cəbrayıl, 2.437.520 pudu Zəngəzur, 2.135.302 pudu Qazax və 1.788.842 pudu Cavanşir qəzalarının payına düşürdü [82, s. 32]. 1910-cu ildə Bakı quberniyasında yığılmış 12.264.974 pud taxıl məhsulunun 2.208.910 pudu Lənkəran, 1.344.503 pudu Şamaxı, 1.141.680 pudu Göyçay qəzasının payına düşürdü. Taxıl məhsulları istehsalı üzrə Şimali Azərbaycan quberniyaları Cənubi Qafqazın digər quberniyalarına nisbətən aparıcı mövqeyə malik idi. 1901-ci ildə Cənubi Qafqazda yetişdirilmiş 82.633.712 pud taxılın 30 milyon puddan çoxu, başqa sözlə 35%-i Şimali Azərbaycan quberniyalarında əldə edilmişdi [82, s. 41]. Şimali Azərbaycanda yetişdirilmiş taxıl məhsullarının adambaşına düşən miqdarını müəyyənləşdirmək baxımından prof.M.Ə.Ismayılov tərəfindən tərtib edilmiş aşağıdakı cədvəl [82, s. 42; 137, s.36] olduqca maraqlıdır.

***Cədvəl №2***

Şimali Azərbaycanda adambaşına düşən taxılın həcmi

| Illər | Əhalinin sayı | Istehsal edilmiş ümumi məhsul (pudla) | Adambaşına düşən məhsul (pudla) |
|---|---|---|---|
| 1897 | 1.750.131 | 64.984928 | 37 puddan çox |
| 1902 | 1.780.743 | 32.415.483 | 16 puda qədər |
| 1908 | 2.094.028 | 41.503.018 | 20 puddan çox |
| 1910 | 2.324.878 | 30.650.437 | 15 pudə qədər |
| 1913 | 2.231.946 | 50.128.202 | 25 puda qədər |

Hesablamalara görə, Şimali Azərbaycanda il ərzində ərzaq üçün adambaşına 15-16 pud, təqribən bir o qədər də mal-qara üçün yem və toxum tələb olunurdu [137, s. 37]. Bütövlükdə adambaşına il ərzində 30 pud taxıl məsrəf edildiyini nəzərə alsaq görərik ki, 1897-ci il istisna olmaqla Şimali Azərbaycanda satış üçün artıq taxıl məhsulu yox dərəcəsində idi. Göründüyü kimi, əksər illərdə Şimali Azərbaycanda əldə olunmuş taxıl məhsulları

əhalinin öz tələbatını ödəməyə kifayət etmirdi. Məhz buna görə də il ərzində Şimali Azərbaycana Rusiyadan 9-12 mln. pud taxıl gətirilirdi [173]. Lakin bu heç də o deməк deyildir ki, Şimali Azərbaycanda əksər illərdə əmtəəlik taxıl əldə olunmurdu. Cədvəldə əksini tapmış statistik məlumatlar göstərir ki, 1897-ci ildə Şimali Azərbaycanda adambaşına 7 pud əmtəəlik taxıl düşmüşdür. Lakin qeyd etmək lazımdır ki, əhalinin bir hissəsi (275.664 nəfər) [170, s. 68] şəhərlərdə yaşadığı üçün kənd təsərrüfatı ilə məşğul olmur və taxılı, taxıl məhsullarını mütləq satın alırdı. XX əsrin əvvəllərindən etibarən şəhər əhalisinin sayı daha sürətlə artmağa başlamışdı. Bundan əlavə, kənd əhalisinin heç də hamısı taxılçılıqla məşğul olmurdu və məhz buna görə də taxıl məhsullarını satın almaq məcburiyyətində qalırdı. Digər tərəfdən yoxsul kəndlilərin böyük bir hissəsi vergi və mükəlləfiyyətləri ödəmək üçün öz istehlakı üçün nəzərdə tutulan taxılın bir hissəsini bazara çıxarırdı [137, s. 38]. Şimali Azərbaycan qəzalarında taxılın becərilməsinin müxtəlif bölgələr üzrə qeyri-bərabər bölgüsü də əmtəəlik taxılın həcminə təsir gösitərirdi. Məsələn, 1898-ci ildə Bakı qəzasında adam başına 9 puddan bir qədər çox, Cavad qəzasında 31 pud taxıl düşmüşdüsə, Lənkəran qəzasında 97 pud taxıl düşmüşdü [137, s. 38; 140, s. 82]. Göründüyü kimi, Bakı qəzasının əhalisi taxıla böyük ehtiyac hiss etdiyi halda, Lənkəran qəzasında əldə edilən taxılın böyük əksəriyyəti satış üçün nəzərdə tutulurdu. Əmtəəlik taxılın bir hissəsi daxili bazarın tələbatının ödənilməsinə yönələrək Şimali Azərbaycanın şəhərlərində, hətta kənd yerlərində satılmaqla yanaşı, digər hissəsi Rusiya, Gürcüstan və Dağıstanın [137, s. 38; 50, s. 239] coğrafi baxımdan yaxın rayonlarına göndərilirdi. Şimali Azərbaycanın mühüm taxılçılıq mərkəzlərindən olan Lənkəran qəzasında 1913-cü ildə 3.600.000 pud buğda, 2.600.000 pud arpa satılmışdı [191, s. 101-102; 137, s. 38].

Şimali Azərbaycanın taxıl məhsulları becərilməsində əsas yeri buğda və arpa məhsulları tuturdu. 1909-cu ildə Bakı quberniyasında 10 mln. pud buğda, 5 mln. pud arpa, 1912-ci ildə

isə müvafiq olaraq 12,7 mln. buğda, 7,8 mln. pud arpa yığılmışdı [51, s. 46]. Oxşar mənzərə Yelizavetpol quberniyası üçün də xarakterik idi. Hesablamalar göstərir ki, Yelizavetpol quberniyasında orta hesabla hər il 10-12 mln. pud buğda, 5-9 mln. pud arpa əldə edilirdi [51, s. 46].

1912-ci ilə aid olan statistik məlumatlara görə, Şimali Azərbaycanın iki (Bakı və Yelizavetpol) quberniyasında 23.308.000 pud buğda, 11.600.000 pud arpa və 1.171.000 pud düyü (çəltik) yığılmışdı [140, s. 85-86]. Şimali Azərbaycanın taxıl məhsulları istehsalında buğda və arpadan sonrakı yeri çəltik tuturdu. Şimali Azərbaycanda çəltik becərilməsinin əsas mərkəzi Lənkəran qəzası idi. Bununla yanaşı, Quba, Göyçay, Nuxa və Cavad qəzalarında da çəltik əkini ilə məşğul olunurdu [51, s. 45; 82, s. 33]. Statistik məlumatlar göstərir ki, öyrənilən dövrdə Bakı və Yelizavetpol quberniyalarında əldə edilmiş çəltiyin yarıdan çoxu Lənkəran qəzasının payına düşürdü. Belə ki, 1897-ci ildə Şimali Azərbaycanda toplanmış 7.156.104 pud çəltiyin 3.994.480 pudu [182, 1897, s. 5; 82, s. 33] Lənkəran qəzasında əldə edilmişdi. Çəltik istehsalına görə Şimali Azərbaycan Cənubi Qafqazda aparıcı mövqe tuturdu. M.Ə.Ismayılovun hesablamalarına görə, 1902-ci ildə Cənubi Qafqazda yetişdirilmiş çəltiyin 42%-i Bakı, 33%-i Yelizavetpol, 13%-i Irəvan quberniyalarının, 11%-i Zaqatala dairəsi və ancaq cəmi 1%-i Tiflis quberniyasının payına düşürdü [140, s. 81-82]. Şimali Azərbaycanda əldə edilmiş çəltiyin mühüm bir hissəsi ixrac üçün nəzərdə tutulurdu. Təkcə Lənkəran qəzasından il ərzində orta hesabla 1 523 min pud düyü ixrac edilirdi [140, s. 84; 137, s. 38-39]. Bütövlükdə Şimali Azərbaycandan il ərzində orta hesabla 1,5-2 mln. pud düyü ixrac olunurdu [140, s. 84-85]. Lənkəran qəzasında taxıl məhsullarının əsas satış bazarları Lənkəran şəhərində, Hasıllı, Xol, Təklə və Qızılağac kəndlərində cəmlənmişdi [140, s. 84]. Lənkəran qəzasındakı mühüm çəltik bazarlarından bir də Masallı kəndindəki Qala-bazar idi [140, s. 84]. Onu da qeyd etmək lazımdır ki, Şimali Azərbaycandan ixrac edilən düyünün bir hissəsi Batumi və Poti

limanları vasitəsilə dünyanın bir çox ölkələrinə, o cümlədən Italiya, Yunanıstan, Fransa, Türkiyə, Belçika, Hollandiya, Almaniya, hətta Avstraliyaya da göndərilirdi [50, s. 239]. Yelizavetpol quberniyasında əldə edilmiş əmtəəlik taxıl məhsulları əsas etibarı ilə Yevlax, Ləki və b. dəmir yol stansiyaları vasitəsi ilə daşınırdı. Şimali Azərbaycan üzrə taxıl məhsullarının gətirildiyi və aparıldığı əsas məntəqə Bakı şəhəri idi. Il ərzində Bakıya Rusiyadan, Şimali Azərbaycan qəzalarından orta hesabla 3-12 mln. pud taxıl məhsulları gətirilirdi [140, s. 85] ki, onun yarıdan çoxu yerindəcə satılır, qalan hissəsi isə, xüysusilə də düyü və un Rusiyanın mərkəzi quberniyalarına, Dağıstana, həmçinin Şimali Azərbaycanın taxıl çatışmayan bölgələrinə göndərilirdi.

Şimali Azərbaycanın iqtisadi həyatında əkinçilikdən sonra mühüm yer maldarlıq təsərrüfatına məxsus idi. Şimali Azərbaycanın əlverişli təbii coğrafi şəraiti, geniş yaylaq və qışlaq sahələri maldarlığın inkişafı üçün hərtərəfli imkanlar açırdı. Maldarlıqla məşğul olma səviyyəsinə görə o zamanki Şimali Azərbaycan əhalisini əsasən üç qrupa bölmək olar:

1. Əsas məşğuliyyəti əkinçilik olub, öz təsərrüfatlarını becərmək və öz ehtiyaclarını ödəmək üçün maldarlıqla məşğul olanlar.
2. Əkinçiliklə bərabər maldarlıqla da məşğul olanlar.
3. Əsasən köçmə maldarlıqla məşğul olanlar [69].

Şimali Azərbaycanda saxlanılan mal-qaranın böyük əksəriyyəti ikinci və üçüncü qrupa məxsus olan əhalinin əlində cəmlənmişdi. Onlar əsasən əmtəə maldarlığı ilə məşğul olur, ət, süd, pendir, yağ, dəri, gön, yun satırdılar. Şimali Azərbaycandakı otlaq sahələrinin böyük bir hissəsi bəylərə, bir qismi isə xəzinəyə məxsus idi. Maldarlıqla məşğul olanlar çox vaxt otlaq sahələrini icarəyə götürürdülər.* Şimali Azərbaycanda maldarlığın ən geniş yayılmış sahələri qoyunçuluq, iri buynuzlu

---

* Monoqrafiyanın müvafiq bölümündə icarədarlıq sistemi haqqında ətraflı məlumat veriləcəkdir.

mal-qara və atçılıqdan ibarət idi. Bununla belə əhali qismən qatır, dəvə, keçi və donuz saxlamaqla da məşğul olurdu. XIX əsrin II yarısında Şimali Azərbaycanda şosse və dəmir yolların çəkilişi nəticəsində karvanlara tələbatın azalması dəvəçiliyin əvvəlki əhəmiyyətini itirməsinə səbəb olmuşdu [51, s. 48; 82, s. 51; 140, s. 86]. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra, xüsusilə də XIX əsrin II yarısından etibarən onun ümumrusiya bazarına cəlb edilməsi maldarlığın inkişafına təkan vermişdi. Şimali Azərbaycanda saxlanılan mal-qaranın dəqiq sayını müəyyənləşdirmək, demək olar ki, qeyri-mümkündür. Belə ki, əhali vergilərdən yayınmaq üçün mal-qaranın, xüsusilə də qoyunları gizlətdiyinə görə çar məmurları bütün heyvanları qeydə ala bilmirdilər. Buna baxmayaraq, Azərbaycan tarixçilərinin apardıqları hesablamalar müxtəlif illərdə Şimali Azərbaycanda saxlanılan mal-qaranın sayını göstərən təxmini rəqəmləri müəyyənləşdirməyə imkan vermişdir. Bu baxımdan, XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın Yelizavetpol və Bakı quberniyalarında qoyun, iri buynuzlu mal-qara və atların ayrı-ayrılıqda sayını göstərən prof.M.Ə.Ismayılov tərəfindən hazırlanmış cədvəl [82, s. 57] diqqətəlayiqdir.

***Cədvəl №3***

Şimali Azərbaycanda mal-qaranın sayı (min başla)

| Illər | Qoyunlar | | Iri buynuzlu mal-qara | | Atlar | |
|---|---|---|---|---|---|---|
| | Quberniyalar | | | | | |
| | Bakı | Yelizavetpol | Bakı | Yelizavetpol | Bakı | Yelizavetpol |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1897 | 706.945 | 1.139.306 | 272.335 | 483.514 | 99.644 | 91.487 |
| 1898 | 703.606 | - | 274.622 | - | 99.620 | - |
| 1899 | 690.00 | - | 237.588 | - | 99.540 | - |
| 1900 | 652.183 | - | 260.991 | - | 77.985 | - |
| 1901 | 652.459 | 1.799.471 | 244.299 | 409.188 | 77.057 | 94.923 |
| 1902 | 868.806 | 1.774.919 | 256.669 | 44.318 | 81.036 | 100.190 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1903 | 1.025.491 | 1.056.388 | 325.783 | 621.863 | 100.982 | 57.515 |
| 1904 | -[*] | 2.289.931 | - | 905.113 | - | 99.456 |
| 1905 | - | 1.034.679 | - | 491.683 | - | 81.905 |
| 1906 | 865.611 | 2.375.827 | - | 909.297 | - | 102.783 |
| 1907 | 1.059.721 | 2.427.807 | 400.609 | 910.302 | 74.238 | 100.437 |
| 1908 | 954.121 | 1.916.278 | 368.810 | 913.796 | 88.407 | 92.998 |
| 1909 | 840.362 | 2.000.000 | 376.993 | 815.255 | 74.563 | 98.930 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1910 | 719.289 | 1.440.160 | 372.618 | 685.210 | 83.878 | 86.919 |
| 1911 | 753.869 | 1.118.326 | 592.117 | 655.613 | 79.133 | 79.415 |
| 1912 | 903.5 | 1.044.764 | 595.064 | 830.913. | 71.003 | 80.601 |
| 1913 | 34 | 1.262.780 | 618.253 | 805.338 | 84.943 | 71.303 |

Cədvəldə Irəvan quberniyası, Dərbənd qəzası və Zaqatala dairəsindəki mal-qaranın sayı öz əksini tapmasa da, bu rəqəmlər bütövlükdə Şimali Azərbaycanda maldarlığın inkişafı haqqında ümumi təsəvvür yaradır.

Tədqiqatçıların araşdırmalarına görə, XIX əsrin 70-80-ci illərində Şimali Azərbaycanda mal-qaranın ümumi sayı 3-3,2 milyon [228, s. 35-36] baş, XX əsrin əvvəllərində isə 3-5 milyon [140, s. 87] baş arasında tərəddüd etmişdir. Göründüyü kimi, XIX əsrin sonlarına nisbətən XX əsrin əvvəllərində qaramal və davarların sayında nəzərə çarpacaq dərəcədə artım baş vermişdir ki, bu da maldarlıq məhsullarının əmtəəlik xarakterinin yüksəlişi ilə əlaqədar olmuşdur. Prof. M.Ə.Ismayılovun hesablamalarına əsasən, Şimali Azərbaycanda 1900-1903-cü illərdə təxminən 3-3,4 mln. baş, 1904-1907-ci illərdə 5 mln. baş, 1908-1910-cu illərdə 4,3 mln. baş, 1911-1915-ci illərdə isə 3,7 mln. baş [140, s. 87; 220, s. 214-219; 169, s. 411-433] mal-qara saxlanılmışdır.

Cədvəldə əksini tapmış statistik məlumatlar göstərir ki, Şimali Azərbaycanda saxlanılan mal-qaranın yarıdan çoxunu davar təşkil etmiş, sonrakı yerləri isə iribuynuzlu mal-qara və atlar tutmuşdur. Tədqiq edilən dövrdə Şimali Azərbaycanın əsas maldarlıq mərkəzi Yelizavetpol quberniyası olmuşdur. Yelizavetpol quberniyasında mal-qaranın ümumi sayı 2,5-3 mln.

[*] Bu illər üzrə səhih məlumat yoxdur – R.M.

arasında tərəddüd etmişdir [82, s. 57]. Quberniyanın maldarlıq təsərrüfatında aparıcı yer qoyunçuluğa məxsus olmuşdur. Yelizavetpol quberniyasında qoyunların sayı 1,5-2,5 mln. baş arasında olmuşdur. Bakı quberniyasının da maldarlıq təsərrüfatında birinci yeri qoyunçuluq tutmuşdur. 1910-cu ilin statistik məlumatlarına əsasən Bakı quberniyasında 820.282 baş qoyun [182, 1910, s. 17; 140, s. 87], 400.000 başa yaxın qaramal və 87 minə yaxın at [51, s. 48] var idi.

Şimali Azərbaycanın ən iri maldarlıq bölgələri Yelizavetpol quberniyasının Yelizavetpol, Bakı quberniyasının Şamaxı qəzasında yerləşirdi [82, s. 58]. XX əsrin əvvəllərindən etibarən Yelizavetpol quberniyasının Qazax qəzası da iri maldarlıq mərkəzinə çevrilməyə başlamışdı. Şimali Azərbaycan nəinki Cənubi Qafqazda, həmçinin bütövlükdə Rusiya imperiyasında ən iri maldarlıq regionlarından biri sayılırdı. Rusiyanın Avropa hissəsində hər yüz nəfərə 33 iribuynuzlu qaramal düşürdüsə, Cənubi Qafqazda bu göstərici 43 başa çatırdı [226, s. 312; 140, s. 88]. Rusiyada toxuculuq sənayesinin xammala getdikcə artmaqda olan tələbatını ödəmək üçün çarizm Şimali Azərbaycanda maldarlığın inkişafı üçün müəyyən tədbirlər görməyə-təcrübə stansiyaları açmağa, sərgilər təşkil etməyə, xəstəliklərlə mübarizə aparmağa məcbur olurdu.

Şimali Azərbaycanda maldarlıq geniş ticarət predmetinə çevrilmişdi. Tarixçilərin hesablamalarına görə, Şimali Azərbaycanda bəslənilən mal-qaranın ən azı 10-15%-i satış üçün nəzərdə tutulurdu [220, s. 91]. Şimali Azərbaycanın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən iri mal bazarlarında satışa çıxarılan mal-qara daxili tələbatı ödəməklə yanaşı Cənubi Qafqazın müxtəlif şəhərlərinə və Dağıstana göndərilirdi [137, s. 40; 82, s. 67]. Ən iri mal bazarları Bakı, Gəncə, Nuxa, Şamaxı və Şuşa şəhərləri, Hasıllı, Masallı, Petropavlovka, Prişib, Xaçmaz, Qax və Balakəndə yerləşirdi [137, s. 40; 140, s. 88-89]. Bakı quberniyasında ən iri bazar Cavad qəzasının Petropavlovka kəndində idi. Məsələn, 1912-ci ilin ilk beş ayı ərzində Petropavlovka bazarında 3 min at, 30 min iribuynuzlu qaramal,

60 min davar satılmışdı [111; 82, s. 63]. Lənkəran qəzasının Hasıllı bazarında ildə orta hesabla 200 at, 20 min mal, 12 min baş davar, Masallı bazarında 800 at, 15 min qaramal, 11 min davar satılırdı [82, s. 63; 140, s. 88].

Şimali Azərbaycanda ət və digər maldarlıq məhsullarının ən böyük istehlakçısı Bakı şəhəri idi. XX əsrin əvvəllərində Bakı şəhərinin bazarlarına 70 min baş iri buynuzlu mal, 200 min başa qədər davar gətirilirdi ki, onun böyük əksəriyyəti daxili tələbatın ödənilməsinə yönəlirdi [137, s. 41; 51, s. 48]. 1899-cu ilin məlumatlarına görə Yelizavetpol quberniyasında 3.255.000 rublluq qaramal və davar satılmışdı [143, s. 204; 140, s. 89].

Gətirilmiş statistik məlumatlar əmtəə maldarlığının ildən-ilə artdığını bir daha təsdiq edir.

Maldarlıq məhsulları içərisində ən mühüm əmtəə növü yun hesab edilirdi. Artıq qeyd edildiyi kimi, Şimali Azərbaycanın maldarlıq təsərrüfatının əsasını qoyunçuluq təşkil edirdi və hər qoyun il ərzində orta hesabla 2-3 kq. yun verirdi [82, s. 67].

Ölkədə təxminən 2,5-3 mln. baş qoyun olduğunu nəzərə alsaq, il ərzində orta hesabla 6-8 mln. kq və ya 300 min – 500 min pud yun [82, s. 67; 51, s. 48] əldə edildiyi məlum olar. Şimali Azərbaycanda istehsal edilən yunun bir hissəsi daxili bazarın tələbatının ödənilməsinə yönəlir, qalan hissəsi Dağıstan, Tiflis, Rusiyanın daxili quberniyalarına və hətta xarici ölkələrə icrac edilirdi [51, s. 48; 82, s. 67]. Şimali Azərbaycanda realizə olunan yundan yerli müəssisələrdə yun parçalar və xalçaçılıq məhsullarının istehsalında istifadə olunurdu. Yun əsasən Bakı şəhərində satılırdı. Bakıdan yun Rusiyaya, Batum limanı vasitəsi ilə də xaricə göndərilirdi. 1871-ci ildə Şimali Azərbaycandan xaricə 979 min rublluq yun ixrac edilmişdi [220, s. 197]. Şimali Azərbaycanda yun ixracı XIX əsrin 90-cı illərindən etibarən xüsusilə genişlənmişdi. 1891-ci ildə 1,5 mln. rublluq 250 min pud yun ixrac olunmuşdu [140, s. 90]. Şimali Azərbaycan yunu Batum limanı vasitəsilə Ingiltərəyə, Fransa və Amerika ölkələrinə göndərilirdi. Bahalı xalça istehsalı ilə məşğul olan

Amerika sahibkarları xalça toxumaq üçün yalnız Iran və Cənubi Qafqaz, o sıradan Şimali Azərbaycan yunundan istifadə edirdilər [140, s. 91]. Hər il Şimali Azərbaycandan orta hesabla 300-350 min pud yun ixrac edilirdi [82, s. 69].

Maldarlıq məhsulları içərisində dəri geniş əmtəə xarakteri daşıyırdı. Şimali Azərbaycanda istehsal edilən dəri məhsullarının bir qismi yerli tələbatın ehtiyaclarına sərf edilir, mühüm bir hissəsi isə Rusiyaya ixrac edilirdi. 1909-cu ildə təkcə Yelizavtepol quberniyasından 9609 iribuynuzlu mal, 221.270 qoyun, 20.801 keçi, 4.729 at, 10 dəvə dərisi, 1911-ci ildə isə 22.447 mal, 10.085 at, 326.659 qoyun və keçi, 185 dəvə dərisi ixrac edilmişdi [137, s. 41]. Statistik məlumatlara əsasən, 1909-cu ildə Şimali Azərbaycandan Rusiyaya 726 min, 1914-cü ildə isə 528 min qoyun dərisi göndərilmişdi [228, s. 38].

Prof. T.T.Vəliyevin araşdırmaları göstərir ki, gön-dəri istehsalı əsasən Nuxa, Yelizavetpol, Şuşa, Şamaxı və Naxçıvan şəhərlərində cəmlənmişdi. Müəllifin hesablamalarına görə, Şimali Azərbaycanın gön-dəri sənayesi sahəsində istehsal edilən məhsulun ümumi dəyəri 1.800 min rubla bərabər idi [100, s. 114-115].

Şimali Azərbaycanın kənd təsərrüfatında əhəmiyyətli yerlərdən biri də bağçılıq, xüsusən də üzümçülüyə məxsus idi. Şimali Azərbaycanda bağçılıq və üzümçülük təsərrüfatının inkişafına əlverişli iqlim şəraiti ilə yanaşı Rusiya ərazisində geniş istehlak bazarlarının olması da müsbət təsir göstərirdi. Şimali Azərbaycan sənayesinin şərabçılıq, araqçəkmə və ipək emalı sahələri də bağçılığın inkişafı ilə birbaşa bağlı idi. Şimali Azərbaycanın bəzi qəzalarında, xüsusilə də Quba və Göyçay qəzalarında əkinçilik bağçılıq qədər əhəmiyyətli olmasa da, digər qəzalarda yardımçı təsərrüfat xarakteri daşıyırdı. Yelizavetpol quberniyasını, bağçılığın inkişafına görə, Gəncə, Şəki və Qarabağ rayonlarına bölmək olar [82, s. 72]. Gəncə rayonu Yelizavetpol və Qazax qəzalarını, Şəki rayonu Nuxa və Ərəş qəzalarını, Şuşa rayonu isə Şuşa, Qaryagin və Cavanşir qəzalarını əhatə edirdi [82, s. 72]. Bakı quberniyasının əsas

bağçılıq rayonları Göyçay, Quba və Şamaxı qəzaları idi. Mənbələrdə bağçılıq təsərrüfatının ayrı-ayrı sahələri üzrə kifayət qədər sistemli statistik məlumatların olmaması istehsal edilən məhsulun həcmi ilə əlaqədar dəqiq rəqəmlər əldə etməyə imkan vermir. Bununla belə aparılmış tədqiqatlar bağçılıq təsərrüfatının müxtəlif sahələri üzrə təxmini rəqəmlər gətirməyə imkan verir. XIX əsrin 70-80-ci illərində [82, s. 72] Nuxa qəzası və Zaqatala dairəsində toplanılan qoz-fındıq istisna olmaqla, Yelizavetpol quberniyasıenda hər il orta hesabla 1.200 min puddan çox meyvə yığılmışdı [50, s. 242].

Bağçılığın getdikcə daha çox əmtəə istehsalı xarakteri alması nəticəsində Şimali Azərbaycandan dəniz və dəmir yolları vasitəsilə Qafqazın digər rayonları və Rusiyaya xeyli meyvə ixrac edilirdi. XIX əsrin 80-ci illərinin ortalarında Quba qəzasından dəniz vasitəsilə Həştərxan və Nijni-Novqoroda hər il 92 min puda qədər alma və armud qurusu, 30 min puda qədər qoz aparılırdı [50, s. 242]. M.Ə.Ismayılovun hesablamalarına görə, təkcə Zaqatala dairəsindən hər il 150 min pud qoz, 200 min pud başqa meyvələr ixrac edilirdi [140, s. 94]. Il ərzində orta hesabla Bakıya 1 mln. puddan çox meyvə gətirilirdi [140, s. 94] ki, onun yarıdan çoxu daxili bazarlarda realizə olunur, qalan hissəsi Rusiyaya göndərilirdi.

1893-cü ildə Yelizavetpol quberniyasından dəmir yolu ilə 132 min pud meyvə qurusu, 140 min pud qoz, badam və püstə aparılmışdı [50, s. 242]. Yelizavetpol quberniyasında bağ sahələri 26.600 desyatin ərazini əhatə edirdi ki, bunun 17.830 desyatini, başqa sözlə 68%-i Nuxa və Ərəş qəzalarının payına düşürdü [140, s. 92]. Bakı quberniyasında isə bağ sahələri 19.057 desyatin ərazini əhatə edirdi [140, s. 92].

Şimali Azərbaycanın bağçılıq təsərrüfatında üzümçülük aparıcı mövqe tuturdu. XIX əsrin ortalarına qədər burada üzümçülük natural xarakter daşıyırdı. XIX əsrin II yarısında Şimali Azərbaycanın ümumrusiya bazarına daha intensiv şəkildə cəlb edilməsi, 1883-cü ildə Bakı-Tiflis dəmir yolunun açılması üzümçülüyün inkişafına güclü təkan verdi. 1887-ci ildə Şimali

Azərbaycanın üzüm bağları 3.300 desyatin ərazini əhatə edirdisə, artıq 1894-cü ildə bu rəqəm 22.3 min desyatinə çatmışdı [228, s. 34].

1897-ci ildə Bakı quberniyasında üzümlüklərin sahəsi Cənubi Qafqazdakı üzüm bağlarının 11,84%-ni, toplanılan məhsulun isə 19,0 faizini [144, 1899, s. 84-85; 82, s. 75] təşkil etdiyi halda, 1913-cü ildə Cənubi Qafqazdakı üzümlüklərin 15%-i, əldə edilən məhsulun 13%-i [144, 1915, s. 336] Bakı quberniyasının payına düşürdü. Statistik məlumatlardan göründüyü kimi, 1897-ci ilə nisbətən 1913-cü ildə Bakı quberniyasında üzüm bağlarının sahəsi artdığı halda, məhsuldarlıq aşağı düşmüşdü. Bakı quberniyasında üzümlüklərin sahəsi və üzümün keyfiyyətinə görə birinci yer Göyçay, ikinci yer Şamaxı qəzasına məxsus idi. Göyçay qəzasında 4838, 6 desyatin sahəni əhatə edən 7277 üzüm bağı, Şamaxı qəzasında isə 1567 desyatin ərazini əhatə edən üzüm bağı var idi [140, s. 93]. 1897-ci ildə Yelizavetpol quberniyasındakı üzüm bağlarının sahəsi Cənubi Qafqazdakı üzüm sahələrinin 12,94%-ni, toplanılan məhsulun 12,85%-ni təşkil etdiyi halda [144, 1899, s. 84-85], 1913-cü ildə Cənubi Qafqazdakı üzümlüklərin 15,3%-i ümumi məhsulun isə 15,2%-i [144, 1915, s. 336-337] Yelizavetpol quberniyasının payına düşürdü. Yelizavetpol quberniyasında üzüm yığımında baş verən artım quberniyanın dəmir yol şəbəkəsi üzərində yerləşməsi ilə bağlı olmuşdu. Prof. T.T.Vəliyevin çoxsaylı statistik məlumatlar və digər arxiv materialları əsasında tərtib etdiyi cədvəl [100, s. 166] XX əsrin əvvəllərində Şimali Azərbaycanda üzümlüklərin sahəsi və üzüm yığımı haqqında əyani təsəvvür yaradır (bax: cədvəl №4).

Cədvəldən göründüyü kimi, 1900-1901-ci illərə nisbətən 1913-cü ildə Zaqatala dairəsi istisna olmaqla, Yelizavetpol və Bakı quberniyaları, habelə Naxçıvan qəzasında üzüm bağlarının sahəsində artım baş vermişdi. Lakin bunu məhsul yığımının miqdarı haqqında bütün bölgələr üzrə demək mümkün deyildir. Belə ki, 1901-ci ilə nisbətən 1913-cü ildə Yelizavetpol

quberniyasında üzüm yığımının həcmi üç dəfə artmışdısa, 1913-cü ildə Bakı quberniyasında üzüm iyığımı nəinki artmamış, hətta 1901-ci il səviyyəsinə enmişdi. Bununla belə 1901-1913-cü illərdə Şimali Azərbaycanda üzüm yığımı 3.210.725 puddan 6.194649 puda qalxmış [100, s. 166], yəni iki dəfəyə qədər çoxalmışdı.

*Cədvəl №4*

Şimali Azərbaycanda üzüm bağlarının sahəsi
və üzüm istehsalının həcmi

| Illər | Yelizavetpol quberniyası | | Bakı quberniyası | | Naxçıvan qəzası | | Zaqatala dairəsi | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Üzüm lük (des) | Üzüm yığımı | Üzüm lük (des) | Üzüm yığımı | Üzüm lük (des) | Üzüm yığımı | Üzüm lük (des) | Üzüm yığımı | Üzüm lük (des) | Üzüm yığımı |
| 1900 | 11692 | 1055200 | 10409 | 3287144 | 831 | 223435 | 786 | 23400 | 23718 | 4592179 |
| 1901 | 11695 | 851400 | 10394 | 2148000 | 813 | 190625 | 781 | 20700 | 23683 | 3210725 |
| 1902 | 11836 | 1870900 | 10816 | 2621000 | 860 | 105550 | 781 | 83900 | 24293 | 4681350 |
| 1903 | 11835 | 1755600 | 10948 | 1922000 | 991 | 258020 | 782 | 45400 | 24556 | 3981020 |
| 1904 | 12010 | 2152229 | 10948 | 1563929 | 993,4 | 226890 | 778 | 47400 | 24729 | 3920448 |
| 1905 | - | - | - | - | - | - | - | - | - | - |
| 1906 | 11281 | 1972000 | 11645 | 1528200 | 997 | 200300 | 778 | 99300 | 24701 | 3535600 |
| 1907 | 11336 | 2399660 | 11660 | 1264000 | 995 | 191733 | 778 | 181700 | 24769 | 4301293 |
| 1908 | 11496 | 2641511 | 11678 | 1981430 | 995 | 179700 | 778 | 176760 | 24947 | 4989401 |
| 1909 | 11639 | 3203987 | 11898 | 1707587 | 994 | - | 778 | - | 25309 | 4911574 |
| 1910 | 11800 | 2741081 | 11782 | 1602113 | 1004 | 181880 | 778 | 167000 | 25364 | 4369723 |
| 1911 | 11812 | 2408460 | 11272 | 1611000 | 1400 | 90773 | 778 | 82470 | 25286 | - |
| 1912 | 12100 | 2891423 | 11700 | 1478300 | 1280 | 537949 | 778 | - | 25858 | 4192703 |
| 1913 | 15247 | 3733000 | 11211 | 1668000 | 1454 | 120000 | 777 | 255700 | 28689 | 6194649 |
| 1914 | 11922 | 2441000 | 11214 | 1247000 | 1676 | - | 777 | 87000 | 25589 | 3895000 |

Üzümçülük və üzüm yığımına görə Azərbaycan Cənubi Qafqazda əhəmiyyətli rol oynayırdı. Şimali Azərbaycanda üzüm bağlarının sahəsi 1901-ci ildə Cənubi Qafqazdakı bütün üzüm bağlarının 30%-ni, əldə edilən üzüm məhsulunun isə 44,8%-ni, 1913-cü ildə isə müvafiq olaraq 33,2 və 27,5%-ni təşkil edirdi [100, s. 166]. 1894-cü ildə Şimali Azərbaycanda 32 min, 1902-ci ildə 39 min, 1914-cü ildə isə 55 min üzüm bağı qeydə alınmışdı. Onu da qeyd etmək lazımdır ki, cədvəldə öz əksini tapmış rəqəmlər üzüm yığımının həcmini heç də tam əks etdirmir. Belə ki, əhalinin özü tərəfindən hər il istehlak olunan üzüm statistikaya daxil edilmirdi. Əldə edilən üzümün 40-50%-nin yeyintiyə getdiyini nəzərə alsaq, onda Şimali Azərbaycanda hər il təxminən 7-8 milyon pud [100, s. 166] üzüm istehsal edildiyini təsəvvür etmək olar.

Şimali Azərbaycanda kənd təsərrüfatının mühüm

sahələrindən birini də ipəkçilik təşkil edirdi. Tarixən Cənubi Qafqazın əsas baramaçılıq mərkəzi sayılan Şimali Azərbaycanda XIX əsrin II yarısı – XX əsrin əvvəllərində ipəkçilik yüksələn xətlə inkişaf edirdi. XIX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində ipəkqurdu xəstəliyinin yayılması [228, s. 30-31; 50, s. 243] ipəkçiliyin inkişafını ləngitsə də, xəstəlik aradan qaldırılandan sonra yüksəliş dövrü başlandı. Rusiyanın toxuculuq fabriklərinin xam ipəyə olan tələbatının artması Şimali Azərbaycanda ipəkçiliyi stimullaşdıran əsas amillərdən biri idi [100, s. 83; 137, s. 45]. Şimali Azərbaycanın ən mühüm ipəkçilik rayonları Yelizavetpol quberniyası, Bakı quberniyasının Lənkəran, Quba, Göyçay qəzaları, Zaqatala dairəsi və Naxçıvan qəzası idi [140, s. 95; 50, s. 243]. XIX əsrin 70-ci illərindən başlayaraq ipəkçiliklə məşğul olan kəndlərin sayının artması nəticəsində tut-çəkil plantasiyalarının sahələri də xeyli genişlənmişdi. 1888-ci ildə Şimali Azərbaycanın 1100-dən çox kəndində ipəkçiliklə məşğul olunurdusa, 1914-cü ildə ipəkçiliklə məşğul olan kəndlərin sayı 2200-dən artıq idi [220, s. 246; 169, s. 265; 97, s. 16]. Təxminən 1,5 mln. nəfər kənd əhalisi barama bəslənməsi ilə məşğul olurdu [220, s. 246; 169, s. 265; 97, s. 16; 228, s. 31]. 1887-ci ildə Şimali Azərbaycanda tut-çəkil plantasiyaları 29 min, 1901-ci ildə 40 min, 1914-cü ildə isə 60 min desyatin ərazini əhatə edirdi [97, s.16; 220, s. 246; 228, s. 31]. Şimali Azərbaycanın ayrı-ayrı qəzalarına aid statistik rəqəmlər baramaçılığın inkişafı haqqında ətraflı təsəvvür yaradır. 1905-ci ildə Cəbrayıl qəzasında 200-ə qədər, Şuşa qəzasında isə təxminən 250 kənddə ipəkçiliklə məşğul olurdular [100, s. 83]. Nuxa qəzasının 18 min, Ərəş qəzasının 7 mindən çox kəndli həyətinin çəkillikləri var idi [100, s. 83]. 1914-cü ildə təkcə Naxçıvan qəzasında 3 minə qədər kəndli təsərrüfatda baramaçılıqla məşğul olunurdu [100, s. 83]. XX əsrin əvvəllərində barama istehsalının həcminə görə Şimali Azərbaycan qəzaları içərisində birinci yeri Nuxa qəzası tuturdu. 1901-ci ildə Nuxa qəzasında 50 min, 1902-ci ildə 72 min, 1907-ci ildə 60 min pud barama əldə edilmişdi [140, s. 96]. Lakin

Nuxa qəzası bu birinciliyi az sonra Ərəş qəzasına güzəştə getməli olmuşdu. Nuxa və Ərəş qəzalarından sonrakı yerləri il ərzində orta hesabla 20-25 min pud barama əldə edən Cəbrayıl və Göyçay qəzaları tuturdu [140, s. 96].

Barama istehsalına görə Şimali Azərbaycan Cənubi Qafqazda birinci yeri tuturdu. Kustar üsulla ipəksarıyanların hər il istifadə etdikləri 30 min pud barama nəzərə alınmasa, 1901-ci ildə Şimali Azərbaycanda 182 min pud, 1907-ci ildə 213 min pud, 1914-cü ildə 231 min pud barama əldə edilmişdi [97, s. 21; 100, s. 83]. T.T. Vəliyevin hesablamalarına görə 1900-1903-cü illərdə Şimali Azərbaycanda orta hesabla hər il 187.879, 1904-1906-cı illərdə 155 min, 1907-1910-cu illərdə 276 min, 1911-1915-ci illərdə isə 207 min pud barama əldə edilmişdi [116, s. 26]. Cənubi Qafqazda becərilən baramanın 81%-dən çoxu Şimali Azərbaycanın payına düşürdü [100, s. 83]. Burada becərilən baramanın çox hissəsi yerli fabriklərdə emal edilir və digər hissəsi isə Rusiyaya ixrac olunurdu. Hər il xaricə göndərilən baramanın dəyəri 5-6 milyon rubla bərabər idi.

Şimali Azərbaycanda inkişaf etməkdə olan kənd təsərrüfatı sahəsi pambıqçılıq idi. Pambıqçılığın sürətli inkişafı onun rentabelli olması ilə yanaşı Şimali Azərbaycanda əlverişli iqlim şəraiti, pambıqçılığın inkişafı üçün vacib olan suvarma şəbəkələri ilə təmin olunan geniş torpaq sahələrinin olması, pambıq əkini sahələrinin dəmiryol xətlərinə yaxın yerləşməsi, eləcə də pambıqçılığın inkişafına kredit buraxılması və kapital axını ilə bağlı olmuşdu [100, s. 85; 228, s. 32]. Azərbaycanın Naxçıvan, Şuşa, Cavanşir, Yelizavetpol, Ərəş, Göyçay, Cavad qəzalarında pambıqçılıq daha geniş yayılmışdı [99, s. 30]. Şimali Azərbaycanda sənaye pambıqçılığı XIX əsrin II yarısından başlasa da onun coşqun inkişafı XX əsrin əvvəllərinə təsadüf etmişdir. 1909-cu ildə xaricdən alınan hər pud mahlıcın gömrük haqqı 4 rubl 50 qəpik [99, s. 30] müəyyən edildikdən sonra, Rusiya istehsal münasibətləriperiyasında, o cümlədən Şimali Azərbaycanda pambıqçılığın inkişafında böyük canlanma baş verdi. Şimali Azərbaycanın ayrı-ayrı bölgələrində pambıq

sahələrinin sürətli artımı bu inkişafı qabarıq şəkildə nümayiş etdirir. XX əsrin başlanğıcında Dəllərdə pambıq əkini sahəsi 50 desyatin sahəni əhatə edirdisə, 1911-ci ildə bu rəqəm 2000 desyatin təşkil etmiş, Şamxorda isə eyni dövr ərzində pambıq əkini sahəsi müvafiq olaraq 50 desyatindən 6000-7000 desyatinə qədər yüksəlmişdi [140, s. 97]. Şimali Azərbaycanda 1900-cu ildə təxminən 17 min desyatin pambıq əkin sahəsindən 984 min pud pambıq yığılmış və ondan da 316 min pud mahlıc alınmışdı [100, s. 85; 228, s. 32].

1890-cı ildə Şimali Azərbaycanda pambıq plantasiyalarının 3 min desyatin ərazini əhatə etdiyini, pambıq yığımı və mahlıc istehsalının isə müvafiq olaraq 180 min pud və 51,5 min pud olduğunu nəzərə alsaq [220, s. 205-214; 137, s. 46-47; 228, s. 32]. XX əsrin başlanğıcında pambıq əkini sahəsi, pambıq yığımı və mahlıc istehsalının təxminən 5-6 dəfə artdığını görmək olar. Artıq 1913-cü ildə Şimali Azərbaycanda pambıq plantasiyaları 105,3 min desyatin sahəni əhatə etmiş, pambıq yığımı və mahlıc istehsalı isə müvafiq olaraq 6,3 mln. pud və 1,8 mln. puda qədər yüksəlmişdi [100, s. 85; 228, s. 32]. 1914-cü ildə Cənubi Qafqazda becərilən bütün pambıq plantasiyalarının 70,2%-i Şimali Azərbaycanda yerləşirdi [100, s. 86]. XX əsrin əvvəllərində Şimali Azərbaycanda pambıqçılıq təsərrüfatının inkişaf tarixini şərti olaraq 1900-1908-ci illər, 1909-1914-cü illər və I dünya müharibəsi dövrü kimi üç mərhələyə bölən prof.T.T.Vəliyev göstərir ki, birinci mərhələdə pambıqçılığın inkişafı orta səviyyədə idisə, ikinci dövrdə bu sahə görünməmiş inkişaf səviyyəsinə çatmış, üçüncü dövrdə isə, təsərrüfatın bütün sahələrində olduğu kimi, pambıqçılıq sahəsində də durğunluq və tənəzzül müşahidə olunmuşdu [100, s. 86]. Bu faktı statistik rəqəmlər də təsdiq edir. Belə ki, 1908-ci ildə Şimali Azərbaycanda pambıq plantasiyalarının sahəsi 22.100 desyatin, 1913-cü ildə 105.300 desyatin olmuşdusa, 1917-ci ildə bu rəqəm 37.027 desyatinə enmişdi [100, s. 85].

Şimali Azərbaycan Cənubi Qafqazın pambıqçılıq təsərrüfatında aparıcı rol oynayırdı. Belə ki, 1909-cu ildə bütün

Cənubi Qafqazda istehsal edilən 816 min pud mahlıcın 350 min pudu, 1912-ci ildə isə istehsal edilən 1.660 min pud mahlıcın 1.071.460 pudu Şimali Azərbaycanın payına düşürdü [140, s. 98]. Şimali Azərbaycanda istehsal edilən mahlıcın böyük bir hissəsi Rusiyaya, bir qisimi isə (hər il orta hesabla 450-460 min pud) Polşaya göndərilirdi [99, s. 36]. Müharibə ərəfəsində Şimali Azərbaycanda hər il orta hesabla 1,5 mln. pud mahlıc istehsal edilirdi [99, s. 37]. Hesablamalara görə Cənubi Qafqazda istehsal edilən pambıq Rusiyanın toxuculuq sənayesinin ehtiyaclarının 15-20%-ni ödəyirdi [99, s. 35]. Şimali Azərbaycanın pambıqçılıq təsərrüfatında istehsal edilən məhsulun ümumi dəyəri 1910-cu ildə 8 milyon, 1912-ci ildə 11-13 milyon, 1914-cü ildə 16-20 milyon rubl təşkil etmişdi [140, s. 99].

Şimali Azərbaycanın kənd təsərrüfatında tütünçülük də müəyyən yer tuturdu. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın Qarabağ, Gəncə, Qazax bölgələrində tütünçülüklə çox məhdud miqyasda məşğul olurdularsa [220, s. 104-108; 219, s. 376; 184, 2 h., s. 237, 382]. onun nisbətən geniş inkişafı XIX əsrin II yarısına təsadüf olunur. Zaqatala dairəsi istisna olmaqla XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda cəmi 5 min puda yaxın tütün istehsal edilmişdisə, 1886-cı ildə Bakı quberniyasında 27 min pud, Yelizavetpol quberniyasında isə 11 min pud tütün istehsal edilmişdi [220, s. 214-219; 219, s. 377]. XIX əsrin 80-ci illərində tütünçülüyün belə sıçrayışlı inkişafı Şimali Azərbaycanın Ümumrusiya bazarına cəlb edilməsi və xaricdən gətirilən tütün üzərinə qoyulan gömrük vergisinin artırılması ilə bağlı idi [228, s. 33]. XIX əsrin 80-ci illərində tütünçülükdə baş vermiş yüksəliş daxili bazarın tələbatını üstələdiyi üçün 90-cı illərdə kəskin şəkildə aşağı düşməyə başladı [219, s. 377]. XIX əsrin 80-ci illərində tütün plantasiyalarının sahəsi 330 desyatin, tütün istehsalı 38 min puddan çox idisə, XIX əsrin 90-cı illərinin ortalarında əkin sahəsi 270 desyatin, tütün istehsalı isə 27 min pud təşkil etmişdi [228, s. 33]. XX əsrin əvvəllərində Şimali Azərbaycanda sənaye

tütünçülüyünün başlanması [99, s. 186] tütün plantasiyalarının və tütün istehsalının yenidən artmasına səbəb oldu. Şimali Azərbaycanda tütün əsasən Zaqatala dairəsində, Nuxa, Cavanşir, Quba, Şamaxı qəzalarında becərilirdi [99, s. 186; 137, s. 47; 140, s. 99]. Şimali Azərbaycanın digər bölgələrində də, xüsusilə Lənkəran, Cavad, Göyçay və başqa qəzalarında da məhdud miqyasda tütün becərilirdi. Cənubi Qafqazda tütün plantasiyalarının sahəsi adətən kiçik olurdu. Sahəsi 40 desyatinə çatan ən böyük plantasiya Zaqatala dairəsində idi [100, s. 186]. Prof.T.T.Vəliyevin araşdırmaları XX əsrin əvvəllərində tütünçülüyün inkişaf dinamikasını izləməyə imkan verir. Müəllifin tədqiqatları göstərir ki, Şimali Azərbaycanda tütün yığımı üzrə rekord göstərici 1911-ci, tütün plantasiyalarının sahəsi üzrə yüksəliş dövrü 1915-ci ildə qeydə alınmışdı. 1911-ci ildə Şimali Azərbaycanda 45.840 pud tütün istehsal edilmiş, 1915-ci ildə tütün plantasiyalarının sahəsi isə 587 desyatinə çatmışdı [100, s. 187; 228, s. 33]. Şimali Azərbaycanda orta hesabla 1897-1903-cü illərdə 24,4 min pud, 1901-1903-cü illərdə 31,6 min pud, 1904-1907-ci illərdə 21,7 min pud, 1908-1910-cu illərdə 30,9 min pud, 1911-1913-cü illərdə 32,7 min pud tütün istehsal edilmişdi [82, s. 165-167; 140, s. 10]. Birinci dünya müharibəsi dövründə tütünə olan tələbatın daha da yüksəlməsi nəticəsində Şimali Azərbaycanda tütün istehsalı nəinki azalmamış, hətta artım baş vermişdi. Belə ki, 1915-ci ildə Şimali Azərbaycanda 45.792 pud tütün istehsal edilmişdi ki, bu səviyyə yalnız 1911-ci ildə qeydə alınmışdı [100, s. 188].

Araşdırılan dövrdə ölkədə kənd təsərrüfatında biyan kökü istehsalı da özünəməxsus yer tuturdu. Şimali Azərbaycanda biyan kökü Kür çayının sahili boyunda – Tovuzdan Cavad qəzasına qədər olan ərazilərdə, Kür-Araz çayları arasındakı ərazilərdə və Arazboyunda çıxarılırdı [100, s. 193]. Biyan kökü çıxarılması mövsümü oktyabr ayından aprel ayına qədər davam edirdi. Biyan kökündən hazırlanan cövhər-lakritsa texniki və müalicə məqsədləri üçün istifadə olunurdu [219, s. 366; 50, s. 241]. Biyan kökü təkcə Yelizavetpol quberniyasında deyil, Bakı

quberniyasının Göyçay, Şamaxı, Cavad və az miqdarda Quba qəzalarında çıxarılırdı. XIX əsrin 80-ci illərinin II yarısında Şimali Azərbaycanda biyan kökü çıxarılması xeyli inkişaf etdi. 1889-cu ildə təkcə Yelizavetpol quberniyasında 1 mln. pud, 1890-cı ildə isə 2.260.500 pud biyan kökü çıxarılmışdı [50, s. 242]. 1893-cü ildən etibarən Kiçik Asiya və Suriyada zəngin biyan kökü sahələrinin aşkara çıxarılması və biyan kökünün Cənubi Qafqaz dəmir yolu ilə daşınmasının baha başa gəlməsi nəticəsində Şimali Azərbaycanda biyan kökü çıxarılması tədricən zəiflədi [219, s. 372; 50, s. 242].

Prof.T.T.Vəliyevin araşdırmaları göstərir ki, XX əsrin əvvəllərində Şimali Azərbaycanda biyan kökü çıxarılması yenidən yüksəlməyə başlamışdı [ətraflı məlumat üçün bax: 100, s. 191-196]. Bu dövrdə Şimali Azərbaycanda ildə orta hesabla 4,5 mln. pud biyan kökü çıxarılırdı [100, s. 193]. Şimali Azərbaycanda çıxarılan biyan kökü yerli fabriklərdə ilkin emal edildikdən sonra cövhər əsasən Ingiltərə və ABŞ-a ixrac edilirdi [126, s. 347; 219, s. 367; 100, s. 195].

Tədqiq olunan dövrdə Şimali Azərbaycanın kənd təssərüfatında zəfəran istehsalı çox cüzi yer tuturdu. Zəfəran yetişdirilməsi ilə əsasən Abşeronda məşğul olurdular. XIX əsrin 80-ci illərinin ortalarında Şimali Azərbaycanda hər il təxminən 200 pud zəfəran əldə edilirdi [50, s. 241]. Yığılan zəfəranın əsas hissəsi Iran və Türkiyəyə ixrac olunurdu [50, s. 241].

XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycanda kənd təsərrüfatının inkişaf tarixinin qısa icmalı göstərir ki, əvvəllərdə olduğu kimi, bu dövrdə də əkinçilik və maldarlıq kənd təsərrüfatının aparıcı sahələri olaraq qalırdı. Lakin təsərrüfatın bu sahələrində əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdi. Belə ki, əkinçilik, xüsusilə də maldarlıq təsərrüfatları daha sürətlə əmtəə xarakteri almağa başlamışdı. Şimali Azərbaycanın kənd təsərrüfatının üzümçülük, ipəkçilik, pambıqçılıq və tütünçülük kimi sahələrində kapitalist münasibətlərinin inkişafı özünü daha qabarıq göstərir və qeyd olunan təsərrüfatlar sürətlə sənaye xarakteri kəsb edirdilər.

## 1.2. Sənayenin ümumi vəziyyəti haqqında.

Sənaye Şimali Azərbaycan iqtisadiyyatının ən mühüm sahələrindən biri idi. Sənayenin inikşaf tarixi XIX əsrin I yarısından başlasa da (ev sənayesi, sənətkarlıq, xırda əmtəə istehsalı [219, s. 12] və manufaktura mərhələsi) [219, s. 15], sənayedə kapitalist münasibətlərinin inkişafı, xüsusilə də manufaktura mərhələsindən fabrik sənayesinə keçid XIX əsrin II yarısında baş vermişdir [219, s. 18]. Onu da qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda sənaye kapitalizmi, uzun illər tarixi ədəbiyyatda özünə yer tapdığı kimi, yalnız Bakı neft rayonunda deyil, Şimali Azərbaycanın digər qəzalarında da yüksək inkişaf səviyyəsinə çatmışdı [98]. Tədqiq olunan dövrdə Şimali Azərbaycan sənayesi çar Rusiyasının iqtisadi sahədə müstəmləkəçilik siyasətinə rəğmən birtərəfli xarakter daşımırdı. Belə ki, bu dövrdə Şimali Azərbaycan sənayesinin aparıcı sahəsini təşkil edən neft istehsalı, neft emalı və onunla bağlı olan sənaye sahələri ilə yanaşı filiz istehsalı, kimya, elektrik enerjisi, mexaniki istehsal, yüngül və yeyinti sənayesinin müxtəlif sahələri yüksək inkişaf yoluna qədəm qoymuşdu.

Şimali Azərbaycan sənayesinin hər bir sahəsinin tarixi tarixşünaslıqda müəyyən dərəcədə öyrənilmişdir. XIX –XX əsrin əvvəllərində Şimali Azərbaycan sənayesinin inkişaf tarixinə həm çar Rusiyası dövründə [206; 216; 126; 218; 196; 158; 161; 233; 232; 148; 160; 201; 162; 225 və b.], həm sovet [236; 109; 151; 217; 156; 115; 192; 159; 223; 172; 231; 113; 155; 234; 124; 123; 171 və s.], həm də vətən [110; 219; 221; 222; 220; 140; 237; 224; 227; 97; 100 və başqa əsərləri; 107; 134; 83 və b.] tarixşünaslığında çoxlu sayda tədqiqat əsərlərinin həsr edildiyini nəzərə alsaq, buna heç bir ehtiyacın qalmadığına da əmin olarıq. Bununla belə, tədqiq olunan dövrdə Şimali Azərbaycanda mövcud olmuş vergi sisteminin araşdırılması ilə əlaqədar olaraq kənd təsərrüfatı bölümündə olduğu kimi, Şimali

Azərbaycan sənayesinin inkişaf tarixinə, sənayenin ayrı-ayrı sahələrinin əsas göstəricilərinə qısa nəzər salmağı lazım bilirik.

Şimali Azərbaycan sənayesində aparıcı rol Bakı sənaye rayonuna məxsus idi. Bu dövrdə Bakı sənaye rayonunda neft istehsalı və neft emalı sənayesi sənayenin əsasını təşkil etsə də, sənayenin digər sahələri də, xüsusilə kimya, mexaniki istehsal, tikinti, elektrik enerjisi, yeyinti və yüngül sənayenin ayrı-ayrı sahələri də sürətli inkişaf yoluna qədəm qoymuşdu. Bakı sənaye rayonu həm sənayenin inkişaf dinamikası və səviyyəsinə görə, həm də ümumi daxili məhsul istehsalındakı payına görə Şimali Azərbaycanın qəzalarına nisbətən öndə gedirdi. Bütün bunları nəzərə alaraq, ilk növbədə Bakı sənaye rayonunda sənayenin ayrı-ayrı sahələrinin inkişaf tarixini və əsas statistik göstəriciləri təhlil etməyi məqsədə müvafiq hesab edirik. Neft sənayesi təkcə Şimali Azərbaycanın deyil, həmçinin Rusiya imperiyasının iqtisadiyyatında mühüm mövqelərdən birini tuturdu. Abşeron yarımadasında neft çıxarılması çoxəsrlik tarixə malik olsa da neft sənayesində kapitalsit münasibətlərinin sürətli inkişafı məhz XIX əsrin II yarısına təsadüf edir. Şimali Azərbaycan və xüsusilə də Bakı xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra 1817-ci ilə qədər neft mədənləri xəzinənin ixtiyarına keçmiş [219, s. 274], 1817-1825-ci illər arasında iltizam sisteminə verilmiş [37, v. 716-223; 219, s. 274], 1826-cı ildə yenidən qısa müddətə xəzinənin ixtiyarına qayıtsa da [103, IX c., sən. 548], 1826-1834-cü illərdə yeni iltizamçıya verilmişdi [219, s. 275]. 1834-1850-ci illər arasında yenidən xəzinənin idrəsinə qaytarılan neft mədənləri [103, IX c., sən. 548] 1850-ci ildən iltizam sisteminin tamamilə ləğv edilməsinə qədər – 1872-ci ilin əvvəlinə qədər ayrı-ayrı şəxslərə, 1863-cü ilə qədər Kukucanov, Batanosov, Ter.Qukasova, sonra onun kompanyonuna [219, s. 275] və nəhayət, 1863-cü ildən etibarən I.Mirzoyevə iltizama verilmişdi [216, s. 26; 219, s. 275].

Hökumətin səriştəsizlik və bacarıqsızlığı nəticəsində [216, s. 26; 206, s. 229] zəngin neft mədənlərinin qısa müddətli iltizama verməsi uzun müddət neft sənayesinin inkişafı

qarşısında əsas əngələ çevrilmişdi. Belə ki, iltizamın qısa müddətli olması nəticəsində istehsala böyük kapital qoymağa, yeni üsul və texnologiyanın tətbiqində maraqlı olmayan iltizamçı primitiv üsullarla iltizam müddəti ərzində öz xərclərini çıxarmağa və qazanmağa çalışırdı. Məhz bunun nəticəsidir ki, XIX əsrin 60-cı illərinin əvvəllərinə qədər, xüsusilə də 1872-ci ildə iltizam sisteminin ləğvinə qədər neft istehsalı sahəsində əsaslı dönüş baş verməmişdi. Bu fikri neft hasilatı haqqında statistik rəqəmlər də təsdiq edir. Belə ki, hesablamalara əsasən 1850-ci ildə Şimali Azərbaycanda 260 min pud, 1855-ci ildə 217.47 pud, 1857-ci ildə 220 min pud, 1860-cı ildə 247.8 min pud neft hasil edilmişdi [193, s. 28]. XIX əsrin 30-40-cı illəri ilə müqayisədə neft hasilatında nəinki heç bir irəliləyiş baş verməmiş, əksinə, tənəzzül müşahidə olunmuşdu [219, s. 282]. 1862-ci ildən etibarən neft sənayesində dirçəliş baş vermiş və həmin il 337 min pud neft hasil olunmuşdu [219, s. 283]. Sonrakı illərdə də neft hasilatında yüksəliş müşahidə olunmuş, 1863-cü ildə 400 min pud, 1864-1866-cı illərdə hər il orta hesabla 535-6 min pud arasında, 1867-cı ildə 1 mln. pud, 1868-ci ildə 736 min pud, 1869-1872-ci illərdə isə 1.375 min – 1.705 min pud arasında neft hasil edilmişdi [196, s. 15; 219, s. 283]. Bu dövrdə neft sənayesində yüksəlişin baş verməsinə 1864-cü ildə Balaxanı kəndlilərinin məcburi əməyinin ləğv edilməsi [81, s. 81; 50, s. 163] və mədənlərdə muzdlu əməyin tətbiqi, xüsusən də Rusiya imperiyasında təhkimçiliyin ləğvindən sonra sürətli inkişafa başlayan Rusiya sənayesinin yanacağa olan kəskin şəkildə artımı mühüm təsir göstərmişdi.

XIX əsrin 60-cı illərində neft hasilatında baş vermiş müəyyən artıma baxmayaraq iltizam sisteminin inkişaf qarşısında başlıca maneə olması artıq aydın idi. Böyük rus alimi D.I.Mendeleyevin iltizam sisteminə qarşı çıxışı onun ləğv edilməsinə böyük təsir göstərmişdi [165, s. 63]. 1872-ci il fevralın 1-də «Neft istehsalı və fotogen istehsalından aksiz haqqında qaydalar», 1872-ci il fevralın 17-də isə «Qafqaz və Cənubi Qafqazın iltizamlarda olan xəzinə neft mənbələrinin

müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında qaydalar» çar tərəfindən təsdiq edildi [36, v. 3-15; 81, s. 88; 83]. Bu qaydalara görə, iltizam sistemi ləğv edilir və xəzinənin iltizamda olan neft mənbələri müzayiqələr (hərrac) yolu ilə xüsusi şəxslərə verilirdi. Iltizam sisteminin ləğvi bütün neft sənayesində qəti dönüşə səbəb oldu və neft bütünlüklə kapitalist istehsalı yoluna düşdü. Iltizam sistemi ləğv edildikdən bir il sonra neft hasilatı 2,5 dəfədən də çox artdı. Əgər 1872-ci ildə 1,4 mln. pud istehsal edilmişdisə, 1873-cü ildə bu rəqəm 3,9 mln. puda qədər yüksəlmişdi [192, s. 89; 219, s. 283; 81, s. 95]. Sonrakı dövrlərdə Bakıda neft hasilatı elə sürətlə artmağa başladı ki, hətta o dövrdə sürətlə inkişaf edən Amerika neft sənayesi belə onunla rəqabətə davam gətirmədi [81, s. 25]. 1870-ci ildə Bakı neft sənayesi Amerika neft sənayesindən 70 dəfə, 1872-ci ildə 40 dəfə az neft verdiyi halda, 1894-ci ildə Bakıda neft hasilatı 340 mln. puda çataraq Amerika neft sənayesinin istehsal səviyyəsi ilə bərabərləşdi [81, s. 95; 50, s. 203], sonrakı illərdə isə onu ötüb keçdi.

Iltizam sisteminin ləğvindən sonra neftin istehsal texnikasında da mühüm dəyişikliklər baş verdi. Quyuların özülləri zərbəştanq metodu ilə qoyulmağa başladı ki, nəticədə qazma yolu ilə ilk dəfə torpağın zəngin qatlarına çatmaq mümkün oldu [50, s. 203-204]. «Xələfi» neft quyusunda baş vermiş güclü fontandan sonra neft buruqlarının sayı sürətlə artmağa başladı [81, s. 96]. Güclü fontanlardan sonra neftin qiyməti kəskin şəkildə aşağı düşsə də neft sənayeçilərinin sayı durmadan artmaqda idi. 1873-cü ildə Bakı mədənlərində 12 şirkət fəaliyyət göstərirdisə, XIX əsrin 80-ci illərinin əvvəllərində onların sayı artıq 79-a çatmışdı [81, s. 97]. 1873-cü ildə mədənlərdən neft çıxarılmasında ilk buxar mühərrikləri tətbiq edildi. Qazma işlərində də buxar mühərriklərinin tətbiqi neft sənayesinin inkişafına çox böyük təsir göstərdi [192, s. 46]. Neft istehsalında texniki yeniliklərdən biri də 1878-ci ildə neft mədənlərini neftayırma zavodları ilə birləşdirən buxar nasoslu ilk neft kəmərinin çəkilişi oldu [145, s. 274-278; 81, s. 98-99].

1879-cu ildə «Nobel qardaşları» şirkətinin mədənlər arasında neft və sərnişin daşınması üçün dəmir yolu çəkməsi mühüm texniki yeniliklərdən idi [81, s. 99]. Neftin saxlanılması üçün hazırlanan kiçik həcmli taxta çənlər iri həcmli torpaq anbarlar, sonralar isə daha keyfiyyətli metal rezervuarlarla əvəz edildi. Neft hasilatının artması neft sənayesi üçün lazım olan başqa sahələrin-mexaniki müəssisələr və kimya zavodlarının meydana çıxmasına səbəb oldu. Qısa müddət ərzində Bakı ətrafında yaranan zavodlar şəhərciyində müəssisələrin sayı 195-ə çatdı [35, v. 1, 120-123].

1872-ci ilə qədər neft sənayesinin inkişafına mane olan səbəblərdən biri də kapitalın çatışmazlığı idi. Yerli kapitalın azlığı, rus kapitalistlərinin isə neft sənayesinə sərmayə qoymağa cəsarət etməməsi nəticəsində neft sənayesi sürətli inkişaf yoluna çıxa bilmirdi [81, s. 97-98]. Iltizam sisteminin ləğv edilməsi Şimali Azərbaycanın neft sənayesinə kapital axınının başlanması üçün əlverişli şərait yaratdı. Ilk dövrdə əsas sərmayəçilər ruslar idisə, 70-ci illərin ortalarından başlayaraq qərb sərmayəçilərinin nəzər-diqqəti Bakı neft sənayesinə yönəlməyə başladı. 1875-ci ildə Nobel qardaşları kiçik ağ neft zavodu alaraq neft sənayesində fəaliyyətə başladılar [86, s. 46-47]. 1879-cü ildə Nobel qardaşları, isveçli Şerken və Nellis, rus təbəəsi P. Bilderlinq və M.Belyamin tərəfindən «Nobel qardaşları» şirkəti yaradıldı [34, v. 11]. XIX əsrin 70-ci illərinin sonunda avstraliyalı Y.Doçar, 80-ci illərin I yarısında alman kapitalistləri O.Lens, K.Veyzer, O.Kvel və b. Şimali Azərbaycanın neft sənayesinə kapital qoydular [86, s. 47]. XIX əsrin 80-ci ilərinin ortalarında Paris bankiri Rotşildin «Xəzər-Qara dəniz cəmiyyəti»nin nəzarət-səhm paketini alması ilə neft sənayesinə qərb kapitalının axını daha da sürətləndi [86, s. 47; 50, s. 208]. Ingilis kapitalının Bakı neft sənayesinə nüfuz etməsi XIX əsrin 90-cı illərinin II yarısına təsadüf edir. Ingilis kapital axınının güclənməsi çarizmin maliyyə və xarici siyasəti ilə yanaşı, yerli işçi qüvvəsinin ucuzluğu ilə də izah edilirdi. 1897-ci ildə Bakının ən iri şirkətlərindən olan «H.Z.Tağıyev» firması

ingilislərə satıldı və onun nəzarət səhm paketləri əsasında «Oleum» səhmdar cəmiyyəti təsis edildi [208, s. 67-68].

Iltizam sisteminin ləğvindən sonra Rusiya bazarlarında xaricdən, o cümlədən Amerikadan gətirilən neftin ağalığına son qoyuldu. Belə ki, 1872-ci ildə Rusiyaya Amerika neft ixracı 80%, Bakı ixracatı isə 20% təşkil edirdisə, artıq 1883-cü ildə Rusiyada satılmış 12,5 mln. pud neftin hamısı Bakıdan gətirilmişdi [83, s. 108-109]. Beləliklə, 1883-cü ildə Amerika nefti Rusiya bazarlarından demək olar ki, sıxışdırıldı. Yalnız Rusiya bazarlarını öz nəzarətinə almaqla kifayətlənməyən Bakı nefti dünya bazarları uğrunda rəqabətə qoşularaq, Ingiltərəyə, Avstriya-Macarıstana, Hollandiyaya, Hindistana, 1887-ci ildə Çinə, 1888-ci ildə Yaponiyaya, 1889-cu ildə Yava adasına, Siam və Filippinə ixrac edilməyə başladı [83, s. 109].

XIX əsrin 80-ci illərinin əvvəllərində Avropada baş vermiş iqtisadi böhranın təsiri nəticəsində Bakı neft sənayesində yaranan ağır vəziyyət 80-ci illərin ikinci yarısında canlanma və yeni yüksəlişlə əvəz olundu. Xalq təsərrüfatının müxtəlif sahələrində neftin tətbiqinin genişlənməsi neft istehsalının sürətli inkişafına səbəb oldu [110, s. 8]. Bu dövrdə çarizmin neft siyasətində də yeni kurs müşahidə olunmağa başladı. 1882-ci ildə Balaxanı və Digah kəndlərindəki 1.420 desyatin kəndli torpaqları dövlət xəzinəsinin xeyrinə müsadirə edildi [110, s. 216]. 1890-cı il 9 fevral qanunu ilə kəndlilərin 4.967,5 desyatin torpaq sahəsi əvəzi ödənilmədən zorla onların əllərindən alındı [110, s. 216; 81, s. 103]. 1892-ci il iyulun 3-də təsdiq edilən neft mədənləri haqqında qanuna əsasən Abşerondakı neftli torpaqlar xüsusi şəxslərin istifadəsi üçün bağlı elan edildi [86, s. 52]. Lakin hökumətin yaratdığı bu əngəllər də neft sənayesinin inkişafının qarşısını ala bilmədi. XIX əsrin 90-cı illərinin əvvəllərində Rusiya sənayesinin böhran keçirməsi 1892-1893-cü illərdə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə səbəb olsa da, 1899-cu ildə neftin qiymətinin yenidən qalxması neft hasilatının artmasına təkan verdi. XIX əsrin 80-ci illərinin ortalarından başlayaraq neft sənayesinin təmərküzləşməsi və

inhisarlaşması prosesi 90-cı illərin əvvəllərində daha da gücləndi [166, s. 678]. Şimali Azərbaycanın neft sənayesində «Nobel qardaşları», «Mantaşev və $K^0$», «Bakı neft cəmiyyəti», «Xəzər» şirkəti, «Xəzər-Qara dəniz cəmiyyəti», «Oleum», «S.M.Şibayev və $K^0$» və s. bu kimi neft maqnatları fəaliyyət göstərirdi [166, s. 678]. Bakı neft istehsalına görə 1898-ci ildə ABŞ-ı ötərək dünyada birinci yerə çıxdı [146, s. 40]. Şimali Azərbaycan 1901-ci ildə dünyada hasil edilən neftin yarıdan çoxunu (671,9 mln.pud) və Rusiyada istehsal olunan neftin 95 faizini verirdi [140, s. 9; 51, s. 24].

1900-1903-cü illərdə dünya ölkələrinin iqtisadiyyatını bürümüş iqtisadi böhran tezliklə 1902-ci ildən neft sənayesinin də bütün sahələrini bürüdü. Qazma işləri, neft hasilatı və emalı, kəşfiyyat işləri ixtisar edildi, fəaliyyət göstərən qüyuların yarıdan çoxu öz işini dayandırdı [180, I h., s.76]. Böhran nəticəsində neft hasilatı 1901-ci ildə qeydə alınmış 671,3 mln. puddan 1903-cü ildə 596,6 mln. puda endi [140, s. 7-9]. Lakin böhrandan sonrakı dövrdə də Şimali Azərbaycanın neft sənaye-sində yüksəliş baş vermədi. 1904-cü ildə neft hasilatı 615 mln. puda çatsa da, 1905-ci ildə bu rəqəm 409,6 mln. puda endi [2, v. 18-22] və birinci dünya müharibəsinə qədər 500 mln. pud səviyyəsinə yüksəlmədi. Müharibə illərində isə Şimali Azərbaycanda neft hasilatı da aşağı düşdü. Çarizmin böhranın qarşısını almaq üçün həyata keçirdiyi bəzi tədbirlər də, neftverən torpaqlardan alınan icarə haqqının 30% azaldılması, bəzi sahibkarlara kreditlərin buraxılması və s. istənilən nəticəni vermədi [157, s. 362-364]. Şimali Azərbaycan 1890-cı ildə ümumdünya neft istehsalının 38%, 1901-ci ildə 51,6%-ni verdiyi halda, 1913-cü ildə bu rəqəm 18,1%-ə enmişdi [167, s. 19; 140, s. 7]. Beləliklə, Bakı sənayesi 1901-ci ildə öz inkişafının zirvəsinə çataraq dünyada birinci yerə çıxsa da, böhrandan sonrakı dövrdə öz mövqeyini itirərək ənənəvi rəqibi Amerikadan daha çox geri qalmağa başladı.

XX əsrin əvvəllərində neft sənayesinin təmərküzləşməsi və iri inhisar birliklərinin yaranması prosesi sürətləndi. 1900-cu

ildə Nobel və Rotşild tərəfindən yaradılmış «Nobmazut» inhisar birliyinə qarşı 1901-ci ildə «A.I. Mantaşev və $K^0$» və «Kaspi şirkəti», «Tokaken» inhisar birliyini yaratdılar [51, s. 27; 166, s. 695]. 1912-ci ildə Şimali Azərbaycanda istehsal edilmiş 473, 7 mln. pud neftin 260, 8 mln. pudunu 90 iri şirkət çıxarmışdı [140, s. 8]. Bununla yanaşı, Beynəlxalq Rusiya-Asiya, Azov-Don banklarının timsalında bank kapitalinın sənaye kapitalına qovuşması prosesi də sürətlənirdi. 1900-1903-cü illərin dünya iqtisadi böhranından sonra neft istehsalının getdikcə aşağı düşməsinə baxmayaraq, neft və neft məhsullarının qiymətinin qalxması nəticəsində iri şirkətlər külli miqdarda gəlir əldə etmişdilər. Bunu statistik rəqəmlər bir daha təsdiq edir. 1901-ci ildə Şimali Azərbaycanda hasil edilmiş 671,3 mln. pud neft 53. 704 min rubl dəyərində olmuşdusa, 1913-cü ildə hasil edilmiş 446,1 mln. pud neft 208.700.300 rubla satılmışdı [140, s. 9]. Göründüyü kimi, 1913-cü ildə neft hasilatı 1901-ci ilə nisbətən 225,2 mln. pud aşağı düşsə də, neftdən gələn gəlir 154.996.300 rubl çox olmuşdu. Bakı neft sənayesi tarixinə qısa ekskursdan aydın olur ki, neft istehsalının xüsusi çəkisi Şimali Azərbaycanın iqtisadi həyatında çox mühüm rol oynayırdı.

Şimali Azərbaycanda neft hasilatı sənayesi ilə bərabər tədqiq olunan dövrdə neft emalı sənayesi də yüksək inikşaf səviyyəsinə çatmışdı. Şimali Azərbaycanda neft emalının tarixi daha əvvəlki dövrlərə gedib çıxsa da [206, s. 316; 219, s. 283] onun sürətli inkişafı XIX əsrin II yarısına təsadüf edir. 1836-1837-ci illərdə Voskoboynikovun Şimali Azərbaycanda Suraxanı ağ neftindən kerosin istehsal etmək cəhdi uğursuz olmuşdu [206, s. 324; 219, s. 284]. 1857-ci ildə Peterburqda Kokorev və Qubonin tərəfindən yaradılmış «Zakaspiyskoe torqovoye tovarişestvo» şirkəti 1958-ci ildə Suraxanıda neft emalı zavodu tikməyə başladı [216, s. 36-37]. 1860-cı ildə fəaliyyətə başlayan bu zavod artıq həmin il Tiflisə [219, s. 285], 1862-ci ildə isə, yəni Rusiyaya Amerika kerosininin gətirilməsindən bir il əvvəl Rusiyaya kerosin göndərmişdi. 1865-ci ildə fotogen istehsalı ilə Mirzoyev, 1863-cü ildə kerosin

istehsalı ilə Cavad Məlikov, 1868-ci ildə Vitte və K$^0$ məşğul olmağa başladılar [219, s. 286]. 1869-cu ildə neft emalı zavodlarının sayı 26, 1870-ci ildə 47, 1893-cü ildə isə 69-a çatmışdı [219, s. 287-289]. Qeyd etmək lazımdır ki, 1872-ci ildə 1 fevral qanunu ilə neft məhsulları üzərində aksiz vergisinin* qoyulması neft emalı sənayesinin inkişafına mənfi təsir göstərdiyi üçün, 1877-ci il sentyabrın 1-də aksiz vergisi ləğv edildi [83, s. 105]. Bu addım neft emalı məhsullarının inkişafına müsbət təsir göstərdi. Belə ki, XIX əsrin 80-ci illərində neft emalı zavodlarının məhsullarının [172, s. 9] həcmi 70-ci illərdəki 8 mln. rubldan 68 mln. rubla çatdı. Bununla əlaqədar olaraq bu dövrdə Şimali Azərbaycanda neft emalı zavodlarının sayı durmadan artmaqda idi. 1900 – cu ildə Bakıda 80, 1904-cü ildə 87 neft emalı zavodu fəaliyyət göstərirdi [140, s. 9]. 1900-1903-cü illərin iqtisadi böhranı sürtgü yağları istehsalı istisna olmaqla neft emalı sənayesinin bütün digər sahələrinə çox ağır təsir göstərmişdi. 1905-1907-ci illərdə Bakıda əvvəllər fəaliyyət göstərmiş neft emalı zavodlarından yalnız 33-ü işləyirdi [50a, s. 692]. Ona görə də böhran illərində və sonrakı dövrlərdə də neft emalı məhsullarının həcmi durmadan aşağı düşməkdə idi. Belə ki, kerosin istehsalı 1900-cu ildə 178.275 min pud təşkil etmişdisə, 1910-cu ildə bu rəqəm 83.184 min 1914-cü ildə isə 73.423 min puda enmişdi. Neft qalıqlarının istehsalı isə 1900-cu ildə 287.342 min puddan 1910-cu ildə 169.870 min, 1914-cü ildə 133.300 min puda enmişdi. Onu da qeyd etmək lazımdır ki, neft emalı zavodlarının sayının azalması səbəblərindən biri neft emalı sənayesində istehsalın təmərküzləşməsi və inhisarların yaranması ilə bağlı idi. 1900-cu ildə 53 zavoddan 6 ən irisinin istehsal edilən ağ neftin 44%-ni, təkcə «Nobel qardaşları» şirkətinin isə 22%-dən çoxunu verməsi istehsalın yüksək təmərküzləşməsi səviyyəsindən xəbər verirdi [52, s. 29; 206a, s. 28]. 1913-cü ildə istehsal gücü 5-10 mln. pud olan neft emalı

* Aksiz vergisi haqqında dissertasiyanın müvafiq bölümündə ətraflı məlumat verilǝcəkdir.

zavodları neft emalı sənayesi istehsalının 64,8%-ni vermişdi. Neft emalı sənayesinin Şimali Azərbaycanın iqtisadi həyatında xüsusi çəkisi böyük idi. Neft emalı sənayesinin illik ümumi daxili məhsulu orta hesabla 60-100 mln. rubla bərabər idi [140, s. 10].

Şimali Azərbaycanın iqtisadi həyatında kimya sənayesi də özünəməxsus rol oynayırdı. Bakıda ilk kimya zavodu 1879-cu ildə S.M.Şibayev tərəfindən tikilmiş, 1883-cü ildə «Nobel qardaşları» şirkətinin, 1885-ci ildə Skvortsovun, 1889-cu ildə Tumayev və Adamovun kimya zavodları təsis edilmişdi [222, s. 36]. Tarixşünaslıqla yaxından tanışlıq göstərir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Bakıda 15-18 kimya zavodu [140, s. 11, c. 2] fəaliyyət göstərirdi ki, onlardan 8-i kükürd turşusu [100, s. 15], digərləri isə natrium, surroqat, soda, təkər yağı və s. istehsal edirdilər. Bakının kimya zavodları il ərzində orta hesabla 1,5 mln. rublluq məhsul istehsal edirdilər [140, s. 10-11]. Nobel qardaşları şirkətinə məxsus Qara şəhərdəki kükürd turşusu, Şifrinin kükürd turşusu və qudron, Şibayevin ağ və qara turşu istehsalı zavodları ən iri müəssisələr idi [140, s. 11]. Neft emalı üçün vacib olan kükürd turşusu almaqdan ötrü xammal-kükürd kolçedanı Rusiyaya xaricdən, əsasən Almaniyadan gətirilirdi [100, s. 16]. 1893-cü ildə «Nobel qardaşları» şirkəti ilə «Simens qardaşları və $K^0$» arasında bağlanmış sazişə əsasən Gədəbəy zavodlarında tərkibində kükürd kolçedanı çoxluq təşkil edən mis filizi Nobel qardaşları şirkətinin kimya zavodlarına satılırdı [100, s. 16]. 1901-ci ildən Çaykənd yatağından çıxarılan kükürd kolçedanı da «Nobel qardaşları» şirkətinə satılırdı [100, s. 17].

Neft sənayesinin inkişafı mexaniki istehsal sahələrinin yaranmasına, çuqun buxar qazanları, dəmir borular, çənlər, qazma dəzgahları istehsal etmək tələbatın artmasına səbəb oldu. Bakı sənayesində mexaniki istehsalın mühüm sahələrindən biri maşınqayırma sənayesi idi. Maşınqayırma sənayesi neft emalı zavodları üçün lazım olan materiallar istehsal etməklə yanaşı, Şimali Azərbaycan qəzalarında toxuculuq, pambıqtəmizləmə,

tütün, düyütəmizləmə sənayesinin tələbatını da ödəyirdi. Ilk mexaniki istehsal müəssisələrindən biri 1866-cı ildə «Qafqaz və Merkuri» səhmdar cəmiyyətinin emalatxanası əsasında yaradılmış, ikinci zavod isə 1875-ci ildə tikilmişdi [221, s. 47]. XX əsrin əvvəllərində Bakının maşınqayırma sənayesində 12-13 müəssisə fəaliyyət göstərirdi və onların orta hesabla illik istehsal gücü 2 mln. rubla bərabər idi [139, s. 28]. Tədqiq edilən dövrdə Bakının ən iri maşınqayırma zavodları içərisində «Bakı maşınqayırma və ticarət cəmiyyəti», Xəzər maşınqayırma və qazan zavodu, «Benkendorf və $K^0$» ticarət evinə məxsus zavod, «Eyzenşmidt və $K^0$» və Malinkova məxsus zavodlar xüsusilə seçilirdi [140, s. 12].

Bakının mexaniki istehsal sənayesinin mühüm sahələrindən birini podrat üsulu ilə buruqqazma təşkil edirdi. Bakıda buruq işi ilə məşğul olan 55 mexaniki zavod [51, s. 36] fəaliyyət göstərirdi ki, onların içərisində 6-7-si ən iri zavodlar [140, s. 14] hesab edilirdi. Şimali Azərbaycanlı sahibkar Muxtarov tərəfindən 1891-ci ildə Suraxanı və Bibiheybətdə əsası qoyulan buruq zavodları, «Mokat» şirkətinə məxsus Balaxanı və Bibiheybətdəki zavodlar aparıcı mövqeyə malik idilər [47, v. 27-29; 51, s. 35; 122, s. 14]. Mütəxəssislərin hesablamalarına əsasən podrat üsulu ilə buruq qazma zavodlarının illik istehsal gücü təqribən 6 mln. rubla [140, s. 14] bərabər idi.

Bakının ən iri liman şəhərlərindən birinə çevrilməsi ilə əlaqədar olaraq gəmi təmiri işi sənayenin mühüm sahələrindən birinə çevrilməyə başlamışdı. Bakıda gəmi təmiri ilə xüsusi dok, ellinq və mexaniki emalatxanalar məşğul olurdu. XX əsrin əvvəllərində Bakıda gəmi təmiri ilə məşğul olan 10-12 müəssisə fəaliyyət göstərirdi ki, onların illik istehsal gücü 1,5 mln. – 2,8 mln. rubla bərabər idi [140, s. 15-16; 121, s. 48]. Bakıda fəaliyyət göstərən iri ellinqlərdən birinin əsası 1858-ci ildə qoyulmuş və «Qafqaz və Merkuri» cəmiyyətinə [140, s. 15], o biri isə «Nobel qardaşları» şirkətinə məxsus olan və 1881-ci ildən [140, s. 15] fəaliyyətə başlayan ellinqlər idi. 1889-cu ildən

fəaliyyətə başlayan, «Bakinskiy dok» şirkətinə [51, s. 36] və 1899-cu ildə işə düşən A. Dadaşevə məxsus tərsanələr [51, s. 36] də iri gəmi təmiri müəssisələri hesab edilirdi.

Bakının sənaye həyatında metaləritmə zavodları da müəyyən rol oynayırdı. XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən 50-yə qədər zavod və emalatxanalarda 800 min – 1 mln. rublluq məhsul istehsal edilirdi [140, s. 17; 139].

Neft sənayesində, xüsusilə buruqqazma işlərində, o cümlədən sənayenin digər sahələrində də polad kanatlara ehtiyacla əlaqədar olaraq tədqiq edilən dövrdə Bakıda kanat istehsalı ilə məşğul olan müəssisələr yaranmışdı. XX əsrin əvvəllərində sayı 3-6 arasında olan belə müəssisələr içərisində [140, s. 18] əsası 1898-ci ildə qoyulmuş, M.Q.Əlibəyova məxsus olan zavod və 1898-ci ildən işə düşən «Kimyəvi və mexaniki istehsal cəmiyyəti» daha böyük idi [140, s. 18]. Kanat zavodlarının illik istehsal gücü orta hesabla 1-1,5 mln. rubla bərabər idi [140, s. 19].

XIX əsrin sonundan etibarən Bakı sənayesində buxardan istifadənin genişlənməsi buxar qazanları istehsalının genişlənməsinə təkan verdi. «Kaspi-Qara dəniz cəmiyyəti», «Neft sənayesi və ticarət cəmiyyəti» və «Nobel qardaşları» şirkətinə məxsus buxar qazanları istehsal edən zavodlar daha böyük idi. Ümumiyyətlə, Bakıda XX əsrin əvvəllərində fəaliyyət göstərən 14 zavodun çoxu kiçik emalatxana idi və onların illik istehsal gücü 2,5-4 mln. rubl çərçivəsində tərəddüd edirdi [140, s. 19]. Qeyd edilən mexaniki istehsal müəssisələrindən başqa Bakıda onlarla iri və xırda təmir zavodları və emalatxanalar fəaliyyət göstərirdi. Bu müəssisələrin yalnız bir qismi neft sənayeçilərinə məxsus idi, digər hissəsi isə neft sənayesi ilə bağlı deyildi. Prof.M.Ə.Ismayılovun hesablamalarına əsasən təmir müəssisələrinin illik istehsal gücü 1,5-2 mln. rubla bərabər idi [140, s. 19].

Sənayenin sürətli inkişafı, Bakı şəhərinin əhalisinin mütəmadi artımı tikinti işlərinin genişlənməsi və bununla bağlı tikinti materialları sənayesinin – daş, kərpic, sement, ağac

materialları istehsalının yüksəlişi ilə müşayiət olunurdu. XIX əsrin 80-ci illərində Bakıda 18 [219, s. 192-193], XX əsrin əvvəllərində 20 kərpic zavodu [26, v. 55] fəaliyyət göstərirdi. 1905-ci ildə sahibkar Həsənovun Keşlədə tikdirdiyi Qafqazda ilk sement zavodu qısa müddətdə iri müəssisəyə çevrilərək, illik istehsal gücünü 500 min rubla çatdırmışdı [48, v. 2-5]. 1890-cı ildə Bakıda işə düşən gipsalit zavodu da XX əsrin əvvəlində böyük istehsal gücünə malik olmuşdu [140, s. 20]. Bakının tikinti sənayesində fəaliyyət göstərən iri müəssisələrdən biri də 1898-ci ildən fəaliyyətə başlayan. «Nobel qardaşları» şirkətinə məxsus olan taxta-şalban zavodu idi [140, s. 22]. XX əsrin əvvəllərində Bakıda 30-dan çox dülgər, 100-dən çox xarrat emalatxanası fəaliyyət göstərirdilər [51, s. 39]. Meşə materialları istehsalı ilə məşğul olan müəssisələrin əksəriyyəti xırda müəssisələr idi. Ümumiyyətlə, XX əsrin əvvəllərində tikinti materialları sənayesində 2 minə qədər fəhlə çalışırdı, və bu sənayenin orta illik gücü isə 3 mln. rubla yaxın idi [140, s. 23].

Göründüyü kimi, neft istehsalından sonra ikinci yeri mexaniki istehsal sahəsi tuturdu. XX əsrin əvvəllərində mexaniki istehsal müəssisələrində 15-16 min fəhlə çalışır və onların istehsal etdikləri məhsulun məbləği 20-25 mln. rubl çərçivəsində idi [51, s. 39]. XIX əsrin sonu – XX əsrin əvvəllərində sənayenin müxtəlif sahələrinin inkişafı sənaye müəssisələrində elektrik enerjisinidən istifadəni zəruri edirdi. Elektrik enerjisi istehsalı 1899-cu ildə təsis edilmiş «Elektriçeskaya sila» səhmdar cəmiyyətinin əlində cəmlənmişdi [140, s. 24]. Bu cəmiyyət Bakının sənaye müəssisələrini enerji ilə təmin etmək üçün Bibiheybət və Ağ şəhərdə iki stansiya quraşdırmışdı. Getdikcə istehsal gücünü artıran bu müəssisədə 1915-ci ildə 700-dən çox fəhlə işləyir və 4 mln. rubldan artıq məhsul istehsal edilirdi [140, s. 24]. Bundan əlavə XX əsrin əvvəllərində Bakıda 10-dan çox xırda elektrik stansiyası da fəaliyyət göstərirdi ki, onların istehsal gücü 1-1,5 mln. rubl arasında idi [140, s. 25].

Bakının getdikcə daha nəhəng sənaye şəhərinə çevrilməsi,

əhalinin sayının sürətlə artması yeyinti və yüngül sənaye sahəlrinin inkişafı üçün də geniş imkanlar açırdı. Yeyinti sənayesində unüyütmə və çəltiktəmizləmə sahələri aparıcı yer tuturdu. XIX əsrin 70-ci illərində Bakıda bir sıra dəyirmanlar meydana çıxsa da, bu sahənin sürətli inkişafı XIX əsrin 80-90-cı illərinə aiddir. Görkəmli tarixçi akad. Ə.S.Sumbatzadənin hesablamalarına görə, XIX əsrin 80-ci illərində Bakıda 12, 90-cı illərdə 10 dəyirman [219, s. 297], 1900-cu ildə 7 çəltiktəmizləmə [219, s. 307] müəssisəsi fəaliyyət göstərirdi. 1913-cü ilə aid statistik məlumatlara görə, Bakıda fəaliyyət göstərən 9 unüyütmə və çəltiktəmizləmə dəyirmanı ildə 12 mln. rublluq məhsul istehsal edirdi [140, s. 26]. Bu müəssisələr içərisində A.Quliyev, Skobelev qardaşları və H.Z.Tağıyevə məxsus dəyirmanların istehsal gücü daha böyük idi.

Bakının yeyinti sənayesində tütün məhsullarının istehsalı da mühüm yer tuturdu. Ümumiyyətlə, tütün sənayesi Şimali Azərbaycanın Bakı, Nuxa və Şamaxı şəhərlərində cəmlənmişdi. 1881-ci ildə Bakıda 4, 1883-1887-ci illərdə 3, XIX əsrin 90-cı illərinin sonuna qədər 2 tənbəki fabriki fəaliyyət göstərirdi [219, s. 377]. Fabriklərin sayı azalsa da, onların istehsal gücü durmadan artırdı. Belə ki, 1881-ci ildə bu fabriklərdə 88 min rublluq məhsul istehsal edilmişdisə, 1899-cu ildə bu rəqəm 1,2 mln. rubla çatmışdı [219, s. 377]. Ümumiyyətlə, Bakı tütün fabriklərinin illik istehsal gücü 1.690-2.200 mln. rubla bərabər idi [140, s. 27]. Bakının yeyinti sənayesində spirtli içkilər – spirt, araq, pivə və s. istehsalı da özünəməxsus yer tuturdu. Bakıda 1884-cü ildə əsası qoyulan N.A. Terentyevə məxsus şərab zavodu 1890-cı ildə 40 min vedrə 40%-li araq istehsal etmişdi [219, s. 357 (bir vedrə 10-12 l. bərabər idi – R.M.)]. XX əsrin əvvəllərində Bakıda araq və spirttəmizləmə zavodlarının sayı artmaqda idi. Bu dövrdə N.Saracevə məxsus iki, Soqomonova və «Istoçnik» cəmiyyətinə məxsus daha iki araq zavodu, dörd spirttəmizləmə zavodu fəaliyyət göstərirdi [140, s. 28]. 1914-cü ildə Bakıda daha bir rektifikasiya (spirttəmizləmə – R.M.) zavodu açılmışdı [140, s. 28]. XX əsrin əvvəllərində Bakıda Ştekkr, fon Vakano və

Veynerovskilər şirkətinə məxsus pivə zavodları mövcud idi [140, s. 28-29; 51, s. 37]. Təxmini hesablamalara görə, Bakının spirtli içkilər sənayesi orta hesabla ildə 1,5 mln. rublluq məhsul istehsal edirdi [140, s. 29].

Iqtisadi tərəqqi, əhalinin sürətlə artması Bakıda yeyinti sənayesinin yeni formalarının – mineral sular, süni buz, qənnadı məmulatları, kolbasa, makaron və s. istehsalına təkan vermişdi. XX əsrin əvvəllərində Bakıda 13-15 mineral su, 5 süni buz, 20-dən çox qənnadı, 8 kolbasa, 3 makaron, 200-ə qədər bulka və çörək bişirmə müəssisəsi fəaliyyət göstərirdi [140, s. 29-30]. Bakıda 1904-cü ildə bir yağ, sonralar isə bir konserv zavodu da açılmışdı [144, s. 312]. 1909-cu ildən Bakıda duz dəyirmanı da işləyirdi. Prof. M.Ə.Ismayılovun hesablamalarına görə, Bakının yeyinti sənayesində 2837 fəhlə çalışır və yeyinti sənayesinin orta illik istehsal həcmi 18,5 mln. rubla bərabər idi [140, s. 30-31].

Tədqiq olunan dövrdə Bakının iqtisadi həyatında yüngül sənayenin müxtəlif sahələri inkişaf etməkdə davam edirdi. Bakının yüngül sənayesində H.Z.Tağıyevin «Qafqaz lifli şeylər hazırlayan səhmdar cəmiyyəti» özünəməxsus yer tuturdu. Min nəfərdən çox işçisi olan bu fabrikin illik istehsal gücü 1,6 mln. rubldan çox idi. Bakının yüngül sənayesində kardon, dəri məmulatları istehsalı, sabun, paltar və ayaqqabı istehsalı kimi sahələr də müəyyən yer tuturdu. Prof. M.Ə.Ismayılovun araşdırmaları göstərir ki, XX əsrin əvvəllərində qeyd olunan yüngül sənaye sahələrində təkcə Tağıyevin fabrikində 3500-4000 fəhlə çalışır və həmin müəssisələrin illik istehsal həcmi 4 mln. rubla bərabər idi [140, s. 32-33].

Bakı sənaye rayonunun inkişaf tarixinin qısaca icmalından göründüyü kimi, şəhərin iqtisadi həyatında neft hasilatı və neft emalı sənayesi ilə yanaşı sənayenin digər sahələri də mühüm yer tutrdu. Neft sənayesində 1907-1910-cu illərdə 31.556, 1911-1913-cü illərdə 27.764, Bakının sənaye kompleksinin digər sahələrində isə müvafiq olaraq 23.191 və 22.129 fəhlənin fəaliyyət göstərməsi də bu faktı təsdiq edir [140, s. 32-33].

Tarixşünaslıqda Bakı sənayesinin inkişaf tarixi geniş araşdırma obyektinə çevrildiyi halda Şimali Azərbaycan qəzalarında sənayenin ayrı-ayrı sahələrinin inkişaf səviyyəsi hərtərəfli tədqiq olunmamışdır. Bu istiqamətdə görkəmli Azərbaycan tarixçilərindən akad. Ə.S.Sumbatzadə, prof. M.Ə.Ismayılov, prof. T.T.Vəliyev kimi tədqiqatçıların əməyini xüsusilə qeyd etmək lazımdır.

Şimali Azərbaycan qəzalarında sənayenin mühüm sahələrindən birini dağ-mədən sənayesi təşkil edirdi. Şimali Azərbaycanın dağ-mədən sənayesində aparıcı yeri mis istehsalı tuturdu. Mis filizi Yelizavetpol qəzasında, Gədəbəydə, Ilanqayası adlı yerdə, Cavanşir qəzasında Həndzasar mədənlərində çıxarılırdı [100, s. 11]. Mis çıxarlıması Gədəbəydə qədimdən məlum olsa da, yalnız 1855-ci ildə yerli sahibkarlar istehsal gücü 1200 pud olan ilk misəritmə zavodu tikmişdilər [219, s. 252]. 1865-ci il avqustun 25-də Simens qardaşları Gədəbəydə iri misəritmə zavodu inşa etdilər [219, s. 252]. Bu zavodun istehsal gücü getdikcə artmaqda idi. Belə ki, 1870-ci ildə zavodda 44.213 pud, 1877-ci ildə 52.288 pud mis istehsal edildiyi halda [219, s. 252; 221, s. 47], 1887-ci ildə bu rəqəm 67.884 puda, 1900-cu ildə 73.591 puda qədər yüksəlmişdi [219, s. 263]. 1877-ci ildə Rusiyada istehsal edilmiş 213.931 pud misin 25 faizindən çoxunu Gədəbəy zavodu vermişdi [50, s. 319]. 1883-cü ildə Simens qardaşları Qalakənd çayı üzərində ikinci missaflaşdırma və zavodu inşa etdilər [219, s. 259]. 1884-cü ildə hər iki zavodu, filiz mədənlərini birləşdirmək, yanacaq daşınmasını asanlaşdırmaq üçün 29 km. uzunluğunda darxətli dəmiryolu xətti çəkilmişdi [219, s. 260; 221, s. 261]. Qalakənd zavodunda istehsalı artırmaq və elektroliz üsulu ilə mis almaq üçün Qalakənd çayı üzərində biri 80, o biri 25 at gücündə olan iki turbin işə salınmış [219, s. 260], elektroliz vannalarının sayı 100-ü keçmişdi [106, s. 96]. 1900-cu ildə Qalakənd zavodunda istehsal edilən misin illik həcmi 74.125 puda çataraq, demək olar ki, Gədəbəy zavodunun istehsal gücü ilə bərabərləşmişdi [219, s. 263]. Zavodların yanacaqla təminatını yaxşılaşdırmaq

məqsədi ilə 1889-cu ildə Dəllər və Çardaxlı arasını birləşdirən dəmiryolu xətti 1894-cü ildə Gədəbəyə qədər çatdırıldı [219, s. 262]. Bunun nəticəsində Gədəbəy misəritmə zavodlarının istehsal gücü daha da artdı. 1884-cü ildə bu mədənlərdə 1.656 min pud filiz çıxarılmış, 80.290 pud mis emal edilmişdisə, 1897-ci ildə filiz çıxarılması 4.453 min puda, mis emalı isə 137.394 puda çatmışdı [85, s. 187]. Gədəbəy zavodlarında mis istehsalı üzrə rekord göstərici 1900-cu ildə qeydə alınmışdı. Həmin il burada 147.716 pud mis əldə edilmişdi [219, s. 263; 100, s. 26]. 1900-cu ildə Rusiyada istehsal edilən misin 34,6 və Cənubi Qafqazda istehsal edilən misin 68,5 faizini Şimali Azərbaycan vermişdi [221, s. 43]. XX əsrin əvvəllərində, xüsusilə də birinci dünya müharibəsinə qədərki dövrdə Gədəbəy filiz mədənlərində orta hesabla ildə 3.683 min pud filiz çıxarılırdı. Müharibə illərində isə bu rəqəm 2.983 min puda enmişdi [100, s. 12]. 1907-ci ildə Gədəbəy mədənlərində rekord səviyyədə – 6.425.346 pud mis filizi çıxarılmışdı [100, s. 12]. Şimali Azərbaycanın başqa mis mədənləri nisbətən kiçik idi və həmin mədənlərdən çıxarılan mis filizinin orta illik həcmi 60-65 min puda bərabər idi [100, s. 12].

Misin əridilməsi prosesində başqa filiz növlərindən də istifadə edilirdi. Dəmir filizi və kvars Xasməmməd dağındakı mədəndən çıxarılırdı. 1900-cu ildə bu mədəndən 203 min pud, 1907-ci ildə 310 min pud, 1908-1912-ci illərdə ildə təxminən 80 min, 1915-ci ildən etibarən isə 25 min pud dəmir filizi çıxarılmışdı [100, s. 13-14]. Xasməmməd mədənində 1907-ci ildə 35.060 pud, 1910-cu ildə 37.500, 1913-cü ildə isə 41.000 pud kvars çıxarılmışdı [100, s. 14]. Şimali Azərbaycanda istehsal edilən mis, dəmir və kvars yerli müəssisələrdə, Bakı və Yelizavetpol quberniyaslarında fəaliyyət göstərən 8 misəritmə zavodunda emal edilirdi. Gədəbəy və Qalakənd zavodlarından fərqli olaraq Zəngəzur və Qazax qəzalarında yerləşən digər zavodların istehsal gücü çox zəif idi [140, s. 44]. Belə ki, Şimali Azərbaycanda çıxarılan mis filizinin 80%-i Gədəbəy və Qalakənd zavodlarında emal olunurdu [140, s. 44]. Şimali

Azərbaycanda istehsal edilən misin böyük əksəriyyəti Rusiyaya ixrac olunur, az bir qismi Cənubi Qafqazda yerli misgərlər tərəfindən sərf edilirdi. 1856-cı ildə yunan sənayeçiləri Daşkəsəndə misəritmə zavodu açsalar da, onun istehsal gücü çox zəif idi [219, s. 270]. Daşkəsən mədənlərini və misəritmə zavodunu yunanlardan alan Simens qardaşları 1866-cı ildə kobalt istehsalına başladılar [219, s. 271]. Daşkəsəndə il ərzində orta hesabla istehsal edilən 65-70 pud kobalt əsasən Almaniya, Isveç, Norveç, Macarıstan və başqa ölkələrə ixrac edilirdi [100, s. 14].

Öyrənilən dövrdə Şimali Azərbaycanda Cavanşir qəzasının Mehmana, Naxçıvan qəzasının Gümüşlü mədənlərində gümüş-qurğuşun filizi istehsal olunurdu. Bu mədənlərdə istehsal olunan filizin miqdarı haqqında statistik məlumatlar məhdud olsa da, prof.T.T. Vəliyevin fikrincə, XX əsrin əvvəllərində Mehmana mədənində 550-680, Gümüşlüdə isə 15-22 min pud gümüş-qurğuşun filizi istehsal edilirdi [100, s. 14-15]. Bununla yanaşı XX əsrin əvvəllərində Yelizavetpol və Qazax qəzalarında ildə orta hesabla 40 min pud barıt da istehsal edilirdi [100, s. 15].

Şimali Azərbaycanda neft istehsalı yalnız Abşeron yarımadası ilə məhdudlaşmırdı. Rus alimi akad. I.M. Qubkinin Şimali Azərbaycan qəzalarında – Cavad, Şamaxı, Quba və Gəncədə neftli torpaqların müəyyən edilməsində böyük rolu olmuşdu [100, s. 49]. 1894-cü ildə təsis edilmiş «Naftalan» şirkəti, 1911-ci ildən isə «Koramal-Naftalan» səhmdar cəmiyyəti Naftalanda müalicə əhəmiyyətli neft hasil edirdi [100, s. 52; 98, s. 40]. 1911-ci ilə qədər burada ildə orta hesabla 10-12 min. pud məhsul istehsal edilmişdisə, sonrakı illərdə neft hasilatı artaraq ildə 20 min puda qədər yüksəlmişdi [100, s. 53]. XX əsrin əvvəllərində Cavad, Şamaxı, Quba qəzalarında «Ramana», «Ələt», «Giləzi», «Kür-Kaspi», «Hacıqabul», «H.Z. Tağıyev və $K^0$», «I.Səlimov və $K^0$», «Hacınski-Bakı», «Benkendorf və $K^0$», «S.M. Şibayev və $K^0$», «F.Loginov və $K^0$», «Quliyev, Məmmədov və $K^0$» kimi şirkət və səhmdar cəmiyyətləri neft

hasilatı ilə məşğul olurdular [98, s. 9]. 1913-cü ildə təkcə Şamaxı qəzasında «Nobel qardaşları» şirkəti 20 min desyatin torpaq icarəyə götürmüşdü [98, s. 41]. Həmin ildə Şimali Azərbaycanda icarəyə götürülən neftli torpaqların ümumi sahəsi 335 min desyatindən çox idi [98, s. 41]. Şimali Azərbaycan qəzalarında neft hasilatı haqqında dəqiq satistik məlumatlar olmasa da, 1912-ci ildə yalnız Xıdırzində və Giləzi neft mədənlərində 700 min puddan çox neft hasil edilməsi [100, s. 54] göstərir ki, qəzalarda neft hasilatı getdikcə artmaqda idi.

Tədqiq edilən dövrdə Şimali Azərbaycanın dağ-mədən sənayesində duz hasilatı da özünəməxsus yer tuturdu. Şimali Azərbaycanda çox qədim tarixə malik olan duz çıxarılmasının sənaye sahəsi kimi inkişafı XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir [100, s. 72]. Bu dövrdə Şimali Azərbaycanda həm daş, həm də şor (göl – R.M.) duz hasil edilirdi. Şimali Azərbaycanın daş duz mədənləri Naxçıvan qəzasının Sust, Şıxmahmud və Cəhrı kəndləri arasındakı dağlarda yerləşirdi [100, s. 72; 219, s. 231]. Ölkədəki duz mədənlərinin əksəriyyəti xəzinənin, Sust kəndindəki mədənlər isə sahibkarların ixtiyarında idi [100, s. 72]. 1861-ci ildən etibarən Naxçıvanın duz mədənləri xəzinə və iltizamçılar tərəfindən istismar edilirdi [142, s. 22]. XIX əsrin 50-60-cı illərində Naxçıvanın duz mədənləri M.Markuzov, Mehdi bəy Ağahüseyn oğlunun [219, s. 239], 1898-1907-ci illərdə isə xəzinəyə məxsus duz mədənləri Isa Canpoladovun icarəsində olmuşdu [219, s. 239; 100, s. 72]. XIX əsrin 50-60-cı illərinin əvvəllərində duz istehsalının artması 26 avqust 1852-ci ildə xaricdən duzun gətirilməsinin qadağan edilməsi və Krım müharibəsi (1853-1856) ilə bağlı olmuşdu [219, s. 236-237]. 1867-ci il istisna olmaqla XIX əsrin 60-70-ci illərində duz çıxarılmasının aşağı düşməsinin əsas səbəbi 1862-ci il mayın 14-də duz hasilatı üzərinə aksiz vergisinin qoyulması idi [219, s. 237]. 1881-ci ildə aksiz vergisinin ləğvi duz hasilatının yenidən yüksəlişinə səbəb oldu [219, s. 238]. Belə ki, 1885-ci ildə Naxçıvanda 162.055 pud, 1892-ci ildə 256. 769, 1899-cu ildə

307.244 pud [219, s. 239] duz hasil edildiyi halda 1905-ci ildə bu rəqəm 604.5 min, 1912-ci ildə isə 710.896 puda qədər yüksəlmişdi [100, s. 73].

Şimali Azərbaycanda daş duz ilə yanaşı şor duz da çıxarılırdı. Bir məlumata görə XIX əsrin sonunda Şimali Azərbaycanda 30-dan çox [100, s. 74], digər məlumata görə isə 67 göldən [142, s. 219] şor duz çıxarılırdı. Bakı qəzasında şor duz alınan ən böyük göllər Masazır, Zığ, Qala, Kürdəxanı, Cavad qəzasında Əlixançala, Bugian, Qobu, Kiçikçala, Böyükçala, Saxsıçala, Bığtəpəçala, Əkəçala, Oxçu, Əvəzli və s. idi [142, s. 219; 100, s. 74]. XX əsrin əvvəllərində Cavad qəzasındakı göllərdən şor duz alınması əsasən Məşədi Əbdüləziz Kərimovun icarəsində olmuşdu. 1900-cu ildə Cavad qəzasında 232.750, 1903-cü ildə 151.456, 1910-cu ildə 273 min pud şor duz alınmış, sonrakı dövrdə isə istehsal 40-50 min puda enmişdi [100, s. 74]. Bakı qəzasındakı göllərdən isə 1879-cu ildə 618.371, 1884-cü ildə 617 min pud duz alınmış [219, s. 221-227] və Türkmənistanın Rusiya tərəfindən işğalından sonra şor duz istehsalı bir qədər aşağı düşmüşdü.

XIX əsrin II yarısında Şimali Azərbaycanın mədən sənaye sahələrindən biri də zəy istehsalı idi. 1873-cü ildə Zəylik zavodu tanınmış sahibkar I.Mirzoyevə iltizama verildikdən sonra istehsal prosesində nisbi artım baş verdi [219, s. 250]. 1873-cü ildə 2780 pud zəy istehsal edilmişdi. 1877-ci ildə bu rəqəm 8 min puda çatmışdı [219, s. 250; 126, s. 79]. Sonrakı illərdə zəy istehsalı azalmış, zavodun avadanlığının nasazlığı və bölgədə baş verən aclıq nəticəsində [144, s. 195] 1883-cü ildə Zəylik zavodu öz fəaliyyətini tamamilə dayandırmışdı [126, s. 79].

Şimali Azərbaycan qəzalarının sənaye həyatında XIX əsrin II yarısında tikinti sənayesi sahələri də meydana çıxmışdı. Tikinti materiallar istehsalında iri daş karxanaları və kərpic istehsalı mühüm yer tuturdu. Akad. Ə.S.Sumbatzadənin hesablamalarına görə, XIX əsrin 80-ci illərində Bakı quberniyasında 55, 90-cı illərin sonunda 68 kərpic zavodu, Yelizavetpol quberniyasında isə müvafiq olaraq 107 və 146

kərpic zavodu fəaliyyət göstərirdi [219, s. 190]. Bakı quberniyasındakı zavodların istehsal gücü 114.333 və 434.420 rubla, Yelizavetpol quberniyasındakı müəssisələrin isə müvafiq olaraq 38.880 və 102.108 rubla bərabər idi [219, s. 190]. Bu zavodların əksəriyyəti xırda müəssisələr idi. 1912-ci ildə Şimali Azərbaycanda fəaliyyət göstərən 200-dən çox kərpic zavodunun orta illik istehsal gücü 1 mln. rubla bərabər idi [140, s. 48]. XIX əsrin 80-90-cı illərində Abşeron ərazisində orta hesabla 680 min daş kəsilirdi. Bu dövrdə Şimali Azərbaycanda əhəng istehsalı da geniş yayılmışdı. Yelizavetpol quberniyasının zəngin əhəng yataqlarından səmərəli istifadə etmək üçün 1899-cu ildə yaradılan "Tovuz" səhmdar cəmiyyəti [140, s. 48] naməlum səbəbdən zavodun tikintisini ləngitmişdi. Prof. M.Ə.Ismayılovun fikrincə "Tovuz" sement zavodu 1915-ci ildə işə düşmüşdü [140, s. 48]. Prof. T.T.Vəliyevin son tədqiqatları göstərir ki, "Tovuz" sement zavodu 1913-cü ildə işə salınmış, 1914-cü ildə isə tam gücü ilə işə düşmüşdü [100, s. 58-59]. Bu zavod ildə orta hesbla 5,5-6 milyon pud portland sementi istehsal edirdi [100, s. 59].

Qarabağ ipək emalı sənayesinin emal müəssisələri Şuşa şəhəri, Şuşa qəzası və Cəbrayıl qəzasında yerləşirdi. 1872-ci ildə Şuşa qəzasında fəaliyyət göstərən 150 müəssisə 20 min rublluq məhsul istehsal etmiş, 1899-cu ildə müəssisələrin sayı 17-yə düşmüş, istehsal gücü isə 620 min rubla çatmışdı [219, s. 420]. 1872-ci ildə Şuşa şəhərində 1, 1899-cu ildə 2 müəssisə işləyirdi və onların istehsal gücü müvafiq olaraq 15 min və 160 min rubla çatırdı [219, s. 420]. 1899-cu ildə Cəbrayıl qəzasındakı 3 emal müəssisəsi 25 min rublluq məhsul istehsal etmişdi [219, s. 422]. 1882-ci ildə Ordubad və Naxçıvan qəzasında fəaliyyət göstərən 16 müəssisə 115 min rublluq, 1898-ci ildə isə 39 müəssisə 156 min rublluq məhsul istehsal etmişdi [219, s. 437]. XIX əsrin sonunda Şamaxı şəhəri, Şamaxı və Göyçay qəzalarında orta hesabla 70 müəssisə işləyir və onların istehsal gücü 16.240 rubla bərabər idi [219, s. 449]. XIX əsrin 80-ci illərinə nisbətən əsrin sonunda ipək istehsal edən müəssisələrin sayının azalması ipək

sənayesində maşın tətbiqi nəticəsində xırda müəssisələrin ixtisara düşməsi ilə bağlı olmuşdu. XX əsrin əvvəllərində Şimali Azərbaycanın ipək sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Prof. T.T. Vəliyevin hesablamalarına görə, 1913-cü ildə yalnız Nuxa qəzasındakı 93 emal müəssisəsi 9 mln. rublluq məhsul istehsal etmişdilər [100, s. 94]. Nuxa qəzasından sonra ipək istehsalı həcminə görə, ikinci yerdə Qarabağ zonası gedirdi. 1911-ci də Qarabağ bölgəsində fəaliyyətdə olan 31 emal müəssisəsində 1,5 mln. rublluq ipək istehsal edilmiş, 1913-cü ildə isə istehsal həcmi 4,2 mln. rubla çatmışdı [100, s. 95]. Naxçıvan qəzasındakı ipək emalı müəssisələrinin çoxu Ordubad şəhərində yerləşirdi. 1912-ci ildə Naxçıvan qəzasının 25 müəssisəsində istehsal edilmiş məhsulun ümumi həcmi 1 milyon rubla bərabər idi [97, s. 52]. Bu dövrdə Şimali Azərbaycanın ipək sənayesi fabrik mərhələsini yaşayırdı və istehsal edilən məhsulun 95%-i fabrik tipli emal müəssisələrində təmsil olunurdu. 1909-cu ildə Cənubi Qafqazdan ixrac olunmuş 7.099 mln. rubl məbləğində 171.4 min pud ipək məmulatlarının 90%-i Şimali Azərbaycanın payına düşürdü [144, s. 275]. Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində ipək sənayesində fabrik istehsalı hakim olsa da, kustar istehsal tam aradan çıxmamışdı. 1913-cü ildə Şuşa, Nuxa, Ordubad, Şamaxı şəhərləri və bəzi kəndlərdə 2 mln. rublluq ipək məmulatı istehsal edilmişdi [100, s. 99]. Bütövlükdə Şimali Azərbaycanın ipək sənayesinin ümumi istehsal məbləği 1913-cü ildə 19 mln. rubldan çox idi [98, s. 41].

XIX əsrin sonunda Şimali Azərbaycan qəzalarında meydana çıxan sənaye sahələrindən biri pambıqtəmizləmə sənayesi idi. XIX əsrin 80-ci illərinin II yarısında pambıqçılığın inkişafında yaranan dönüş nəticəsində Yelizavetpol quberniyasında pambıq istehsalı 1883-cü ildə qeydə alınan 5 min puddan 1900-cu ildə 104.633 puda, Bakı quberniyasında isə 80-90-cı illərdə 50 min puda qədər yüksəlmişdi [219, s. 373]. XX əsrin əvvəllərində isə pambıq yığımında görünməmiş yüksəliş qeydə alınmış və Şimali Azərbaycanda pambıq yığımı 1913-cü ildə 6,3 mln. puda yüksəlmişdi [100, s. 85; 228, s. 32]. Pambıqçılığın

belə coşqun inkişafı Şimali Azərbaycanda pambıqtəmizləmə sənayesinin geniş miqyas almasına səbəb oldu. Şimali Azərbaycanda ilk pambıqtəmizləmə zavodlarından biri 1882-ci ildə Naxçıvanda tikilmişdi [100, s. 100]. XIX əsrin 90-cı illərində Şimali Azərbaycanın pambıqçılıq rayonlarına Ingiltərədən kotton-cin tipli pambıqtəmizləyən maşınlar gətirilməyə başladı [219, s. 373]. XIX əsrin sonunda Yelizavetpol quberniyasında 35, Bakı quberniyasında 16, Naxçıvan qəzasında 41 kotton-cin qeydə alınmışdı [85, s. 197; 219, s. 375].

Tədqiq olunan dövrdə Şimali Azərbaycan qəzalarının iqtisadi inkişafında yüngül sənaye özünəməxsus yer tuturdu. XIX əsrin sonunda Şimali Azərbaycan qəzalarında meydana çıxan sənaye sahələrindən biri pambıqçılıq sənayesi idi. XX əsrin əvvəllərində pambıqtəmizləmə zavodlarının sayı sürətlə artmışdı. Belə ki, 1912-ci ildə Yelizavetpol quberniyasında 28, Bakı quberniyasında 23, Naxçıvan qəzasında isə irili-xırdalı 51 pambıqtəmizləmə zavodu var idi [100, s. 100-101]. Pambıqtəmizləmə sənayesində "Kavkazskiy xlopok", "Tumanyans qardaşlarının Rus-Iran ticarət sənaye səhmdar cəmiyyəti", "H.Z.Tağıyevin Qafqaz lifli əşyalar istehsalı üzrə səhmdar cəmiyyəti", "Voqau və K$^0$" və s. kimi şirkət və səhmdar cəmiyyətləri ağalıq edirdilər [100, s. 106-113; 140, s. 49-50]. Cəhmdar cəmiyyətləri təkcə pambıqtəmizləmə sənayesinə 26 milyon rubldan artıq kapital qoymuşdular [98, s. 41]. Şimali Azərbaycanda təmizlənən pambığın əksəriyyəti Rusiya və digər xarici ölkələrə ixrac olunurdu. Pambığın bir hissəsi H.Z.Tağıyevin 1900-cu ildə əsasını qoyduğu toxuculuq fabrikinin istifadəsinə verilirdi [50, s. 223]. Prof. M.Ə.Ismayılovun hesablamalarına görə, Şimali Azərbaycanın pambıqtəmizləmə sənayesinin istehsal gücü ildə 3-3,5 mln. rubla bərabər idi. Gön-dəri istehsalı qədim tarixə malik olsa da, Şimali Azərbaycanda onun geniş inkişafı XIX əsrin II yarısına təsadüf edir [219, s. 34]. Akad. Ə.S.Sumbatzadənin hesablamalarına görə XIX əsrin 70-ci illərində Bakı quberniyasında fəaliyyət göstərən 80 müəssisə 31

min. rublluq, 90-cı illərdə isə 77 müəssisə 34 min rublluq məhsul istehsal etmişdi [219, s. 97]. Yelizavetpol quberniyasında isə XIX əsrin 70-ci illərində orta hesabla 35 müəssisə 17 min rublluq, 90-cı illərdə isə 102 müəssisə 69 min rublluq məhsul istehsal etmişdi [219, s. 97]. Gön-dəri istehsalı əsasən Şimali Azərbaycanın Nuxa, Yelizavetpol, Şuşa, Şamaxı və Naxçıvan şəhərlərində geniş yayılmışdı [100, s. 114]. 1900-cu ildə Yelizavetpol quberniyasının 70-dən çox müəssisəsi 200 min rublluq, Bakı quberniyasının 78 müəssisəsi də bir o qədər məhsul istehsal etmişdi [100, s. 114]. XX əsrin əvvəllərində Şimali Azərbaycanda 160-a qədər gön-dəri istehsalı müəssisəsi var idi. Onu da qeyd etmək lazımdır ki, gön-dəri istehsalı rəsmi statistikadan kənarda qaldığı üçün bu rəqəmləri heç də mütləq rəqəmlər kimi qəbul etmək lazım deyildir.

XX əsrin əvvəllərində Bakı şəhərindən əlavə Şamaxı, Yelizavetpol, Nuxa, Şuşa və s. şəhərlərdə sabun istehsalı müəssisələri də fəaliyyət göstərirdi. Bakıdan başqa, digər şəhərlərdəki müəssisələrin hamısı xırda müəssisələr idi. XX əsrin əvvəllərində Şamaxıdakı üç müəssisə 1540 rublluq, Şuşa şəhərindəki 7 müəssisə isə 67.950 rublluq məhsul istehsal etmişdi [140, s. 54]. 1909-1915 – ci illərdə Şimali Azərbaycanda fəaliyyət göstərən 10-18 sabun istehsalı müəssisəsi orta hesabla 600 min rublluq məhsul istehsal edirdi [140, s. 54] ki, onun təxminən 520 min rublluq məhsul Bakı şəhərinin qalan hissəsi isə Şimali Azərbaycan qəzalarının payına düşürdü.

Şimali Azərbaycanın iqtisadiyyatında həm istehsalın həcmi, həm də fəhlələrin sayına görə neft sənayesindən sonra ikinci yeri yeyinti sənayesi tuturdu. Tədqiq olunan dövrdə yeyinti sənayesinin aparıcı sahəsini balıq sənayesi [219, s. 320] təşkil edirdi. 1845-ci ildə “Salyan qəyyumluğu” ləğv edildikdən sonra çarizm balıqçılıq təsərrüfatında da iltizam sisteminin tətbiqinə keçdi ki, bu sistem Şimali Azərbaycanın balıq ehtiyatlarının vəhşicəsinə talanması və istehsalın getdikcə azalması ilə müşahidə olunmuşdu [219, s. 321-322]. 1880-ci ildə balıq sənayesində iltizam sisteminin ləğv edilməsi və balıqçılıq

təsərrüfatının açıq hərrac yolu ilə xüsusi şəxslərə verilməsi [219, s. 322] balıq sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bu öz ifadəsini statistik rəqəmlərdə də tapırdı. Belə ki, 1880-1882-ci illərdə Şimali Azərbaycanda 736.092 pud balıq tutulmuşdusa, 1895-1900-cu illərdə bu rəqəm 2.418.708 puda qədər yüksəlmişdi [217, s. 7]. Şimali Azərbaycanda çay və göl balıqçılığı qədim tarixə malik olsa da, dəniz balıqçılığı XIX əsrin sonlarından başlanır. XX əsrin əvvəllərində Şimali Azərbaycanın 7-8 qəzasında balıqçılıqla məşğul olunurdu və bu qəzaların ərazisində on bir balıqçılıq rayonu var idi [100, s. 122]. XIX əsrin sonlarında Şimali Azərbaycanın balıq sənayesində "I.Pitoyev və $K^0$", "L.Mayılov və oğulları" şirkətləri ağalıq edirdilər [98, s. 42-43]. XX əsrin əvvəllərində balıq sənayesinə milli kapital qoyuluşu yüksəlmiş və 1906-cı ildə M.Nağıyev, M. Muxtarov, H.Z.Tağıyev, T.Səfərəliyev Kür boyundakı vətəgələri icarəyə götürərək yuxarıda qeyd edilən şirkətlərin inhisarına son qoydular [100, s. 128]. XX əsrin əvvəllərində dəniz vətəgələrinə sahiblikdə də milli kapitalın xüsusi çəkisi 9%-dən 47%-ə yüksəlmişdi [98, s. 43].

1900-cu ildə Bakı-Petrovsk dəmir yolu xəttinin işə düşməsi balıqçılıq sənayesinin inkişafına güclü təkan verdi [50, s. 294]. XIX əsrin sonunda Xəzər sahillərində ilk balıq vətəgələri meydana çıxırdısa, XX əsrin əvvəllərində dəniz vətəgələrinin sayı 700-ə çatmışdı [98, s. 43]. Şimali Azərbaycanın çay və göllərindən, o cümlədən Xəzər dənizindən müxtəlif çeşidli, əsasən siyənək, nərə, qızıl, ziyad, şahmayı və s. balıqlar tutulurdu. XX əsrin əvvəllərində Şimali Azərbaycanda balıq sənayesinin inkişafı satistik rəqəmlərdə qabarıq əksini tapmışdır. Belə ki, prof. T.T.Vəliyevin hesablamalarına görə, 1901-ci ildə Şimali Azərbaycanda siyənək balığı istisna olmaqla 7.003.154 balıq tutulmuşdusa, 1911-ci ildə isə bir qədər geriləmə müşahidə olunmuşdu [100, s. 147]. Siyənək balığına gəldikdə isə, 1901-ci ildə Şimali Azərbaycanda 834.750 pud, 1913-cü ildə isə 8.694.750 pud siyənək balığı tutulmuşdu [100, s. 151]. Prof. M.Ə.Ismayılovun araşdırmasına görə, 1901-1903-

cü illərdə Şimali Azərbaycanda 41,9 mln., 1904-1906-cı illərdə 46,3, 1907-1909-cu illərdə 41,7, 1910-1912-ci illərdə 62,5, 1913-1915-ci illərdə isə 47 mln. rublluq balıq və kürü istehsal edilmişdi [140, s. 56]. Dünyada istehsal edilən qara kürünün 90%-ni Xəzər və ona tökülən çaylar verirdi və qara kürünün 70%-i Xəzər-Kür hövzəsinin payına düşürdü [98, s. 4]. Rusiyada tutulan balığın 60%-ni Xəzər dənizi verirdi və Xəzərdə ovlanan balığın 33%-i Şimali Azərbaycanın payına düşürdü [100, s. 153]. Balıq sənayesində çalışan fəhlələrin çoxunun mövsümi xarakterli olmasına baxmayaraq 1912-ci ildə bu sahədə 40.000 – dən çox fəhlə qüvvəsi işləyirdi [140, s. 58-59]. Bu dövrdə balıqçılıq sənayesinə tərkibində 5945 müxtəlif gəmi və qayığın daxil olduğu böyük donanma xidmət göstərirdi [98, s. 44]. Şimali Azərbaycanın balıq sənayesinin məhsulları başlıca olaraq Rusiyanın daxili bazarlarında, xüsusilə Xarkov, Çerniqov, Poltava, Tula, Ryazan quberniyaları, Terek və Kuban vilayətlərində satılırdı. Bununla yanaşı Şimali Azərbaycanın balıq məhsulları Almaniya, Polşa, Avstriya, Fransa, Balkan və s. ölkələrə də ixrac edilirdi [100, s. 154-155].

Şimali Azərbaycanın yeyinti sənayesində mühüm yerlərdən birini şərabçılıq, spirt və konyak istehsalı tuturdu. Bu sahənin inkişafı üçün əsas xammal mənbəyini təşkil edən üzümçülük* Şimali Azərbaycanın bütün qəzalarında yayılsa da, bu sahə Yelizavetpol quberniyasının Şuşa və Yelizavetpol, Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarında daha yüksək inkişaf etmişdi. Şimali Azərbaycanda yetişdirilən üzümü emal etmək üçün şərab emalı, araq, konyak və spirtçəkən zavodlar fəaliyyət göstərirdi. Qeyd etmək lazımdır ki, XIX əsrin sonunda çarizmin gah zavod şərabçılığına (1873-1887 və 1897-ci ildən sonra), gah da bağ sahiblərinin şərabçılıqla məşğul olmasına (1888-1896) himayədarlığı şərabçılıq sənayesinə müəyyən təsirsiz ötüşməmişdi [219, s. 349]. Akad. Ə.S.Sumbatzadənin hesa-

---

* Tütün istehsalının həcmi haqqında dissertasiyanın I paraqrafında məlumat verilmişdir.

blamalarına görə, 1870-1887-ci illərdə Bakı quberniyasında fəaliyyət göstərən zavodların illik istehsal məbləği orta hesabla 93 rubla bərabər idisə, 1888-1894-cü illərdə bu göstəricilər müvafiq olaraq 493.2020 və 153.719 rubl təşkil etmişdi [219, s. 350].

1872-1887-ci illərdə Yelizavetpol quberniyasında 1352 müəssisə, 3093 fəhlə fəaliyyət göstərir və orta illik istehsal həcmi 304.955 rubl təşkil etmişdisə 1888-1896-cı illərdə bu göstəricilər müvafiq olaraq 876.2264 və 366.712 rubla bərabər olmuşdu [219, s. 351]. XIX əsrin II yarısında Şimali Azərbaycanın şərabçılıq sənayesində «X, Forer və oğulları», «Hummel qardaşları», «Cabbarov qardaşları», «Ağrıyev qardaşları», «Sısoyev qardaşları», «N.L.Şustov və oğulları» və s. şirkətlər fəaliyyət göstərirdilər [219, s. 361; 100, s. 170, 179, 181 və s.]. XIX əsrin 90-cı illərində Naxçıvan qəzasında ildə orta hesabla 150-200 min vedrə şərab istehsal olunurdu [50, s. 224]. Bu dövrdə Şimali Azərbaycanın Şuşa, Yelizavetpol, Göyçay qəzalarında araq istehsalı da mühüm yer tuturdu. Şuşa qəzasının Muradbəyli, Cavanşir qəzasının Şelli və Boyəhmədli kəndlərində araq [219, s. 361-362], əsrin sonuna yaxın isə Şimali Azərbaycanda 10 konyak zavodu fəaliyyət göstərirdi [50, s. 225]. XX əsrin əvvəllərində şərab, araq, konyak və spirt istehsalı yüksək sürətlə inkişaf etməyə başladı. Bu sahədə 1300-dən çox zavod fəaliyyət göstərirdi ki, bunların yarıdan çoxu Yelizavetpol, 40%-i Bakı quberniyasında, qalanı Naxçıvan qəzası və Zaqatala dairəsində yerləşirdi. 1901-ci ildə Yelizavetpol quberniyasında 607.200, 1903-cü ildə 1.205.000, 1909-cu ildə 1.714.791 [100, s. 167], 1915-ci ildə 2.648.091 [140, s. 59] vedrə şərab istehsal edilmişdi. Bakı quberniyasının orta illik istehsal gücü 750-800 vedrəyə bərabər idi [140, s. 59-60; 100, s. 167]. 1900-cu ildə bütövlükdə Şimali Azərbaycanda 1.344.500 vedrə şərab istehsal edilmişdisə, 1913-cü ildə bu rəqəm 4.056.829 vedrəyə çatmışdı [100, s. 167]. Cənubi Qafqazda istehsal edilən şərabın üçdə bir hissəsi Şimali Azərbaycanın payına düşürdü. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ar-

aq-spirt və konyak istehsalında da yüksəliş müşahidə edilirdi. 1900-cu ildə Şimali Azərbaycanda 19.800 min dərəcə araq-spirt çəkilmişdisə, 1913-cü ildə bu rəqəm 29 min dərəcəyə yüksəlmişdi [100, s. 169]. Yelizavetpol quberniyasında çəkilən araq-spirtin 57%-i Şuşa qəzasının, xüsusilə Ağdam zavodlarının, Bakı quberniyasında istehsal olunan araq-spirtin isə 61,7%-i Kürdəmir və Ucar zavodlarının payına düşürdü [98, s. 45]. 1913-cü ildə Cənubi Qafqazda istehsal edilən rektifikasiya spirtinin 52,5%-i Şimali Azərbaycanda istehsal olunmuşdu [98, s. 45]. Tut arağı istehsalının mərkəzi olan Yelizavetpol quberniyası Cənubi Qafqazda istehsal olunan tut arağının 95%-ni verirdi [100, s. 173]. 1913-cü ildə Şimali Azərbaycanda fəaliyyət göstərən 7 konyak zavodu Cənubi Qafqazda istehsal olunan konyakın 43%-ni verirdi [100, s. 176]. Şimali Azərbaycanda hər il orta hesabla 16 mln. rublluq şərab, araq-spirt və konyak istehsal olunurdu [98, s. 45].

XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesində yeni bir sahə-pivə istehsalı da meydana çıxmışdı. Bu dövrdə Yelenendrofda «Forer qardaşları» şirkətinin bir, Şuşa və Lənkaran qəzalarının hər birində fəaliyyət göstərən bir pivə zavodlarında 1912-1913-cü illərdə 60-70 min rublluq içki istehsal edilirdi [140, s. 61].

XX əsrin əvvəllərində Şimali Azərbaycanın qəzalarında fəaliyyət göstərən 6-7 müəssisədə 1500-2500 rublluq, Yelenendrof zavodunda isə 10 min rubldan artıq dəyəri olan mineral su istehsal olunurdu [140, s. 61-62].

Şimali Azərbaycanın yeyinti sənayesi sahələrindən biri də tütünçülük sənayesi idi. Şimali Azərbaycanda becərilən tütün yarpağı yerli fabriklərdə emal edilir, yalnız bir qismi doğranmış halda Rusiyaya göndərilirdi. XIX əsrin sonunda tənbəki fabrikləri əsasən Bakı* və Nuxa şəhərlərində cəmlənmişdi [219, s. 377]. Akad. Ə.S.Sumbatzadənin hesablamalarına görə, 1876-

* Bakının tütün sənayesi haqqında bu paraqrafın əvvəlində məlumat verilmişdir.

1878-ci illərdə Nuxa şəhərində 1, 1879-1885-ci illərdə 2, 1886-1888-ci illərdə 1, 1889-1897-ci illərdə 2, 1898-ci ildən isə 3 tənbəki fabriki fəaliyyət göstərirdi [219, s. 378]. Bu illər ərzində orta illik istehsal həcmi müvafiq olaraq 6 min rubl, 25.940 rubl, 23 min rubl, 50 min rubl və 96 min rubl təşkil etmişdi [219, s. 378]. Nuxa tənbəki fabrikləri Bakı şəhərindəkilərə nisbətən xırda müəssisələr idi və əsasən maxorka (tənbəki) istehsal edirdilər. Nuxa tənbəki fabrikləri Məşədi Həsən Dadanova, Novruzova və Zülfüqarova məxsus idi [126, s. 139, 177; 219, s. 380-381; 100, s. 189]. XIX əsrin son rübündə Şamaxıda 1-3, Yelizavetpolda 1 xırda tütün fabriki də fəliyyət göstərirdi [219, s. 381]. Prof. T.T.Vəliyevin araşdırmalarına görə 1900-1903-cü illərdə Şimali Azərbaycan qəzalarında 4, 1904-1907-ci illərdə 5, 1908-1911-ci illərdə 6, 1912-1914-cü illərdə 7 tənbəki fabriki fəaliyyət göstərirdi ki, onlar orta hesabla ildə 10-15 min pud tənbəki emal edərək [100, s. 189], təqribən 800-1 mln. rublluq məhsul istehsal edirdilər [140, s. 62; 98, s. 45].

Tədqiq olunan dövrdə Şimali Azərbaycanın yeyinti sənayesi sahələrindən biri də biyan kökü emalı sənayesi idi. Şimali Azərbaycanda biyan kökü emalına 1865-cı ildə Qədirağa və Hacı Əbdürrəhman qardaşları başlasalar da [219, s. 366; 100, s. 191], onun sənaye sahəsi kimi inkişafı 80-ci illər və xarici kapitalla bağlıdır. 1886-cı ildə yunan tacirləri Gizi və Xrussaki qardaşları Ləkidə [219, s. 317], 1890-cı ildə ingilis Urkqardt Ucarda [219, s. 368], ingilis Bliss Yelizavetpol stansiyası və Kürdəmirdə biyan kökü emalı zavodları inşa etdilər [219, s. 369]. 1902-ci ildə «A.Urqkardt və $K^0$» şirkəti Blissin Yelizavetpol və Kürdəmirdəki zavodlarını aldı və az sonra bütün biyan kökü zavodları «Mak-Andryus və Forbs» şirkəti halında birləşdirildi [100, s. 191-192]. 1906-cı ildə ingilis-amerikan sənayeçiləri bu zavodlar əsasında «Biyan kökü əldə edilməsi və onun emalı üçün Qafqaz səhmdar cəmiyyəti» təsis etdilər [100, s. 191-192]. Bütün bu zavodların illik istehsal gücü 800 min rubla bərabər idi [140, s. 64]. Prof. T.T.Vəliyevin araşdırmasına görə isə, səhmdar cəmiyyətinin illik istehsal məbləği 3,5 mln.

rubla qədər idi [98, s. 45].

Şimali Azərbaycanda pambığın emalı prosesi zamanı alınan yüz minlərlə pud çiyid xammal kimi müxtəlif məhsul alınmasında istifadə olunur, bir hissəsi isə Almaniya, Fransa və Ingiltərəyə ixrac olunurdu. 1902-ci ildə Ləkidə yağ zavodu inşa edildi və 1906-cı ildə onun əsasında «Qafqaz yağ zavodu» cəhmdar cəmiyyəti təsis edildi [98, s. 46]. Zavodda yağla yanaşı, sabun və s. məhsullar da istehsal olunurdu. Zavodda hər il orta hesabla istehsal olunan 50-60 min pud çiyid yağının çox hissəsi Rusiyaya göndərilirdi [100, s. 197]. Prof. M.Ə.Ismayılovun fikrincə bu zavodun illik istehsal məbləği 500 min [140, s. 4], Prof. T.T.Vəliyevin fikrincə isə 1 mln. rubldan artıq idi [100, s. 197].

Beləliklə, XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanın kənd təsərrüfatının və sənayesinin inkişaf tarixinin müxtəsər icmalından göründüyü kimi, tədqiq olunan dövrdə Şimali Azərbaycan əhalisinin böyük əksəriyyəti kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olsa da ölkənin ümumi daxili məhsulunda sənayenin xüsusi çəkisi daha böyük olmuşdur. Belə ki, prof. M.Ə.Ismayılovun hesablamalarına görə, 1913-cü ildə Şimali Azərbaycanda ümumi daxili məhsul istehsalının məbləği təxminən 737 mln. rubl təşkil etmişdir ki, bunun 506 mln. rublu (68,7%) sənayenin, 231 mln. rublu (31,1%) kənd təsərrüfatının payına düşmüşdür [138, s. 14]. Bu dövrdə Şimali Azərbaycan qəzalarında ümumi daxili məhsulun məbləği 375 mln. rubl təşkil etmişdir ki, bu da Şimali Azərbaycanın ümumi daxili məhsulunun 50,9%-nə bərabər olmuşdur. Şimali Azərbaycan qəzalarının 375 mln. rublu ümumi daxili məhsulunun 144 mln. rublu (38,6%) qəzaların sənayesi, 231 mln. rublu (61,4%) kənd təsərrüfatının payına düşmüşdür. Bu hesablamadan göründüyü kimi, Şimali Azərbaycan sənayesinin ümumi daxili məhsulunda onun qəzalarının payı təxminən 30%-ə qədər olmuşdur. Prof. T.T.Vəliyevin hesablamasına görə isə Şimali Azərbaycanın ümumi sənaye məhsulunda qəzaların xüsusi çəkisi 35-47%-ə bərabərdir [98, s. 46-47]. Bu statistik rəqəmlər bir

daha göstərir ki, tədqiq olunan dövrdə Şimali Azərbaycan qəzaları heç də geri qalmış, patriarxal-feodal qaydalarının hökm sürdüyü bölgələr olmamışdır. Şimali Azərbaycanın qəzalarında nəinki sənaye sahələri sürətli inkişaf mərhələsinə daxil olmuş, habelə kənd təsərrüfatının müxtəlif sahələrinə də kapitalist münasibətlərinin nufuz etməsi səviyyəsi yüksək olmuşdur.

## 1.3. Çarizmin vergi siyasətinin müstəmləkəçi xarakteri.

XIX əsrin başlanğıcında regionun böyük dövlətlərinin çəkişmə meydanına çevrilmiş Azərbaycan işğalçılıq müharibələri nəticəsində dövlət müstəqilliyini itirərək despotik şahlıq və çarlıq rejimlərinin hökm sürdüyü Iran və Rusiya imperiyalarının əsarəti altına düşdü. 1828-ci il Türkmənçay müqaviləsi ilə iki hissəyə parçalanmış Azərbaycanın şimal torpaqları çar Rusiyasının müstəmləkə sisteminə daxil edildi. Tarix boyu özünün zəngin təbii sərvətləri ilə bir çox işğalçıları cəlb edən Azərbaycan torpaqlarının bir hissəsi indi də Rusiya imperiyasının xammal bazasına və satış bazarına çevrildi.

Imperiyanın böyük dövlətçilik maraqlarına xidmət edən işğalçı rejimin məmurları sözün gerçək mənasında sümürgəcilik siyasəti yeridərək Şimali Azərbaycanın təbii sərvətlərini talan etmək, onun insan potensialının imkanlarından mümkün qədər çox fayda götürmək məqsədi ilə geniş miqyaslı müstəmləkəçilik planlarını reallaşdırmaq uğrunda xüsusi canfəşanlıqla fəaliyyətə girişdilər. Çar Rusiyasının Şimali Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasəti xalqımızın sosial, iqtisadi, milli, mədəni, ideoloji həyatının bütün sahələrini əhatə edirdi. Çarizmin Şimali Azərbaycanda yeritdiyi total müstəmləkəçilik siyasətinin mühüm istiqamətlərindən birini aqrar, habelə ağır vergi siyasəti təşkil edirdi. Onu da qeyd etmək lazımdır ki, işğalçı rejimin vergi siyasətini ümumilikdə müstəmləkə siyasətinin çoxşahəli konteksindən ayırmaq heç də doğru

olmazdı. Belə ki, işğal dövründə Rusiya imperiyasının Şimali Azərbaycanda həyata keçirdiyi köçürmə, ruslaşdırma, xristianlaşdırma, torpaq, sosial, ictimai və s. tədbirlər birbaşa yaxud, dolayısı yolla olsa da, müstəmləkə xarakterli vergi siyasətinə təsirsiz ötüşməmişdi.

Rusiya işğalından sonrakı 30 il ərzində çar hökuməti vergi və mükəllifiyyətlərin toplanılması qaydalarında demək olar ki, heç bir dəyişiklik etməyərək xanlıqlar dövründə mövcud olmuş vergi sistemini qüvvədə saxlamışdı. Bundan istifadə edən dövlət məmurları geniş miqyaslı özbaşınalıqlara əl ataraq kütləvi şəkildə qarətlə məşğul olurdular. 1847-ci il 20 aprel, 28 dekabr və 1870-ci il 14 may tarixli «Əsasnamə»lər sahibkar kəndlilərindən alınan vergi və mükəllifiyyətlər sistemində müəyyən qaydalar tətbiq etsə də, dövlət kəndlilərindən vergilərin yığılması üzrə müəyyənləşdirilmiş qaydalar kəndli təsərrüfatlarının rentabellik dərəcəsini nəzərə almamışdı.

Rusiyanın maliyyə naziri vergi islahatının hazırlanması ərəfəsində vergi sisteminin kapitalizm prinsipi əsasında həyata keçirilməsi zərurətini müdafiə edərək Qafqazda gəlir vergisinin tətbiq edilməsini ən münasib variant hesab etsə də qeyd edirdi ki, torpaq kadastrlarının tərtib edilmədiyinə görə bu formanı nəinki Qafqazda, hətta Rusiyanın mərkəzi quberniyalarında həyata keçirmək mümkün deyildir [80, v. 17]. Buna görə də, çar hökuməti Şimali Azərbaycan kəndliləri üzərində töycü və torpaq vergisini tətbiq edərkən kadastrlaşdırma – torpaqların ümumi sahəsinin, əkinə yararlı sahələrin ölçülməsi, kəndli təsərrüfatlarının, gəlir vermə dərəcəsinin müəyyənləşdirilməsi istiqamətində heç bir iş görməmişdilər.

Çar məmurları vergilərə cəlb etmək məqsədilə torpaqların sahəsini müəyyənləşdirmək üçün mərzləşdirmə komissiyalarının məlumatlarını əsas götürürdülər. 1862-ci ildən Qafqazda həyata keçirilməyə başlayan mərzləşdirmə siyasəti isə bütövlükdə vergi sisteminin tətbiq edilməsi üçün obyektiv əsas hesab edilə bilməzdi. Belə ki, mərzləşdirmə demək olar ki, səthi xarakter daşımaqla yanaşı, heç də bütün ərazilərdə başa çatdırılmamışdı.

Digər tərəfdən, mərzləşdirmə zamanı yalnız xəzinəyə məxsus torpaqların sərhədləri müəyyənləşdirilmiş, sahibkar və icma torpaqları isə mərzləşdirmə prosesindən kənarda qalmışdı. Bununla yanaşı torpaqların ədalətli vergi sisteminə cəlb edilməsinin əsas meyarlarından biri hesab edilən torpaqların ümumi və təmiz gəlirlilik səviyyəsinin təyin edilməsi istiqamətində isə heç bir iş görülməmişdi. Bu faktı təsdiq edən vergi müfəttişləri özləri də etiraf edirdilər ki, torpaqların gəlirvermə məbləği və dərəcələri haqqında heç bir statistik məlumatlar yoxdur [133].

Buna görə də dövlət töycü vergisini tətbiq edərkən yalnız təxmini hesablamaları əsas götürərək, bütün diqqəti xəzinə gəlirlərinin azalmasının qarşısının alınmasına yönəldirdi. Vergi və mükəllifiyyətlərin norma və dərəcələri faktiki olaraq saxta, gözəyarı məlumatlar əsasında tərtib olunurdu. Şimali Azərbaycan əhalisi üzərinə ağır vergi və mükəllifiyyətləri qoyan işğalçı rejim kəndli təsərrüfatlarının real imkanlarını bir kənara ataraq, bilavasitə dövlətin iqtisadi maraqlarını ön plana keçirirdi.

Şimali Azərbaycanın həm dövlət, həm də sahibkar kəndliləri Rusiya imperiyasının digər quberniyalarında məskunlaşmış kəndlilərə nisbətən daha ağır vergi və mükəllifiyyətlərlə yüklənmişdilər. Şimali Azərbaycanın sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən daha dözülməz vəziyyətdə idilər. Arxiv materiallarının məlumatlarına görə, XX əsrin əvvəllərində Şimali Azərbaycanın sahibkar kəndliləri Tiflis quberniyasının sahibkar kəndlilərindən 3,5 dəfə artıq vergi verirdilər. Hesablamalara görə, XIX əsrin sonu – XX əsrin əvvəllərində bir desyatin pay torpağına görə sahibkar kəndliləri Tiflis quberniyasında 3 rubl 63 qəpik vergi ödəyirdisə, Bakı quberniyasında bu rəqəm 7 rubl 38 qəpik, Yelizavetpol quberniyasında isə 12 rubl 12 qəpik təşkil edirdi [75, v. 6-7]. Bu fakt çarizmin vergi siyasətində də Qafqazın xristian və müsəlman əhalisinə münasibətdə ayrı-seçkilik, dini təəssübkeşlik maraqlarından çıxış etməsinin parlaq təzahürüdür. Şimali Azərbaycan kəndlilərinin vəziyyəti Rusiya imperiyasının mərkəzi quberniyalarında yaşayan kəndlilərlə

müqayisədə daha acınacaqlı halda idi. Müqayisə üçün qeyd edək ki, Şimali Azərbaycan kəndliləri mərkəzi Rusiya quberniyaları kəndlilərinə nisbətən 6-7 dəfə çox zemski və digər vergilər ödəyirdilər [133]. Yeri gəlmişkən, Cənubi Qafqazda zemstvo idarələrinin olmadığı halda əhalidən zemski vergilərinin toplanması çarizmin vergi siyasətinin mürtəceliyinə tutarlı bir sübutdur. Hələ ötən əsrin əvvəllərində bu məsələyə diqqət yetirən Azərbaycanın milli istiqlal hərəkatının lideri M.Ə.Rəsulzadə zemski vergilərini Cənubi Qafqaz üçün anormal bir hal kimi qiymətləndirmişdi [90, s. 277].

Şimali Azərbaycandakı quberniyalardan yığılan zemski vergilərinin xərclənməsi zamanı da hökumət orqanları müstəmləkəçi siyasət yeritməkdə davam edirdilər. M.Rəsulzadə bu barədə yazırdı: «Zemski idarələri olan quberniyalarda qaidə bundadır ki, hər quberniyaya olan məsarifat haman quberniyadan alınan gəlirdən verilir. Zaqafqaziyada isə qaidə bütün-bütünə əksinədir. Burada bir quberniyanın çıxarı o biri quberniyanın gəlirlərindən örtülüb getməkdədir» [90, s. 277]. Qeyd edilən faktı dövrün sənədli materialları da təsdiq edir. 1907-ci ilə aid olan rəsmi dövlət sənədində əksini tapmış məlumata görə, Bakı quberniyasının əhalisindən alınmış 1 milyon 800 min rubl məbləğində zemski vergisinin 40 %-i Mərkəzi Rusiya quberniyalarının, 60 %-i isə yerli dövlət aparatının saxlanılması xərclərinin ödənilməsinə sərf edilmişdi. Çox maraqlıdır ki, həmin ildə Rusiyanın mərkəzi quberniyalarında yığılmış zemski vergilərinin 80 %-i əhalinin sosial-iqtisadi, mədəni-maarif yönümlü ehtiyaclarının ödənilməsinə xərclənmişdi [67, v. 4].

1905-ci ildə qəbul edilmiş qanuna əsasən zemski vergilərinin toplanılmasından əldə edilmiş vəsait kəndlilərin ictimai ehtiyaclarının ödənilməsinə xərclənməli idi. Əslində isə zemski vergilərinin demək olar ki, çox cüzi bir hissəsi əhalinin ehtiyaclarına sərf edilir, əksər hissəsi isə onların istismarının daha da gücləndirilməsinə yönəldilirdi. Zemski vergilərinin 90 %-i Qafqaz hərbi polis aparatının saxlanılmasına xərclənirdi. 1905-ci ildə bütün Cənubi Qafqaz kəndlilərindən toplanılmış 2.681 min

zemski vergisinin 2.361 min rublu Qafqaz polis idarələrinin xərclərinin ödənilməsinə sərf edilmişdi. Kəndlilərdən toplanılan ictimai vergilərin 80%-i inzibati məqsədlərlə xərcləndiyi halda, kəndlilərin vəziyyətinin yüngülləşdirilməsi tədbirlərinə bu vəsaitin cəmi 0,5% vəsait ayrılmışdı [127, s. 80-81]. Cənubi Qafqazın digər quberniyalarına nisbətən Şimali Azərbaycandakı quberniyalarda oxşar mənzərə daha qabarıq şəkildə özünü göstərir. Bu baxımdan M.Rəsulzadənin 1909-1911-ci illər üçün Bakı quberniyasının zemski vergilərinin mədaxil və məxaric layihəsinə həsr etdiyi məqaləsi olduqca maraqlıdır. Layihə – smeta sənədlərindən aydın olur ki, çar hökumət orqanları 1909-1911-ci illər üçün Bakı quberniyası əhalisindən 1 milyon 900 min rubl məbləğində zemski vergiləri toplamağı planlaşdırırdılar [90, s. 278]. Bu məbləğin Bakı quberniyasında xərclənməsi aşağıda göstərilən sahələr üzrə belə bölüşdürülməli idi:

| | |
|---|---|
| 1) Hökumət idarələri xərcinə sırf etmək və zemski mühafizəsini saxlamaq üçün | 400.000 rubl; |
| 2) Zemski idarələrinin xərci | 2.000 rubl; |
| 3) Həbsxana təmir və binası | 15.000 rubl; |
| 4) Yollar və körpülər məxaricatı | 170.000 rubl; |
| 5) Maarif xərcləri | 40.000 rubl; |
| 6) Xeyriyyə idarələrinin xərcləri | 1.000 rubl; |
| 7) Hisseyi-tibbiyyə | 100.000 rubl; |
| 8) Hisseyi-baytariyyə | 3.000 rubl; |
| 9) Müxtəlif məxaricat | 3.000 rubl; |
| 10) Naməlum xərclər | 5.000 rubl [90, s. 279]. |

Layihədən göründüyü kimi, 1909-1911-ci illərdə Bakı quberniyasında toplanması nəzərdə tutulan 1.900 min rubl zemski vergisinin yalnız 739.000 rublu Bakı quberniyasının xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuş, quberniyadan alınması gözlənilən verginin 1.161 min rublu isə başqa quberniyaların ehtiyaclarına yönəldilməli idi [90, s. 279]. Onu

da qeyd etmək lazımdır ki, 1909-1911-ci illərdə Bakı quberniyasının ehtiyaclarına ayrılmış 739.000 rublun 417 min rublu quberniyada polis və hökumət orqanlarının saxlanılması, yalnız 322 min rublu əhalinin müxtəlif ehtiyacları üçün nəzərdə tutulmuşdu [90, s. 279]. Çar hökumətinin hərbi polis rejimi və bürokrat idarəetmə orqanlarının saxlanılması xərclərini əhalinin üzərinə yükləməsi işğalçı rejimin vergi siyasətinin müstəmləkəçi və mürtəce xarakterinin parlaq təzahürüdür.

Çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi vergi siyasətinin müstəmləkəçi xarakteri yerli əhali ilə köçürmə prosesi nəticəsində burada yerləşdirilmiş rus, erməni və almanlara münasibətdəki fərqlərdə özünü daha qabarıq göstərirdi. Məlumdur ki, işğalçı rejimi Şimali Azərbaycanda etnik və sosial dayaq yaratmaq, yerli əhalini ruslaşdırmaq, xristianlaşdırmaq məqsədi ilə bütün XIX əsr boyu və hətta XX əsrin əvvəllərində də köçürmə siyasətini intensiv surətdə davam etdirmişdi. Ən təxmini hesablamalara görə, 1834-1914-cü illər arasında Şimali Azərbaycana 210 min nəfərdən artıq rus köçürülmüşdü [135, s. 237-239]. 1822-1832-ci illərdə Iran və Osmanlı imperiyasından 100 mindən çox, 1893-1895 və 1909-1915-ci illərdə isə Kiçik Asiyadan 200 mindən çox erməni köçürülərək Şimali Azərbaycan ərazilərində məskunlaşdırılmışdı [127, s. 61]. Bəzi məlumatlara görə 80-90 il ərzində Şimali Azərbaycana 520 min nəfərə qədər əhali köçürülmüşdü ki, bu da Şimali Azərbaycan əhalisinin onsuz da acınacaqlı vəziyyətini daha da mürəkkəbləşdirmişdi. Tarixi faktlar göstərir ki, köçürülən əhali üçün yaradılmış torpaq fondu Şimali Azərbaycan kəndlilərinin torpaqlarının əllərindən zorla alınması nəticəsində formalaşdırılırdı. Hesablamalar göstərir ki, Şimali Azərbaycana köçürülmüş alman, erməni, rus əhalisinin pay torpaqları adambaşına təxminən 10-15 desyatin təşkil etdiyi halda, yerli kəndlilərin pay torpaqları orta hesabla adambaşına 0,4-1 desyatin təşkil edirdi [127, s. 58-59].

Birinci dünya müharibəsi ərəfəsində rus köçkünləri Şimali Azərbaycanın kənd əhalisinin 4-5 %-ni təşkil etdiyi halda

onların əllərində bütün kəndli pay torpaqlarının 23-25 %i cəmlənmişdi [61, v. 30]. Müstəmləkəçi rejimin sadiq məmurları Şimali Azərbaycan kəndlilərini köçürülmüş əhali üçün işləməyə, rus kəndlərində məktəb, xəstəxana, kilsə və s. kimi ictimai-iaşə obyektləri tikməyə məcbur edirdilər.

Çar hökuməti Şimali Azərbaycana köçürülmüş alman, erməni, rus əhalisinə meşələrdən, otlaq sahələrindən pulsuz istifadəyə icazə verdiyi halda [76, v. 3-5], yerli əhali bunun üçün xüsusi vergilər verməyə məcbur idilər. Belə ki, Qafqaz canişininin qərarı ilə 1872-ci ildən etibarən Zaqatala dairəsində yerli əhaliyə meşələrdən pulsuz istifadə qadağan edilmiş və meşədən tədarük olunan odun üçün vergi müəyyən edilmişdi. Əhalinin kəskin etirazından sonra, 1873-cü ildə şəxsi ehtiyaclar üçün tədarük olunan odun və taxta materialları üzərinə vergi qoyulmuşdu [87, s. 72]. Meşələrdən şəxsi ehtiyacların ödənilməsi üçün pulsuz istifadəyə icazə verilməsinə baxmayaraq dövlət məmurları bunun qarşısını müxtəlif əngəllərlə almağa çalışırdılar. Yerli əhali meşələrdən yığılan meyvə – şabalıd, qoz, fındıq və s. məhsulların hər kisəsi üçün 20 qəpik vergi verməli idi [87, s. 72].

Hökumət məmurları və onlarla əlbir olan mülkədarlar vergilərin toplanılması zamanı görünməmiş özbaşınalıqlara yol verirdilər. Bürokratik idarə aparatının məmurları vergi və mükəllifiyyətlərin yığılmasını özlərinin əsas gəlir mənbələrindən birinə çevirmişdilər. Onlar kəndlilərdən qanunda nəzərdə tutulduğundan bir neçə qat artıq vergi və mükəllifiyyətlərin yerinə yetirilməsini tələb edirdilər. Vəziyyət o həddə çatmışdı ki, vergilərin yığılması ilə təkcə vergi məmurları deyil, hətta dəftərxana katibləri, hakimlər və s. kimi dövlət qulluqçuları da məşğul olurdular. Bunu bəzi dövlət işçilərinin rəsmi məlumatları da təsdiq edir. Yelizavetpol qəzasının münsüfi öz rəsmi hesabatında etiraf edirdi: «Yerli hakimiyyət orqanlarının gəlirlərinin ən mühüm hissəsini xəzinə vergilərinin toplanılması təşkil edir. Cəsarətlə demək olar ki, Yelizavetpol qəzasının tatarları nəzərdə tutulduğundan (Azərbaycan türkləri – R.M.) ən

azı beş dəfə artıq vergi ödəyirlər. Kənd hakimlərindən başlayaraq bütün vəzifəli şəxslər vergilərin toplanılması ilə məşğul olurlar. Vergiləri könüllü verməyənləri şallaqla döyürlər» [74, v. 4].

Çar hökumətinin vergi və mükəllifiyyətlərin toplanmasını nizamlamaq, vergi sistemində qayda-qanun yaratmaq cəhdləri tamamilə uğursuzluğa düçar olmuşdu. Vergi müfəttişlərinin etirafına görə, vergi toplanılması qaydaları demək olar ki, hər yerdə kütləvi şəkildə pozulur, əhali çoxlu sayda qeyri-qanuni mükəllifiyyətlər yerinə yetirməyə məcbur edilir, kəndin inzibati orqanları kəndlilərdən alınan vəsaiti mənimsəyir, vergilərin yığılmasının qeydiyyata alınması həyata keçirilmirdi. Vergilərin kənd icmaları arasında mexaniki bölüşdürülməsi əksər hallarda xoşagəlməz nəticələr verir, vergi yükünün mütləq əksəriyyətinin yoxsul əhalinin üzərinə yüklənməsinə gətirib çıxarırdı. Kəndin varlı təbəqələri içərisindən seçilən ağsaqqallar və kəndxudalar bərabərlik prinsiplərinə riayət etmədən torpaq sahələri və vergiləri əhali arasında istədikləri kimi bölüşdürürdülər.

Vergi qanunvericiliyinə əsasən, vergi məmurları vergi və mükəllifiyyətlərin yığılması zamanı qəbz verməli olduqları halda çox vaxt bilərəkdən buna əməl etmirdilər. Bu xüsusda vergi məmurları ilə kəndlilər arasında tez-tez qarşıdurmalar əmələ gəlir və əhali yenidən vergi verməyə məcbur edilirdi.

Rəsmi dövlət sənədlərində əksini tapmış statistik rəqəmlər heç də əhalidən alınan vergilərin ümumi məbləğini tam dolğunluğu ilə əks etdirmir. Belə ki, qanunvericilikdə müəyyən edilmiş rəsmi vergilərdən əlavə əhalidən bir sıra qeyri-qanuni vergi və mükəllifiyyətlər də alınırdı. Qeyri-qanuni yığılan vergilər qeydiyyata alınmadığı üçün onların miqdarı haqqında konkret fikir söyləmək mümkün olmasa da, tədqiqatçılar Şimali Azərbaycanda bu qəbildən olan vergilərin rəsmi vergilərdən bir neçə dəfə artıq olduğunu göstərirlər [127, s. 94].

Vergi toplanılan zaman çıxılmaz vəziyyətə düşən kəndlilər sələmçilərdən çox yüksək faizlərlə borc götürmək məcburiyyətinə qalmaqla ikitərəfli istismar altına düşürdülər.

Sələmçilər verilən bir manat üçün, ildə 60-70 qəpik faiz tələb edirdilər. Alınmış borcu ödəyə bilmədiyinə görə kəndlilərin borcu ildən-ilə artaraq böyük məbləğ təşkil edir və nəticədə onlar alınmış borc və onun faizləri müqabilində torpaq sahələrini, bağlarını, hətta evlərini belə itirmək təhlükəsi ilə üzləşirdilər.

Çarizmin Şimali Azərbaycan kəndlərində həyata keçirdiyi ağır vergi siyasəti, vergi məmurlarının özbaşınalıqları, hakimiyyət orqanlarında kütləvi rüşvətxorluq və vəzifələrdən sui-istifadə hallarının genişlənməsi kəndli çıxışlarının güclənməsinə səbəb olurdu. Müstəmləkə rejiminin ağır zülmünə dözə bilməyən Şimali Azərbaycan kəndliləri öz etirazlarını müxtəlif formalarda – ərizələr, şikayətlər, dövlətə və xüsusi şəxslərə məxsus meşələrin kütləvi qırılması, malikanələrin yandırılması, açıq üsyanlar şəklində nümayiş etdirirdilər. Kəndlilərin mübarizə üsullarından biri də vergi və mükəllifiyyətlərin yerinə yetirilməsindən imtina edilməsi idi. Kəndlilər vergilər verməkdən imtina edərək bir çox hallarda vergiləri toplamağa göndərilmiş hakimiyyət nümayndələrinə qarşı silahlı müqavimət göstərirdilər.

XX əsrin əvvəllərində çarizmin vergiləri artırmasından sonra Şimali Azərbaycanda kəndli çıxışlarının sayı artmış, xüsusilə də 1905-1907-ci illər birinci rus inqilabı dövründə kütləvi xarakter almışdı. Arxiv materialları və tədqiqat əsərlərində Şimali Azərbaycan kəndlilərinin vergi verməkdən imtina etməsi, vergi məmurları və hökumətin silahlı qüvvələrinə qarşı çıxışları haqqında çoxsaylı faktların əksini tapması, araşdırılması bunu bir daha sübut edir [127, s. 122-247; 82, s. 197-219; 84, s. 209-230 və s.].

Qeyd edilən faktlar göstərir ki, çarizmin Cənubi Qafqazda, xüsusilə də Şimali Azərbaycanda yeritdiyi dözülməz vergi siyasəti bütövlükdə işğalçı rejimin müstəmləkəçilik sisteminin tərkib hissəsi olmuşdu. Çar hökumətini müstəmləkə əhalisinin taleyi qəti şəkildə maraqlandırmırdı. Vergi siyasətinin konturlarını hazırlayan çar məmurlarını, yalnız bir şey –

özlərinin şəxsi maraqları və xəzinə gəlirlərini hansı yolla olursa-olsun artırmaq maraqlandırır. Məhz bunun nəticəsi idi ki, müstəmləkə rejimi Şimali Azərbaycanda yalnız hərbi – polis sisteminin süngüləri hesabına duruş gətirirdi.

# II F Ə S I L

# XIX ƏSRIN II YARISI VƏ XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ŞIMALI AZƏRBAYCAN KƏNDINDƏ ÇARIZMIN VERGI SIYASƏTI

## 2.1. Şimali Azərbaycan kəndlilərinin torpaq təminatı.

Tədqiq olunan dövrdə Şimali Azərbaycan kəndində vergi sisteminin araşdırılmasında mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də kəndlilərin torpaqla təminatıdır. Belə ki, Şimali Azərbaycan kəndində əsas vergi subyektləri olan kəndlilərin başlıca vergi ödəyicilik meyarlarından biri məhz onların torpaqla təminatı məsələsidir. Şimali Azərbaycan kəndlilərinin torpaqla təminatı məsələsi bir çox tədqiqatçıların [214; 169; 102; 95; 137; 221; 93 və s.] diqqətini cəlb etsə də, bu problem hələ də hərtərəfli öyrənilməmişdir. Kəndlilərin torpaqla təminatına yer ayıran müəlliflərin demək olar ki, əksəriyyəti bu məsələyə müxtəlif problemlərin həlli ilə əlaqədar toxunmuşlar.

Şimali Azərbaycanda torpaq mülkiyyətinin üç forması mövcud idi:

1) Dövlət – xəzinə torpaqları;
2) Xüsusi sahibkar torpaqları. Bu torpaq mülkiyyəti əsasən iki hissədən ibarət idi: sahibkar kəndlilərinin istifadəsində olan bəy-mülkədar torpaqlarından və bəy-mülkədarların bilvasitə öz istifadəsində olan, ayrı-ayrı kəndlilərə və qolçomaqlara məxsus olan torpaqlardan;
3) Dini idarələr – məscidlərə, pirlərə, kilsələrə və din xadimlərinə məxsus olan vəqf torpaqları [50, s. 261; 82,

s. 196; 137, s. 58].

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına qədər də mövcud olan xəzinə torpaqları işğaldan sonrakı dövrdə keçmiş xan torpaqlarının, siyasi baxımdan savadsız bəylərin, öz torpaq mülkiyyəti hüquqlarını sübut edə bilməyən məmur və müsəlman ruhanilərinin torpaqlarının müsadirəsi nəticəsində daha da genişlənmişdi [50, s. 261; 82, s. 196; 137, s. 58]. Xəzinə torpaqları 6,7 mln. desyatinə bərabər olub, Şimali Azərbaycanın bütün torpaq fondunun 83%-ni təşkil edirdi [50, s. 261]. Xəzinə torpaqlarının təxminən 4,5 mln. desyatini bilavasitə xəzinənin öz ixtiyarında olaraq otlaqlardan, örüşlərdən, meşəliklərdən, az miqdarda əkin sahələrindən, müxtəlif faydalı qazıntı yataqlarından və yararsız torpaqlardan ibarət idi [50, s. 261].

Qeyd etmək lazımdır ki, torpaq sahələrinin həcmi ilə əlaqədar olaraq müxtəlif tarixi ədəbiyyatlarda fərqli rəqəmlərlə rastlaşmaq mümkündür. Bu rəqəmlərdən bəzilərini nəzərdən keçirək. Yeddicildlik «Azərbaycan tarixi»nin 4-cü cildindəki məlumata əsasən, bütün xəzinə torpaqlarının 2,2 mln.desyatini pay torpağı kimi xəzinə kəndlilərinin istifadəsində idi [50, s. 261]. Prof.M.Ə.Ismayılovun fəikrincə, XIX əsrin 80-cı illərində Bakı qəzası, Quba qəzasının cənub hissəsi istisna olmaqla dövlət kəndlilərinin ixtiyarında 1.564.421 desyatin torpaq sahəsi var idi [82, s. 197]. Müəllif I.L.Seqala istinadən göstərir ki, 1912-ci ildə Bakı, Yelizavetpol quberniyaları və Zaqatala dairəsində dövlət kəndlilərinin istifadəsində olan torpaqların sahəsi 2.178.991 desyatinə çatırdı [82, s. 197]. T.e.d.Ə.A.Umayev isə dövlət kəndlilərinin istifadəsində 2 mln. desyatindən çox torpaq sahəsinin olduğunu göstərmişdir [228, s. 116]. S.P.Ağayan 1912-ci ildə təkcə Yelizavetpol və Bakı quberniyalarında dövlət kəndlilərinin ixtiyarında 2.047.679 desyatin torpaq sahəsinin olduğunu yazırdı [102, s. 214]. Bu rəqəmə Zaqatala dairəsi və Naxçıvan qəzasındakı dövlət kəndlilərinin ixtiyarında olan xəzinə torpaqlarını əlavə etsək, onda dövlət kəndlilərinə məxsus torpaqların ümumi sahəsinin 2,2 mln. desyatindən də çox olduğu heç bir şübhə doğurmur. Başqa bir misal. Azərbaycan tarixinin

4-cü cildində göstərilir ki, xəzinəyə məxsus meşələrin sahəsi 900 min desyatinə çatırdı [50, s. 261]. S.P.Ağayanın məlumatına görə isə, Şimali Azərbaycandakı bütün meşəliklərin ümumi sahəsi 893.314 desyatinə bərabər idi ki, onun 662.494 desyatini xəzinənin, 230.820 desyatini isə sahibkarların ixtiyarında idi [102, s. 214]. Bu cür fərqli rəqəmlərə digər kateqoriyalardan olan torpaqlarla əlaqədar olaraq da rast gəlmək mümkündür. 2,2 mln. desyatindən çox pay torpağı ilə yanaşı xəzinə kəndlilərinin bilvasitə öz ixtiyarında 71 min desyatin əkin, bostan və bağ torpaqları var idi [50, s. 262]. Xəzinə torpaqlarının böyük bir hissəsini (təxminən 2 mln. desyatin) otlaq və örüş sahələri, bir hissəsini meşəliklər (təxminən 900 min desyatin), bir qismini isə töycü torpaqları təşkil edirdi. Əkinçilik üçün yararlı olub, rəsmi sənədlərdə «obroçnaə statğə» adlanan töycü torpaqları Şimali Azərbaycan üzrə 64,5 min desyatin təşkil edir və bu torpaqlar hərrac yolu ilə icarəyə verilirdi [137, s. 60].

Xəzinə torpaqlarından sonra Şimali Azərbaycan torpaqlarının mühüm hissəsi sahibkar torpaqları kateqoriyasına daxil idi. Xüsusi sahibkar torpaqları təxminən 1,3 mln. desyatinə bərabər olub, Şimali Azərbaycanın bütün torpaq fondunun 16%-ni təşkil edirdi [50, s. 262]. Xüsusi torpaq sahibliyi 1846-cı il 6 dekabr reskriptinə görə bəylərin, ağaların və məliklərin xüsusi mülkiyyəti kimi tanınmış şəxsi torpaqları əhatə edirdi [203, №20672]. Imtiyazlı təbəqələrlə yanaşı xüsusi torpaq mülkiyyətçiləri içərisində kəndlilər də var idi. XIX əsrin 80-cı illərinin ortalarında kəndilərin xüsusi mülkiyyətində 16-18 min desyatin torpaq sahəsi var idi [211, s. 96-97].

Tədqiq olunan dövrdə Şimali Azərbaycanda vəqf torpaqlarının həcmi haqqında konkret məlumatlar əldə etmək mümkün deyildir. Lakin 1920-ci ilə aid olan məlumatlara əsasən Şimali Azərbaycanda erməni-qriqoryan kilsəsinin ixtiyarında 47.627 desyatin əkinə yararlı torpaq və 2591 desyatin meşəlik, pravoslav dini idarəsinə məxsus 26,5 min desyatin yararlı torpaq və 125 desyatin meşəlik, müsəlman dini idarələrinin sərəncamında isə 60 min desyatin yararlı torpaq və 3000

desyatin meşəlik sahəsi cəmlənmişdi [137, s. 66].

Şimali Azərbaycanın ümumi torpaq fondunun həcmi, torpaq mülkiyyətinin formaları haqqında qısa və ümumi xarakterli məlumat verdikdən sonra, bu torpaqların əsas vergi daşıyıcıları arasında bölüşdürülməsi və torpaqdan istifadə qaydaları haqqında nisbətən ətraflı məlumatları nəzərdən keçirək.

Artıq qeyd edildiyi kimi, Şimali Azərbaycan kəndində əsas vergi subyektləri kəndlilərdən ibarət idi. Şimali Azərbaycan kəndliləri isə əsasən iki kateqoriyadan – dövlət (xəzinə) və xüsusi sahibkar kəndlilərindən ibarət idi.

Tədqiq olunan dövrdə Şimali Azərbaycan kəndlilərinin böyük əksəriyyətini dövlət kəndliləri təşkil edirdi. Dövlət kəndlilərinin torpaqla təminatı məsələsinin araşdırılmasında mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri onların sayının müəyyənləşdirilməsindən ibarətdir. Tarixi ədəbiyyatda dövlət kəndlilərinin sayı ilə əlaqədar öz əksini tapmış bəzi məlumatları nəzərdən keçirək. Yeddlicildlik «Azərbaycan tarixi»nin 4-cü cildindəki məlumata əsasən, Şimali Azərbaycanda dövlət kəndlilərinin sayı 988.916 nəfərə çatırdı ki, onlar bütün kənd əhalisinin 60%-ni təşkil edirdi [50, s. 262]. Prof. M.Ə.Ismayılov rəsmi məlumatlara istinad edərək tədqiqatlarının birində Şimali Azərbaycanda yaşayan bütün kəndlilərin 80%-nin [82, s. 196], digərində isə 70-75%-nin [137, s. 58] dövlət kəndlilərindən ibarət olduğunu göstərmişdir. Akad. Ə.S.Sumbatzadənin araşdırmasına əsasən, Cənubi Qafqazda yaşayan 1.671,2 min xəzinə kəndlisindən 775.6 min nəfəri və yaxud 46,4%-i Bakı və Yelizavetpol quberniyalarında yaşayırdılar [221, s. 107]. Müəllifin fikrincə, bu rəqəmin üzərinə Naxçıvan qəzası və Zaqatala dairəsində yaşayan dövlət kəndlilərini də əlavə etsək Şimali Azərbaycanda yaşayan dövlət kəndlilərinin sayı 800 mindən az olmamalıdır [221, s. 107]. T.e.d.Ə.A.Umayevin hesablamalarına görə isə, Şimali Azərbaycanda dövlət kəndlilərinin sayı 786.137 nəfərdən ibarət olmuşdur [228, s. 116]. Tarixi ədəbiyyatlarda dövlət kəndlilərinin sayı ilə bağlı fərqli rəqəmlərin olması, çox

ehtimal ki, həmin məlumatların müxtəlif illərə aid olması, həmçinin Zaqatala dairəsi və Naxçıvan qəzasında yaşayan dövlət kəndlilərinin statistik məlumatlardan kənarda qalması ilə bağlı olmuşdur. Dövlət kəndlilərinin böyük bir hissəsi Bakı quberniyası ərazisində məskunlaşmışdı. Senator Kuzminskinin 1905-ci ildə Bakı quberniyasında keçirdiyi təftişlə əlaqədar hazırladığı hesabatına əsasən, Bakı quberniyasındakı kəndlilərin 84,5%-ni dövlət kəndliləri təşkil edirdi [117, s. 439]. 1911-ci ilə aid statistik məlumatlara görə isə, Bakı quberniyasında qeydə alınmış 85.994 kəndli təsərrüfatından 71.046-sı, 647.320 nəfərdən ibarət kənd əhalisinin isə 538.420 nəfərini [211, s. XIII-XIV] dövlət kəndliləri təşkil edirdi. Yelizavetpol quberniyasında yaşayan kənd əhalisinin təxminən 60%-i dövlət kəndlilərindən ibarət idi [137, s. 58].

Yuxarıda qeyd edildiyi kimi, Şimali Azərbaycanın dövlət kəndlilərinin istifadəsində təxminən 2,2 mln. desyatindən çox torpaq sahəsi var idi. Lakin bu torpaq fondu kəndlilər arasında qeyri-bərabər bölüşdürülmüşdü. XIX əsrin II yarısı və xüsusilə də XX əsrin əvvəllərində Şimali Azərbaycanın hər iki kateqoriyadan olan kəndliləri üçün torpaqsızlıq yox, əsasən aztorpaqlılıq xarakterik xüsusiyyət olaraq qalırdı. 1847-ci il [50, s. 123] və 1870-ci il [152, s. 402-403] «Əsasnamə»lərinə uyğun olaraq on beş yaşından yuxarı hər bir kişiyə ayrılan pay torpağının minimum həddi 5 desyatin müəyyənləşdirilmişdi. Təəssüf ki, bu qaydalar yalnız kağız üzərində qalmış, əslində isə Şimali Azərbaycan kəndlilərinin əksəriyyəti müəyyənləşdirilmiş normadan çox aşağı torpaq sahəsi ilə razılaşmaq məcburiyyətində qalmışdır. XIX əsrin 80-ci illərində Şimali Azərbaycanın Yelizavetpol və Bakı quberniyalarının dövlət kəndlilərinin torpaqla təminatını nəzərdən keçirmək üçün I.L.Seqalın məlumatları əsasında M.Ə.Ismayılovun tərtib etdiyi cədvələ [214, s. 72-74; 137, s.98] nəzər salaq (bax: cədvəl №5).

Müəllifin hazırladığı ikinci cədvəl Bakı və Yelizavetpol quberniyalarının dövlət kəndlilərinin adambaşına düşən pay torpağını əks etdirir (bax: cədvəl №6) [214, s. 72-74; 137, s.98].

### *Cədvəl №5*

Şimali Azərbaycanda pay torpağı düşən kəndlərin sayı

| Hər ailəyə düşən pay torpağı | | | |
|---|---|---|---|
| Quberniyalar | Bakı | Yelizavetpol | Cəmi |
| Bütün kəndlər | 1077 | 708 | 1785 |
| 0 desyatin | 31 | 7 | 38 |
| 0,5 –1 desyatin | - | - | - |
| 1 – 2 desyatin | 6 | 2 | 8 |
| 2-3 desyatin | 7 | 6 | 13 |
| 3 – 4 desyatin | 13 | 10 | 23 |
| 4 – 5 desyatin | 12 | 2 | 14 |
| 5 – 6 desyatin | 40 | 10 | 50 |
| 6 – 7 desyatin | 44 | 23 | 67 |
| 7 – 8 desyatin | 38 | 18 | 56 |
| 8 – 9 desyatin | 36 | 22 | 58 |
| 9 – 10 desyatin | 82 | 33 | 115 |
| 10-11 desyatin | 107 | 96 | 203 |
| 12 – 14 desyatin | 91 | 69 | 160 |
| 14 – 16 desyatin | 92 | 55 | 147 |
| 16 – 18 desyatin | 89 | 57 | 146 |
| 18 – 20 desyatin | 68 | 47 | 115 |
| 20 – 25 desyatin | 140 | 94 | 234 |
| 25 – 30 desyatin | 59 | 58 | 117 |
| 30 – 40 desyatin | 63 | 46 | 109 |
| 40 – 50 desyatin | 42 | 28 | 70 |
| 60 – 100 desyatin | 19 | 11 | 30 |
| 100 – 200 desyatin | 3 | 3 | 6 |
| 100 – 450 desyatin | - | - | - |

### *Cədvəl № 6*

Bakı və Yelizavetpol quberniyalarının dövlət kəndlilərinin adambaşına düşən pay torpağı

| Quberniyalar | Bakı | Yelizavetpol | Cəmi |
|---|---|---|---|
| Kəndlər | 1077 | 708 | 1785 |
| 0 desyatin | 31 | 7 | 38 |
| 0 – 0,25 desyatin | 2 | 1 | 3 |
| 0,25 – 0,50 desyatin | 10 | 6 | 16 |
| 0,5 – 1 desyatin | 103 | 64 | 167 |
| 1 – 2 desyatin | 359 | 195 | 554 |
| 2-3 desyatin | 230 | 186 | 416 |
| 3 – 4 desyatin | 116 | 129 | 245 |
| 4 – 5 desyatin | 101 | 54 | 155 |
| 5 – 6 desyatin | 50 | 27 | 77 |
| 6 – 7 desyatin | 19 | 10 | 29 |
| 7 – 8 desyatin | 18 | 6 | 24 |
| 8 – 9 desyatin | 12 | 6 | 18 |
| 9 – 10 desyatin | 4 | 4 | 8 |
| 10-17 desyatin | 7 | 6 | 13 |
| 12 – 14 desyatin | 2 | 4 | 6 |
| 14 – 16 desyatin | 6 | - | 6 |
| 16 – 18 desyatin | 3 | - | 3 |
| 18 – 20 desyatin | - | - | - |
| 20 – 24 desyatin | 1 | - | 1 |
| 24 – 30 desyatin | 1 | - | 1 |
| 30 – 40 desyatin | - | 1 | 1 |
| 40 – 50 desyatin | - | - | - |
| 50 – 70 desyatin | - | - | - |

6-cı cədvəlin birinci hissəsindən göründüyü kimi, Şimali Azərbaycanın Yelizavetpol və Bakı quberniyalarının 38 dövlət

kəndinin əhalisi torpaqsız, 8 kənddə hər ailəyə orta hesabla 1–2 desyatin, 13 kənddə 2–3 desyatin, 14 kənddə 4–5 desyatin, 50 kənddə 6–7 desyatin və s. torpaq payı olmuşdur. Hər evin ailə üzvlərinin sayının orta hesabla 5 nəfərdən ibarət olduğunu qəbul etsək görərik ki, 1785 dövlət kəndindən yalnız 566 kəndin əhalisi adambaşına 5 desyatin və daha artıq torpaq sahəsinə malik olmuşdur. Cədvəlin ikinci hissəsi Şimali Azərbaycandakı iki quberniyanın dövlət kəndlilərinin torpaqla təminatı haqqında əyani təsəvvür yaradır. 1847 və 1870-ci il «Əsasnamə»lərinə müvafiq olaraq hər kəndli üçün orta torpaq normasının 3-5 desyatin çərçivəsində olduğunu qəbul etsək, onda görərik ki, 1785 dövlət kəndindən 1194 kəndin əhalisi az torpaqlılıqdan əziyyət çəkirdi.

Cədvəldə öz əksini tapmış rəqəmlər dövlət kəndlilərinin torpaqla təminatı haqqında heç də dolğun təsəvvür yaratmır. Belə ki, dövlət kəndlərinin tarixini tədqiq edən müəlliflər dövlət kəndlilərinin adambaşına düşən torpaq payının ölçülərini müəyyənləşdirərkən pay torpağının tərkibinə daxil olan bütün torpaq növlərini (əkin üçün yararlı, otlaq, yararsız və s.) bölgüyə daxil etmişlər [137, s.

***Cədvəl №7***

Dövlət kəndlilərinin torpaqla təminatı səviyyəsi

| Quberniya və qəzalar | Hər iki cinsdən olanların ümumi sayı | Torpaqsızlar | | Hər iki cinsdən olanların torpaq payı | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ailələrin sayı | əhalinin sayı | ½ desyatinə qədər | ½ des-dən 1 desyatinə qədər | 1-2 des. | 2-3 des. | 3-5 des. | 5-7 des. | 7-10 des. | 10-15 des. | 15 des.-dən çox |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| Bakı quberniyası | 430635 | 2180 | 9529 | 5490 | 56379 | 155435 | 90120 | 80811 | 23861 | 5319 | 3101 | 590 |
| Bakı qəzası | 49097 | - | 1919 | - | 5640 | 22284 | 6166 | 10969 | 3565 | 473 | - | - |
| Göyçay qəzası | 49456 | 629 | 4287 | 308 | 9032 | 14810 | 11796 | 7791 | 4119 | 946 | 25 | - |
| Cavad qəzası | 54714 | - | - | 395 | 6083 | 15811 | 16638 | 12193 | 3105 | 186 | 179 | 124 |
| Quba qəzası | 116783 | - | 1912 | 1140 | 12574 | 47714 | 33627 | 19593 | 1147 | 717 | 162 | 109 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Lənkəran qəzası | 87011 | - | 488 | 1759 | 18962 | 39322 | 9936 | 8569 | 6628 | 787 | 989 | 59 |
| Şamaxı qəzası | 66225 | 1551 | 923 | 1888 | 4088 | 15494 | 11957 | 21696 | 5297 | 2210 | 1746 | 298 |
| Yelizavetpol quberniyası | 350276 | 728 | 3139 | 8820 | 41924 | 122055 | 83404 | 58161 | 17822 | 7750 | 6589 | 612 |
| Yelizavetpol qəzası | 49970 | 605 | | - | - | 6884 | 14536 | 14249 | 7374 | 3456 | 2254 | 612 |
| Ərəş qəzası | 31426 | - | - | 365 | 593 | 8095 | 8301 | 11609 | 2185 | 278 | - | - |
| Cəbrayıl qəzası | 18658 | 20 | 198 | 3226 | 6960 | 3482 | 3215 | 1338 | 207 | 210 | - | - |
| Cavanşir qəzası | 18016 | - | 517 | - | 973 | 2106 | 3679 | 6440 | 1653 | 1212 | 1953 | - |
| Zəngəzur qəzası | 70015 | - | - | - | 1191 | 32266 | 28560 | 7223 | 775 | - | - | - |
| Qazax qəzası | 50024 | - | 1275 | 2839 | 16302 | 23220 | 4049 | 3029 | 522 | - | 63 | - |
| Nuxa qəzası | 76112 | - | 1075 | 2282 | 9390 | 39530 | 14013 | 8157 | 2257 | 403 | 80 | - |
| Şuşa qəzası | 33644 | 103 | 74 | 108 | 6515 | 6472 | 7051 | 6116 | 2849 | 2191 | 2239 | 1 |

97]. Əslində isə dövlət kəndlilərinin istifadəsində olan pay torpaqlarının təxminən yarısı yararsız sahələr və otlaqlardan ibarət idi. Belə ki, Bakı quberniyasında dövlət kəndlilərinin istifadəsində olan 978.356 desyatin torpağın 404.531 desyatini, Yelizavetpol quberniyasındakı 846.642 desyatinin isə 395.283 desyatini əkin üçün yararsız torpaqlardan ibarət idi [137, s. 97]. Digər tərəfdən, dövlət kəndlilərinin torpaqla təminatı ilə bağlı orta rəqəmlərin çıxarılması heç də o demək deyildir ki, onların hamısı təxminən bərabər miqdarda torpaq sahəsinə malik olmuşdur. Onların böyük əksəriyyəti torpaqsız və ya az torpaqlı idilər, cüzi bir hissəsi isə böyük torpaq sahələrindən istifadə edirdilər. XIX əsrin sonunda Bakı və Yelizavetpol quberniyalarında torpaqsız və aztorpqlı dövlət kəndlilərinin vəziyyətini təsəvvür etmək üçün prof. M.Ə.Ismayılovun tərtib etdiyi cədvəli nəzərdən keçirək:

Iki desyatinə qədər torpaq sahəsi olanları aztorpaqlı, 2-7 desyatin torpağı olanları ortabab, 7 desyatin və daha artıq torpaq sahəsi olanları varlı kəndlilər kateqoriyasına şamil edən prof. M.Ə.Ismayılovun cədvəl əsasında gəldiyi qənaətə əsasən, hər iki cinsdən olub ümumi sayı 780.911 nəfərə çatan kəndlilərin 12.668-i torpaqsız, 390.103-ü aztorpaqlı, 354.179-ü ortabab və

23.961-i varlı kəndlilərdən ibarət olmuşdur [137, s. 100-101]. Onu da qeyd etmək lazımdır ki, tarixi ədəbiyyatda dövlət kəndlilərinin torpaqla təminatı ilə bağlı da bir-birindən fərqli rəqəmlər öz əksini tapmışdır. Belə ki, akad. Ə.S.Sumbatzadənin araşdırmalarına görə, XIX əsrin 90-cı illərində Yelizavetpol quberniyasında orta hesabla hər bir ailəyə 18,29 desyatin, adambaşına 2,56 desyatin, Bakı quberniyasında isə müvafiq olaraq 16,29 desyatin və 2.47 desyatin torpaq sahəsi düşürdü [221, s. 107]. Müəllifin fikrincə, köçmə maldarlıqla məşğul olan dövlət kəndlilərinin torpaqla təminatı oturaq dövlət kəndlilərinə nisbətən daha yüksək idi. Akad. Ə.S.Sumbatzadənin məlumatına əsasən, Bakı quberniyasının köçmə maldarlıqla məşğul olan dövlət kəndlilərinin orta hesabla hər ailəsinə 27,15 desyatin, adambaşına 4,47 desyatin, Yelizavetpol quberniyasında isə müvafiq olaraq 30,43 desyatin və 4,58 desyatin torpaq sahəsi düşürdü [221, s. 107]. Müəllif bu fərqi belə dövlət kəndlilərinin yaylaq-qışlaq maldarlığı ilə məşğul olduqları üçün geniş otlaq sahələrinə olan ehtiyacları ilə əlaqələndirmişdir [221, s. 108]. Yeddicildlik «Azərbaycan tarixi»nin 4-cü cildində verilən məlumata görə, XIX əsrin 80-cı illərinin ortalarında hər birinə 2 desyatinə qədər pay torpağı düşən dövlət kəndlilərinin sayı 394 minə çatırdı ki, bu da bütün dövlət kəndlilərinin 50%-ni təşkil edirdi [50, s. 262-263]. Ə.A.Umayevin hesablamalarına görə isə, XIX əsrin 80-cı illərinin ortalarında Yelizavetpol, Bakı quberniyaları və Naxçıvan qəzasında olan 786.137 nəfər dövlət kəndlilərinin 394.100 nəfəri və ya bütün dövlət kəndlilərinin 50%-i adambaşına 2 desyatin, 324.572 nəfəri və ya bütün dövlət kəndlilərinin 41,1% 2-5 desyatin, 67.465-nəfəri və ya bütün dövlət kəndlilərinin 8,55%-i adambaşına 5-desyatindən artıq torpaq sahəsinə malik idilər [228, s. 116-117].

Biz artıq dövlət kəndlilərinin istifadəsində olan pay torpaqlarının heç də hamısının əkinə yararlı torpaq olmadığını qeyd etmişik. Hesablamalara görə, bütün dövlət kəndilərinin yarısının istifadəsində 269 min desyatin əkin torpağı olmuşdur [50, s. 263]. Orta hesabla hər bir nəfərə düşən əkin torpağının

sahəsi Naxçıvan qəzasında 0,33, Cəbrayıl qəzasında 0,38, Cavad qəzasında 0,44, Lənkəran qəzasında 0,71 desyatin təşkil edirdi [50, s. 263]. Sayı 115 min nəfərə çatan ən yoxsul kəndlilərin hər birinə düşən əkinə yararlı torpağın sahəsi 0,0015-0,49 desyatin arasında tərəddüd edirdi [50, s. 263]. Hər birinə 2-5 desyatin pay torpağı düşən 325 min ortabab dövlət kəndlilərinin əlində pay-əkin torpaqlarının 53%-i və ya 474 min desyatin torpaq sahəsi cəmlənmişdi [228, s. 116]. Adambaşına 5 desyatindən çox pay torpağı düşən varlı dövlət kəndliləri, bütün dövlət kəndlilərinin 9%-ni (67,5 min nəfər) təşkil etsələr də, dövlət kəndlilərinin ümumi pay torpaq fondunun 25,8%-i (523 min desyatin) [228, s. 117; 50, s. 213] onların ixtiyarında idi. Şimali Azərbaycanda dövlət kəndlilərinin pay torpaqlarının azalması və torpaqsızlaşması prosesi getdikcə güclənməkdə idi. Bu faktı statistik rəqəmlər də təsdiq edir. Belə ki, XIX əsrin 90-cı illərində Bakı quberniyasında 2 desyatinə qədər pay torpaq sahəsi olan dövlət kəndlilərinin sayı 217.204 nəfər idisə [137, s. 100-101], 1905-ci ildə artıq bu rəqəm 258.416-ya çatmışdı [129, s. 40-43]. XX əsrin əvvəllərinə olan məlumata əsasən Bakı quberniyasının 1077 dövlət kəndindən 31 kəndin əhalisi torpaqsız, 10 kəndin əhalisinin orta hesabla 0,25 – 0,5 desyatin, 103 kəndin əhalisinin 0,5-1 des., 25 kəndin əhalisinin 1-2 des., 230 kəndin əhalisinin istifadəsində isə 2-3 desyatin pay torpaq sahəsi var idi [214, s. 74; 84, s. 209]. Yelizavetpol quberniyasında olan 708 dövlət kəndindən 27 kəndin əhalisi tamamilə torpaqsız idi, 462 kəndin əhalisinin pay torpağı isə 0,5–2 desyatin arasında tərəddüd edirdi [214, s. 74; 84, s. 209]. Qeyd etmək lazımdır ki, XX əsrin əvvələrində Şimali Azərbaycanın dövlət kəndlilərinin pay torpağı imperiyanın mərkəzi quberniyalarında dövlət kəndlilərinə düşən pay torpağından iki dəfə az idi. Belə ki, 1906-cı ildə Rusiyanın mərkəzi quberniyalarında orta hesabla hər kəndliyə 2-2,8 desyatin, cənub-qərb quberniyalarında isə 1,8-2,7 desyatin pay torpağı düşdüyü halda, Şimali Azərbaycanda bu rəqəm təxminən 2 dəfə az idi [82, s. 206; 132, s. 15]. Halbuki mövcud qanunveri-

ciliyə əsasən Yelizavetpol və Bakı quberniyalarının yüksək dağlıq bölgələrində adam başına hər dövlət kəndilisinə 4–6, orta dağlıq zonasında 2–4 desyatin, dağətəyi və düzənlik zonasında 0,75-2 desyatin torpaq sahəsi verilməsi nəzərdə tutulurdu [137, s. 104]. XX əsrin ikinci onilliyində dövlət kəndlilərinin torpaqsızlaşması prosesi daha da sürətlənmiş və 1917-ci il kənd təsərrüfatı siyahıyaalınmasının materiallarına görə, Bakı və Yelizavetpol quberniyalarında torpaqsız ailələrin sayı 15.975-ə (75.883 nəfər) çatmışdı [137, s. 105; 82, s. 206].

Bəhs edilən dövrdə Şimali Azərbaycanda kəndlilərin ikinci kateqoriyası sahibkar kəndlilərindən ibarət idi. Sahibkar kəndlilərin torpaqla təminatı məsələsi, onların sayı və istifadələrində olan pay torpaqlarının ümumi sahəsini müəy-yənləşdirmək mühüm əhəmiyyət kəsb edir. Qeyd edildiyi kimi, həm sahibkar, həm də dövlət kəndlilərinin torpaqla təminatı məsələsi ciddi və geniş araşdırma obyektidir. Şimali Azərbaycanda aqrar münasibətlərin araşdırılması ilə məşğul olan tədqiqatçıların əsərlərində sahibkar kəndlilərinin sayı və onların pay torpaqlarının ümumi sahəsi ilə bağlı fərqli rəqəmlərə rast gəlinir. Bütün bunları nəzərə alaraq, tarixi ədəbiyyatda öz əksini tapmış bəzi mülahizələrə diqqət yetirmək lazımdır. Senator Kuzminskinin 1905-ci ildə Bakı şəhəri və Bakı quberniyasında keçirdiyi təftiş nəticəsində hazırladığı hesabatda verilən məlumata əsasən, Bakı quberniyasında yaşayan kəndlilərin 15,5%-ni sahibkar kəndliləri təşkil edirdilər [117, s.439]. 1911-ci ilin rəsmi məlumatlarına görə, Bakı quberniyasında qeydə alınmış 85.994 kəndli təsərrüfatından 71.046-sı dövlət, 14.948-i sahibkar kəndlilərindən ibarət olmuşdur [211, s. XIII-XIV]. Həmin məlumata əsasən, Bakı quberniyasında yaşayan və ümumi sayı 647.320 nəfərə çatan kənd əhalisindən 108 900 nəfər sahibkar kəndliləri, bəy və ruhanilər olmuşdur [211, s. XIII-XIV]. Yelizavetpol quberniiyasında yaşayan kənd əhalisinin 60%-ni dövlət, qalan hissəsini isə sahibkar kəndliləri, bəy və ruhanilər təşkil edirdi [137, s. 59]. S.L.Avalianinin araşdırmasına görə, feodal asılı münasibətlərdən azad edilməsi

nəzərdə tutulan kəndlilərin sayı Yelizavetpol quberniyasında 22.032 ailə və ya 70.290 nəfər kişi cinsi, Quba qəzası istisna olmaqla, Bakı quberniyasında 7.797 ailə və ya 25.831 nəfər kişi cinsindən ibarət olmuşdur [101, s. 64]. Müəllifin məlumatına əsasən Quba qəzasından 64 bəy-mülkədar mülkündə 4.160 sahibkar kəndli ailəsi yaşayırdı [101, s. 105]. Eyni rəqəmlərə S.P.Ağayanın monoqrasiyasında da rast gəlirik [102, s. 210]. Azərbaycan MEA-nın müxbir üzvü, prof. M.Ə.Ismayılov öz tədqiqatlarında bütün Şimali Azərbaycan üzrə sahibkar kəndlilərinin sayı haqqında konkret rəqəmlər göstərməsə də, monoqrafiyalarının birində XX əsrin əvvəllərində Şimali Azərbaycanda yaşayan bütün kəndlilərin 20%-nin [82, s. 196], digərində isə 25-30%-nin [137, s. 58] sahibkar kəndlilərindən ibarət olduğunu qeyd etmişdir. T.e.d. Ə.A.Umayev 1870-ci il torpaq nizamnamələri və 1886-cı ildə ailə siyahılarına istinadən Şimali Azərbaycanda 425831 sahibkar kəndlisinin yaşadığını vurğulamışdır [228, s. 115]. Yeddicildlik «Azərbaycan tarixi-»nin 4-cü cildində verilmiş məlumatda Şimali Azərbaycanda 425 mindən artıq sahibkar kəndlisinin yaşadığı göstərilmişdir [50, s. 264-265]. Göründüyü kimi, sahibkar kəndlilərinin sayı ilə bağlı rəqəmlər fərqlidir. Fikrimizcə, bu fərqlər bir tərəfdən məlumatların müxtəlif illərə aid olması, digər tərəfdən isə həmin məlumatların bəzilərində yalnız kişi cinsindən olan şəxslərin, digərlərində isə ailə üzvlərinin ümumi sayının qeydə alınması ilə bağlıdır. Azərbaycan və Gürcüstan respublikaları dövlət tarix arxivlərinin materialları, xüsusilə də təsdiq edilmiş torpaq nizamnamələri əsasında hazırlanmış cədvəllər və statistik məlumatlar əsasında müəyyən edilmişdir ki, 1870-ci il islahatına qədər Bakı quberniyasında 49.068, torpaq nizamnamələrinə əsasən 33.807 [27, v. 76-203; 28, v. 124-125; 17, v. 62-63], 1886-cı ildə 53.074 [59, v. 36-101], 1911-ci ildə 58356 [211, s. 230-259], Yelizavetpol quberniyasında islahata qədər 112.994, torpaq nizamnamələrinə əsasən 61.023 [28a, 29, 30, 42-45; 59, v. 259-665], 1886-cı ildə 122.545 [59, v. 259-665], 1908-ci ildə 192.430 [195, s. 1-27], Naxçıvan qəzasında islahata qədər 23

min, torpaq nizamnamələrinə əsasən 21.059 [78, v. 259arx.-260; 79, s. 13-15, 26-35], 1910-cu ildə 35.274 nəfər kişi cinsandən olan sahibkar kəndlisi qeydə alınmışdır [195, s. 1-27].

Sahibkar kəndlilərinin istifadəsində olan pay torpaqlarının ümumi sahəsi ilə də bağlı mənbələr və tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Azərbaycan Respublikası DTA-nin materiallarına əsasən, Yelizavetpol quberniyasında sahibkar kəndlilərinin pay torpaqlarının ümumi sahəsi 317.236 desyatin [38, v. 15-17], Cavad və Quba qəzaları istisna olmaqla Bakı quberniyasında 51.216 desyatin olmuşdur [38, v. 15-17]. Cavad və Quba qəzalarında sahibkar kəndlilərinin pay torpaq sahələrini də bura əlavə etdikdə Bakı quberniyası sahibkar kəndlilərinin pay torpaqlarının ümumi sahəsi 111.998 desyatinə çatar [137, s. 61]. I.L.Seqalın araşdırmalarına görə, 1912-ci ildə Yelizavetpol quberniyasının sahibkar kəndlilərinin istifadəsində 317.237 desyatin, Bakı quberniyasının isə 96.366 desyatin pay torpağı olmuşdur [214, s. 71]. S.L.Avalianinin 1897-ci ilə aid məlumatına əsasən, Bakı quberniyasında qeydə alınmış 357.219 desyatin sahibkar torpaqlarından 110.315 desyatini sahibkar kəndlilərinin pay torpaqları, 246.904 desyatini isə mülkədarların bilavasitə öz ixtiyarındakı torpaqlar, Yelizavetpol quberniyasında qeydə alınmış 565.112 desyatin sahibkar torpaqlarından 124.314 desyatini kəndlilərin pay torpaqları, 440.798 desyatini isə mülkədarların öz ixtiyarındakı torpaqlardan ibarət olmuşdur [101, s. 3-4]. S.P.Ağayan quberniya və qəzalar üzrə sahibkar kəndlilərinin pay torpaqlarını ümumi sahəsini göstərməsə də qeyd edir ki, Şimali Azərbaycanın yararlı torpaq fondunun 2.965.483 desyatini (47,9%) pay torpaqları, 43.086 desyatini (0,6%) kəndlilərin xüsusi torpaqları, 1.168.386 desyatini (18,9%) sahibkar torpaqları, 2.007.309 desyaini isə (32,6%) xəzinə torpaqlarından ibarət olmuşdur [102, s. 214].

Akad. Ə.S.Sumbatzadə göstərir ki, XIX əsrin 90-cı illərində Yelizavetpol quberniyasının 3.951.8 min desyatin torpaq fondunun 317,2 min desyatini (8,1%), Bakı qubernii-

yasının 3.579 min desyatin torpaq fondunun 96,4 min desyatini (2,7%) sahibkar kəndlilərinin pay torpaqlarından ibarət idi [221, s. 108]. Prof. M.Ə.Ismayılov arxiv materialları və tədqiqat əsərlərindəki məlumatları saf-çürük edərək belə bir qənaətə gəlmişdir ki, XX əsrin əvvəllərində Yelizavetpol quberniyasında 317.237 desyatin, Bakı quberniiyasında 120 min desyatin sahibkar kəndlilərinin pay torpaq sahəsi olmuşdur [137, s. 61].

T.e.d. Ə.A.Umayevin fikrincə, XIX əsrin 70-80-ci illərində Şimali Azərbaycanda sahibkar kəndlilərinin istifadəsində 438.000 əkinə yararlı, 42.639 desyatin yararsız torpaq sahəsi olmuşdur [228, s. 115]. Yeddicildlik «Azərbaycan tarixi»nin 4-cü cildində verilmiş məlumata əsasən, Şimali Azərbaycanın sahibkar kəndlilərinin istifadəsində olan 489.267 desyatin pay torpaqlarının 310 min desyatini əkinə yararlı, 130 min desyatini otlaq və örüş, 50 min desyatini isə bağ və yararsız torpaq sahələrindən ibarət olmuşdur [50, s. 263]. Azərbaycan və Gürcüstan respublikalarının arxiv materialları, torpaq nizam-namələrini əks etdirən cədvəllər və statistik materiallar əsasında müəyyənləşdirmişik ki, XIX əsrin 70-ci illərində Bakı quberniyasının sahibkar kəndlilərinin istifadəsində 113.044,5 desyatin [27, v. 76-203; 28, v. 109-109arx.; 17, v. 62-63], 1886-cı ildə 116, 181 desyatin [79, v. 36-101], 1911-ci ildə isə 130.457 desyatin [211, s. 230-259], Yelizavetpol quberniyasında müvafiq olaraq XIX əsrin 70-ci illərində 265.023,5 desyatin [6-14; 15; 16; 19-22, v. 259; 59, v. 259-260], 1886-cı ildə 285.357,5 desyatin [59, v. 259-260], 1908-ci ildə isə 331.914 desyatin [194, IV bölmə] pay torpaq sahəsi olmuşdur. XIX əsrin 70-ci illərində Naxçıvan qəzasının sahibkar kəndlilərinin pay torpaqlarının sahəsi 48.393 desyatinə [78, v. 259-260; 79, v. 13-35], 1910-cu ildə isə 57.197,5 desyatinə [195, s. 1-27] bərabər olmuşdur. Sahibkar kəndlilərinin istifadəsində olan pay torpaqlarının sahəsinin XIX əsrin 70-ci illərinə nisbətən XX əsrin əvvəllərində artması çox ehtimal ki, yararsız torpaq sahələrinin, meşəliklərin əkin yerlərinə çevrilməsi nəticəsində mümkün olmuşdur. Beləliklə, araşdırmalar nəticəsində müəyyən

edilmişdir ki, 14 may 1870-ci il islahatına qədər Bakı və Yelizavetpol quberniyaları, habelə Naxçıvan qəzası üzrə sahibkar kəndlilərinin sayı 185.062, torpaq nizamnamələrinə görə 115.889, 1908-1911-ci illərin statistik məlumatlarına əsasən 286.060 nəfər (kişi cinsindən olanlar) olmuşdur. Onların istifadəsində XIX əsrin 70-ci illərində 426.461 desyatin, 1908-1911-ci illərdə isə 519.568,5 desyatin pay torpaq sahəsi cəmlənmişdi. Lakin onu da qeyd etmək lazımdır ki, bu rəqəmləri mütləq rəqəmlər ki, qəbul etmək iddiasında deyilik.

Tədqiq edilən dövrdə sahibkar kəndlilərinin sayı, onların istifadəsində olan pay torpaqlarının ümumi sahəsi haqqında əldə edilmiş təxmini məlumatlar əsasında onların torpaqla təminatı səviyyəsini bir qədər ətraflı nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, dövlət kəndlilərindən fərqli olaraq, sahibkar kəndlilərinin torpaq münasibətlərini, torpaqla təminatının nizamlanmasını nəzərdə tutan hüquqi sənədlər daha erkən, 1847-ci ildə imzalanmışdı. 1846-cı il 6 dekabr reskriptinə əlavə olaraq 1847-ci ildə imzalanmış iki əsasnamədən yalnız biri – 20 aprel 1847-ci il «Əsasnamə»si Şamaxı quberniyasının on beş yaşından yuxarı kişi cinsindən olan hər bir sahibkar kəndlisinə beş desyatin yararlı pay torpağı sahəsinin ayrılmasını nəzərdə tuturdu [213, I c., 2 h., s. 72]. Ağaların mülklərində yaşayan kəndlilər üçün verilmiş 28 dekabr 1847-ci il əsasnaməsi isə 5 desyatindən az pay torpağı olan kəndlilərə əlavə torpaq verilməsi məsələsində heç bir məcburiyyət nəzərdə tutmur, sadəcə olaraq ağalara belə bir səlahiyyət verirdi [213, I c., 2 h., s. 76]. Lakin «Əsasnamə»də bu tələbin sahibkarlar tərəfindən yerinə yetirilməsni təmin edəcək heç bir tədbir, məcburetmə mexanizmi nəzərdə tutulmurdu. Sahibkar kəndlilərinin böyük əksəriyyəti 1847-ci il əsasnamələrinə qədər 5 desyatindən az torpaq sahələrindən istifadə edirdilər və sahibkarların pay torpaqlarının sahəsini əsasnamədə nəzərdə tutulan səviyyəyə çatdırmaqda heç bir marağı olmadığına görə, əsasnamənin bu maddəsi sadəcə olaraq elan edilməklə kağız üzərində qaldı. Torpaq sahiblərinin maraqlarını nəzərə alan dövlət məmurları da

1870-ci ilə qədər həmin maddənin yerinə yetirilməsi üçün heç bir iş görmədilər və kəndli pay torpaqlarının 5 desyatinə çatdırılması məsələsi torpaqların mərzlənməsinə qədər təxirə salındı [213, I c., 2 h., s. 54].

Sahibkar kəndlilərinin torpaq münasibətlərinin nizamlanması üçün növbəti addım 14 may 1870-ci il «Əsasnamə»si oldu. Bir sıra tədqiqatçıların fikrincə, 1870-ci il «Əsasnamə»si 15 yaşından yuxarı kişi cinsindən olan hər bir sahibkar kəndlisinə 5 desyatin pay torpağının verilməsini qanunileşdirirdi [102, s. 214; 169, s. 66; 114, s. 212]. Lakin araşdırmalar göstərir ki, «Əsasnamə»nin mətnində belə bir maddə yoxdur. Belə ki, həmin mətnə əsasən bu əsasnamə təsdiq edilənə qədər sahibkar kəndlilərinin istifadəsində olan bütün torpaqlar (əkin və biçənəklər), həyətyanı sahələr, meyvə, üzüm, tut bağları onların daimi istifadəsinə verilirdi [152, s. 402] (maddə 8). «Əsasnamə»nin 12-ci maddəsində «yararlı» adlandırılan bu torpaqlar kəndlilərin pay torpaqlarını təşkil edirdi [152, s. 403]. 1861-ci il 19 fevral «Əsasnamə»si Rusiyanın mərkəzi quberniyalarında kəndli pay torpağının aşağı və yuxarı həddini dəqiq müəyyənləşdirdiyi halda, 1870-ci il «Əsasnamə»sinin 9 və 10-cu maddələri yalnız mübahisəli hallarda kəndli pay torpağının normasının 5 desyatin həddinin müəyyənləşdirilməsini nəzərdə tuturdu [152, s. 402-403]. Beləliklə, 1870-ci il islahatı 15 yaşından yuxarı kişi cinsindən olan hər bir nəfər üçün 5 desyatin pay torpaq sahəsini qanunileşdirməyərək, islahata qədər onların əlində olan torpaqlardan istifadə etmələrini sənədləşdirdi. Bununla belə, torpaq sahiblərinə öz sərəncamlarında bütün yararlı torpaqların 1/3 hissəsindən azı qalacağı təqdirdə kəndli pay torpaqlarının 5 desyatindən çox olan artıqlarını kəsib götürmək hüququ verilirdi [152, s. 402-403; 213, s. 55-56]. «Əsasnamə» bütün yararlı torpaqların ⅓ hissəsindən azının sahibkarın əlində qaldığı təqdirdə kəndli pay torpaqlarının 5 desyatin normaya qaldırılmasını nəzərdə tutmurdu [152, s. 403]. 14 may 1870-ci il «Əsasnamə»sinin 9-cu maddəsinin verdiyi hüquqdan istifadə edən torpaq

sahibləri kəndli pay torpaqlarının 5 desyatindən artıq olan ən yararlı hissələrini kəsib götürməyə başlamışdılar. S.L.Avalianinin araşdırmalarına görə, bütün bunların nəticəsində XX əsrin əvvəllərində Bakı quberniyasında 11,4 min kəndli ailəsinin əlində 110.315 desyatin, Yelizavetpol quberniyasında isə 47,5 min kəndli ailəsinin əlində 124.314 desyatin torpaq qalmışdı [101, IV c., s. 3-4; 221, s. 106]. Bakı quberniyasında sahibkarlara məxsus torpaqların sahəsi 246.902 desyatinə, Yelizavetpol quberniiyasında isə 440.798 desyatinə çatmışdı [101, IV c., s. 3-4; 221, s. 106].

Sahibkar kəndlilərin sayı, onların istifadəsində olan pay torpaqlarının ümumi həcmi haqqında müxtəlif mülahizələr olduğu kimi, onların torpaqla təminatı səviyyəsi ilə də bağlı tarixi ədəbiyyatda müxtəlif rəqəmlər öz əksini tapmışdır. Bu məsələ ilə bağlı tədqiqat əsərləri yazmış müəlliflər qaynaqlarda öz əksini tapmış, sahibkar kəndlilərinin hamısını əhatə etməyən adda-budda rəqəmləri təkrarlamaqla kifayətlənmişlər. Məsələn, S.Zavaryan yazır ki, XIX əsrin 80-ci illərində Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında sahibkar kəndlilərinin pay torpaqları orta hesabla 0,96 desyatinə bərabər idisə, 1906-cı ildə bu rəqəm 0,64 desyatinə enmişdi [132, s. 7-8]. 1905-ci ldə Bakı quberniyasında sahibkar kəndlilərinin vəziyyətini araşdıran senator Kuzminskinin məlumatına əsasən, torpaq nizamnamələrinə əsasən Göyçay qəzasında hər kəndliyə 4,9, Cavad qəzasında 5,07, Lənkəran qəzasında 1,3, Şamaxı qəzasında 4,4 desyatin pay torpağı düşdüyü halda, ailə siyahısılarına görə bu rəqəmlər müvafiq olaraq 3, 2, 0,5 və 2,9 desyatin təşkil edirdi [117, s. 439]. Senator Kuzminski öz hesablamalarında göstərir ki, Quba qəzasında torpaq nizamnamələrinə əsasən, adambaşına 1,6, ailə siyahılarına görə isə 0,9 desyatin pay torpağı düşürdü [117, s. 440]. V.Rştuni Irəvan quberniyasında 1870-ci il kəndli islahatını tədqiq edərkən islahatdan sonra Bakı və Yelizavetpol quberniyalarında sahibkar kəndlilərinin pay torpaqlarının sahəsinin orta hesabla 2,3 desyatinə bərabər olduğunu

göstərmişdir [207, s. 331]. Sahibkar kəndlilərin torpaqla təminatına xüsusi məqalə həsr etmiş H.Sadıqov göstərir ki, 1892-ci ildə Yelizavetpol quberniyasında sahibkar kəndlilərinə adambaşına 2 desyatin, XX əsrin birinci onilliyinin sonunda isə 0,64 desyatin pay torpağı düşmüşdür [93, s. 73]. Müəllifin fikrincə, XIX əsrin 60-cı illərində Bakı quberniyasının sahibkar kəndlilərinin pay torpaqları 5 desyatinə qədər idisə, 1886-cı ildə Bakı qubernatorunun hesabatında göstərildiyinə görə bu 1 desyatinə qədər azalmışdı [93, s. 73]. T.e.d. Ə.A.Umayev 1870-ci il torpaq nizamnamələri və 1886-cı il ailə siyahıları əsasında müəyyən etmişdir ki, Zaqatala dairəsi istisna olmaqla Şimali Azərbaycanda qeydə alınmış 425.831 sahibkar kəndlisindən 390 min nəfəri (92%) adambaşına 2 desyatinə qədər, 30.309 (7,12%) nəfəri 2-5 desyatin və 5.811 (1,5%) nəfəri isə 5 desyatindən çox pay torpaq sahəsinə malik olmuşdur [228, s. 115]. Azacıq fərqlərlə bu rəqəmlər yeddi cildlik Azərbaycan tarixinin 4-cü cildində də öz əksini tapmışdır [50, s. 263].

Beləliklə, araşdırmalar göstərir ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində dövlət kəndlərində olduğu kimi, sahibkar kəndlilərində də kəndlilərin torpaqsızlaşma prosesi sürətlə davam edirdi. Torpaq nizamnamələrinin tərtibi zamanı varlı kəndlilərin müxtəlif yollarla pay torpaqlarının bir hissəsini ələ keçirməsi, əhalinin sayının artması nəticəsində pay torpaqlarının xırda hissələrə parçalanması, sahibkarların kəndli pay torpaqlarını zəbt etməsi, kapitalizmin inkişafı ilə əlaqədar təbəqələşmənin güclənməsi kəndlilərin torpaqsızlaşma prosesini doğuran əsas səbəblərdən idi. 1895-ci ilin məlumatına görə, Yelizavetpol quberniyasında torpaqsız sahibkar kəndlilərinin sayı 5308 ev və ya kişili-qadınlı 25 min nəfər, Bakı quberniyasında isə 3906 ev və ya kişili-qadınlı 11.709 nəfər idi [137, s. 210-211]. Şimali Azərbaycanda sahibkar kəndlilərinin torpaqla təminatı dövlət kəndlilərinə nisbətən daha acınacaqlı idi. Ümumiyyətlə, hər iki kateqoriyadan olan kəndlilər aztorpaqlı və torpaqsızlıqdan əziyyət çəkirdilər. Bunu aşağıda verilmiş faktlar da təsdiq edir. Belə ki, hələ XIX əsrin 90-cı

illərində Yelizavetpol quberniyasının 3.951,8 min desyatin torpaq fondunun 917,9 min desyatini (23,2%) dövlət kəndlilərinin, 317,2 min desyatin (8,1%) sahibkar kəndlilərinin istifadəsində olduğu halda, 2.716,6 min desyatini (68,7%) dövlətin və mülkədarların əlində cəmlənmişdi [221, s. 108]. Həmin dövrdə Bakı quberniyasının 3.579 min desyatin torpaq fondunun 1.050,3 min desyatini (29,3%) dövlət kəndlilərinin, 96,4 min desyatini (2,7%) sahibkar kəndlilərinin, 2.432,4 min desyatini (68%) dövlətin və mülkədarların ixtiyarında idi [221, s. 108]. Torpaqsızlıq və az torpaqlıqdan əziyyət çəkən kəndlilər torpağı dövlət və mülkədarlardan icarəyə götürmək və ya muzdurluq etmək məcburiyyətində qalırdılar. Məhz bunun nətcəsidir ki, XX əsrin əvvələrində torpaqların icarə haqqı 2,5-3 dəfə artmışdı.

## 2.2. Dövlət kəndində vergilərin tətbiqi.

Artıq qeyd edildiyi kimi, XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycan kəndlilərinin böyük əksəriyyəti dövlət və ya xəzinə kəndliləri kateqoriyasına daxil idi. Dövlət kəndliləri xəzinəyə məxsus torpaqlarda yaşayırdılar. Bu kəndlilər Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına qədər xan xəzinəsinə məxsus olub dövlət tərəfindən idarə edilən və xan xəzinəsinə vergi verən, həmçinin birbaşa xanlara məxsus kəndlilərdən ibarət idi. Rusiya işğalı dövründə və ondan dərhal sonra çar hakimiyyətini tanımaqdan imtina edən, ona qarşı çıxan, həmçinin mühacirət etmiş bəy, xan b.-nın müsadirə edilmiş torpaqlarında yaşayan kəndlilər də dövlət kəndliləri kateqoriyalarına daxil edilmişdi.

Rusiya işğalının ilk onilliklərində çar hökuməti xanlıqlar dövründə mövcud olmuş vergi və mükəlləfiyyətlər sistemini dəyişməmişdi. Dövlət kəndliləri xəzinəyə vergi və mükəlləfiyyətləri əsasən natura şəklində ödəyirdilər [235, s.

121]. Yeni müstəmləkəçi orqanlar xəzinənin gəlir mənbələrini dəqiqləşdirmək, o cümlədən dövlət kəndlilərinin vergi sisteminə cəlb edilməsində sahman yaratmaq üçün müxtəlif dövrlərdə Şimali Azərbaycanda kameral təsvirlər həyata keçirmişdi. 1803-1805-ci illərdə Şimali Azərbaycanda yalnız Yelizavetpol dairəsində, 1816-cı ildə Şəki, Şirvan və Qarabağ xanlıqlarında, 1830-1832-ci illərdə bütün Cənubi Qafqazda, o cümlədən bütün Şimali Azərbaycan ərazisində ilk natamam kameral təsvirlər həyata keçirilmişdi [114, s. 218]. Dövlət vergiləri həyətlərin sayından asılı olaraq bütövlükdə kəndlər üzərinə qoyulur, kənd icması isə bu vergiləri ayrı-ayrı ailələr arasında bölüşdürürdü.

XIX əsrin 40-cı illərində Cənubi Qafqazda həyata keçirilmiş inzibati islahatlarla əlaqədar olaraq vergi sistemində də bir sıra dəyişikliklər həyata keçirildi. 1843-cü ildə Gürcüstan-Imeretiya quberniyasında keçirilmiş islahat nəticəsində natural vergi sistemi pul vergisi ilə əvəz edildi. Bu islahat Gürcüstan-Imeretiya quberniyasına daxil edilmiş Şimali Azərbaycan torpaqlarına – Yelizavetpol qəzası, Borçalı, Şəmşəddil və Qazax distansiyalarına da şamil edilmişdi [107, s. 391-431]. Bununla da çar hökuməti Cənubi Qafqazda vergi sistemini imperiyanın mərkəzi quberniyalarında qüvvədə olan vergi sisteminə uyğunlaşdırmaq siyasətinə keçdi.

1843-cü ildə Qafqaz islahat komitəsi Baş hakim qarşısında Xəzər vilayətində də vergi əsasnaməsinin hazırlanması məsələsini qaldırsa da feodallarla asılı kəndlilər arasında münasibətlərin araşdırılması başa çatmadığı üçün bu məsələ bir qədər ləngidi. Belə ki, yeni vergi sistemi dövlət kəndliləri ilə yanaşı, həm də sahibkar kəndlilərinə, xüsusilə də onların dövlət xəzinəsinə verdikləri vergilərə də şamil olunmalı idi [235, s. 131].

1849-cu ildə Şamaxı və Dərbənd quberniyalarında yeni vergi islahatı layihəsini hazırlamaq üçün komissiyalar yaradıldı. 1849-1850-ci illərdə Bakı, Nuxa, Lənkəran, Şamaxı və Şuşa qəzalarında islahat komissiyaları kəndlilərin dövlətə ümumi həyət vergisi və torpaq töycüsü ödəməsi layihəsi hazırlandı.

Layihəyə əsasən Bakı qəzası üçün ümumi həyət vergisinin həcmi 1 r. 50 qəp., Nuxa qəzası üçün 2r. müəyyənləşdirilmişdi [54, v. 13-17]. Torpaq töycüsünə gəldikdə isə dövlət kəndliləri vəziyyətindən asılı olaraq bir neçə dərəcələrə bölünürdü. Layihəyə görə Bakı qəzasının kəndliləri üç (I dərəcə – vergidən azad edilir, II dərəcə – 1 r., III dərəcə – 2 r.), Nuxa qəzasının kəndliləri dörd (I dərəcə – 3 r., II dərəcə – 5 r., III dərəcə – 7 r., IV dərəcə – 9 r.), Şamaxı qəzasının kəndliləri beş (I dərəcə – 5 r., II dərəcə – 6 r., II dərəcə – 7 r., IV dərəcə – 9 r., I dərəcə – 11 r.) dərəcəyə bölünürdü [54, v. 3-28]. Şuşa qəzasının dövlət kəndliləri töycü vergisinin həcminə görə beş dərəcəyə (I – 5 r., II – 7 r., III – 9 r., IV – 11 r., I – 13 r.), Lənkəran qəzasının kəndliləri dörd dərəcəyə (I – 3 r., II – 4 r., II – 5 r., IV – 6 r.) bölünürdü [54, v. 92-100]. Lakin Baş Idarə Şurası qəza islahat komissiyalarının irəli sürdüyü layihələrin təlimata uyğun tərtib olunmadığı üçün onları qəbul etmədi.

1850-ci il iyunun 8-də Qafqaz canişini M.S.Vorontsov islahat layihəsində dəyişikliklər etmək üçün Qafqazın Mülki Idarəsinin rəisi Bebutovun başçılığı altında komissiya yaratdı [54, v. 1-2]. Yeni islahat komissiyası 1843-cü ildə Gürcüstan-Imeretiya quberniyası kəndlilərinə şamil edilmiş vergi sisteminin Şimali Azərbaycanda tətbiq edilməsini məqsədəmüvafiq hesab etdi. Beləliklə, Şimali Azərbaycanın dövlət kəndlilərinin ümumi həyət vergisinin həcmi 3r., töycü vergisinin həcmi isə 50 qəpikdən – 10 rubla qədər müəyyənləşdirildi [235, s. 134].

1851-ci il oktyabrın 23-də Qafqaz komitəsi yeni vergi sistemini təsdiq edərək 1852-ci ildən etibarən onun Şimali Azərbaycanda tətbiq edilməsi təklifini irəli sürdü. Bəzi tədqiqatçılar yeni vergi islahatının 1852-ci ildə yalnız Şamaxı quberniyasında tətbiq edildiyini iddia etsələr də [235, s. 134; 121, s. 26], fikrimizcə, islahat Dərbənd quberniyasına da şamil edilmişdi. Belə ki, hərbi nazir knyaz A.I.Çernışevin I Nikolaya 1854-cü il 21 iyul tarixli müraciətində Osmanlı imperiyası ilə müharibənin aparılması ilə əlaqədar əhalini qıcıqlandırmamaq,

onlara narazıçılıq üçün əsas verməmək üçün Dərbənd quberniyasında pul vergisinə keçilməsinin əlverişli şərait yaranana qədər təxirə salmaq təklifini irəli sürməsi də bu faktı təsdiq edir [152, s. 304]. Görünür, məhz buna görə Dərbənd quberniyasında pul vergisinə keçidlə bağlı islahat 1872-1873-cü illərdə həyata keçirilmişdi [121, s. 26].

Həyət və töycü vergisindən əlavə dövlət kəndliləri xəzinəyə zemski vergisi verməli və çoxsaylı mükəlləfiyyətlər yerinə yetirməyə borclu idilər.* Beləliklə, 1852-ci ildə Şimali Azərbaycanda tətbiq edilmiş dövlət kəndliləri və həmçinin sahibkar kəndlilərinin xəzinə qarşısındakı vergi və mükəlləfiyyətlərinə aid edilmiş vergi sistemi XIX əsrin sonuna qədər demək olar ki, heç bir ciddi dəyişiklik edilmədən qüvvədə saxlanılmışdı.

XIX əsrin II yarasında çarizmin Şimali Azərbaycana aid edilən vergi qanunvericiliyində hərbi verginin tətbiq edilməsi də maraqlıdır. Qeyd etmək lazımdır ki, Rusiya imperiyasında hərbi mükəlləfiyyət haqqında qanun 1874-cü ildən etibarən tətbiq edilmişdi. Bu qanun 28 may 1886-cı ildə Cənubi Qafqaza şamil edilsə də çarizm azərbaycanlılara etibar etmədiyinə görə onları orduya çağırmırdı [50, s. 275; 121, s. 36]. Orduya səfərbərlik müqabilində çar hökuməti Şimali Azərbaycan əhalisi üzərinə hərbi vergi qoymaq qərarına gəldi. 1887-ci ildən Şimali Azərbaycanda tətbiq edilən hərbi vergi orduya səfərbər olunan şəxslərin üçillik orta qazancı nəzərə alınmaqla hesablanmalı idi [50, s. 275; 121, s. 36]. Şimali Azərbaycanda hərbi verginin tətbiqi çarizmin müstəmləkəçi siyasətinin ən bariz nümunəsi idi.

1847-ci il 20 aprel və 28 dekabr, 1870-ci il 14 may tarixli «Əsasnamə»lər sahibkar kəndlilərinin vergi və mükəlləfiyyətləri, torpaqdan istifadə qaydaları və feodallarla qarşılıqlı münasibətlər sisteminin nizamlanmasına müəyyən aydınlıq gətirsə də dövlət kəndliləri uzun müddət çar hakimiyyət

* Bu barədə monoqrafiyanın müvafiq bölümündə ətraflı məlumat verilləcəkdir.

orqanlarının nəzər-diqqətindən kənarda qalmışdı. 1883-cü ildə Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın (Zaqatala dairəsi istisna olmaqla) dövlət kəndliləri Qafqaz canişininin Baş Idarəsinin sərəncamından çıxarılaraq Dövlət Əmlak Nazirliyinin ixtiyarına verildi [114, s. 219]. Yalnız bundan sonra Dövlət Əmlak Nazirliyi, Cənubi Qafqazın dövlət kəndlərində aqrar islahat layihəsinin hazırlanması istiqamətində hazırlıq tədbirləri həyata keçirməyə başladı. Nazirlik 1883-cü ildə dövlət kəndlilərinin həyat və məişət şəraitini tədqiq etmək məqsədi ilə 10 nəfərdən ibarət xüsusi komissiya təşkil etdi. 1884-cü ildən fəaliyyətə başlayan komissiya dövlət kəndlilərinin sayı və tərkibini, torpaqla təminatı səviyyəsini, onların meşə və otlaqlardan istifadə qaydalarını, əkinçilik və maldarlıqdan əlavə digər gəlir mənbələrini, vergi və mükəlləfiyyətlərini və s. məsələləri araşdırmalı idi [114, s. 220]. Komissiyanın əldə etdiyi materiallar dövlət əmlak nazirliyi tərəfindən Tiflisdə nəşr edilmiş çoxcildlik «Materialı dlə izuçeniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə» və «Svod materialov po izuçeniö gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən Zakavkazskoqo kraə» külliyyatlarında dərc edilmişdi [164, I-VII c.; 213, I-IV c.]. Dövlət kəndliləri haqqında lazımi materialların toplanmasına baxmayaraq hökumət islahat keçirmək sahəsində ciddi bir addım atmaqda tələsmirdi. 1892-ci ildə Dövlət Əmlak Nazirliyinin Qafqaz üzrə müşaviri Y.S.Medvedyevin sədrliyi altında yaradılmış xüsusi komissiya yalnız 1896-cı ildə «Cənubi Qafqaz ölkəsinin xəzinə torpaqlarında yaşayan dövlət kəndlilərinin torpaq məsələsi haqqında» qanun layihəsini tərtib etmişdi [114, s. 220]. 1897-ci ildə müzakirələr və bəzi dəyişikliklərdən sonra qanun layihəsi təsdiqə göndərildi. II Nikolay 1900-cu il mayın 1-də «Tiflis, Yelizavetpol, Bakı və Irəvan quberniyalarının dövlət kəndlilərinin torpaqla təminatının mühüm əsasları»nı təsdiq etdi [107, s. 18-23]. Yeni aqrar qanuna əsasən dövlət kəndlilərinin torpaq payları torpaqdan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlərə və yaşayış məntəqələrinə ayrılırdı. Qanun-

vericilik torpaq üzərində mülkiyyət hüququnun dövlətə məxsus olduğunu təsdiq etməklə dövlət kəndlilərinə torpaqlardan icmalıqla həmişəlik istifadə etmək hüququ verirdi. Torpaqdan istifadə etmək müqabilində dövlət kəndliləri xəzinəyə töycü verməli və bəzi mükəlləfiyyətlər daşımalı idilər. 1900-cu il iyunun 12-də təsdiq edilən və 1901-ci il yanvarın 1-də qüvvəyə minən «Qafqazda xəzinənin xeyrinə toplanılan həyət mükəlləfiyyətlərinşt ləğvi və bunun əvəzində dövlət töycü vergisi və torpaq vergisi haqqında» qanuna əsasən dövlət kəndliləri daimi istifadələrində olan xəzinə torpaqlarına görə dövlətə töycü vergisini (pulla) ödəməli idilər [114, s. 222; 51, s. 57]. Qanuna əsasən dövlət kəndliləri başqa torpaqlardan istifadə üçün dövlətə torpaq vergisi də verməli idilər. Onu da qeyd etmək lazımdır ki, töycü vergisinə torpaq vergisindən əlavə dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12 faizi də daxil edilirdi [114, s. 222; 51, s. 57]. Bütün bunlardan başqa yeni aqrar qanunvericiliyə əsasən dövlət kəndliləri üzərinə zemski vergisi də qoyulurdu [51, s. 57]. Torpağın gəlirlilik dərəcəsini müəyyənləşdirmək üçün dövlət kəndlilərinin istifadəsində olan torpaqlar üç dərəcəyə bölünürdü: 1) həyatyanı (usadğba), 2) əkin yerləri (paxotı) və biçənəklər (pokosı), 3) meşəlik və otlaqlar [114, s. 222]. Torpağın məhsuldarlıq səviyyəsi, əkilən məhsulun növü, istehsal edilən məhsulun keyfiyyəti, satış şəraiti və qiymətləri kimi amillər əsas götürülməklə hər quberniya üzrə bir desyatin torpağın orta gəlirlik əmsalı müəyyənləşdirilirdi. Töycü vergisi üç il üçün müəyyən edilir, müddət başa çatdıqdan sonra həcminin dəyişdirilməsi məqbul hesab edilirdi. 12 iyun 1900-cu il vergi qanunvericiliyinə görə torpaq vergisi bir desyatin torpağın xalis gəlirinin 1,8%-i həcmində olmaqla üçillik müddətə müəyyənləşdirilirdi [114, s. 223]. Dövlət vergi və mükəlləfiyyətləri ərazisinin təbii və iqtisadi şəraitindən asılı olaraq hər bir kəndli həyəti üzrə müəyyən edilir, hər icma və ya kənddəki həyətlərin sayına müvafiq olaraq sonunculardan yığılırdı. Qanunda nəzərdə tutulmuş qaydalardan fərqli olaraq vergilərin ümumi məbləği yuxarıdan, imperiya mərkəzi orqanlar

tərəfindən müəyyənləşdirilir, sonra bu məbləğ müvafiq olaraq quberniya, qəza və kənd icmaları üzrə (həyətlərin sayına uyğun şəkildə) bölüşdürülürdü.

1 may 1900-cu il tarixli qanun Cənubi Qafqazın dövlət kəndlilərinin hüquqlarının qeyri-müəyyənliyini nəzərə alaraq Əkinçilik və Dövlət Əmlak Nazirliyinə dövlət kəndlilərinin torpaq quruluşunun əsasları haqqında qaydaların hazırlanması göstərişi vermişdi. Bununla yanaşı, nazirliklər dövlət kəndlilərinin pay torpaqlarının dəqiqləşdirilməsi qaydalarını da hazırlamalı idilər. Əkinçilik və Dövlət Əmlak Nazirlikləri tərəfindən tərtib edilmiş, 21 dekabr 1902-ci ildə Dövlət Şurası tərəfindən bəyənilmiş «Tiflis, Yelizavetpol, Bakı və Irəvan quberniyaları dövlət kəndlilərinin torpaq quruluşu haqqında qaydalar» 1903-cü il aprelin 21-də təsdiq edildi [114, s. 221]. Bu qaydalar xəzinə-mülkədar malikanələrində yaşayan kəndlilərə şamil edilmirdi [114, s. 221]. Dövlət kəndlilərinin torpaq quruluşu haqqında «Qaydalar» 1 may 1900-cu il tarixli Qanunun reallaşdırılması prosesini son dərəcə mürəkkəbləşdirmişdi. Belə ki, 21 aprel 1903-cü il «Qaydalar»ına əsasən, dövlət kəndlilərinin torpaq paylarının planları tərtib edilməli, həmin planlar torpaq məsələsini qaydaya salan komissiyalarda təsdiq edilməli, yalnız bundan sonra kənd icmalarının pay torpaqlarının sərhədləri dəqiqləşdirilməli, torpaq ayrılması haqqında sənədlər tərtib edilərək kəndlərə təqdim olunmalı idi. Kəndlərdə torpaqların kəndlilər arasında bölüşdürülməsi prosesini kənd icmalarının həyata keçirməsi nəzərdə tutulurdu [73, s. 65]. Belə mürəkkəb metodun tətbiq edilməsi kənd icmalarına torpağın ayrılması işlərini xeyli ləngidirdi. Məhz bunun nəticəsi idi ki, Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda torpaqların mərzləşdirilməsi prosesi 1917-ci il Oktyabr çevrilişinə qədər də başa çatdırılmamışdı.

Bütün bunlara baxmayaraq, 1 may 1900-cu il və 21 aprel 1903-cü il tarixli qanunlar dövlət kəndlilərinin aqrar münasibətlərinin və mülkiyyət sisteminin nizamlanması istiqamətində ilk qanunvericilik aktları hesab edilməlidir. Dövlət

kəndliləri ilə bağlı verilmiş aqrar qanunvericilik, sahibkar kəndlilərində olduğu kimi, feodal-asılı münasibətlərin qorunub saxlanmasına xidmət edirdi. Belə ki, yeni aqrar qanuna əsasən torpaq dövlətin mülkiyyətində qalmış, dövlət kəndliləri isə xəzinə torpaqlarından yalnız daimi istifadə hüququ əldə etmişdir [73, s. 64].

Şimali Azərbaycanda dövlət kəndlilərinin saynı, onların torpaqla təminatı səviyyəsini, çarizmin aqrar qonunvericiliyində vergi sisteminin tənzimlənməsi prinsiplərini araşdırdıqdan sonra qarşıya qoyulan ən mühüm problemlərdən biri dövlət kəndliləri üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlərin növlərinin, həmçinin, vergi sisteminin təkamülündən bəhs etmək lazımdır.

Qeyd etmək lazımdır ki, XIX əsrin II yarısında çarizmin Şimali Azərbaycanın dövlət kəndlilərində tətbiq etdiyi vergi sisteminin öyrənilməsi üçün Rusiya imperiyası Dövlət Əmlak Nazirliyinin XIX əsrin 80-ci illərində təşkil etdiyi komissiya üzvlərinin – A.D.Eristov, I.L.Baxtadze, P.N.Yaqodinski, P.V.Kotlyarevski, M.N.Kuçayev, A.N.Arasxanyans, A.E.Xanaqova və başqalarının əldə etdiyi materiallar [164; 194], Cənubi Qafqaz statistika komitəsinin nəşr etdiryi məcmuə [211] mühüm əhəmiyyət kəsb edir. XX əsrin əvvəllərində I.Seqal [214], A.Piralov [201], O.Syomin [215], S.Avalianinin [101] əsərlərində də bu problemlə bağlı məlumatlar verilmişdir. Sovet dövrü tədqiqatçılarından I.P.Petruşevski [200], N.Q.Boqdanova [114], M.Ə.Ismayılov [118a.], Ə.S.Sumbatzadə [220], I.M.Həsənov [121], M.M.Əfəndiyev [235], C.X.Hüseynov [127], və s. kimi müəlliflərin araşdırmalarında da XIX əsrin II yarısı – XX əsrin əvvəllərində dövlət kəndliləri üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlər məsələsinə yer verilmişdir. Adları çəkilən müəlliflərin əsərləri bilavasitə dövlət kəndində vergi sisteminin öyrənilməsinə həsr edilməmişdir və məhz buna görə də həmin tədqiqatlar bu problemlə bağlı pərakəndə xarakterli məlumatlar verdiyi üçün öyrənilən dövrdə Şimali Azərbaycanın dövlət kəndlilərindən alınan vergi və mükəlləfiyyətlər haqqında, xüsusilə də onların miqdarı haqqında

ətraflı, dərin təsəvvür yaratmaq mümkün deyildir.

Doğrudur, bu məsələnin həlli bir sıra obyektiv səbəblərlə bağlıdır. Buna baxmayaraq, əldə etdiyimiz materiallar əsasında problemin həllinə müəyyən aydınlıq gətirməyə cəhd göstərəcəyik.

1852-ci ildə yeni pul vergi sisteminin tətbiqinə qədər, işğalçı rejimin Şimali Azərbaycanın dövlət kəndlilərində həyata keçirdiyi vergi siyasəti xanlıqlar dövrü vergi siyasətindən heç nə ilə fərqlənmirdi. Işğaldan sonra xəzinənin ixtiyarına verilmiş kəndlilər əvvəllər xan xəzinəsinə ödədikləri vergi və mükəlləfiyyətləri indi Rusiya hökumətinə ödəmək məcburiyyətində qalmışdılar. 1852-ci il yeni vergi sisteminə qədər dövlət kəndliləri vergiləri əsasən natura, qismən pulla ödəyirdilər. Islahata qədər dövlət kəndlilərinin çox cüzi bir hissəsi hətta işləyib-ödəmə, yəni biyar mükəlləfiyyəti də yerinə yetirirdilər [121, s. 26; 152, s. 298].

Digər tərəfdən əsasən Gürcü-Imeretiya quberniyasında tətbiq edilən vergi okladları Şamaxı quberniyasının dövlət kəndlilərinə də şamil edilirdi. Belə ki, qanunvericilik hər bir kəndli həyətinin torpağın keyfiyyət və sahəsindən asılı olaraq 50 qəpikdən 10 gümüş rubla qədər torpaq töycüsü, 3 gümüş rubl məbləğində ümumi vergi verməsini nəzərdə tuturdu [54, v. 238-246; 152, s. 393]. Qeyd etmək lazımdır ki, «torpaq töycüsü» və «ümumi vergi» anlayışları yeni islahatın keçirdiyi dövrə aid rəsmi sənədlərdə öz əksini tapsa da, sonralar bu iki istilah «tüstü pulu» termini adı altında öz ifadəsini tapmışdır. Tanınmış Azərbaycan tarixçisi I.M.Həsənov haqlı olaraq qeyd edir ki, yalnız Irəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarında dövlət kəndliləri dövlət vergisi kimi ayrı-ayrılıqda tüstü pulu və torpaqdan istifadəyə görə torpaq töycüsü vermiş, Şimali Azərbaycanın digər qəzalarında isə bu iki vergi bir yerdə tüstü pulu adı altında toplanılmışdı [121, s. 26-27]. Məhz buna görə də ayrı-ayrılıqda torpaq töycüsü və ümumi verginin həmçini dəqiq müəyyənləşdirmək mümkün deyildir.

Torpaq töycüsünün həcminin müəyyənləşdirilməsi

baxımından çar hökuməti kəndli təsərrüfatlarının gəlirlilik, rentabellik dərəcələrinin dəqiqləşdirilməsi üçün heç bir əməli tədbirlər aparmamışdı. Vergi dərəcələrinin tətbiq edilməsi zamanı kəndli təsərrüfatlarının real imkanları demək olar ki, nəzərə alınmamış və bunun nəticəsində dövlət kəndliləri üzərinə həddindən artıq vergi yükü qoyulmuşdu. Pul vergisinə keçilməsi ilə əlaqədar islahata qədərki dövrlə «müqayisədə» Şamaxı quberniyasının dövlət kəndliləri üzərinə qoyulan vergilərin həcmi kəskin şəkildə artmışdı.

Qafqaz canişinliyinin baş idarəsinin 1851-ci il 14 iyul tarixli 36 saylı qeydləri və dövlət əmlak naziri P.I.Kiselyovun Qafqaz komitəsinin işlər idarəsinin müdiri V.P.Butkova ünvanladığı 1851-ci il 31 avqust tarixli 1449 saylı müraciəti əsasında hazırlanmış cədvəl [152, s. 293-303] 1851-ci illə müqayisədə 1852-ci ildə Şamaxı quberniyasının dövlət kəndlilərinin üzərinə qoyulan vergilərin artımı haqqında əyani təsəvvür yaradır:

***Cədvəl №8***

Şamaxı quberniyasında dövlət kəndliləri üzərinə qoyulan vergilər

| Qəzalar | 1851-ci ilə qədər toplanılan | | | | | | 1852-ci ildə toplanması nəzərdə tutulan | | | Azalma | Artım | Cəmi təmiz gəlir |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Pulla | Məhsula görə | Çəltik sahələrində | Otlaq sahələrinə görə | Mizan vergisi | Cəmi | O klad | Məskunlaşmayan torpaqdan alınan vergi | Cəmi nəzərdə tutulur | | | |
| Şamaxı | 80.100 | 23.783 | - | 15.500 | 3.390 | 122.773 | 133111 | 5.603 | 138714 | - | 15941 | |
| Nuxa | 24.303 | 44366 | 4800 | 5600 | 18000 | 122.569 | 117705 | 2430 | 170135 | 2434 | - | |
| Şuşa | 48523 | 18107 | - | 1370 | 1446 | 69446 | 175454 | - | 175454 | - | 56008 | |
| Lənkə-ran | 26246 | 7342 | - | 372 | - | 33969 | 49501 | - | 49501 | - | 15532 | |
| Bakı | 6274 | - | - | - | - | 6274 | 16658 | - | 16658 | - | 10384 | |
| Bütün qəzalar üzrə | - | - | - | - | - | 355031 | - | - | 450462 | | | 95481 |

Cədvəldən göründüyü kimi, 1851-ci ildə Şamaxı quberniyasının dövlət kəndliləri üzərinə qoyulan verginin məbləği 355.031 rubl olmuşdusa, 1852-ci il vergi islahatı nəticəsində bu rəqəm 450.462 rubla çatmışdı, başqa sözlə artım 95481 rubl təşkil etmişdi.

Islahat həyata keçirilərkən çar məmurları kəndli təsərrüfatlarının maddi imkanlarının – torpağın sahəsinin, keyfiyyətinin, heyvanlarının sayının, gəlirlilik dərəcələrinin nəzərə alınması vədlərini versələr də buna əməl etməmişdilər. Maraqlıdır ki, XIX əsrin 80-ci illərində dövlət kəndlilərinin vəziyyətini araşdıran mütəxəssislərlə yanaşı, həm də yüksək vəzifəli hökumət nümayəndələri vergi yükünün qeyri-bərabər bölüşdürülməsi faktlarını etiraf etməli olmuşdular. Belə ki, Dövlət Əmlak naziri P.D.Kiselyov göstərirdi ki, vergi islahatı aparılarkən Cənubi Qafqaz hakimiyyət orqanları kəndli təsərrüfatlarının gəlir vermə imkanlarını müəyyən etmək üçün heç bir iş görməmişlər [101, s. 420].

Dövlət Əmlak Nazirliyinin səlahiyyətli nümayəndəsi I.Tixeyev 1884-cü il tarixli qeydində etiraf edirdi ki, vergi islahatı aparılırkən hakimiyyət orqanları kəndli torpaqlarının sahəsi və keyfiyyəti haqqında səthi məlumatlara malik idilər və məntəqələrdə islahat icraçıları kəndli təsərrüfatlarının rentabelliyi haqqında sadəcə olaraq ümumi anlayışlar verməklə kifayətlənirdilər [101, s. 420]. Bütün bunların nəticəsində kəndlər arasında tüstü pulu vergisi bölüşdürülərkən vergi dərəcələri əksər hallarda qeyri-bərabər müəyyənləşdirilmişdi.

XIX əsrin 80-ci illərində dövlət kəndlilərinin vəziyyətini öyrənən mütəxəssislərin hazırladıqları materiallar arasında vergi dərəcələrinin kəndlilərin maddi imkanlarına uyğun gəlməməsi haqqında çoxlu sayda faktlar öz əksini tapmışdır. Yelizavetpol quberniyasının Şuşa və Cəbrayıl qəzalarını tədqiq edən A.Q.Dekonski göstərirdi ki, 1852-ci ildə dövlət kəndlilərinə məxsus olan torpaqların bir hissəsi bəylər tərəfindən zəbt edildiyi və əhalinin sayı dəyişdiyi üçün hazırda vergi dərəcələri

kəndlilərin imkanlarına qətiyyən uyğun gəlmir [144, IV c., II h., s. 319].

A.Q.Dekonskinin məhsuldar əkin sahələrinə malik Ağdərə kəndlilərinin 3 rubl, heç bir əkin sahəsi olmayan və yalnız bağ sahələri olan Ağdam kəndlərinin isə 9 rubl tüstü pulu vergisi verməsi haqqındakı faktları vergi yükünün qeyri-bərabər və ədalətsiz bölgüsünü bariz şəkildə nümayiş etdirir [144, IV c., II h., s. 319].

XIX əsrin 80-ci illərində Bakı quberniyasının Quba qəzasının dövlət kəndlilərinin vəziyyətini tədqiq etmiş P.N.Yaqodinskiy və P.V.Kotlyarovskiy [164, II c., I-II h.], Şamaxı qəzasını araşdıran N.A.Abelov [164, II c., II h.], Yelizavetpol quberniyasının Qazax qəzasını öyrənən A.D.Yeritsov [164, II c., I h.], Nuxa qəzasını öyrənən A.N.Arasxanyants [164, VI c., I h.], Cavanşir qəzasının dövlət kəndlilərinin vəziyyətini araşdıran A.E.Xan-Aqova [164, VI c., II h.] və başqaları vergi yükünün, xüsusilə də tüstü pulu vergisinin dövlət kəndliləri arasında qeyri-bərabər bölüşdürülməsi haqqında çoxlu sayda faktlar göstərirlər.

Torpaq rentası dövlət kəndlilərindən tüstü pulu forması ilə yanaşı həm də torpaq vergisi formasında da toplanılırdı. Qeyd etmək lazımdır ki, torpaq vergisi bütün dövlət kəndlilərindən deyil, yalnız əlavə torpaq sahələrindən istifadə edən kəndlilərdən alınırdı. I.L.Baxtadzenin topladığı materialların araşdırılması nəticəsində I.M.Həsənov belə bir nəticəyə gəlmişdir ki, XIX əsrin 80-ci illərində Şimali Azərbaycanın yalnız dörd qəzasında dövlət kəndliləri torpaq vergisi ödəyirdilər. Həmin dövrdə Cavad qəzasının dövlət kəndliləri əlavə pay torpaqlarına görə 1621 rubl, Quba qəzasında 924 rubl, Lənkəran qəzasında 135 rubl, Ərəş qəzasında 90 rubl torpaq vergisi ödəyirdilər [194, I c., III h., s. 149; 121, s. 30].

1852-ci il vergi islahatına görə torpaq töycüsünün miqdarı 50 qəpikdən 10 rubla qədər müəyyən edilsə də, əslində bu məbləğin 13 rubla, bəzi hallarda isə 14 rubla, hətta daha artıq olması haqqında faktlar mövcud idi. Çar məmurları iqlim

şəraitindən, kəndlilərin torpaqla təminatı səviyyəsindən, ticarət və sənətkarlığın inkişafı baxımından Şimali Azərbaycan kəndlilərini müxtəlif dərəcələrə bölmüş və hər dərəcəyə uyğun olaraq torpaq töycüsünün miqdarı da müxtəlif olmuşdu. I.A.Baxtadzenin topladığı materiallar göstərir ki, Bakı quberniyasının Göyçay qəzasında torpaq töycüsünün 17 dərəcəsi (3 rubldan – 14 rubla qədər). Şamaxı qəzasında 14 dərəcəsi, Cavad qəzasında 11 dərəcəsi, Bakı qəzasında 10 dərəcəsi, Lənkəran qəzasında 9 dərəcəsi, Quba qəzasında 6 dərəcəsi, Yelizavetpol quberniyalarının Nuxa qəzasında 23, Ərəş qəzasında 18, Zəngəzur qəzasında 11, Şuşa qəzasında 11, Cəbrayıl qəzasında11, Cavanşir qəzasında 10, Yelizavetpol qəzasında 8, Qazax qəzasında 5 dərəcəsi mövcud olmuşdu. Şərur-Dərələyəz qəzasında torpaq töycüsünün 7, Naxçıvan qəzasında isə 1 dərəcəsi olmuşdu [112a, I c., III h., s. 149].

Dövlət kəndlilərinin ödədiyi pul vergiləri içərisində zemski vergiləri də mühüm yer tuturdu. Zemski vergisi iki hissəyə bölünürdü. 1. Ümumi Cənubi Qafqaz üzrə; 2. quberniyalar üzrə [82, s. 213]. Zemski vergiləri imperiya və quberniyalarda yerli ehtiyacların həll edilməsi məqsədi ilə toplanılırdı. Əslində isə zemski vergiləri imperiyanın və çar məmurlarının maraqları baxımından xərclənilirdi. XIX əsrin II yarısında zemski vergisinin quberniya üzrə vahid dərəcəsi mövcud deyildi. Belə ki, Yelizavetpol quberniyasında zemski vergisinin üç dərəcəsi (hər həyətdən 1 rubl 30 qəpikdən – 7 r. 20 qəpiyə qədər), Bakı quberniyasında dörd dərəcəsi (2 rubl 10 qəpikdən – 6 rubl 77 qəpiyə qədər), Naxçıvan və Şərur-Dərələyəz qəzalarında isə bir dərəcəsi (müvafiq olaraq 7 rubl və 7 rubl 80 qəpik) mövcud idi [112a, I c., III h., s. 167]. Araşdırmalar göstərir ki, Şimali Azərbaycanda vergilər əsasən iki üsulla – hər bir ailənin əmlakına uyğun olaraq (repartasiya sistemi) və ailələrin iqtisadi imkanlarını nəzərə almadan həyətlər arasında bərabər bölgü prinsipi üzrə toplanılırdı. Yelizavetpol, Göyçay, Şamaxı və Quba qəzalarında vergilərin həyətlər arasında bərabər bölgü prinsipi üstünlük təşkil edirdisə, Bakı,

Qazax, Naxçıvan, Şuşa, Zəngəzur, Cəbrayıl və Şərur-Dərələyəz qəzalarında repartasiya sistemi geniş yayılmışdı [121, s. 32]. Vergilərin bölüşdürülməsi zamanı dövlət məmurları daha çox özbaşınalıqlara yol verirdilər. Dövlət hər kənddən toplanılan illik vergini bir yerdə tələb etdiyi üçün kəndxudalar varlı kəndlilərin mənafeyini qoruyaraq əsas vergi yükünü yoxsul kəndlilərin üzərinə qoyurdular. Bir çox hallarda dövlət kəndlilərindən alınan zemski vergiləri tüstü pulu və torpaq vergilərinin həcmindən artıq idi. I.L.Baxtadzenin məmulatları əsasında prof. I.M.Həsənovun tərtib etdiyi cədvəl [121, s. 32] bu nisbəti əyani şəkildə nümayiş etdirir:

***Cədvəl №9***

Dövlət kəndlilərindən alınan tüstü pulu, torpaq vergisi ilə zemski vergisinin miqdarı

| Quberniya və qəzalar | Hər həyətə düşən tüstü pulu və torpaq vergisi rublla | Hər həyətə düşən zemski vergisi rublla | Zemski vergisi ilə tüstü pulu və torpaq vergisinin nisbəti Zemski vergisi artıqdır (+) və ya azdır (-) | |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | |
| Bakı qəzası | 3,56 | 5,32 | + 1,76 | 149,44 |
| Şamaxı qəzası | 6,96 | 6,33 | – 0,63 | 90,95 |
| Göyçay qəzası | 8,27 | 6,57 | – 1,70 | 79,44 |
| Cavad qəzası | 6,67 | 5,31 | – 1,36 | 79,61 |
| Quba qəzası | 5,62 | 6,32 | + 0,70 | 112,46 |
| Lənkəran qəzası | 4,99 | 5,88 | + 0,89 | 117,84 |
| Bakı qub-sı üzrə orta hes. | 6,01 | 5,96 | – 0,05 | 99,17 |
| Yelizavetpol qəzası | 5,81 | 5,86 | + 0,05 | 100,86 |
| Zəngəzur qəzası | 4,76 | 5,38 | + 0,62 | 113,05 |
| Ərəş qəzası | 8,81 | 6,27 | – 2,54 | 71,17 |
| Nuxa qəzası | 8,27 | 6,47 | – 1,80 | 78,23 |
| Şuşa qəzası | 9,96 | 6,05 | -3,91 | 60,74 |
| Qazax qəzası | 5,53 | 6,38 | + 0,85 | 115,39 |
| Cavanşir qəzası | 6,85 | 5,83 | – 1,02 | 85,11 |
| Cəbrayıl qəzası | 6,68 | 5.82 | – 0,86 | 87,13 |
| Yelizavetpol quberniyası üzrə orta hesab. | 7,08 | 6,01 | – 1,07 | 84,88 |

| | | | | |
|---|---|---|---|---|
| Naxçıvan qəzası | 5.32 | 6,15 | + 0,83 | 115,62 |
| Şərur-Dərələyəz qəzası | 5,69 | 7,43 | + 1,74 | 130,59 |
| Bu iki quberniya üzrə orta hesab. | 5,50 | 6,79 | + 1,29 | 123,45 |
| Bütün Şimali Azərbaycan üzrə orta hesabla | 6,48 | 6,09 | – 0,39 | 93,98 |

Çar hökumətinin 1900-cu il 12 iyun tarixli qərarı ilə 1901-ci ildən etibarən tüstü pulu və torpaq vergiləri töycü adlı vergi ilə əvəz edildi. Töycü vergisi kəndlilərin istifadəsində olan torpaqdan gələn xalis gəlirin 12 faizini təşkil edirdi [82, s. 214].

Torpağın gəlir vermə dərəcəsini müəyyən etmək üçün bütün torpaqlar üç qismə bölünürdü: 1) bağlar; 2) əkin və biçənək yerləri; 3) meşə və çəmənlər [82, s. 214]. Torpağın hər desyatininin qiyməti onun məhsuldarlığı, məhsulun keyfiyyəti, satış şəraiti və icarə haqqının məbləğinə görə xalis orta gəliri əsasında müəyyənləşdirilirdi. Hər üç ildən bir müəyyən edilən töycü vergisinin miqdarı dəyişdirilə bilərdi. Islahat haqqında qanuna görə töycü vergisi kəndli təsərrüfatının gəlirinin 12% həcmində müəyyən edilsə də, əslində onun həcmi ayrı-ayrı illərdə 25-30%-ə çatırdı [127, s. 75]. Islahatdan sonra həm töycü, həm də zemski vergilərinin miqdarı kəskin şəkildə artmışdı. Qeyd edək ki, islahata qədər əgər Cənubi Qafqazın sahibkar və dövlət kəndliləri birlikdə 2.483 min rubl tüstü pulu vergisi verirdisə, islahatdan sonra təkcə dövlət kəndliləri 3.099 min rubl töycü vergisi ödəməli idi [177]. Islahatdan sonra Cənubi Qafqazın dövlət kəndliləri üzərinə qoyulan zemski vergisinin miqdarı isə 1.766.430 rubla çatmışdı [177].

Cənubi Qafqazın dövlət kəndlilərinin təxminən 2/3 hissəsinin Şimali Azərbaycanda yaşadığını nəzərə alsaq vergi yükünün əsas ağırlığının da onların üzərinə düşdüyü aydın olar. 1901-ci ilə qədər Şimali Azərbaycanın dövlət kəndlilərindən ildə 784 min rubl xəzinə vergiləri yığılırdısa, islahatdan sonra töycü vergisi 1.319 min rubla çatmışdı [127, s. 76].

1908-ci ildə Dövlət Dumasının qərarı ilə vergilər yenidən

artırıldı və bu artım 2-3, bəzi hallarda isə hətta 10 dəfəyə bərabər oldu [133]. «Novoe obozrenie» qəzetinin 17 mart 1906-cı il tarixli 44 saylı nömrəsində verilən məlumata əsasən dövlət kəndliləri 3 desyatin torpaqdan istifadəyə görə xəzinəyə 20-21 rubl vergi ödəyirdi [178].

XX əsrin əvvəllərində zemski vergisinin həcmi də mütəmadi olaraq artırılırdı. Onu da qeyd etmək lazımdır ki, zemski vergisinin miqdarı ilə bağlı tarixi ədəbiyyat və qaynaqlarda müxtəlif məlumatlar öz əksini tapmışdır. M.Ə.Rəsulzadə «Tərəqqi» qəzetinin 26 dekabr 1908-ci il tarixli 136-cı sayında dərc etdirdiyi «Zaqafqaz zemstvo smeti» adlı məqaləsində qeyd edirdi ki, 1904-1906-cı illərdə Bakı quberniyasında 1.080.976 rubl zemski vergisi alınmışdı [90, s. 278]. Müəllifin yazdığına görə 1909-1911-ci illər üçün nəzərdə tutulan layihə sənədlərində Bakı quberniyası əhalisindən alınması planlaşdırılan zemski vergilərinin məbləği 1.800.000 rubl müəyyənləşdirilmişdi və bu vergilər aşağıdakı şəkildə bölüşdürülürdü:

| | | | |
|---|---|---|---|
| 1. | Sənaye şəhadətnamələrindən alınan | - | 90.000 rubla qədər |
| 2. | Traktirxanalardan | - | 1.500 rubl |
| 3. | Müəssisatı xeyriyyədən ötrü alınan vergilərdən | - | 5.000 rubl |
| 4. | Cərimə sərmayəsindən | - | 3.000 rubl |
| 5. | Fabrika və zavod məkanlarından yığılan prosent vergidən | - | 715000 rubl |
| 6. | Xəzinə yerləri, ianələr və balıqçılıqdan | - | 60.000 rubl |
| 7. | Şəhər əmlakı qeyri-mənquləsindən | - | 260.000 rubl |
| 9. | Vergilərin təxiri ucundan alınan cərimələrdən | - | 20.000 rubl |
| 12. | Ödüli-xüsusi və kəndçi yerləri və meşələrindən | - | 739.000 rubl [90, s. 278] |

M.Ə.Rəsulzadə 16 noyabr 1908-ci ildə «Tərəqqi» qəzetinin 103-cü sayında dərc etdirdiyi «Zemstvo islahatı» başqa bir məqaləsində göstərirdi ki, Cənubi Qafqaz əhalisindən alınan zemski vergisinin miqdarı ildə 4 milyon 670 min rubla

bərabər idi ki, bu da hər adambaşına 78 qəpik vergi yükü demək idi [90, s. 250].

Azərbaycan tarixçisi C.Hüseynovun hesablamalarına görə Bakı və Yelizavetpol quberniyalarının əhalisi 1906-1909-cu illərdə 1.042.000 rubl, 1909-1911-ci illərdə 1.729.000 rubl, 1911-1914-cü illərdə 1.331.000 rubl zemski vergisi vermişdi ki, bu isə 1906-cı illə müqayisədə 18% artım demək idi [127, s. 80].

Arxiv materiallarına görə 1906-cı il islahatına qədər Cənubi Qafqazın bütün kəndliləri 1.766 min rubl zemski vergisi verirdisə, 1913-cü ildə yalnız Şimali Azərbaycan kəndliləri 1.647 min rubl zemski vergisi vermişdilər [64, v. 1-2].

Şimali Azərbaycanda yaşayan dövlət kəndlilərinin bir qismi də Zaqatala dairəsində yerləşirdi. Bu bölgədə kəndlilər asılılıq formasına görə üç qrupa bölünürdülər: 1) vergi verməyənlər – 7900 tüstü; 2) keşkəl kəndliləri – 900 tüstü; 3) bəy kəndliləri – 900 tüstü [87, s. 70]. Burada bütün torpaqlar dövlət xəzinəsinin, keşkəl sahibləri və bəylərin mülkiyyətində idi. Kəndlilər torpaqdan istifadəyə görə dövlətə vergi ödəyirdilər. Vergi müfəttişliyinin verdiyi məlumata əsasən 1908-ci ildə Zaqatala dairəsində yaşayan bəy kəndlilərinin dövlətə verdiyi illik tüstü pulunun həcmi hər ailə üçün 8 rubl 65 qəpiyə qədər idi [87, s. 70]. Bununla yanaşı, dairənin kəndliləri yerli idarə orqanlarının saxlanılması üçün tüstü hesabına toplanılan darğalıq vergisi ödəyir və bir sıra mükəlləfiyyətlər icra edirdilər.

Şimali Azərbaycanın dövlət kəndliləri tüstü pulu (1901-ci ildən töycü) və zemski vergilərindən əlavə çoxsaylı «mirskie» və «ictimai» adlanan vergi və mükəlləfiyyətlər də ödəmək məcburiyyətində qalmışdılar. Dövlət kəndliləri kənd məktəblərinin, qarovulçuların, ruhanilərin, mirab və cuvarların, kəntxuda və onların müavinlərinin, meşəbəyilərin, hərbi hissələrin saxlanılması və təminatı üçün də vergi verməli, yol, «çəyirtkə» və s. kimi ağır mükəlləfiyyətlər də daşımalı idilər [164, VII c., s. 101-102; 82, s. 213]. Qeyd edilənlər arasında yol mükəlləfiyyəti, şosse və kənd yollarının salınması və təmiri,

körpülərin təmiri, kanalların təmizlənməsi daha dözülməz idi. Belə ki, günlərlə kəndliləri təsərrüfat işlərindən ayırır, onların iş heyvanları və əmək alətləri də yol mükəlləfiyyətinə cəlb edilirdi. Qazax və Yelizavetpol qəzalarını birləşdirən Tərsəçay şossesinin salınması üçün təkcə 1883-cü ildə Qazax qəzasının əhalisi 60 min işçi vermişdi ki, bu da tüstü pulu vergisindən iki dəfə artıq idi [164, II c., II h., s. 202-204]. Arxiv materiallarının araşdırılması göstərir ki, 1899-cu ildə Bakı quberniyasında yol mükəlləfiyyətinə 12336 yedək, 174117 nəfər cəlb edilmişdisə 1910-cu ildə bu iki dəfə artmışdı. Bakı quberniyasında yol mükəlləfiyyəti 1899-cu ildə hər kişiyə 50 qəpik təşkil edirdisə, 1910-cu ildə 6 rubla çatmışdı [56, v. 12]. Yelizavetpol quberniyasında 1909-cu ildə yol mükəlləfiyyətinə 28975 podvod, 105167 nəfər, 1911-ci ildə isə 116066 podvod, 245749 nəfər cəlb edilmişdi ki, bu da müvafiq olaraq 4 və 2,5 dəfə artım demək idi [66, v. 2-3].

Kəndlilər üzərinə qoyulan ağır mükəlləfiyyətlərdən biri də «çəyirtkə» mükəlləfiyyəti idi. Kənd təsərrüfatı işlərinin qızğın vaxtında kəndlilər bəzən aylarla çəyirtkə sürüsünə qarşı mübarizəyə cəlb edilirdilər. Birinci rus inqilabı dövründə yalnız Yelizavetpol quberniyasında ildə orta hesabla 250 min kəndli çəyirtkə sürülərinə qarşı mübarizəyə cəlb edilmişdi [70, v. 8].

Ağır mükəlləfiyyətlərdən biri də hərbi hissələrin nəqliyyat vasitələri, odunla, bəzən yaşayış məntəqələri ilə təmin edilməsindən ibarət idi. Getdikcə artmaqda olan natural mükəlləfiyyətlər bəzi hesablamalara görə 1910-cu illə müqayisədə 1913-cü ildə 40% artmışdı [127, 85].

Quberniya statistika komitələrinin məlumatına görə, 1905-1908-ci illər ərzində Naxçıvan və Şərur-Dərələyəz qəzaları istisna olmaqla Şimali Azərbaycanda «mirskie» və ictimai rüsum və mükəlləfiyyətlərin məbləği 826.673 min rubla qədər yüksəlmişdi [127, s. 80].

Qafqazın müsəlman əhalisinə etibar etməyən çar hökuməti 1887-ci ildə onları hərbi mükəlləfiyyətdən azad edərək bunun əvəzində hərbi vergi tətbiq etdi. Akad. Ə.S.Sumbatzadə göstərir

ki, Qafqazın müsəlman əhalisi üzərinə 542,8 min rubl hərbi vergi qoyulmuşdu [221, s. 111]. Arxiv materiallarının araşdırılması göstərir ki, 1887-ci ildən Cənubi Qafqazda qüvvəyə minən hərbi vergi Bakı quberniyası üçün 158 min rubl, Yelizavetpol quberniyası üçün 140 min rubl, Irəvan quberniyası üçün 69 min rubl, Zaqatala dairəsi üçün 28 min rubl müəyyən edilmişdi [58, v. 4]. Hərbi vergi orduya xidmətə çağırılan şəxsin üç illik orta əmək haqqı nəzərə alınmaqla hesablanırdı. Belə ki, həmin dövrdə orduda xidmət müddəti üç ilə bərabər idi. Arxiv sənədləri göstərir ki, XX əsrin əvvəllərində qeyri-qanuni mükəlləfiyyətlərin məbləği qanuni vergilərin həcmindən iki bəzən isə üç dəfə çox idi [62, v. 81]. Digər tərəfdən, vergi məmurlarının özbaşınalıqları kəndlilərin vəziyyətini daha da dözülməz hala salırdı. Arxiv materialları arasında vergi yükünün dözülməzliyi və məmur özbaşınalıqları haqqında çoxlu sayda faktlar saxlanılmışdır [55, v. 4; 4, v. 2-3; 5, v. 2-3; 33, v. 3 və s.]. XIX əsrin sonunda Şimali Azərbaycan kəndliləri 2 mln. rubl vergi və mükəlləfiyyət ödəyirdisə, 1900-cu il islahatından sonra bu rəqəm 5 milyon rubla, birinci dünya müharibəsi ərəfəsində isə 7,5 milyon rubla çatmışdı [57, v. 8-16; 66, v. 2-3].

Vergi və mükəlləfiyyətlərin getdikcə artması kütləvi etirazlara cəlb olmaqla yanaşı, vergi borclarının da sürətlə artmasına gətirib çıxarırdı. Təkcə onu demək kifayətdir ki, Bakı və Yelizavetpol quberniyası kəndlilərinin vergi borcları 1905-ci ildə 2.600 min rubl təşkil edirdisə, 1907-ci ildə bu rəqəm 4.750 min rubla yüksəlmişdi [71, v. 1-7].

Bu bölümdə şərh edilən «mirskie», ictimai və hərbi vergilər və göstərilən rəqəmlər bütün Şimali Azərbaycan kəndlilərinə aid olsa da, dövlət kəndlilərinin əksəriyyət təşkil etdiyini nəzərə alsaq vergi yükünün mühüm hissəsinin onların üzərinə düşdüyünü təsəvvür etmək o qədər də çətin deyildir. Rusiya imperiyasının mərkəzi quberniyaları ilə müqayisədə Şimali Azərbaycanın dövlət kəndliləri üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlərin daha da ağır olması çarizmin vergi sahəsində də müstəmləkəçilik siyasətinin bariz nümunəsi idi.

## 2.3. Sahibkar kəndindəki vergilər haqqında.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi ilə Azərbaycan tarixində xanlıqlar dövrü başa çatdı və rus işğal dövrü başlandı. Artıq qeyd edildiyi kimi, rus işğalı dövründə Şimali Azərbaycan kəndliləri əsasən iki kateqoriyadan ibarət idi. Işğal prosesində xəzinənin ixtiyarına keçmiş torpaqlarda yaşayan kəndlilər dövlət kəndliləri, xüsusi mülkiyyətə məxsus torpaqlarda yaşayan kəndlilər isə sahibkar kəndliləri kateqoriyasına aid edilmişdi. Təxmini hesablamalara görə, Şimali Azərbaycan kəndlilərinin 68%-ni dövlət, 32%-ni isə sahibkar kəndliləri təşkil edirdi.

Öyrənilən dövrdə Şimali Azərbaycan kəndlərində tətbiq edilmiş vergi siyasətinin araşdırılması Şimali Azərbaycanın aqrar və sosial münasibətlər tarixinin çox mühüm problemlərindən biridir. Onu da qeyd etmək lazımdır ki, ayrı-ayrı əsərlərdə bu məsələyə bu və ya digər rakursdan toxunulsa da, ümumilikdə bu problem göstərildiyi kimi, xüsusi tədqiqat obyekti olmamışdır.

1847-ci ildə qüvvəyə minmiş «Kəndli Əsasnamə»lərinə qədər sahibkar kəndliləri xanlıqlar dövründə verdikləri vergi və mükəlləfiyyətləri ödəməkdə davam edirdilər. Ayrı-ayrı xanlıqlarda vergi və mükəlləfiyyətlərin növləri və həcmində bəzi fərqlər olsa da, feodal istismarının mahiyyəti bütövlükdə dəyişməz idi.

XIX əsrin 40-cı illərində çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi inzibati və aqrar islahatlar içərisində aqrar münasibətlərə dair qanun mühüm yer tuturdu. 1846-cı il 6 dekabr tarixli reskriptlə Şimali Azərbaycanın hakim təbəqəsini münasibəti köklü şəkildə dəyişən çar hökuməti sahibkarlarla kəndlilər arasındakı münasibətlərin nizamlanması üçün «Əsasnamə» hazırlanmasını da nəzərdə tuturdu [202, XXI, №20672, s. 617; 152, II h., s. 106]. Rusiya işğalı dövründə hakim təbəqə ilə

sahibkar kəndliləri arasında qarşılıqlı münasibətlərin nizamlanması istiqamətində ilk qanunvericilik aktı 1847-ci ildə qəbul edildi. «Şamaxı və Dərbənd quberniyalarında bəylər və onların torpaqlarında yaşayan kəndlilər arasında qarşılıqlı münasibətlər haqqında 20 aprel 1847-ci il Əsasnamə»si, Qazax, Şəmşədil və Borçalı ağaları haqqında 28 dekabr 1847-ci il Əsasnamə»si [204, IX, əlavə II-1097] və «Irəvan quberniyası və Ahalsıx qəzasında torpaq sahibləri ilə kəndlilər arasında qarşılıqlı münasibətlər haqqında 1851-ci il 8 iyun Əsasnamə»si [213, I c., II h., s. 80-83] bu sahədə mühüm addımlardan hesab oluna bilər. 1851-ci il 8 iyun «Əsasnamə»si Krım müharibəsi ilə əlaqədar Qafqazda hərbi əməliyyatların aparıldığı üçün həyata keçirilməmiş, Irəvan quberniyası və Tiflis quberniyasının Ahalsıx qəzasında kəndlilərlə torpaq sahibləri arasındakı münasibətlər Rusiya işğalına qədərki dövrdə olduğu kimi qalmışdı [114, s. 206]. 1847-ci il 20 aprel və 28 dekabr tarixli «Əsasnamə»lər Quba qəzası, Car-Balakən və Irəvan quberniyasının Naxçıvan və Ordubad qəzalarından başqa 1870-ci il 14 may tarixli «Əsasnamə» qüvvəyə minənə qədər bütün Şimali Azərbaycanda tətbiq edilmişdi. Quba qəzasında torpaq sahibləri ilə kəndlilər arasında münasibətlər 1877-ci ilə qədər 1824-cü ildə A.P.Yermolov tərəfindən tərtib edilmiş «Təlimat» əsasında müəyyənləşdirilmişdi [114, s. 206]. 1847-ci il «Əsasnamə»lərində torpaq sahibləri ilə kəndlilər arasında münasibətlər nizamlanmış və kəndlilər üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlər məsələsinə xüsusi bir bölüm ayrılmışdı. «Əsasnamə»lərə görə, kəndlilər torpaq sahiblərinə aşağıdakı vergiləri ödəməli və mükəlləfiyyətləri yerinə yetirməli idilər:

1) malcəhət,
2) xidmətçi göndərmək,
3) biyar,
4) əvrəz,
5) çöpbaşı və ya mal-qaranı otarmaq üçün haqq və s.
6) köçmə maldarlığı ilə məşğul olan əhalidən yığılan pul vergisi.

«Əsasnamə»lərə görə, kəndlilər torpaq sahəsini öz əmək alətləri, iş heyvanları və öz toxumu ilə becərərdisə, istənilən kənd təsərrüfatı məhsulundan alınan malcəhət vergisinin həcmi məhsulun 1/10 hissəsindən çox olmamalı idi [152, II h., s. 55]. Kəndlilər öz pay torpaqlarını sahibkarların iş heyvanları, əmək alətləri və toxumundan istifadə etməklə becərərdisə, onlar məhsulun 1/5 hissəsini malcəhət şəklində torpaq sahiblərinə verməli idilər [152, II h., s. 55; 50, s. 123]. Kəndlilər məhsul yığımını başa çatdırdıqdan sonra torpaq sahibi və ya onun nümayəndəsinin iştirakı ilə dərzlərə bölməli və torpaq sahibi özünə çatan hissəsini götürməli idi. Məhsulun dərzlərə və ya hissələrə bölünməsi məhsul yığımının başa çatmasından sonrakı üç gün ərzində həyata keçirilməli idi. «Əsasnamə» malcəhətin torpaq sahibinə çatdırılması qaydalarını da müəyyənləşdirmişdi. Torpaq sahibi məhsulun toplandığı mülk ərazisində yaşayırdısa kəndlilər məhsul bölgüsündən sonrakı üç gündən gec olmayaraq malcəhət vergisini sahibkara təhvil verməli idi. Sahibkar məhsul yığılan yerdən 50 verstlik məsafədə yaşayırdısa kəndlilər malcəhəti 15 gün ərzində, 50 verstdən uzaqda yaşayırdısa bütün tarla işləri başa çatdıqdan sonra ona çatdırmağa borclu idilər [152, II h., s. 55].

«Əsasnamə» malcəhətlə yanaşı kəndlilər üzərinə işləyib-ödəmə rentası mükəlləfiyyətini də qoyurdu. Belə ki, hər kəndli ailəsi il ərzində 18 gün öz iş heyvanları və əmək alətləri ilə sahibkar təsərrüfatında işləmək üçün bir nəfər ayırmalı idi. 18 günlük işləyib ödəmə mükəlləfiyyətinin 6 günü torpağın şumlanması, səpin və məhsul yığımı, 6 günü sahibkarın bir yerdən başqa yerə köçməsi üçün yardım göstərilməsi, 3 günü xırda mükəlləfiyyətlərin (odun daşınması və s.) icrası, 3 günü ev və ya təsərrüfat binalarının tikilməsi, həyət və bostanların hasara alınması kimi işlər üçün nəzərdə tutulurdu [152, II h., s. 56]. Torpaq sahibi biyarın icrası üçün işçini onun razılığı olmadan bir gündən artıq saxlaya bilməzdi. Yalnız feodal köç zamanı işçini bütün köç müddəti ərzində fasiləsiz saxlaya bilərdi. Qarşılıqlı razılaşma əsasında biyar günləri, pülla da əvəzlənə

bilərdi. Bu halda bəy kəndliləri bir biyar iş günü üçün 20 qəpikdən, ağa kəndliləri isə 10 qəpikdən çox olmamaq şərti ilə pul verməli idilər [152, II h., s. 56; 114, s. 210]. «Əsasnamə» biyar mükəlləfiyyətini il ərzində 18 gün müəyyənləşdirməklə kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. Belə ki, əslində bütün orta əsrlər boyu Şimali Azərbaycanda mövcud olan biyar mükəlləfiyyətinin həcmi çar hökuməti tərəfindən faktiki olaraq əvvəlki dövrlərə nisbətən iki dəfə artırmışdı. Biyarla yanaşı, kəndlilər bütün kənd cəmiyyəti ilə birlikdə il ərzində iki gün sahibkar üçün əvrəz (iməcilik) mükəlləfiyyətini də yerinə yetirməli idi. Əvrəz zamanı yığılan bütün məhsulun hamısı feodala verilir və torpaq sahibi iməcilik zamanı işçiləri yeməklə təmin etməklə kifayətlənirdi [152, II h., s. 57]. Bu isə feodallara rəsmi olaraq havayı işçi qüvvəsindən istifadə hüququnun verilməsi demək idi.

«Əsasnamə»yə görə, əkinçiliklə və oturaq maldarlıqla məşğul olan kəndlilər sahibkarlara məxsus yaylaq və qışlaq otlaq sahələrindən mal-qaranın otarılması üçün istifadə etmək müqabilində torpaq sahiblərinə çöpbaşı adlanan pul vergisi ödəməli idilər [152, II h., s. 57]. Qanuna görə, çöpbaşı vergisinin miqdarı müəyyənləşdirilməmiş, onun qədimdən mövcud olan yerli adət-ənənələr əsasında alınması nəzərdə tutulmuşdu. Çöpbaşı vergisi otlaqdan istifadəyə görə bir sürüdən alınırdı. Ənənəvi olaraq 20 başdan artıq qoyun və keçi, 10 başdan artıq mal-qara, 5 başdan artıq at bir sürü hesab edilirdi. Göründüyü kimi, «Əsasnamə»də yol verilən boşluqlar feodal özbaşınalığının əsas mənbələrindən biri idi.

1847-ci il 20 aprel tarixli «Əsasnamə»nin bir paraqrafı köçmə maldarlıqla məşğul olan kəndlilərin mükəlləfiyyətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdi. Belə ki, köçmə maldarlıqla məşğul olan kəndlilər otlaqlardan istifadəyə görə torpaq sahibinə çöpbaşı vergisi ödəməklə yanaşı, hər ailə gümüş pulla 4 rubl pul vergisi də verməli idi [152, II h., s. 57]. «Əsasnamə»yə kəndlilərin feodala nökərlər verməsi də nəzərdə tutulurdu. Qanuna əsasən, feodalın tələbi ilə hər on kəndli

həyatindən bir kişi, hər on beş kəndli ailəsindən isə bir qadın nökərin ayrılması qaydası müəyyənləşdirilirdi. Nökər və ya xidmətçinin öz təsərrüfatı, əkin və bağ sahəsi olmayan ailələr, kimsəsiz və yetimlər içərisindən seçilməsi tövsiyə olunurdu. Müsəlman feodalları üçün xidmətçi qadının erməni ailəsindən, erməni feodalı üçün isə müsəlman ailəsindən seçilməsi qadağan edilirdi. Qanuna görə, xidmətçi hər il dəyişdirilməli idi [152, II h., s. 55-56]. Ikitərəfli razılıq əsasında xidmətçi və ya nökərin xidmət müddəti uzadıla bilərdi [152, II h., s. 56]. 20 aprel 1847-ci il tarixli «Əsasnamə»yə görə feodallara nökərlərdən ev və tarla işlərində, qadın xidmətçidən isə ev işlərində istifadə etməyə icazə verilirdi. Xidmət müddəti ərzində feodal nökər və ya xidmətçini paltar və yeməklə təmin etməli idi. Kişi nökərini vermiş ailələr torpaq sahibi qarşısındakı bütün vergi və mükəlləfiyyətlərdən azad edilirdi. Nökər vermiş ailənin xəzinəyə verməli olduğu verginin bir hissəsini torpaq sahibi, o biri hissəsini isə nökərin məxsus olduğu kənd icması ödəyirdi [152, II h., s. 56]. «Əsasnamə» feodalların nökərlərin xidmətindən istifadə hüquqlarını daha genişləndirmişdi. Belə ki, əvvəllər nökərlərin xidmətindən istifadə xeyli az olmuş, qadın xidmətçilərin verilməsi qaydası isə ümumiyyətlə mövcud olmamışdı. Sonuncu qayda islam və yerli adət-ənənələrə zidd olduğu üçün böyük narazılığa səbəb olduğuna görə tezliklə ləğv edilmişdi [114, s. 210; 50, s. 125].

Beləliklə, 1847-ci il 20 aprel tarixli «Əsasnamə»si faktiki olaraq kəndlilərin feodallar tərəfindən istismarının formasını dəyişdirmədi. Sadəcə olaraq yeni qanunvericilik sənədləri vergi və mükəlləfiyyətlərin vahid normasını müəyyən edərək, vergi sistemində mövcud olan müxtəlifliyi nizamlamış oldu. «Əsasnamə»yə görə, torpaq sahiblərinə kəndlilər üzərində polis və məhdud məhkəmə hakimiyyətinin verilməsi onların kəndlilər üzərində hakimiyyətinin daha da gücləndirilməsini rəsmiləşdirdi [152, II h., s. 58-59]. Yeni qanunvericilik aktına əsasən, kəndlilər bir sahibkarın yanından başqasının yanına keçmək hüququna malik olsalar da bu hüquq bir sıra əngəllərlə məhdud-

laşdırılırdı. Belə ki, kəndli başqa sahibkarın yanına keçmək üçün 5 desyatin torpağı satın almalı, həm tərk etdiyi, həm də onu qəbul edən kənd cəmiyyətlərinin, o cümlədən torpağını tərk etdiyi sahibkarın razılığını almalı idi ki, bu da həmin dövrün reallıqları şəraitində mümkünsüz idi [152, II h., s. 59-61]. «Əsasnamə»yə görə yerli hakimiyyət orqanlarına kəndlilərin feodallar qarşısında mükəlləfiyyətlərin yerinə yetirilməsinə nəzarət etmək və məsuliyyət daşımaq səlahiyyətləri verilmişdi [152, II h., s. 61].

1847-ci il «Əsasnamə»lərinin vergi və mükəlləfiyyətlər sistemində müəyyənləşdirdiyi qaydalar 14 may 1870-ci il islahatına qədər ciddi bir dəyişiklik olmadan qüvvədə qalmışdı.

1861-ci il fevralın 19-da çar II Aleksandrın (1855-1881) təsdiq etdiyi «Əsasnamə» ilə Rusiyada mülkədar kəndlərində təhkimçilik hüququnun ləğv edilməsi, mülkədar kəndlilərinin şəxsi azadlıq alması və öz əmlaklarından sərbəst istifadə etmək hüququ əldə etmələri kapitalist münasibətlərinin inkişafı üçün geniş imkanlar açmışdı. Bu islahatın təsiri ilə Cənubi Qafqazda baş verən proseslər, əhalinin artmaqda olan narazılığı və üsyanlar çarizmi Cənubi Qafqazda da islahatlar keçirməyə məcbur etdi. Beləliklə, 1870-ci il mayın 14-də «Cənubi Qafqazın Yelizavetpol, Bakı, Irəvan və qismən Tiflis quberniyalarının ali müsəlman silkindən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında əsasnamə» təsdiq edildi [152, II h., s. 401]. Qafqaz canişininin qərarına əsasən «Əsasnamə» 1870-ci il noyabrın 8-də qüvvəyə minirdi [50, s. 182]. 1870-ci il 14 may tarixli «Əsasnamə»nin dörd hissədən ibarət olan ikinci bölümünün [152, II h., s. 411] bütünlüklə sahibkar kəndlilərinin feodallar qarşısında mükəlləfiyyətlərinə həsr edilməsi bu məsələnin mühüm əhəmiyyət kəsb etməsini bir daha nümayiş etdirirdi. Onu da qeyd etmək lazımdır ki, 14 may 1870-ci il «Əsasnamə»si 20 aprel və 28 dekabr 1847-ci il tarixli «Əsasnamə»lərin prinsipləri əsasında hazırlanmışdı. Yeni qanuna görə, nizamnamə fərmanları qüvvəyə minənə qədər

kəndlilər islahata qədər istifadə etdikləri torpaq sahələrindən yenə də istifadə etmək və bunun müqabilində əvvəlki mükəlləfiyyətləri ödəmək məcburiyyətində idilər. «Əsasnamə»nin 72-ci maddəsinə əsasən, nizamnamə fərmanları qüvvəyə mindikdən sonra kəndlilər aldıqları pay torpağının əvəzində torpaq sahibinə əldə etdikləri məhsuldan malcəhət və ya bəhrə vergisi verməli, kəndlinin feodal təsərrüfatında gördüyü biyar iş günləri isə pul vergisi ilə əvəzlənməli idi [152, II h., s. 412]. Islahata qədər natura ilə (heyvan, quş, yağ, pendir və s.) ödənilən mükəlləfiyyətlər də pul vergisi ilə ödənilməli idi [102, s. 264; 104]. «Əsasnamə»nin 76-cı maddəsinə görə Bakı və Yelizavetpol quberniyalarının, Tiflis quberniyasının Tiflis və Ahalsıx qəzalarının kəndliləri pay torpaqlarından istifadə müqabilində məhsulun 1/10, Irəvan quberniyasının kəndliləri isə məhsulun 4/30 hissəsini malcəhət və ya bəhrə şəklində torpaq sahiblərinə verməli idilər [152, II h., s. 403; 114, s. 213; 102, s. 264]. «Əsasnamə»nin 77-ci maddəsində isə biyarın pulla əvəzlənməsi nəzərdə tutulurdu. Belə ki, biyar əvəzinə bu ənənənin qorunub saxlandığı yerlərdə istər həyətyanı, istərsə də əkin torpaqlarının hər desyatininə görə Bakı və Yelizavetpol quberniyalarının (Qazax qəzası istisna olmaqla) kəndliləri 30 qəpik, Yelizavetpol quberniyasının Qazax, Tiflis quberniyasının Tiflis və Ahalsıx qəzalarının kəndliləri isə 15 qəpik ödəməli idilər [152, II h., s. 413; 114, s. 212]. «Əsasnamə»nin 78-ci maddəsi biyar günləri müqabilində ödənilən pul mükəlləfiyyətinin əvəzinə malcəhət vergisinin artırılmış həcmdə ödənilməsini də məqbul hesab edirdi. Bu haqda malcəhət və ya bəhrə vergisinin həcmi Bakı və Yelizavetpol quberniyalarında (Qazax qəzası istisna olmaqla) məhsulun 1/8, Yelizavetpol quberniyasının Qazax qəzası və Tiflis quberniyasının Tiflis və Ahalsıx qəzalarında isə məhsulun $^{1}/_{9}$ hissəsindən artıq ola bilməzdi [152, II h., s. 414]. Malcəhət həmçinin pul mükəlləfiyyətlərinin ödənilməsi müddəti torpaq sahibi ilə kəndlilərin qarşılıqlı razılığı əsasında müəyyənləşdirilərək nizamnamə fəpmanlarında qeydə alınırdı. Nizamnamə

fərmanlarının təsdiqindən sonra mükəlləfiyyətlərin ödənilməsi müddəti yalnız sahibkara kəndlinin könüllü razılığı əsasında mümkün ola bilməzdi. «Əsasnamə»nin 83-cü maddəsinə əsasən, malcəhət və ya bəhrə vergisinin hansı üsullarla ödənilməsi və torpaq sahibinə çatdırılması yolları feodallarla kəndlinin qarşılıqlı razılığı əsasında nizamlanaraq nizamnamə fərmanlarında yazılırdı [152, II h., s. 414]. Torpaq sahibi kəndlinin ödədiyi mükəlləfiyyəti (bütünlüklə və ya hissə-hissə) qəbul etməsi haqqında öz imzası ilə təsdiqlənmiş sənəd verməli və yaxud xüsusi dəftərdə qeydiyyat aparmalı idi [152, II h., s. 415]. Torpaq sahibinin xeyrinə toplanması nəzərdə tutulan vergilər dövlət vergiləri kimi tam ciddiliyi ilə yığılmalı idi. Yerli idarə orqanları mükəlləfiyyətlərin vaxtında və tam həcmdə torpaq sahibinə çatdırılmasına nəzarət funksiyasını həyata keçirirdilər. Yeni qanunvericilik bütünlüklə hakim təbəqənin maraqlarının ödənilməsinə yönəldilmişdi. Torpaq sahiblərinin hüquqlarının müdafiə edilməsi hakimiyyət orqanlarının təmsilçisi olan barışdırıcı münsiflərə həvalə edilirdi [152, II h., s. 415; 102, s. 265]. Torpaq sahibi yerli idarə orqanları və kəndlilərin fəaliyyətindən narazılıq edərdisə, «Əsasnamə»nin 90-cı maddəsinə əsasən barışdırıcı münsiflər vəziyyəti araşdıraraq şikayət doğru olduğu təqdirdə torpaq sahibinin iddiasını təmin etmək üçün inzibati və cərimə tədbirlərini yerinə yetirməli idi [152, II h., s. 416].

Kəndlilər üzərinə qoyulan mükəlləfiyyətlərin dözülməz dərəcədə ağır olması çoxlu sayda borcların yaranmasına səbəb olurdu. «Əsasnamə»nin 92-96-cı maddələri kəndlilərin torpaq sahibi qarşısındakı borclarının ödənilməsi qaydalarına həsr edilmişdi. «Əsasnamə»nin 92-ci maddəsinə görə, kəndli feodala borclu qalardısa hər rubla görə ayda 2 qəpik faiz ödəməli idi. Kəndlinin vergi borclarının ödənilməsini asanlaşdırmaq üçün tərəflərin qarşılıqlı razılığı əsasında kəndlinin kənd idarəsinin nəzarəti altında feodal təsərrüfatında işləməsi məqbul hesab edilirdi. Bu halda razılaşma müddəti 3 ildən artıq olmamalı və müddət başa çatdıqdan sonra yenidən razılaşma əldə oluna

bilərdi [152, II h., s. 416]. Qarşılıqlı razılıq əldə olunmadıqda və ya kəndli feodal təsərrüfatında işdən yayınmağa cəhd etdikdə kənd idarə orqanları, feodalın borcunun ödənilməsi üçün aşağıdakı tədbirləri həyata keçirə bilərdi:

1. Borclunun xüsusi mülkiyyətində olan daşınmaz əmlakdan gələn gəliri borcun ödənilməsinə yönəltmək.
2. Borc sahibinin razılığı ilə borclunun özünü və ya onun ailə üzvlərindən birini həmin kənddə işə cəlb etmək.
3. Borclunu və ya onun ailə üzvlərindən birini borc ödənilənə qədər həmin kənd və ya qonşu qəzada işləməyə cəlb etmək.
4. Borclunun daşınmaz əmlakının həyati əhəmiyyət kəsb etməyən hissəsini satmaqla borcu ödəmək [152, II h., s. 416-417].

«Əsasnamə»nin 96-cı maddəsində göstərilirdi ki, yuxarıda qeyd edilən tədbirlər borcun ödənilməsinə kifayət etməzdisə və borc bir illik vergi məbləğinə qədər yüksələrdisə, torpaq sahibi münsiflərin icazəsi ilə borclunun pay torpağı və ya həyatyanı sahəsini açıq hərrac yolu ilə başqasına sataraq borcunu götürə bilərdi [152, II h., s. 417].

Yeni qanunvericiliyə əsasən kəndlilər pay torpaqlarının ən azı yarısını becərməli idilər. Əks təqdirdə torpaq sahibi barışdırıcı münsiflərin yardımı ilə günahkarları cərimələmək və ona vurulmuş zərəri tələb etmək səlahiyyətlərinə malik idilər [152, II h., s. 417]. Suvarma sistemlərindən istifadə etmək sahəsində də kəndlilər torpaq sahibindən asılı vəziyyətə düşürdülər. Belə ki, «Əsasnamə»nin 51-ci maddəsinə görə kəndlilər suvarma kanalları çəkmək, su dəryaçaları yaratmaq, suyu öz əkin sahələrinə aparmaq üçün torpaq sahibinin razılığını əldə etməli idilər [152, II h., s. 408].

«Əsasnamə» kəndlilərə ödənc yolu ilə öz pay torpaqlarını xüsusi mülkiyyətə çevirmək səlahiyyətləri verirdi. Lakin torpaqların satın alınması məcburi deyildi. Çarizm Şimali Azərbaycanda kəndlilərin öz pay torpaqlarını satın almağa heç bir yardım göstərmirdi. «Əsasnamə»nin 134-cü maddəsinə görə,

hər kəndli ailəsi yuxarısı 15, aşağısı 7,5 desyatin pay torpağını satın ala bilərdi [152, II h., s. 408]. Kəndlilərin pay torpaqlarını xüsusi mülkiyyətə keçirməsi üçün malcəhət pula çevrilməli və mövcud pul mükəlləfiyyətləri ilə 6%-dən kapitallaşdırılmalı və bununla da torpağın hər desyatinin satınalma qiyməti müəyyənləşdirilməli idi [152, II h., s. 423]. Pay torpağının haqqını tamamilə ödədikdən sonra kəndlilər mülkiyyətçi kəndlilər kateqoriyasına daxil edilirdilər [152, II h., s. 423]. Pay torpaqlarını satınalma yolu ilə xüsusi mülkiyyətə çevirənə qədər sahibkar kəndliləri «müvəqqəti mükəlləfiyyətli» hesab edilir və «Əsasnamə»nin 71-99-cu maddələrinə uyğun olaraq torpaqdan istifadə müqabilində əvvəlki vergi və mükəlləfiyyətlər daşımaq məcburiyyətində qalırdılar və bunun müvəqqəti olduğu göstərilirdi.

1870-ci il 14 may islahatı cüzi dəyişikliklərlə Quba qəzası kəndlilərinə də şamil edildi [210, s. 435]. Islahat 1877-ci il sentyabrın 3-də «Əsasnamə»nin nəşrinə qədər ali müsəlman silkinə mənsub olmayan, lakin sonralar bu kateqoriyaya aid edilən bəylərin torpaqlarında yaşayan kəndlilərə də şamil edildi [114, s. 216]. 1870-ci il 14 may islahatı mülkədar torpaqlarında könüllülük prinsipi əsasında yaşayan kəndlilərə və 1913-cü ilə qədər Zaqatala dairəsində yaşayan sahibkar kəndlilərinə də aid deyildi [114, s. 216].

Beləliklə, 1870-ci il «Əsasnamə»si yalnız biyarı pul vergisi ilə əvəz etməklə feodal istismarını bir qədər yumşaltsa da kəndlilərin feodaldan iqtisadi asılılığı saxlanılmışdı. Nizamnamə fərmanlarına görə hər bir kişi kəndli üçün süvarılan 5 desyatinlik pay torpağının müəyyənləşdirilməsi, kəndlinin istifadəsində olan artıq torpaqların «kəsilməsi» vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Digər tərəfdən 21 avqust 1873-cü il qaydalarına əsasən malcəhətin pula çevrilməsi o qədər yüksək idi ki, kəndlilər ödənclə öz pay torpaqlarını xüsusi mülkiyyətə çevirməkdən imtina edirdilər [114, s. 214].

Çar Rusiyanın sahibkar kəndliləri ilə bağlı aqrar qanunvericiliyində mühüm addımlardan biri 20 dekabr 1912-ci

və 7 iyul 1913-cü il qanunlarının qəbul edilməsi oldu. II Nikolay tərəfindən 1912-ci il dekabrın 20-də imzalanmış aqrar qanununa görə Tiflis, Kutaisi, Bakı, Yelizavetpol və Irəvan quberniyalarının sahibkar kəndliləri məcburi qaydada ödənc yolu ilə nizamnamə fərmanlarında qeydə alınmış öz pay torpaqlarını və faktiki olaraq öz istifadələrində olan torpaqları satın alaraq xüsusi mülkiyyətə çevirməli idilər [31, v. 4517-4544]. Bu qanun Şimali Azərbaycan ərazisində Bakı və Yelizavetpol quberniyalarını, Irəvan quberniyasında isə Naxçıvan qəzasını əhatə edirdi. 1912-ci il 20 dekabr qanunu Zaqatala dairəsinə şamil edilmirdi [51, s. 61-62]. Qafqaz canişini tərəfindən 1908-ci ildə tərtib edilmiş «Dağıstan və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərinin ləğv edilməsi haqqında» qanun layihəsi 1913-cü il iyulun 7-də təsdiq edildikdən sonra Zaqatala dairəsinin sahibkar kəndliləri də ödənclə öz pay torpaqlarını satın almaq hüququ əldə etdilər [114, s. 226; 51, s. 61-62].

1912-ci il 20 dekabr qanunu bütün Cənubi Qafqazda olduğu kimi, Şimali Azərbaycanda da 1913-cü il yanvarın 1-dən həyata keçirilməli idi [31, v. 4518]. Ödənc yolu ilə satın alınan torpaqların qiyməti 1860-cı illərin normaları əsasında müəyyənləşdirilirdi. Pay torpaqlarının müqabilində dövlət tərəfindən feodallara verilmiş ödənc borclarının müddəti 56 il olduqda kəndlilər hər rubl üçün ildə 4,5 qəpik, 41 il olduqda 5 qəpik, 28 il olduqda isə 6 qəpik faizlə dövlətə qaytarmalı idilər [114, s. 226].

20 dekabr 1912-ci il və 7 iyul 1913-cü il aqrar qanunları Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın sahibkar kəndlilərini torpaq sahiblərinə natural renta ödəməkdən azad etsə də onların iqtisadi baxımdan asılılığına son qoymadı. Ödənclərin qaytarılması müddəti ən azı 28 il olduğu üçün (bəzi hallarda hətta 41 il və 56 il) kəndlilərin iqtisadi asılığığı qalmaqda davam edirdi.

20 dekabr 1912-ci il qanununa əsasən, 1913-cü il yanvarın 1-dən başlayaraq feodal asılı münasibətlərinə son qoyulur və

ödənc aktlarının tərtib edilmiş prosesinə başlanırdı. Bu qanun Bakı və Yelizavetpol quberniyaları üzrə 1.163 mülkə aid edilmiş və 403,4 min desyatin pay torpağı sahibkar kəndlilərinin xüsusi mülkiyyəti elan edilmişdi [31, v. 4520; 51, s. 62]. Bu quberniyaların kəndliləri xüsusi mülkiyyətə çevrilmiş pay torpağı üçün dövlətə faizlə birlikdə 20.755.376 rubl, Zaqatala dairəsində islahatın şamil edildiyi 47 kəndin kəndliləri isə 284.969 rubl ödənc verməli idilər [51, s. 62-63].

Onu da qeyd etmək lazımdır ki, ödənc aktlarının tərtibi zamanı məmurların yol verdikləri özbaşınalıqlar əhalinin vəziyyətini daha da ağırlaşdırırdı. Digər tərəfdən, ödənc aktlarının tərtib edilməsi çox ləng aparıldığı üçün bu proses 1917-ci ildə də başa çatmamışdı [114, s. 227]. Belə ki, 1917-ci ildə Bakı və Yelizavetpol quberniyalarında 1163 mülkün 450-i üzrə tərtib edilmiş ödənc aktlarının yalnız 281-i təsdiq edilmişdi [51, s. 63].

Tədqiq olunan dövrdə sahibkar kəndliləri Şimali Azərbaycan kəndlilərinin 32%-ni təşkil etsə də dövlət kəndliləri ilə müqayisədə onların üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlər daha ağır və dözülməz idi. Belə ki, sahibkar kəndliləri bir tərəfdən bəy və ağalar, digər tərəfdən isə dövlət qarşısında vergi və mükəlləfiyyətlər daşımaq məcburiyyətində qalmışdılar. Yuxarıda qeyd edildiyi kimi, sahibkar kəndlilərinin mülkədarlara ödədikləri vergi və mükəlləfiyyətlər 1847-ci və 1870-ci illərin kəndli «Əsasnamə»ləri ilə tənzimlənirdi. «Əsasnamə»yə görə sahibkar kəndlilərinin mülkədarlara verdikləri əsas vergilərdən biri malcəhət idi. Kəndli «Əsasnamə»lərinə görə malcəhətin həcmi məhsulun 1/10-dən – 1/5-ə qədər müəyyənləşdirilsə də əslində malcəhət məhsulun 1/10-dən – 1/2-ə qədər təşkil edirdi [60, v. 33-34; 102, s. 272]. Şimali Azərbaycanda malcəhət dərzlərlə yığılırdı. Kəndli malcəhəti öz iş heyvanları ilə mülkədarın istədiyi yerə aparmalı idi. Malcəhətin toplanılması zamanı özbaşınalıqlar hökm sürürdü. Mülkədar və ya onun darğası malcəhət vergisini ödəmədən kəndli istehsal etdiyi məhsula sahiblik edə bilməzdi [9, v. 33].

Mülkədar və ya darğa kəndlinin məhsulunu olduğundan çox göstərməyə və beləliklə daha çox vergi almağa çalışırdılar. Mülkədarlar təbii fəlakətlərin baş verdiyi və məhsulun tələf olduğu illərdə də malcəhət vergisini məcburi qaydada toplamağa çalışırdılar və dövlət məmurları da onları müdafiə edirdilər. Bu dövrdə sahibkar kəndlilərinin pay torpaqları 30%-dən çox azalsa da malcəhət vergisinin həcmi daha da artmışdı. Rəsmi hesabatlara görə, kəndlilər hər il mülkədarlara 1.700 min pud taxıl (təxminən 1,5 mln. rubl) verirdilər ki, bu da kəndlinin istehsal etdiyi məhsulun 30%-nin malcəhət vergisinin ödənilməsinə getdiyini göstərir [60, v. 38-43].

Sahibkar kəndlilərinin bağ və bostan məhsullarından ödədiyi vergini də bura əlavə etsək malcəhət vergisinin təxminən 40%-ə qədər yüksəldiyinin şahidi olarıq. 1907-ci ilə aid arxiv sənədlərinin birində Bakı, Yelizavetpol və Irəvan quberniyalarında mülkədarların 629.690 desyatin pay torpağının hər desyatini üçün kəndlilərdən 5 rubl vergi aldığı göstərilir [60, v. 38-43; 68, v.11]. Bu isə il ərzində 3.148.450 rubl vergi və mükəlləfiyyət demək idi. Mülkədarların vergi və mükəlləfiyyətlərin toplanmasının qolçomaqlara iltizama verməsi sahibkar kəndlilərinin vəziyyətini daha da pisləşdirmişdi. Iltizamçılar vergilərin həcmini artırmaqla yanaşı vergi toplayarkən özbaşınalıqlara yol verirdilər. Arxiv materialları ilə tanışlıq bir daha göstərir ki, Yelizavetpol quberniyasının sahibkar kəndliləri daha ağır vergi verir və mükəlləfiyyət daşıyırdılar. Belə ki, Yelizavetpol quberniyasının sahibkar kəndliləri Tiflis quberniyası sahibkar kəndlilərindən 3,5 dəfə, Bakı və Irəvan quberniyası kəndlilərindən demək olar ki, 2 dəfə çox vergi ödəyirdilər [60, v. 38-43; 68, v.11; 75, v. 6-7]. Hesablamalar göstərir ki, bir desyatin torpaqdan istifadəyə görə Yelizavetpol quberniyasının sahibkar kəndliləri 12 rubl 12 qəpik, Bakı quberniyası kəndliləri 7 rubl 38 qəpik, Tiflis quberniyası kəndliləri isə 3 rubl 63 qəpik vergi verirdilər [60, v. 38-43; 68, v.11; 75, v. 6-7]. Bu çarizmin vergi sahəsində də müstəmləkəçilik və dini ayrı-seçkilik siyasəti yeritməsinin

parlaq nümunəsidir.

Malcəhət vergisindən əlavə sahibkar kəndliləri qışlaqlarda mal-qaranı artırmaq üçün ot pulu, yaylaqlardan istifadəyə görə safalaq pulu vergilərini ödəyirdilər [102, s. 272]. 1852-ci ilə qədər yaylaq və qışlaqlar iltizama verilir və əhali müqavilələr əsasında otlaqdan istifadəyə görə vergi verirdilər. 1852-ci ildə yeni pul vergisinə keçidlə əlaqədar otlaqların iltizama verilməsi ləğv edildi və yaylaqdan istifadəyə görə hər xırdabuynuzlu heyvanlar üçün 1,5 gümüş qəpik vergi müəyyən edildi [102, s. 112]. 1870-ci il 14 may islahatından sonra yaylaq və qışlaq otlaqlarından istifadəyə görə kəndlilər hər baş mal-qara üçün 6 qəpikdən 20 qəpiyə qədər ot pulu və safalaq pulu vergisi verməli idilər [102, s. 272]. XX əsrin əvvəllərində otlaqdan istifadə üçün alınan vergilər daha da artırılmışdı. Belə ki, 1903-cü ildə bir desyatin otlaqdan istifadəyə görə Yelizavetpol quberniyası kəndliləri 15 qəpik, Bakı quberniyası kəndliləri 17 qəpik verirdilərsə, 1913-cü ildə bu rəqəm müvafiq olaraq 48 qəpik və 57 qəpik təşkil etmişdi [127, s. 78]. Sahibkar kəndliləri alaçıq tikmək üçün tüstü pulu, bağ və bostanlar üçün bağ pulu vergisi də verirdilər. 1870-ci il 14 may əsasnaməsinin qəbul edilməsindən sonra sahibkar kəndliləri biyar əvəzində hər desyatin torpağa görə 30 qəpik, ağa kəndliləri isə 15 qəpik vergi ödəməli idilər. Arxiv və nəşr edilmiş statistik materiallar əsasında tərtib etdiyimiz cədvəl [27, v. 76-203; 28, v. 109-109arx.; 17, v. 62-63; 79, v. 36-665; 78, v. 254-260; 211, I h., s. 230-259; 194, 4-cü bölmə; 195, s. 1-27] XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda biyar əvəzində alınan vergilərin məbləği haqqında müəyyən qədər təsəvvür yaratmaq üçün kifayət edir.

***Cədvəl № 10***

Şimali Azərbaycanda biyar əvəzində alınan verginin miqdarı

| Quberniya və qəzalar | illər | Sahibkar kəndlilərinin istifadəsində olan pay torpağı – desyatinlə | Biyar əvəzində alınan vergi rublla |
|---|---|---|---|

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Bakı quberniyası | XIX əsrin 70-ci il | 113.044,5 | 33913 r. 35 q. |
| Bakı quberniyası | 1886-cı il | 116. 181 | 34854 r. 30 q. |
| Bakı quberniyası | 1911-ci il | 130.457 | 39. 137 r. 10 q |
| Yelizavetpol quberniyası | XIX əsrin 70-ci il | 265. 023,5 | 79. 561 r. 05 q. |
| Yelizavetpol quberniyası | 1886-cı il | 185. 357,5 | 85. 605 r. 25 q. |
| Yelizavetpol quberniyası | 1908-ci il | 331, 914 | 99. 574 r. 90 q. |
| Naxçıvan qəzası | XIX əsrin 70-ci il | 48. 393 | 14. 517 r. 90 q. |
| Naxçıvan qəzası | 1910-cu il | 57. 197,5 | 17. 672 r. 25 q. |

Torpaq sahibləri əksər hallarda 1870-ci il «Əsasnamə»sinin 84-cü maddəsini pozaraq natural və pul vergilərini qəbul edərkən kəndlilərə qəbz vermir və kəndliləri yenidən həmin vergiləri verməyə məcbur etməyə çalışmışdılar. Arxiv materialları içərisində Zəngəzur [63, v. 6-7], Lənkəran [52a, v. 4-4 ar.], Cavad [31, v. 13arx.], Şuşa [68, v. 5-5arx.] və s. qəzalarında çoxlu sayda bu qəbildən olan özbaşınalıqlar və dövlət məmurlarının belə hallarda torpaq sahiblərinin tərəfini saxlamaları haqqında faktlarla rastlaşmaq mümkündür. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda yaşayan sahibkar kəndlilərinin bir hissəsii Zaqatala dairəsində məskunlaşmışdı. Bu bölgədə qeydə alınmış sahibkar kəndldilərinin bir qismi keşkəl torpaqlarında, bir qismi isə bəy torpaqlarında yaşayırdılar. Keşkəl torpaq sahibliyi Car-Balakən camaatlığının ərazisində mövcud idi. Keşkəlin ölçüsündən asılı olaraq keşkəl vergisinin miqdarı 1-8 tağar arasında tərəddüd edirdi [87, s. 71]. Zaqatala dairəsinin 31 keşkəl kəndinin ödədiyi verginin həcmi 1909-1911-ci illərə aid torpaq komissiyalarının sənədlərinə əsasən təxminən 22.000 rubldan bir az artıq idi [87, s. 71]. Keşkəl kəndliləri natura ilə ödənilən keşkəl vergisindən əlavə pulla ödənilən bəzi vergilər də verirdilər. Belə vergilərdən biri kimi keşkəl kəndlisinin qızını ərə verərkən keşkəl sahibinə ödədiyi pul vergisini göstərmək olar.

Zaqatala dairəsində bəylərə məxsus torpaqlarda 16 rəiyyət kəndi mövcud idi. Tədqiqatçı Ə.Məmmədovun qeyd etdiyi kimi, rəiyyət kəndliləri bəylərə buğda ilə ödənilməsi nəzərdə tutulan

malcəhət, məhsuldarlıq səviyyəsindən asılı olmayaraq, çörəkələ ödənilən kəsəmət, həyətyanı sahələr və bağçalara görə bağçabaşı, tüstü pulu və at pulu vergiləri verirdilər. Bundan əlavə, rəiyyət kəndliləri illik dəyəri 6.454 rubla çatan bir sıra pulla və inəklə ödənilən vergilər də ödəməli idilər [87, s. 71].

Dairə torpaq komissiyalarının məlumatlarına görə, vergi ödəyən 671 rəiyyət kəndlisindən 606-sı kəsəmət, malcəhət və darğalıq, 25-i yalnız kəsəmət, 40-ı isə bağçabaşı və digər pul vergiləri ödəyirdilər [87, s. 71].

Zaqatala dairəsinin keşkəl və bəy kəndliləri, artıq qeyd edildiyi kimi, öz sahibləri ilə yanaşı, dövlət qarşısında da vergi və mükəlləfiyyətlər daşıyırdılar.

Dövlət kəndliləri kimi, sahibkar kəndliləri üzərinə də 1887-ci ildən hərbi vergi qoyulmuşdu.*

Şimali Azərbaycan kəndliləri suvarma sularından istifadə müqabilində də vergi vermək məcburiyyətində qalmışdılar. Qanunvericiliyə əsasən dövlət xəzinə kəndlərinə məxsus ərazidən axan təbii suların sahibi olsa da, müxtəlif vasitələrlə yerin üzərinə çıxarılmış suların mülkiyyətçisi deyildi [96, s. 49]. Bu cür sular vəsait sərf edib onu çıxaranların mülkiyyətində idi. Dövlət kəndliləri sudan istifadə üçün dövlətə hər vergi verməsələr də, mahal və kəndlər üzrə təyin edilmiş mirab və cuvarların əmək haqqını ödəmək üçün pul və ya məhsul verirdilər [96, s. 49]. Şimali Azərbaycan kəndliləri xüsusi mülkiyyətdə olan suvarma kanal və arxlarından istifadə üçün vergi verməli idilər. 1890-cı il 3 dekabr tarixli «Su müfəttişliyi» haqqında qanun və 1897-ci il 12 aprel tarixli «Mirablar haqqında qaydalar» suvarma ilə bağlı ayrıca bir vergi müəyyən etməmişdi [96, s. 127]. Kəndlilər xüsusi mülkiyyətdə olan suvarma sistemlərini icarəyə götürürdülər. Şimali Azərbaycanda suvarma ilə əlaqədar icarənin iki: 1) Suvarma suyunun torpaqla birgə icarəsi; 2) Suvarma sisteminin torpaqsız icarəsi forması mövcud idi [96, s. 127]. Tədqiqatlar göstərir ki, kəndlilər adətən suvarma

* Bu barədə yuxarıda məlumat verilmişdir.

suyunu torpaqla birlikdə icarəyə götürməyə üstünlük verirdilər. Icarə haqqı əsasən məhsulla, nadir hallarda pulla ödənilirdi. XIX əsrin sonunda Şimali Azərbaycanın Bakı və Yelizavetpol quberniyalarında 582.856 desyatin, XX əsrin əvvəllərində isə 856.999 desyatin suvarılan torpaq sahəsi vardı ki, bütün suvarılan torpaq fondunun 616.999 desyatini kəndlilərin istifadəsində idi. I.A.Talıbzadənin hesablamalarına görə kəndlilərin istifadəsində olan suvarılan torpaqların 338.239 desyatini dövlət, 284.385 desyatini isə sahibkar kəndlilərinə məxsus idi [96, s. 106]. 3 dekabr 1890-cı il qanunu suvarma işləri üzrə məşğul olan vəzifəli şəxslərin saxlanılması üçün kəndlilərdən vergi alınmasını nəzərdə tuturdu. Hər su dairəsi üzrə vəzifəli şəxslərin əmək haqqının ödənilməsi su şuraları tərəfindən müəyyən edilərək Sudan istifadə edən həyətlər arasında bölüşdürülürdü [43, v. 2]. Hesablamalara görə suvarma işləri üzrə vəzifəli şəxslərin saxlanması üçün ödənilən vergilər torpağın icarə haqqı üçün ödənilən məbləğə bərabər idi. I.A.Talıbzadə göstərir ki, 1906-cı ildə Şimali Azərbaycanda 140 su Şura üzvü, 732 cuvar, 386 su vəkili, 1908-ci ildə 132 su Şura üzvü, 896 cuvar, 334 su vəkili, 1909-cu ildə 142 su Şura üzvü, 847 cuvar, 297 su vəkili, 1913-cü ildə isə 733 cuvar, 334 su vəkili fəaliyyət göstərirdi [96, s. 97]. XIX əsrin sonu – XX əsrin əvvəllərində Cənubi Qafqazda fəaliyyət göstərən 9 su sahəsi və 75 su dairəsindən 20 su dairəsi Bakı, 11 su dairəsi Yelizavetpol quberniyasında yerləşirdi [45, v. 7].

XIX əsrin 90-cı illərinin ortalarına aid arxiv materiallarına görə, suvarma işləri üzrə vəzifəli şəxslərin saxlanılması üçün kəndlilər il ərzində Ağstafa su dairəsində 9932 rubl [39, v. 1-2], Gəncə su dairəsində 3640 rubl [39, v. 7], Həsənsu su dairəsində 2090 rubl [39, v. 9], Heran su dairəsində 4790 rubl [39, v. 12] vergi ödəməli idilər. Kəndlilər bu vəsaiti ödəyə bilmədikləri üçün böyük məbləğdə borclu qalırdılar. Digər tərəfdən, suvarma suyunun bölüşdürülməsi zamanı su şurası üzvləri, su vəkilləri və xüsusilə də cuvarlar özbaşınalıqlara, rüşvətxorluğa yol verməklə əhalinin vəziyyətini daha da ağırlaşdırırdılar. Kəndlilərin Sudan

istifadə haqqı üzrə vergi borcları və suynu bölüşdürülməsi işinə baxan vəzifəli şəxslərin özbaşınalıqları haqqında arxiv materialları arasında çoxsaylı faktlar mövcuddur [40, v. 51; 41, v. 2-3; 42, v. 3; 44, v. 7-21; 46, v. 46].

Sahibkar kəndliləri aqrar qanunvericiliyində nəzərdə tutulmayan çoxlu sayda qeyri-qanuni vergi və mükəlləfiyyətlər ödəməli idilər. Belə ki, onlar novruz bayramı münasibəti ilə mülkədara bayramlıq, mülkədarın evlənməsi üçün toy xərci, özlərinin evlənmək hüququ üçün toy pulu, darğalıq kimi vergilər verir, həm mülkədarlar, həm də dövlət qarşısında yol mükəlləfiyyəti, suvarma sistemlərinin təmizlənməsi, təmiri, hərbi hissələrin müxtəlif yönümlü təminatı və s. kimi mükəlləfiyyətlər daşıyırdılar. Bundan əlavə, sahibkar kəndliləri kəntxuda və onun köməkçiləri, qarovulçular, kənd müəllimləri, meşəbəyilər, din xadimlərinin saxlanması xərclərini də ödəmək məğlubiyyətində qalmışdılar.

Sahibkar kəndlilərinin mülkədarlarla yanaşı dövlət xəzinəsinə də vergi vermələri və mükəlləfiyyət daşımaları onların iki qat zülm altına düşməsinə, beləliklə də sosial-iqtisadi vəzifələrinin daha da dözülməz olmasına gətirib çıxarırdı. Sahibkar kəndliləri xəzinəyə torpaq vergisi və zemski vergisi ödəyirdilər. 1848-1851-ci illərdə dövlət natural vergiləri pul vergisi ilə əvəz etdi və Şimali Azərbaycan kəndliləri maddi vəziyyətinə görə müxtəlif vergi dərəcələrinə bölündü. Sahibkar kəndliləri üzərinə qoyulan dövlət vergilərinin həcmi də mütəmadi olaraq artırılırdı. Arxiv materialları əsasında tərtib etdiyimiz cədvəllər [25, v. 13-130] XIX əsrin sonunda Bakı və Yelizavetpol quberniyalarının sahibkar kəndlilərinin xəzinəyə verdiyi vergilərin ümumi məbləği haqqında əyani təsəvvür yaradır.

***Cədvəl № 11***

Şimali Azərbaycanda sahibkar kəndlilərin
xəzinəyə ödədikləri vergilər

| Bakı quberniyalarının qəzaları | Vergilərin həcmi | Həyətlərin sayı | Dövlət vergilərinin ümumi məbləği (rublla) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Göyçay qəzası | 1 r.50 q.<br>2 r.<br>3 r. | 6<br>36<br>3885 | 9<br>72<br>11655 |
| 1 | 2 | 3 | 4 |
| Cavad qəzası | 1 r.<br>2 r | 214<br>1185 | 214<br>2370 |
| Lənkəran qəzası | 1 r.<br>1 r. 50 q. | 1574<br>1242 | 1574<br>1863 |
| Şamaxı qəzası | 2 r.<br>3 r.<br>3 r. 50 q. | 323<br>1913<br>45 | 646<br>5859<br>157 r. 50 q. |
| Quba qəzası | 2 r<br>3 r.<br>4 r. | 496<br>969<br>216 | 992<br>2877<br>864 |
| Quberniya üzrə cəmi | | 12134 | 29,152 r. 50 q. |
| Yelizavetpol qub-nın qəzaları | Vergilərin həcmi | Həyətlərin sayı | Dövlət vergilərinin ümumi məbləği (rublla) |
| Ərəş qəzası | 1 r.<br>1 r. 50 q.<br>3 r | 1337<br>102<br>177 | 1337<br>153<br>531 |
| Cəbrayıl qəzası | 2 r.<br>3 r. | 4085<br>441 | 8170<br>1323 |
| Cavanşir qəzası | 1 r.<br>2 r.<br>3 r. | 167<br>4529<br>48 | 167<br>9058<br>144 |
| Yelizavetpol qəzası | 50 q.<br>2 r.<br>3 r. | 200<br>1378<br>2842 | 100<br>1756<br>8526 |
| Zəngəzur qəzası | 2 r.<br>3 r. | 4652<br>102 | 9304<br>306 |
| Qazax qəzası | 50 q.<br>2 r.<br>3 r.<br>4 r. | 577<br>1330<br>475<br>2568 | 288 r. 50 q.<br>2660<br>1425<br>10272 |
| Nuxa qəzası | 1 r.<br>1 r. 50 q.<br>3 r. | 436<br>155<br>258 | 436<br>232 r. 50 q.<br>774 |
| Şuşa qəzası | 2 r.<br>3 r. | 8876<br>69 | 17752<br>207 |
| Quberniya üzrə | | 34804 | 75.922 |

| cəmi | | | |
|---|---|---|---|

1908-ci ildə Şimali Azərbaycanda sahibkar kəndlilərin üzərinə qoyulmuş torpaq vergisi yenidən artırılmışdı. Materiallar göstərir ki, 1908-ci ildə sahibkar kəndliləri 90 min rubl torpaq vergisi verirdilər, bu məbləğ 1910-cu ildə 152 min rubl, 1913-cü ildə isə 294 min rubla çatmışdı [127, s. 77]. Sahibkar kəndlilərinin xəzinəyə ödədiyi ən ağır vergilərdən biri də zemski idi. Onu da qeyd edək ki, sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən daha çox zemski vergisi verirdilər. Belə ki, Yelizavetpol quberniyasında sahibkar kəndliləri kənd əhalisinin 40%-ni təşkil etsə də zemski vergisinin 58%-ni, Bakı quberniyasında əhalinin 70%-ni təşkil edən sahibkar kəndliləri isə zemski vergisinin 30%-ni ödəyirdilər [64, v. 10-14]. 1913-cü ildə hər iki kateqoriyadan olan Şimali Azərbaycan kəndliləri dövlətə 1.647 min rubl zemski vergisi vermişdilər ki, bu məbləğin demək olar ki, 40%-dən çoxu sahibkar kəndlilərinin payına düşürdü [64, v. 2].

Araşdırmalar göstərir ki, sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən daha ağır, ikiqat vergi istismarına məruz qalırdılar. Digər tərəfdən, vergi və mükəlləfiyyətlər sahəsində də çarizmin müstəmləkəçilik siyasəti daha qabarıq nəzərə çarpırdı. Belə ki, Şimali Azərbaycanın hər iki kateqoriyadan olan kəndliləri Rusiya imperiyasının mərkəzi quberniyalarının kəndlilərinə nisbətən bir-neçə dəfə artıq vergi verirdilər. Çar məmurlarının, vergi müfəttişlərinin etnik, dini təzyiqlərinə və özbaşınalıqları ilə üzləşən Şimali Azərbaycan kəndlilərinin həm yerli mülkədarlara, həm də dövlət məmurlarının ağalıqlarına qarşı üsyan və çıxışları getdikcə gücləndirməkdə davam edirdi.

# III F Ə S I L

# SƏNAYEDƏ VERGI SIYASƏTI

## 3.1. Neft sənayesi və çarizmin vergi siyasəti.

Monoqrafiyanın birinci fəslində Şimali Azərbaycan iqtisadiyyatının qısa icmalından göründüyü kimi, XIX əsrin 60-70-ci illərində Rusiyada kapitalizmin sürətli inkişaf yoluna qədəm qoyması və Şimali Azərbaycanın ümumrusiya bazarına cəlb edilməsi ilə əlaqədar olaraq sənayenin inkişafında yeni dövr başlandı. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanın iqtisadiyyatında sənaye istehsalının ümumi çəkisi yüksələn xətt üzrə inkişaf edirdi.

Təəssüflə qeyd etmək lazımdır ki, bəhs edilən dövrdə çarizmin Şimali Azərbaycan sənayesində vergi siyasəti demək olar ki, hərtərəfli öyrənilməmişdir. Şimali Azərbaycanın kənd təsərrüfatının araşdırılması ilə məşğul olan tədqiqatçılar çarizmin aqrar sahədə vergi siyasətinə yer ayırdıqları halda, həmin dövrdə Şimali Azərbaycan sənayesinin tədqiqi ilə məşğul olan tarixçilər sənaye sahəsində vergi siyasəti problemin ayrıca tədqiq etməmişlər. Azərbaycan-Sovet tarixçilərindən yalnız bir-neçəsinin, o cümlədən akad. Ə.S.Sumbatzadə, M.Ə.Ismayılov, T.T.Vəliyev və M.Ibrahimovun [219; 85; 119] əsərlərində Şimali Azərbaycan sənayesinin bəzi sahələrində çar Rusiyası tərəfindən tətbiq edilən vergi siyasətinə ötəri toxunulmuşdur.

Şimali Azərbaycanın sənaye potensialının aparıcı sahəsini neft sənayesi təşkil edirdi. Çarizmin Şimali Azərbaycanın neft sənayesində tətbiq etdiyi vergi siyasəti monoqrafiyanın qarşısına qoyulmuş mühüm məsələlərdən biridir.

Çar hökuməti 1873-cü ilə qədər Şimali Azərbaycanın, xüsusilə də Bakı rayonunun neft quyularını qısa müddətli fasilələr istisna olmaqla iltizama verməklə gəlir əldə etmək siyasəti yeritmişdi. Şimali Azərbaycanın neft quyuları 1850-1863-cü illərdə Kukucanov, Babanosov və Ter-Qukasova, 1863-cü ildən iltizam sisteminin ləğvinə qədər isə I.Mirzoyevə iltizama verilmişdi [37, v. 223; 216, s. 76]. Çarizmin neft sənayesində tətbiq etdiyi iltizam sistemi Şimali Azərbaycanın neft sənayesinin inkişafı qarşısında ən böyük əngəl olmuşdu. Görkəmli rus alimi D.I.Mendeleyev XIX əsrin 60-cı illərində iltizam sisteminin neft sənayesinin inkişafında ciddi maneə olduğunu qeyd etməklə yanaşı, Bakının neft sənayesinin böyük gələcəyini xüsusi vurğulayırdı [165, s. 68].

XIX əsrin 60-cı illərində iltizam sisteminin və neft sənayesinin inkişafı məsələsi üzrə yaradılmış Tiflis və Peterburq komissiyaları Amerikanın təcrübəsini nəzərə alaraq iltizam sistemini ləğv etmək və xam nefti bütün vergilərdən azad edərək, yalnız kerosin üzərinə aksiz vergisi qoymaq qərarına gəldilər. Beləliklə, 1872-ci ildə «Qafqazın neft mədənlərində neft istehsalı haqqında qaydalar» təsdiq edilərək 1873-cü ilin yanvarın 1-dən qüvvəyə mindi [219, s. 277]. «Qaydalar»a görə, bütün neft mədənləri açıq hərrac yolu ilə xüsusi mülkiyyətə verilirdi və istehsal edilmiş nefti saxlamaq, emal etmək, digər tikintilər üçün 10 desyatindən çox olmayaraq torpaq sahələri ayrılırdı. Hər desyatin torpağın illik icarə haqqı 10 rubl müəyyənləşdirilirdi. «Qaydalara» əsasən torpağın icarə haqqının gələcəkdə Qafqazda torpağın qiymətinin yüksələcəyi təqdirdə artırılması da nəzərdə tutulurdu [141, s. 120].

1873-cü il yanvarın 1-dən qüvvəyə minən «Qaydalar» əsasında neftdən deyil, neftin emalı nəticəsində alınan kerosinin hər pudundan 40 qəpik vergi alınması müəyyənləşdirildi [141, s. 121-122]. Onu da qeyd etmək lazımdır ki, kerosinin alınması prosesində əldə edilən digər məhsullar (parafin, benzin və s.) vergidən azad edilirdi. Yeni qaydaların qüvvəyə minməsi ilə əlaqədar yaradılmış xüsusi komissiya əldə etdiyi materiallar

əsasında hər birində 10 desyatin torpaq sahəsi olmaqla xəzinənin ixtiyarında olan neft sahələrini 46 qrupa böldü. Neftli torpaq sahələrinin ilkin hərrac qiyməti 552.221 rubl müəyyənləşdirilsə də, 1872-ci ilin dekabrında keçirilən hərrac zamanı xəzinə həmin sahələrdən 3 mln. rubl gəlir əldə etdi [141, s. 120]. Beləliklə, 1873-cü il yanvarın 1-dən çarizm Şimali Azərbaycanın neft sənayesinə aksiz vergisi tətbiq etdi. Dolayı vergi formalarından biri olan və məhsul bazara daxil olana qədər alınan aksiz çarizmin uğursuz iqtisadi siyasətinin təzahürlərindən olmaqla bərabər istehsal edilən malların satışını da mürəkkəbləşdirirdi.

Onu da qeyd etmək lazımdır ki, 1 fevral 1872-ci il «Qaydaları» əsasında tətbiq edilən aksiz vergisinin yığılması üsulları neft emalı sənayesi üçün böyük maneələr yaratmışdı. Belə ki, qanuna görə, neftdən alınan işıqlandırıcı yağların (fotogen, kerosin, qazolin və s.) hər pudundan 25 qəpik aksiz vergisi alınmalı idi [166, s 105]. Lakin aksiz vergisi emal edilmiş hazır məhsuldan deyil, neftin emalı üçün nəzərdə tutulan kubların həcmindən və hər günlük fəaliyyətinə görə alınırdı [166, s 105]. 208 vedrə həcm tutumu olan kubların hər vedrəsindən 4 qəpik, daha böyük həcm tutumu olan kubların hər kubundan isə 10 rubl aksiz vergisi alınırdı [166, s 105]. Aksiz emal kublarının həcmi və hər günlük fəaliyyəti üçün tətbiq edildiyinə görə, müəssisə sahibləri vaxt və aksiz vergisində udmaq üçün emal prosesini qısaltmaqla daha çox neft emal etmək və daha çox kerosin əldə etməyə çalışırdılar. Təbii ki, bu da əldə edilən kerosinin tələb olunan standartlardan aşağı olmasına gətirib çıxarmaqla yanaşı, həm də daha çox neft itkisinə səbəb olurdu. Digər tərəfdən, kiçik həcmli kublardan istifadə edən xırda zavodlarda hər pud kerosinə 20 qəpik əvəzinə 4 qəpik aksiz alındığı halda, başqa zavodlarda 40 qəpik aksiz vergisi düşürdü [166, s 106]. Neft emalı sənayeisndə yaranmış bu vəziyyətdən çıxış yolu axtarmaq üçün Maliyyə Nazirliyi Dağ-mədən Institutunun professoru Lisenkonu Qafqaza, Mendeleyevi isə Şimali Amerikaya ezam etmişdi [166, s. 106-

107]. Hər iki mütəxəssis vəziyyəti araşdırdıqdan sonra belə bir nəticəyə gəlmişdi ki, Rusiyada 1872-ci il «Qaydaları» ilə tətbiq edilən aksiz vergisi və ya ən azından aksiz vergisinin qüvvədə olan üsulları ləğv edilməmişdir [166, s. 107]. Şimali Azərbaycanın neft emalı zavodlarının sahibləri də aksiz vergisinin ləğv edilməsi təklifi ilə çıxış edirdilər. Belə ki, L.E.Nobel maliyyə nazirliyinin vergilər departamentinə ünvanladığı 17 yanvar 1886-cı il tarixli müraciətində aksiz vergisinin ləğv edilməsi və bunun əvəzində xam neftin hər puduna 15 qəpik vergi qoyulması təklifi ilə çıxış etmişdi [166, s. 71].

Aksiz vergisinin tətbiq edildiyi ilk dövrlərdə Şimali Azərbaycanın neft emalı müəssisələrindən alınan verginin məbləği haqqında dəqiq məlumat əldə etmək mümkün olmasa da, maliyyə nazirliyinin idarə rəisi I.A.Vışneqradskinin Dövlət şurasına ünvanladığı 4 noyabr 1887-ci il tarixli arayışda göstərilir ki, 1873-1877-ci illərdə aksiz vergisindən dövlət xəzinəsinə daxil olan vəsaitin orta hesabla illik məbləği 243.748 rubl təşkil etmişdi [166, s. 107].

Çar hökuməti neft sənayesi üzrə mütəxəssislərin rəy və təkliflərini nəzərə alaraq, neft sənayesi emal müəssisələrində yaranmış gərgin vəziyyətdən çıxmaq və emal məhsullarının rəqabət qabiliyyətini artırmaq məqsədi ilə 1877-ci il 6 iyun tarixli fərmanla 1877-ci il sentyabrın 1-dən Rusiya imperiyasında, o cümlədən Şimali Azərbaycanda fotogen istehsalına tətbiq edilən aksiz vergisini ləğv etmək məcburiyyətində qaldı [166, s. 107]. Aksiz vergisinin ləğvindən sonra Şimali Azərbaycan neft sənayesi sürətli inkişaf yoluna qədəm qoydu. Bununla yanaşı neftin emal edilməsi texnalogiyası təkmilləşdi və aksizin ləğv edilməsindən sonrakı 10 il ərzində kerosin istehsalı 7 dəfə artdı və onun satış qiyməti isə 4,5 dəfə aşağı düşdü [166, s. 108]. Müqayisə üçün qeyd edək ki, 1877-ci ildə Bakıdan Xəzər dənizi və Cənubi Qafqaz dəmir yolu vasitəsi ilə 4.594.766 pud kerosin ixrac edilmişdisə, 1885-ci ildə bu rəqəm 27.422.694 puda, 1886-cı ildə isə 32.453493

puda çatmışdı [166, s. 108]. Kerosin istehsalının artması nəticəsində 1873-cü ilə nisbətən 1886-cı ildə xaricdən Rusiyaya idxal edilən kerosinin həcmi 3.035.849 puddan 36.707 puda enmiş və Rusiyadan xaricə ixrac edilən kerosinin həcmi isə 9.195.847 (1886-cı ildə) puda yüksəlmişdi [166, s. 108].

XIX əsrin 80-cı illərinin ortalarında neft emalı sənayesinin coşğun inkişaf yoluna qədəm qoymasını nəzərə alan maliyyə nazirliyi dövlət xəzinəsinin gəlirlərini artırmaq məqsədilə neft sənayesini yenidən vergiyə cəlb etmək qərarına gəldi. Beləliklə, 1887-ci il noyabrın 4-də Maliyyə Nazirliyi Dövlət Şurasına kerosin və digər işıqlandırıcı neft məhsulları üzərinə aksiz qoyulması haqqında təqdimatla müraciət etdi [166, s. 105-113]. 1888-ci il yanvarın 1-dən neft emalı sənayesi üzərinə yenidən aksiz vergisi qoyuldu. Yeni qanunvericiliyə əsasən, kerosin və keyfiyyətinə görə kerosinə uyğun gələn neft məhsullarının hər pudu üzərinə 40 qəpik aksiz vergisi qoyuldu [166, s. 113]. Bununla bərabər, Maliyyə və Dövlət Əmlak nazirliklərinin qarşılıqlı razılığı əsasında solyar yağı və xarici əlamətləri müəyyən edilmiş temperatura və alışqanlıq normalarına uyğun gələn neft məhsullarının hər puduna 32 qəpik aksiz vergisi tətbiq edilirdi [166, s. 113]. Çar hökuməti aksiz vergisinin şamil edildiyi məhsulların çeşidlərini genişləndirməklə yanaşı, aksizin məbləğini də artırmaqda davam edirdi. 1905-ci ilə qədər yalnız işıqlandırıcı (kerosin) və sürtkü yağları aksiz vergisinə cəlb edilmişdi [134, s. 170]. Bakıdan ixrac edilən və aksiz vergisinə cəlb edilən neft məhsullarının yalnız bir hissəsinin vergisi yerindəcə ödənilir, aksiz vergisinə nəzarət idarəsinə xəzinə qəbzləri təqdim olunurdu. Neft məhsullarının qalan hissəsinə isə şirkətlərin əmlakı ilə təmin edilmiş girov qəbzləri verilir [134, s. 170] və 9 ay ərzində aksizin qalan hissəsi heç bir faiz qoyulmadan xəzinəyə ödənilirdi [166, s. 113]. Girov qəbzi sistemi neft sənayeçiləri üçün çox əlverişli idi və faktiki olaraq dövlət kreditinin bir forması rolunu oynayırdı. «Kaspi» qəzetində girov qəbzi sisteminin tətbiqindən sonra neft aksizi ilə bağlı maraqlı faktor öz əksini tapmışdır. Belə ki, 1888-ci ildə,

Bakıdan ixrac edilən kerosinin 813,5 min pudunun aksiz vergisi yerindəcə ödənilmişdisə, 90,7 mln pud kerosinin aksiz vergisi isə girov qəbzləri ilə ödənilmişdi [149]. Göründüyü kimi, neft sənayeçilərinə verilmiş imtiyazlar girov qəbzləri ilə əməliyyatların aparılmasının genişlənməsinə səbəb olmuşdur. Neft aksizi dövlət xəzinəsi gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olurdu. Bütün Rusiya imperiyasında neft aksizindən əldə edilmiş vəsait 1888-ci ildə 6,6 mln.rubl, 1889-cu ildə 9,2 mln.rubl, 1890-cı ildə 10,5 mln. rubl, 1891-ci ildə isə 10,1 mln. rubl təşkil etmişdi. Bakı neft rayonundan xəzinəyə daxil olmuş aksiz vergisinin həcmi isə 1889-cu ildə 3,6 mln.rubl, 1889-cu ildə 3,4 mln. rubla, 1890-cı ildə 4,1 mln.rubla, 1891-ci ildə isə 4,3 mln.rubla bərabər idi [205].

Çar hökuməti mütəmadi olaraq neft məhsullarından alınan aksiz vergisini artırmaq siyasəti yeridirdi. Bu istiqamətdə növbəti addım 1892-ci ildə atılmışdı. Yeni qanunvericiliyə əsasən 1892-ci il dekabrın 15-dən etibarən ağır işıqlandırıcı yağların puduna 50 qəpik, yüngül işıqlandırıcı yağların puduna isə 60 qəpik aksiz vergisi qoyuldu [229]. Hökümətin bu addımı xəzinəyə əlavə 35 mln.rubl vəsait gətirməli idi ki, bu da 1892-ci ildə Rusiya imperiyasının dövlət gəlirlərinin 3,5%-nə bərabər idi.

Neft emalı məhsullarının aksiz vergisinə cəlb edilməsində kerosin və digər işıqlandırıcı yağların xüsusi çəkisinin, alışqanlıq hərarətinin və rənginin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Neft məhsullarının xüsusi çəkisinin müəyyənləşdirilməsi onların həqiqi çəkisinin təyin edilməsində xüsusi rol oynayırdı. Belə ki, neft məhsullarından alınan aksiz vergisi onların çəkisinə uyğun olaraq müəyyən edilirdi. Əsas emal məhsulu olan kerosini zavodlardan gəmilərə və sistern-vaqonlara axınla doldurulduğu üçün onun çəkisini birbaşa təyin etmək mümkün olmurdu. Buna görə də kerosinin həqiqi çəkisini müəyyən etmək üçün onun xüsusi çəkisini təyin etmək zərurəti ortaya çıxmışdı.

Aksiz vergisinin tətbiqi zamanı neft emalı məhsullarının

alışqanlıq dərəcəsinin müəyyən edilməsi də əhəmiyyət kəsb edirdi.

Maye məhsullarının alışma həddinə çatma səviyyəsi alışqanlıq dərəcəsi hesab edilirdi. Alışqanlıq hərarəti $28^0$ C-dən aşağı olan neft məhsulları oddan təhlükəli hesab edildiyi üçün onların üzərinə aksiz vergisi qoyulmurdu.

Aksiz nəzarətçiləri həmçinin neft məhsullarının şəffaflığını da yoxlamalı idilər. Belə ki, neft məhsulları lazımi qaydada təmizlənmədikdə onların keyfiyyəti və rəngi tələb edilən standartlara cavab vermirdi.

1877-ci il «Qaydalar»ına görə xüsusi çəkisi 0,730-0,830 və alışqanlıq dərəcəsi $45^0$ C-dən aşağı olan yüngül, xüsusi çəkisi 0,830-0,885 və alışqanlıq dərəcəsi $45^0$ C-dən yuxarı olan ağır yağlar üzərinə, aksiz vergisi qoyulurdusa, 1893-cü ildə bu qaydalar yenidən dəyişdirildi [145, s. 166]. 1893-cü il «Qaydalar»ına əsasən bütün işıqlandırıcı yağlar üçün vahid udel çəki 0,730-0,890 həddi olaraq qəbul edildi. Yeni qanunvericiliyə müvafiq olaraq alışqanlıq dərəcəsi $98^0$ C-dən aşağı olan yüngül yağların puduna 60 qəpik, alışqanlıq dərəcəsi $98^0$ C-dən yuxarı olan ağır yağların, puduna 50 qəpik aksiz vergisi tətbiq edildi [145, s. 158-159]. Yeni aksiz qaydasının tətbiqindən sonra yüngül və ağır kerosinin ixracında müəyyən dəyişikliklər yarandı. Belə ki, yüngül kerosin ixracında artım baş verdiyi halda, ağır kerosinin ixracında kəskin azalma müşahidə olunmağa başlamışdı. Ağır kerosinin istehsalına marağın az olması onun istehsalının çox mürəkkəb və baha başa gəlməsi ilə bağlı idi. Məhz buna görə də ağır kerosin üzərinə imtiyazlı aksiz vergisi qoyulmasına baxmayaraq istehsalçılar bu sahəyə o qədər də maraq göstərmirdilər.

Onu da qeyd etmək lazımdır ki, neft emalı müəssisələrində keyfiyyəti, təmizlənmə üsulu və istehlak səviyyəsinə görə ağır kerosindən aşağı olan, lakin emal xərcləri ucuz başa gələn və imtiyazlı aksiz tarifinə uyğun ağır kerosin növü də istehsal edilirdi. Bu cür məhsul onun keyfiyyətindən daha çox maya dəyərinin ucuz olmasına çalışan Bakı rayonunun xırda

zavodlarında istehsal olunurdu. Kerosinin bu növü adətən köhnə zavodlarda yüngül kerosinin emalından sonra qalmış neftlə adi kerosinin qarışdıılması nəticəsində hasil olunurdu. Bu fırıldaq nəticəsində həm keyfiyyətsiz məhsulla üzləşən istehlakçılar, həm də güzəştli aksiz vergisinin tətbiqi nəticəsində dövlət xəzinəsi zərər çəkirdi [116a, s.465]. Ağır kerosinin saxtalaşdırılması daxili və xarici bazarlarda neft sənayesinin imicinə zərbə vururdu. Aksiz vergisindən yayınmaq və yaxud güzəştli aksiz tariflərinə uyğunlaşmaq üçün işıqlandırıcı yağların tərkibinin korlanmasının qarşısını almaq, həmçinin emal texnologiyasını təkmiləşdirmək məqsədi ilə 1888-ci ildə cəza xarakterli qanun qəbul edilmişdi [229, statğə № 1253].

1889-cu ildə müddəti uzadılmış aksiz borclarının ödənilməsini asanlaşdırmaq üçün vaqon-sisternlərin öz dəyərinin 60% məbləğində girov kimi qoyulmasına icazə verildi. 1891-ci ildə neft emalı məhsullarının yoxlanması, daşınması, saxlanılması və satış şərtləri ilə bağlı qaydalar qüvvəyə mindi. Alışqanlıq hərarətinin minimum həddi $28^0$ C müəyyən edilməklə yanaşı, neft emalı zavodlarının buraxdığı yağların alışqanlıq normalarına uyğunluğunun və təmizlənmə dərəcəsinin yoxlanması qaydaları məcburi hesab edilməyə başladı [145, s. 166].

1892-ci ildə dövlət aksiz vergisini artırmaqla bərabər, xarici ölkələrə kerosin ixrac edən istehsalçılar üçün xüsusi mükafat müəyyənləşdirilmişdi. Belə ki, dövlət xaricə ixrac edilən kerosinin daşınma xərclərində güzəştlər müəyyən edirdi. Lakin güzəştlər zavoddan buraxılan məhsulun dəyərinin 5%-dən artıq ola bilməzdi [229, statğə № 1007]. Neft istehsalçılarına öz məhsullarını aksiz nəzarətçilərinin müşayəti altında göndərmək, məhsulların saxlanılması və qorunması üçün girov qoymaqdan azad etmək və s. kimi güzəştlər də verilirdi.

Kerosin üzərinə qoyulan aksiz vergisinin artırması təbii ki, onun satış qiymətlərinin yüksəlməsinə səbəb olur, ölkə daxilində kerosin istehsalı üçün müəyyən əngəllər yaradırdı. XIX əsrin 90-cı illərində kerosinin qiymətinin qalxmasında kerosin ticarətini

öz nəzarətləri altında saxlamaq istəyən, bir-biri ilə kəskin rəqabət aparan neft sənayesi şirkətləri də maraqlı idilər. Aydın məsələdir ki, 1892-ci ildə aksizin artırılmasından sonra kerosinin haqqının yerindəcə ödənilməsi və ya girovla təmin edilməsi üçün əlavə vəsaitə ehtiyac yaradırdı ki, bu da kerosin ixrac edən şirkətlərin sayının azalmasına gətirib çıxarırdı [172, s. 110].

Dövləti yalnız aksiz vergisindən xəzinəyə daxil olan gəlir maraqlandırırdı. 1893-cü ildə Rusiya imperiyasında neft aksizindən gələn gəlir 16,3 mln.rubl idisə, 1899-cu ildə bu məbləğ XIX əsrdə ən maksimal həddə – 26,1 mln rubla qədər yüksəlmişdi. Arxiv materialları və statistik materiallar əsasında hazırladığımız cədvəl XIX əsrin son rübündə aksiz vergisinin dinamikasının əks etdirir.

***Cədvəl №12***

1873-1900-cu illərdə neft və neft məhsullarından alınan aksiz vergisi (mln.rubl)

[Cədvəl aşağıdakı mənbələr əsasında hazırlanmışdır: 181 (müvafiq illər üzrə); 205; 49a]

| İllər | Bütün Rusiya üzrə daxil olmuş aksiz | Cənubi Qafqaz aksiz idarəsinə daxil olmuş aksiz | Bakı rayonundan daxil olmuş aksiz |
|---|---|---|---|
| 1873 | 409,6 | 206,0 | 203,6 |
| 1874 | 577,8 | 292,8 | 279,0 |
| 1875 | 398,4 | 191,0 | 207,4 |
| 1876 | 836,1 | 291,2 | 544,9 |
| 1877 | 859,3 | 255,1 | 604,2 |
| 1888 | 6.607 | 1.426 | 3.670 |
| 1889 | 9.298 | 4.973 | 3.446 |
| 1890 | 10.567 | 5.921 | 4.128 |
| 1891 | 10.175 | 5.263 | 4.380 |
| 1892 | 12.928 | 6.763 | 4.754 |
| 1893 | 16.369 | 7.324 | 5.171 |
| 1894 | 18.929 | 9.435 | 6.431 |
| 1895 | 19.788 | 10.060 | 7.137 |
| 1896 | 20.925 | 11.572 | 8.870 |
| 1897 | 22.807 | 14.970 | 11.076 |

| | | | |
|---|---|---|---|
| 1898 | 23.548 | 14.552 | 10.825 |
| 1899 | 25.184 | 16.976 | 13.433 |
| 1900 | 25.503 | 15.478 | 13.431 |

Cədvəldə əksini tapmış statistik məlumatlardan göründüyü kimi, 1873-cü ildən 1900-cu ilə qədər bütün Rusiya ərazisindən yığılmış 236,7 mln.rubl aksiz vergisinin 186,9 mln.rublu 1892-1900-cu illərdə toplanılmışdı. 1873-1900-cu illərdə Bakı neft rayonundan daxil olmuş 98,2 mln. rubl aksiz vergisinin 81,1 mln rublu isə 1892-1990-cu illərin payına düşür. Başqa sözlə desək neft rayonundan xəzinəyə daxil olmuş aksiz vergisinin məbləği 1892-ci il ilə müqayisədə 1900-cu ildə təxminən üç dəfə artmışdı. Çox maraqlıdır ki, 1821-1873-cü illər arasında xəzinə Bakı neft mədənlərinin istismarından cəmisi 4,6 mln.rubl təmiz gəlir əldə etmişdi [50, v. 48].

Bakı rayonundan daxil olan aksiz gəlirlərinin mütəmadi olaraq artmasının səbəbləri XIX əsrin 90-cı illərində neft istehsalının yüksəlişi ilə birbaşa bağlı idi. Şimali Azərbaycan neft sənayesinin yüksək inkişaf tempi xırda şirkətlərin təmərküzləşmə prosesi nəticəsində, nəhəng müəssisələrdə birləşməsinə, onların maliyyə imkanlarının genişlənməsinə, neft sənayesi şirkətlərinin aksioner cəmiyyətinə çevrilməsinə səbəb olurdu.

Cənubi Qafqaz aksiz idarəsinin rəisi A.L.Perşke neft istehsalının və aksiz vergilərinin artmasını neft sənayesinə xarici kapital axının güclənməsi və yeni müəssisələrin yaranması ilə izah edirdi [187, s. 1]. Çox maraqlıdır ki, 1898-ci ildə Şimali Azərbaycanda neft istehsalı ilə 140 müəssisə məşğul olurdusa, 1899-cu ildə onların sayı 160-a çatmışdı. 160 neft şirkətindən yalnız 33-ü 1890-cı ilə qədər mövcud idisə, onların 62-si 1898-1899-cu illərdə yaranmışdı [187, s. 1].

Aksizin tətbiq edilməsi neft emalı sənayesinin struktur və xarakterində də nəzərə çarpacaq dəyişikliklərə səbəb olmuşdu.

1894-cü ildə Şimali Azərbaycanda istehsal edilmiş kerosinin 60,9 mln. pudu və yaxud 85,9%-i 18 zavodun payına düşdüyü halda, 9,9 mln. pudu və ya 14,1%-i 64 zavodun payına düşürdü [185, s. 186].

Onu da qeyd etmək lazımdır ki, neft emalı zavodlarında texnologiyanın təkmilləşməsinə baxmayaraq neft sənayeçiləri emal prosesində yüksək keyfiyyətli məhlul (kerosin və s.) istehsal etməkdən daha çox yanacaq kimi istifadə edilə bilən neft qalıqları əldə etməyə çalışırdılar. Buna görə də zavod sahibləri xam neftdən işıqlandırıcı yağlar almağa o qədər də maraq göstərmirdilər. Kerosinin satış qiymətlərinin aşağı, istehsal xərclərinin yüksək olması zavod sahiblərini daha çox neftdən mazut almağa sövq edirdi. Aksiz məmuru L.L.Perşke öz hesabatında göstərirdi ki, 1889-cu ildə orta hesabla 2,9 pud xam neftdən bir pud kerosin alınırdısa, 1898-ci ildə isə 4,8 xam neftdən bir pud kerosin alınırdı. Məhz bunun nəticəsində artıq 1893-cü ildən başlayaraq Bakı kerosin sənayesindən mazut sənayesinə çevrilmişdi [196, s. 66]. Buna görə də hökümət emal prosesini pozanları cəzalandırmaq üçün 1892-ci il «Qaydalar»ında cərimə tədbirləri müəyyənləşdirmişdi. Kerosin istehsalı prosesini pozanlardan alınan cərimələr 1892-ci ildə 330 rubl idisə, 1893-cü ildə bu məbləğ 9.160 rubla çatmışdı. Lakin cərimə tədbirləri müvəqqəti xarakter daşıdığı üçün istənilən nəticəni vermirdi.

Hökumətin proteksionist siyasəti, neft sənayesi müəssisələrinə külli miqdarda gəlir əldə etməyə şərait yaradırdı. Maraqlıdır ki, kerosinin pudu üzərinə qoyulmuş aksiz 60 qəpik olduğu halda, «Nobel qardaşları» şirkətində onun maya dəyəri 7,4 qəpik təşkil edirdi [132a, s.142].

Neft emalı zavodlarında sürtkü yağları və digər qiymətli məhsullar istehsalının genişlənməsi və emal məhsullarının əsas növlərinin qiymətinin xam neftin qiyməti ilə bərabərləşməsi 1904-cü ildə Maliyyə Nazirliyini neft məhsullarına qoyulan vergilər məsələsini yenidən nəzərdən keçirməyə sövq etdi.

13 aprel 1905-ci il tarixli qanunla 1906-cı il aprelin 1-dən etibarən [134, s. 171] kimyəvi və yaxud başqa üsulla emal edilən bütün neft məhsulları vergiyə cəlb edilmək üçün tələb olunan standartlara, yəni müəyyən hərarət və alışqanlıq normalarına uyğun gəlirdisə aksiz vergisinə cəlb edilirdi. 1905-

ci il 13 aprel qanunu ilə neft emalı məhsullarının hər pudu üzərinə qoyulmuş aksiz vergisinin məbləği 40 qəpikdən 60 qəpiyə qaldırıldı [167, s. 138]. Yeni qanunvericilik nəticəsində aksizin ödənilməsi əməliyyatı zamanı neft sənayeçilərinə qısa müddətli girov qəbzləri müddətsiz girov qəbzləri ilə əvəz etmək imkanı verildi. Bundan istifadə edən sənayeçilər 1905-ci il üçün nəzərdə tutlan 3 mln. rubldan artıq aksiz vergisinin ödənilməsini 1906-1908-ci illərə qədər təxirə saldılar [134, s. 171].

1906-cı ildə «Nobel qardaşları» şirkəti neft məhsullarına görə 16,7 mln. rubl aksiz vergisi ödəmişdi [134, s. 171]. Lakin nisbətən kiçik şirkətlər aksiz vergisini ödəyə bilmirdilər. Araşdırmalar göstərir ki, 1908-ci ilin oktyabrına qədər müxtəlif şirkətlərin xəzinə qarşısında aksiz vergisi üzrə borcları 3,3 mln. rubla çatmışdı [134, s. 172]. Aksiz borclarının yığılması illərlə uzanırdı, çünki dövlət neft sənayeçilərinin aksiz borclarının təxirə salınması təklifini yüngül şərtlərlə qəbul edirdi. Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, 1906-1910-cu illər arasında neft məhsulları üzrə aksiz borclarının məbləği 24,4 mln. rubla qədər artmışdı [134, s. 172].

Aksiz borcları məsələsi Dövlət dumasının iclaslarında dəfələrlə müzakirəyə çıxarılmışdı. Dövlət dumasının 25 yanvar 1912-ci il tarixli iclasında qeyd edilirdi ki, təkcə 1908-ci il üçün neft sənayeçilərinin aksiz borcları 7 mln. rubl, bu borcun 10%-lik cəriməsi isə 3 mln. rubl təşkil etmişdi [134, s. 172]. Aksiz borclarını ödəmədikləri üçün neft sənayeçilərinin qoyduqları əmlak girovları satışa çıxarılırdı. 1913-cü ildə girov qoyulmuş 400 min rublluq girov əmlak satılmışdısa, 1914-cü ildə satışa çıxarılan girov qoyulmuş əmlakın dəyəri 2,4 mln. rubl təşkil etmişdi [134, s. 173]. 1914-cü ildə aksiz vergisinin ödənilməsini təmin edilməsi müqabilində 46 mln. rubl məbləğində girov qəbzləri verilmişdi [134, s. 173].

Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar çar hökumətinin xərcləri getdikcə artmağa başlamışdı. Belə bir şəraitdə dövlət xəzinəsinin durmadan artan xərclərinin ödənilməsi üçün yeni gəlir mənbələrinin aşkarlanması bütün

kəskinliyi ilə gündəmə çıxmışdı. Yaranmış vəziyyətdən çıxış yollarından biri də neft məhsullarına tətbiq edilən aksiz vergisinin artırılması oldu. Neft məhsullarından alınan aksiz vergisinin artırılması haqqında «Əsasnamə» 1914-cü ilin oktyabr ayının 26-da çar tərəfindən təsdiq edildi və Maliyyə Nazirliyi yeni qaydaların 1914-cü il dekabrın 3-dən qüvvəyə mindiyini elan etdi [175, s. 3]. «Əsasnamə»yə görə, neft yağları, kerosin, benzin, kimyəvi və ya digər üsullarla emal edilən neft məhsulları üzərinə qoyulan aksiz vergisinin məbləği hər pud üçün 60 qəpikdən 90 qəpiyə qaldırıldı [176, s. 45].

Hökumətin aksiz vergisinin artırlıması neft sənayeçilərinin kəskin narazılığına səbəb olmuşdu. Sənaye və ticarətçilərin qurultayı şurasının nümayəndələri maliyyə naziri P.L.Barka ünvanladıqları 15 aprel 1915-ci il tarixli müraciətlərində qeyd edirdilər ki, aksiz vergisinin qaldırılması neft məhsullarının əvvəlki qiymətlərlə satışını qeyri-mümkün etmişdir [167, s. 44]. Məsələ burasındadır ki, neft sənayeçiləri hələ birinci dünya müharibəsindən əvvəl uzunmüddətli kontraktlar əsasında neft məhsullarının satışı haqqında razılaşmalar əldə etmişdilər və aksiz vergisinin müharibə başlandıqdan sonra qaldırılması neft sənayeçilərinin böyük həcmdə ziyana düşməsi demək idi. Aksizin qaldırılması nəticəsində dəyəcək zərəri kompensasiya etmək üçün neft maqnatları, o cümlədən «Nobel qardaşları» şirkətinin nümayəndələri E.L.Nobel, A.S.Boqayavlenski, həmçinin N.A.Speranski, I.A.Korzuxin Maliyyə nazirliyi qarşısında xaricdən Rusiyaya idxal olunan neft məhsulları üzərinə qoyulmuş gömrük vergisinin qaldırılması tələbini irləi sürdülər [105, s. 24-25]. Maliyyə nazirliyi neft maqnatlarının təklifini qəbul edərək xaricdən Rusiyaya gətirilən neft məhsullarına gömrük vergisini aksizin məbləği həcmində – 4 rubl qaldırdı [105, s. 25]. Neft sənayeçilərinin aksizin artırılmasına nisbətən sakit reaksiya verməsi təkcə yuxarıda göstərilən kompensasiya tədbiri ilə bağlı deyildi. Belə ki, aksizin artırılması neft sənayeçilərindən daha çox neft məhsullarının alıcılarına ciddi zərbə vururdu. Çünki «Nobel qardaşları»

şirkətinin Bakı kontoru hələ aksiz vergisinin artırılmasından xeyli əvvəl, 26 avqust 1914-cü ildə qəbul etdiyi qərarda göstərilirdi ki, neftin satışı və yaxud sifarişinin qəbulu zamanı alıcılarla şərtləşdirilsin ki, aksizin artırılması baş verərsə əlavə xərclər alıcıların hesabına ödənilməlidir [49, v. 40]. Göründüyü kimi, aksizin artırılması neft məhsulu istehsalçılarına heç də böyük iqtisadi zərbə vurmurdu.

Aksiz vergisinin qaldırılması nəticəsində neft sənayesi şirkətləri vergi borclarının ödənilməsinin təxirə salınması haqqında müraciətləri artmışdı. Vergiləri ödəmək üçün şirkətlər bankların xidmətindən daha geniş surətdə istifadə etməyə başlamışdılar. 1915-ci ilin iyununda «Mazut» şirkəti aksiz idarəsinə olan borclarını ödəmək üçün Moskva bankı ilə 500 min rubl məbləğində dövlət istiqrazı almaq haqqında müqavilə bağlamışdı [134, s. 174]. 1915-ci ilin avqust ayında isə «Nobel qardaşları» şirkəti Maliyyə nazirliyinin vergilər departamentinə müraciət edərək 1915-ci ilin sentyabr ayında ödəməli olduğu 3 mln. rubl məbləğində olan aksiz vergisinin təxirə salınmasını xahiş etmişdi [134, s. 174].

Birinci dünya müharibəsinin gedişində dövlət xərclərinin görünməmiş şəkildə artması 1916-cı ilin iyununda Maliyyə nazirliyində aksiz vergisinin yenidən artırılması məsələsinin müzakirəyə çıxarılmasına səbəb oldu [167, s. 239]. Müzakirə zamanı əvvəllər aksiz vergisinə cəlb edilməyən xam neft və neft tullantılarının da vergiyə cəlb edilməsi məsələsi qaldırıldı. Maliyyə nazirliyi belə hesab edirdi ki, neftdən yanacaq kimi istifadənin genişlənməsi xam neft və neft tullantıları üzərinə vergi qoyulması dövlətin gəlirlərini xeyli artıra bilər. Aksiz vergisinin ehtimal edilən yüksəldilməsinə qarşı neft şirkətlərinin nümayəndələri E.L.Nobel, A.A.Isayev və başqaları kəskin etirazlarını bildirdilər [176, s. 19].

Uzun sürən müzakirələrdən sonra xam neftin hər pudundan 5 qəpik aksiz vergisi alınması haqqında razılıq əldə edildi və qanun layihəsi hazırlandı [134, s. 175]. Maliyyə naziri P.L.Bark Nazirlər şurasına göndərdiyi 9 avqust 1916-cı il tarixli

təqdimatında neft və neft məhsullarından alınan aksizin artırılması zərurətini dövlət xəzinəsinin ehtiyaclarının ödənilməsinin təxirə salınmazlığı ilə izah edirdi [134, s. 175].

Aksiz vergisinin artırılması ilə bağlı yeni əsasnamə 1916-cı il sentyabrın 8-də təsdiq edildi və 1916-cı il oktyabrın 18-də qüvvəyə mindi [176, s. 18-19]. Yeni qanunvericiliyə əsasən, işıqlandırıcı yağların hər pudu üçün aksiz vergisi 90 qəpikdən 1 rubl 20 qəpiyə, digər neft emalı məhsullarına 1 rubl 60 qəpiyə, benzol və toluola isə 90 qəpiyə qaldırıldı [176, s. 18-19].

Çar hökumətinin hesablamalarına görə aksiz vergisinin qaldırılması nətəicəsində xəzinənin gəlirləri ildə 30 mln. rubl əlavə vəsait əldə etməli idi [167, s. 514]. Neft sənayeçilərinin aksiz vergisinin növbəti dəfə təxminən 60 %-dən çox qaldırılmasını hiddətlə qarşılamalarına baxmayaraq, bu daha çox neft məhsullarının alıcılarına ciddi zərbə vururdu. Neft məhsullarının alıcıları arasında birinci dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq aparıcı yerdə nə qədər poradoksal olsa da dövlət idarələri dururdu. Bu baxımdan «Nobel qardaşları» şirkətinin kimyaçı mütəxəssisi professor M.M.Tixvinskinin xüsusi istehza ilə söylədiyi fikir böyük maraq doğurur. M.M.Tixvinski «Neftyanoe delo» jurnalında nəşr etdirdiyi «Yaranmaqda olan kimya sənayesi və neft aksizi» adlı məqaləsində yazırdı ki, aksizin qaldırılması əməliyyatı nəticəsində xəzinənin uduşu dəqiq rəqəmlə desək sıfra bərabərdir. Müəllif qeyd edirdi ki, benzol və toluol istehsal edən neft emalı zavodlarının məhsullarının demək olar ki, hamısını dövlətin artilleriya idarəsi alırdı. Beləliklə də aksiz idarəsinin əldə etdiyi gəlirlərin hamısını dövlətin digər idarəsi olan artilleriya idarəsi ödəyirdi [176, №21, s. 5-6]. Aksiz vergisinin artırılmasına qarşı çıxış edən neft sənayeçilərinin narazıçılığı başqa səbəblərlə də bağlı idi. Məsələ burasındadır ki, yeni aksiz dərəcələri açıq-maye xarakterli neft məhsullarına (benzol, toluol və s.) aid edilsə də, daş kömür qətranından alınan tünd rəngli benzol və toluola oxşar məhsullara şamil edilməmişdi [105, s. 26]. Neft sənayeçiləri belə hesab edirdilər ki, hökumətin bu

addımı ayrı-seçkilik xarakteri daşıyır və daş kömür sənayesi ilə rəqabətdə neft sənayesini mürəkkəb vəziyyətə salır. Bu isə son nəticədə artilleriya idarəsinin benzol və toluol istehsal edən neft sənayesi müəssisələrinin xidmətindən imtina edərək koks-benzol sənayesi məhsullarından istifadə etmək ehtimalını olduqca gücləndirirdi. Məhz buna görə də neft sənayeçiləri aksizin növbəti dəfə artırılmasını xüsusi ajiotajla qarşılamışdılar və «Nobel qardaşları» şirkətinin mütəxəssisi M.M.Tixvinski hökumətin bu qanuna Dövlət Dumasında yenidən baxılması təklifini irəli sürmüşdü [176, №21, s. 7]. Belə ki, aksiz vergisinin artırılması ilə bağlı olan yeni qanun Dövlət Dumasının müzakirəsinə çıxarılmadan qəbul edilmişdi.

XIX əsrin 70-ci illərində neft məhsullarından alınan aksiz vergisi o qədər də böyük məbləğ təşkil etməsə də (orta hesabla ildə təxminən 244 min rubl), XIX əsrin sonu – XX əsrin əvvəllərində aksiz vergisi xəzinə gəlirlərinin mühüm bir hissəsini təşkil etməyə başlamışdı. XX əsrin əvvəllərində dövlətin neft məhsullarından əldə etdiyi aksiz gəlirlərinin dinamikası 13 saylı cədvəldən aydın görünür [167, s. 107].

Cədvəldən göründüyü kimi, 1908-ci ilə qədər neft sənayeçiləri aksiz vergisinin ödənilməsi planını kəsirlə yerinə yetirmişdilər. 1908, 1910, 1912, 1913 və 1914-cü illərdə nəzərdə tutulan məbləğdən artıq aksiz vergisinin toplanması əvvəlki illərdən qalmış neft aksizinin ödənilməsi ilə bağlı olmuşdur. Statistik rəqəmlər göstərir ki, Rusiya imperiyasının neft aksizindən gələn gəlirlərinin orta hesabla 64%-i Şimali Azərbaycan neft sənayesi hesabına əldə edilirdi. Ayrı-ayrı illərdə bu gəlirlərin 70%-i, 1913-cü ildə isə hətta 74%-i Şimali Azərbaycan nefti hesabına toplanılmışdı.

*Cədvəl №13*

Şimali Azərbaycanda XX əsrin əvvəllərində
neft məhsullarından alınan aksiz (mln. rublla)

| illər | Bakı və Batumi rayonlarından Cənubi Qafqaz Aksiz idarəsinə ödəniləcək aksiz vergisinin məbləği | Bütün Rusiyadan daxil olmuş neft aksiz vergisinin həcmi | Bakı və Batumi rayonlarından Cənubi Qafqaz Aksiz idarəsinə daxil olmuş məbləğ | Bakı rayonundan daxil olmuş neft aksizinin məbləği | Bakı neft gəlirinin bütün Rusiyadan gələn neft gəlirinə nisbəti %-lə |
|---|---|---|---|---|---|
| 1900 | 37,0 | 25,5 | 15,4 | 13,4 | 52,5 |
| 1901 | 34,7 | 28,6 | 19,0 | 17,2 | 60,1 |
| 1902 | 33,0 | 29,6 | 18,8 | 16,8 | 56,7 |
| 1903 | 47,9 | 31,9 | 20,4 | 17,5 | 50,4 |
| 1904 | 48,7 | 34,7 | 22,8 | 21,1 | 60,8 |
| 1905 | 31,2 | 29,9 | 18,7 | 17,0 | 56,8 |
| 1906 | 32,7 | 29,8 | 16,8 | 15,5 | 52,0 |
| 1907 | 40,5 | 36,8 | 25,0 | 22,5 | 61,1 |
| 1908 | 37,2 | 41,6 | 30,1 | 28,5 | 68,5 |
| 1909 | 41,9 | 41,8 | 31,1 | 28,9 | 69,1 |
| 1910 | 38,1 | 47,1 | 34,3 | 32,4 | 68,7 |
| 1911 | 42,5 | 42,4 | 29,9 | 28,0 | 66,0 |
| 1912 | 45,3 | 50,0 | 36,2 | 34,9 | 69,8 |
| 1913 | 46,1 | 48,6 | 36,9 | 36,0 | 74,0 |
| 1914 | 43,2 | 54,9 | 40,1 | 38,0 | 69,2 |
| Cəmi | 600,0 | 573,2 | 395,5 | 367,7 | 64,1 |

Birinci dünya müharibəsi nəticəsində Rusiyanın düçar olduğu bəladan, iqtisadi və maliyyə böhranından çıxış yollarından biri kimi Maliyyə Nazirliyi aksiz vergilərinin qaldırılması siyasətində təkid edirdi. Rusiyanın maliyyə naziri M.B.Bernatski 1917-ci il 7 oktyabr tarixli təqdimatında Müvəqqəti hökumət qarşısında aksizin yenidən qaldırılması təklifi ilə çıxış etmişdi [167, s. 450-455]. M.B.Bernatski işıqlandırıcı neft yağları istisna olmaqla kimyəvi və ya digər yolla emal edilən neft məhsullarının hər pudundan 4 rubl 80 qəpik, işıqlandırıcı neft yağlarının hər pudundan 2 rubl 40 qəpik aksiz alınmasını, neft məhsullarından əldə edilən benzol, toluol və ksiloldan alınan aksiz vergisinin ləğv edilməsi haqqında

layihəni Müvəqqəti hökumətə təqdim etmişdi [167, s. 455]. Maliyyə Nazirinin təqdimatında göstərilir ki, aksizin təklif edilən formada tətbiq edilməsi nəticəsində dövlətin neft aksizindən əldə edəcəyi gəlirin məbləği 282,8 mln. rubl təşkil etməli idi [167, s. 455]. Bu isə xəzinənin 1917-ci ildə aksiz vergisindən əldə etdiyi gəlirdən (87 mln.rubl) 195,8 mln rubl çox olmalı idi.

Lakin 1917-ci ilin oktyabrında Rusiyada baş vermiş məlum hadisələr, bolşeviklərin dövlət çevrilişi nəticəsində maliyyə nazirliyinin aksiz vergisinin qaldırılması layihəsini reallaşdırmaq mümkün olmadı.

Qeyd etmək lazımdır ki, çar hökumətinin neft sənayesində tətbiq etdiyi aksiz vergisi siyasəti dövlət məmurlarının gözlədiyi kimi arzu olunan iqtisadi effekti verməmişdi. Aksiz vergilərinin durmadan artırılması neft məhsullarının qiymətlərinin yüksəlməsinə gətirərək ilk növbədə alıcıların, həmçinin neft sənayeçilərinin maraqlarına ciddi zərbə vururdu. Aksiz vergisi istehsal edilən neft məhsullarının satış prosesini çətinləşdirdiyi üçün bu çarizmin iqtisadi siyasətinin uğursuz təzahürlərindən biri kimi qiymətləndirilir. Bununla belə qeyd etmək lazımdır ki, Rusiya imperiyasının Şimali Azərbaycanın neft sənayesindən əldə etdiyi xəzinə gəlirlərinin təxminən ⅓ hissəsi neft emalı məhsulları üzərinə qoyulan aksiz vergilərindən formalaşırdı.

### 3.2. Sənayenin digər sahələrində yığılan vergilərə dair.

XIX əsrin II yarısı – XX əsrin əvvəlləri neft sənayesi ilə yanaşı Şimali Azərbaycan iqtisadiyyatında metallurgiya, balıq emalı, ipək istehsalı, şərabçılıq, tütün sənayesi, pambıqtəmizləmə, duz istehsalı və s. sənaye sahələrinin inkişaf tarixində yeni mərhələnin başlanğıcı hesab edilir. Rusiya imperiyasında kapitalizmin sürətli inkişaf yoluna düşməsi Şimali Azərbaycanın qeyri-neft sənayesinin genişlənməsinə təkan verdi. Təbii ki, çar hökuməti xəzinə gəlirlərini artırmaq

məqsədi ilə Şimali Azərbaycanın qeyri-neft sənayesi sahələrini də vergiyə cəlb etməkdə xüsusilə maraqlı idi. Təəssüflə qeyd etmək lazımdır ki, neft sənayesi ilə bərabər Şimali Azərbaycan sənayesinin digər sahələrində də çarizmin vergi siyasəti ayrıca tədqiqat obyekti olmamışdır. Akad.Ə.S.Sumbatzadə, prof. M.Ə.Ismayılov və prof. T.T.Vəliyevin araşdırmaları istisna olmaqla bu problem Azərbaycan-Sovet tarixşünaslığında demək olar ki, öyrənilməmişdir.

XIX əsrin II yarısında çar hökumətinin aksiz vergisinə cəlb etdiyi sənaye sahələrindən biri Şimali Azərbaycanın şərabçılıq sənayesi olmuşdur. Spirtli içkilərin aksiz sisteminə cəlb edilməsi ideyası birdən-birə yaranmışdı. 1817-ci ilə qədər yerlərdə içki rüsumuna nəzarəti xəzinə palatası həyata keçirirdi. 1817-ci il aprelin 2-də qəbul edilmiş içki rüsumu haqqında yeni əsasnamə ilə içki rüsumunun toplanması xəzinə palatası nəzdində yaradılmış xüsusi şöbəyə tapşırıldı. 1834-cü ildə Cənubi Qafqazda içki rüsumu üzrə vahid aksiz sisteminin təşkili ilə əlaqədar Tiflisdə aksiz, kontoru, digər şəhərlərdə isə nəzarətçilər şəbəkəsi yaradıldı [153, s 251]. XIX əsrin 30-50-ci illərində müxtəlif dövlət komissiyaları və Dövlət şurasında müzakirələr zamanı «böyük bəla» hesab edilən iltizam sisteminin ləğvi, spirtli içkilərdən vergi alınmasının daha təkmil üsullarının tətbiqi ideyaları irəli sürülürdü.

1861-ci il iyulun 4-də «Içki rüsumu haqqında Əsasnamə»nin qəbul edilməsi ilə ilk dəfə olaraq yerli aksiz idarələrinin strukturu müəyyənləşdirildi [224a, s.64]. Yeni «Əsasnamə»yə uyğun olaraq hər quberniyada rəis, onun köməkçisi, müfəttişlər və dəftərxana işçilərindən (katib, mühasib, onun köməkçisi) ibarət Quberniya aksiz idarəsi, qəzalarda isə nəzarətçi, onun köməkçisi və dəftərxana işçilərindən ibarət Dairə aksiz idarələri yaradıldı. Dairə aksiz idarələri isə nəzarətçilərin köməkçilərinə tabe olan, məntəqələrə bölünürdü. 4 iyul 1861-ci il tarixli «Əsasnamə» ilə yaradılmış yerli aksiz idarələri qubernatorlara deyil, birbaşa Maliyyə nazirliyinə tabe edilirdi. Aksiz idarələrinin işini təftiş etmək

səlahiyyətinə malik olan qubernatorlar onların işinə müdaxilə edə bilməzdilər.

1873-cü ilə qədər şərab, həmçinin araq istehsalçıları dövlətə heç bir vergi vermirdilər. Lakin 1873-cü il iyulun 1-dən etibarən hökumət spirtli içkilər istehsalı sahəsində aksiz sistemini tətbiq etməklə şərabçılıq sənayesini vergilərə cəlb etdi [126, s. 158; 219, s. 341]. Aksiz vergisinin tətbiqinə qədər Şimali Azərbaycanda şərabçılıq müəssisələri və onların istehsal gücü haqqında natamam məlumatlarla bərabər, 1873-cü ildən başlayaraq mütəmadi olaraq statistik materiallar tərtib edilirdi. Şimali Azərbaycanda fəaliyyət göstərən şərabçılıq müəssisələrinin əksəriyyəti xırda-kustar yönümlü olduğu üçün onları sənaye xarakterli müəssisələrdən fərqləndirmək məqsədi ilə əvvəllər «bağ sahiblərinin zavodları» anlayışından istifadə olunurdu. Aksiz vergisinin tətbiqi bağ sahiblərinin şərab istehsalı ilə məşğul olmalarına çox böyük zərbə vururdu. 1873-cü ildən qüvvəyə minmiş yeni «Qaydalar»a əsasən spirtin hər dərəcəsi üçün 1 qəpik aksiz vergisi müəyyənləşdirilirdi [219, s. 342; 142, s. 227]. Yeni qaydalara görə şərab və onun tullantıları 30 vedrə həcmli kublarla istehsal olunmalı, meyvələrdən araq çəkilməsi aksiz idarəsinin tələblərinə cavab verməli, zavodlarda istehsal edilən spirt aksiz vergisinə cəlb edilməli və aksizin hesablanması emal kublarının həcmi əsasında həyata keçirilməli idi [219, s. 342]. Şərab istehsalının 30 vedrə həcmli kublarla həyata keçirilməsi qaydasının təsbit edilməsi kustar istehsalla məşğul olan bağ sahiblərinin mənafeyinə ciddi zərbə vurur və sənaye üsulu ilə şərab istehsal edən müəssisə sahibləri üçün imkanlar açırdı. Aksiz vergisinin tətbiqi nəticəsində Yelizavetpol quberniyasında şərab zavodlarının sayı və istehsal gücü azalmağa başladı. Statistik məlumatlara görə 1874-cü ildə quberniyada fəaliyyət göstərən 2593 şərab zavodu 145.575 vedrə şərab istehsal edirdisə 1875-ci ildə zavodların sayı 2268-ə və onların istehsal gücü isə 118.350 vedrəyə enmişdi [219, s. 342-343].

1876-cı ildə şərabçılıq sənayesində aksiz vergisi sisteminə

edilmiş dəyişikliklər bağ sahiblərinin şərab istehsalı fəaliyyətinə yenidən mənfi təsir göstərdi [142, s. 227]. 1873-cü il «Qaydalar»ına görə aksiz emal kublarının vedrə ilə həcmindən alınırdısa, 1876-cı ildən etibarən aksizin alınması emal kublarının vedrə ilə həcmindən başqa, şərab zavodlarının fəaliyyət müddəti əsasında müəyyənləşdirilməli idi. Onu da qeyd etmək lazımdır ki, yeni qaydalara görə, istehsalın başlanması və qurtarması vaxtı əvvəlcədən müəyyən edilməli idi [219, s. 343].

Yeni qaydalar formal olaraq şərab zavodları sahibləri ilə kustar istehsalçılara bərabər şərait yaratsa da aksizin əvvəlcədən tələb edilməsi, zavodun fəaliyyət müddətinin qabaqcadan müəyyənləşdirilməsi kustar istehsalçıların rəqabət qabiliyyətini xeyli aşağı salırdı. 1884-cü il iyunun 12-də verilmiş yeni qanun bağ sahiblərinin şərab istehsalı ilə məşğul olmasını daha da çətinləşdirərək sənaye üsulu ilə şərab istehsalı üçün yeni imkanlar açırdı [219, s. 343]. Yeni qanuna görə, emal kublarının həcmi bağların sahəsinə uyğun gəlmələri, məhsuldan asılı olmayaraq patent əsasında bütün bağ sahibləri üçün fasiləsiz şərab çəkmə müddətinin eyni normaları müəyyən edilməli idi [219, s. 343]. Bununla yanaşı, bağ sahiblərinə istehsal etdikləri spirtin həcmi 10 vedrədən az olmamaq şərti ilə topdansatış bazarlarından əlavə digər formada reallaşdırmaq (satmaq) qadaqan edilirdi. 1884-cü il 12 iyun tarixli yeni qanuna əsasən, aksizin məbləği hər dərəcə üçün 1 qəpikdən 3 qəpiyə qaldırıldı [219, s. 343].

Yeni qanun şərab istehsal edən bağ sahibləri müəssisələrinin sayının kəskin azalmasına səbəb olmuşdu. Belə ki, 1884-cü ildə Yelizavetpol quberniyasında 1530 kustar şərab müəssisəsi var idisə 1885-ci ildə onların sayı 516-ya, müəssisələrin istehsal gücü isə 1884-cü ildə 5.051.428 dərəcə spirtdən 1885-ci ildə 1.436.202 dərəcəyə enmişdi [219, s. 344]. Bunun əksinə olaraq sənaye xarakterli şərab zavodlarının istehsal gücü 1884-cü ildə 1.414.232 vedrədən, 1885-ci ildə 3.511.468 vedrəyə qalxmışdı [219, s. 344].

Kustar üsulla şərab istehsalına münasibətdə çarizmin həyata keçirdiyi aksiz sistemində əsaslı dəyişiklik 1887-ci ildə baş verdi. 1887-ci ilin iyunun 15-də təsdiq edilən və 1887-ci il sentyabrın 1-də qüvvəyə minən yeni «Qaydalar»a əsasən bağ sahiblərinə qarşı tətbiq edilmiş yalnız öz bağları və ya icarəyə götürdükləri bağlardan əldə etdikləri məhsuldan spirt çəkmək qadağası ləğv edilmiş oldu [219, s. 345].

1887-ci il qanununa görə sənaye tipli şərab zavodlarının sahibləri aksiz vergisini qabağcadan ödəməli, bağ sahibləri isə istehsal edilən spirti satışa buraxdıqdan sonra aksizi verməli idilər. Yeni qaydalar bağ sahiblərinə emal normasından artıq alınmış məhsullar, evdə istifadə və fəhlələrin ərzaqla təminatı üçün ayrılmış spirtə görə aksiz güzəştləri etdiyi halda, sənaye zavodlarına yalnız 7%-lik aksiz güzəştləri nəzərdə tuturdu [219, s. 345].

1887-ci il 15 iyun tarixli aksiz qaydaları kustar üsulla şərab istehsalının yüksəlişinə səbəb olmaqla, sənaye üsulu ilə şərab istehsalına mənfi təsir göstərmişdi [126, s. 158]. Bunu aşağıdakı cədvəl [126, s. 167] daha aydın şəkildə nümayiş etdirir.

***Cədvəl №14***

Sənaye və kustar üsulu ilə şərab istehsalı

| Illər | Sənaye şərabçılığı | | Kustar üsulla şərabçılıq | |
|---|---|---|---|---|
| | müəssisələrin sayı | istehsalın həcmi (dərəcə ilə) | müəssisələrin sayı | istehsalın həcmi (dərəcə ilə) |
| 1887 | 34 | 4. 872.488 | 767 | 2.458.995 |
| 1888 | 14 | 1. 740. 378 | 651 | 1.659.675 |
| 1889 | 6 | 1. 542.400 | 912 | 3. 308.723 |

Göstərilən statistik rəqəmlər bütün Cənubi Qafqazı əhatə etsə də, həmin dövrdə tut arağı istehsalının 99%-nin Yelizavetpol quberniyasının payına düşdüyünü nəzərə alsaq bu rəqəmlərin demək olar ki, Şimali Azərbaycana aid olduğunu

söyləmək mümkündür. Üç il ərzində sənaye xarakterli şərabçılıq müəssisələrinin sayı 5,5 dəfə, onların istehsal gücü 3 dəfə aşağı düşmüşdü.

XIX əsrin son rübündə kustar üsulla işləyən şərabçılıq müəssisələrinin inkişafını əngəlləyən səbəblər də var idi. Belə ki, spirtin bir dərəcəsinin bazarda satış qiyməti 10 qəpik olduğu halda şərab istehsalçıları hər dərəcə üçün 6 qəpik aksiz vergisi, 2,5 qəpik gerb rüsumu vergisi ödəmək məcburiyyətində qalmışdılar [126, s. 189]. Göründüyü kimi, şərab istehsalçıları istehsal edilən spirtin hər dərəcəsindən yalnız 1,5 qəpik gəlir əldə edirdilər. Buraya istehsal xərclərini də əlavə etsək onda istehsalçıların gəlirlərinin cüzi olduğunu görərik.

Tərtib etdiyimiz 15 saylı cədvəl 1873-1900-cu illərdə Azərbaycanın Bakı və Yelizavetpol quberniyalarından xəzinəyə daxil olmuş spirtli içkilərdən alınan aksiz vergisinin dinamikasını əks etdirir.

***Cədvəl 15***

Şimali Azərbaycanda spirtli içkilərdən alınan aksizin məbləği
(min rublla)
[Cədvəl aşağıdakı mənbələr əsasında tərtib edilmişdir: 181, 1873-1900-cu illər üzrə; 183, 1873-1900-cu illər üzrə; 187; 126]

| Illər | Cənubi Qafqaz aksiz idarəsinə daxil olmuş aksizin ümumi məbləği | Yelizavetpol quber-dan daxil olmuş aksiz | Bakı quberniyasından daxil olmuş aksiz |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1873 | - | 21,8 | 43,3 |
| 1874 | 790,8 | 82,8 | 109,2 |
| 1875 | 688,7 | 65,2 | - |
| 1876 | 687,9 | 64,8 | - |
| 1877 | 1.903,7 | 93,6 | 604,2 |
| 1878 | 1.686,6 | 119,9 | 211,5 |
| 1879 | 1.238,5 | 142,9 | 331,1 |
| 1880 | 1.051,3 | 142,1 | 135,9 |
| 1881 | 975,6 | 122,5 | - |
| 1882 | 1.002,2 | 124,6 | - |

| | | | |
|---|---|---|---|
| 1883 | 866,2 | 112,3 | 193,7 |
| 1884 | 1.068,1 | 134,1 | 160,4 |
| 1885 | 1.413,0 | 263,5 | - |
| 1886 | 1.564,1 | 321,6 | 268,7 |
| 1887 | 1.892,4 | 452,1 | 308,2 |
| 1888 | 1.902,6 | 236,3 | 338,3 |
| 1889 | 1.879,4 | 291,5 | 379,0 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 1890 | 1.834,8 | 421,6 | 401,0 |
| 1891 | 1.849,6 | 307,0 | 449,6 |
| 1892 | 1.949,8 | 327.4 | 444,8 |
| 1893 | 1.562,8 | 267,3 | 193,4 |
| 1894 | 1.635,3 | 182,8 | 192,3 |
| 1895 | 1.475,8 | 151,5 | 218,6 |
| 1896 | 2.222,7 | 172,9 | 425,7 |
| 1897 | 2.403,4 | 163,8 | 421,4 |
| 1898 | 2.105,1 | 134,6 | 525,9 |
| 1899 | 2.085,3 | 96,2 | 525,0 |
| 1900 | 2.011,9 | 90,2 | 727,2 |

Statistik məlumatlardan göründüyü kimi, hökumətin sənaye şərabçılığını, himayə etdiyi 1873-1886-cı illərdə xəzinə Yelizavetpol quberniyasından 1.808,7 min rubl, Bakı quberniyasından isə 2,5 mln. rubl aksiz vergisi əldə etmişdi. Bu illər ərzində Yelizavetpol quberniyasından minimum aksiz 1873-cü ildə – 21,8 min rubl, maksimum aksiz vergisi isə 1886-cı ildə – 321,6 min rubl əldə edilmişdi. Bu dövrdə Bakı quberniyasında yığılmış aksiz məbləği isə bir qədər artıq olmuşdu. Belə ki, Bakı quberniyasında ən az aksiz 1873-cü ildə – 43,3 min rubl, ən çox aksiz vergisi isə 1887-ci ildə – 604,2 min rubl, toplanılmışdı. 1887-ci ildə Bakı quberniyasından yığılmış 604,2 min rubla spirtli içkilərlə yanaşı tütün və maya məhsullarından alınan aksiz məbləği də daxildir.

1887-ci ildə qəbul edilmiş yeni «Qaydalar» şərab istehsalının xarakterinə təsir göstərsə də, şərab istehsalının ümumi həcmində ciddi dəyişikliklərə səbəb olmamışdı. Bununla belə əvvəlki dövrlərlə müqayisədə aksiz gəlirlərinin həcmi əhəmiyyətli dərəcədə yüksəlmişdi. 1887-1900-cu illərdə Yelizavetpol quberniyasında 3.295,2 min rubl, Bakı quberniyasında isə 5.550,4 min rubl aksiz vergisi toplanılmışdı. Çox maraqlıdır ki, 1887-ci ildə Yelizavetpol quberniyasında ən yüksək aksiz məbləği 452,1 min rubl təşkil etdiyi halda, 1900-cu ildə bu məbləğ 90,2 min rubla enmişdi. Yeni «Qaydaların» tətbiqindən sonra Bakı quberniyasında minimum aksiz 1894-cü

ildə (192,3 min rubl), maksimum aksiz isə 1900-cu ildə (727,2 min rubl) əldə edilmişdi. Diqqət çəkən faktlardan biri də ondan ibarətdir ki, 1870-ci ildə iltizam sistemi dövründə şərab və araq istehsalından dövlət xəzəinəsinə cəmi 195,6 min rubl daxil olmuş, hətta 1873-cü ildə spirtli içki məhsullarından gələn gəlir 172,8 min rubla endiyi halda, 1887-ci ildə yalnız Cənubi Qafqazdan şərab məhsullarından alınan aksizin məbələği 1,8 mln. rubla, Şimali Azərbaycan üzrə isə təxminən 800 min rubla qədər yüksəlmişdi. On il sonra, 1897-ci ildə isə Cənubi Qafqaz aksiz idarəsinə bütün Cənubi Qafqazdan 2,4 mln. rubl, Şimali Azərbaycandan isə 700 min rubl şərab aksizi daxil olmuşdu. Naxçıvan qəzası və Zaqatala dairəsindən daxil olmuş şərab aksizinin məbləğinin həcminin müəyyənləşdirilməsi Şimali Azərbaycanda ümumi mənzərənin tamamlanması üçün əhəmiyyət kəsb edir. Lakin çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Naxçıvan qəzası və Zaqatala dairəsi üzrə statistik məlumatlar mənbələrdə bütün illər üzrə öz əksini tapmadığı üçün və yaxud şərab aksizi ilə tütün aksizi birlikdə verildiyinə görə dəqiq rəqəmələr əldə etmək mümkün olmamışdır.

Onu da qeyd etmək lazımdır ki, şərab məhsullarının yerlərdə istehlakı və aksiz vergisinə cəlb edilmiş hissəsi haqqındakı statistik rəqəmləri mütləq dəqiq rəqəmlər kimi qəbul etmək doğru deyildir. Belə ki, qüvvədə olan «Qaydalar» bağ sahiblərinə üç vedrədən az olan şərab məhsullarını xüsusi şəhadətnamə olmadan satışa çıxarmağa icazə verdiyi üçün həmin məhsullar aksiz nəzarətçilərinin qeydiyyatından kənarda qalırdı.

Şərabçılıq sənayesində istehsal edilən spirtin dərəcəsi aksiz vergisinin predmetini təşkil etdiyi üçün 1887-ci ildə qəbul edilmiş «Qaydalar»ın qüvvəyə minməsindən sonra, 1880-1900-cu illərdə Şimali Azərbaycanda spirt istehsalının ümumi mənzərəsi maraq doğurur.

***Cədvəl №16***

1888-1900-cu illərdə Şimali Azərbaycanda spirt istehsalı
(dərəcə ilə)
[Cədvəl aşağıdakı mənbə əsasında hazırlanmışdır:
181; 183; 187]

| İllər | Yelizavetpol quberniyası | | | Bakı quberniyası | | | Zaqatala |
|---|---|---|---|---|---|---|---|
| | cəmi | üzüm | tut | cəmi | üzüm | tut | tut |
| 1888 | 4.416.468 | 1.072.137 | 3.389.331 | 504.046 | 501,938 | 2.108 | 188,475 |
| 1889 | 8.489,974 | 3.690,021 | 4.799,953 | 524,542 | 522,135 | 2,407 | 111,956 |
| 1890 | 13.152,748 | 5.080,064 | 8.072,684 | 868,453 | 857,581 | 10,872 | 167,237 |
| 1891 | 10.984,921 | 6.526,395 | 4.458,563 | 1.044,532 | 1.035,629 | 8,903 | 406,338 |
| 1892 | 11.746,340 | 5.040,881 | 6.705,458 | 1.230,018 | 1.188,817 | 41,101 | 1.078,204 |
| 1893 | 14.145,332 | 6.061,680 | 8.083,652 | 1.910,731 | 1.892.377 | 18.354 | 1.327,226 |
| 1894 | 14.610,749 | 7.304,990 | 7.305,757 | 2.807,726 | 2.774,063 | 33,663 | 1.197,179 |
| 1895 | 9.591,732 | 4.132,963 | 5.448,927 | 3.235,875 | 3.204,815 | - | 310,579 |
| 1896 | 7.416,045 | 914,724 | 6.493,636 | 1.421,074 | 1.401,558 | 15,468 | 44,453 |
| 1897 | 10.992,157 | 3.390,583 | 7.593,164 | 2.898,243 | 2.877,737 | 13,384 | 185,983 |
| 1898 | 9.366,600 | 3.665,308 | 5.698,772 | 3.117,643 | 3.081,682 | 29,006 | 219,444 |
| 1899 | 8.371,550 | 4.501,943 | 3.845,444 | 3.131,323 | 3.112,391 | 10,576 | 397,495 |
| 1900 | - | 2.759,933 | 4.522,390 | - | 3.497,719 | 10,166 | 241,472 |

Cədvəldən göründüyü kimi Yelizavetpol və Bakı quberniyalarında üzüm və tutdan, Zaqatala dairəsində isə yalnız tutdan spirt istehsalı geniş yayılmışdı. Spirt istehsalının ümumi həcmi təkcə dövlətin tədbirləri və istehsal metodlarından deyil, həmçinin məhsul yığımının səviyyəsindən asılı idi. Istehsal edilmiş spirtin həcminin müxtəlif illər üzrə qalxıb-enməsi məhsuldarlığın səviyyəsindən, yoluxucu xəstəliklərin yayılması, emal prosesinə daxil olmuş məhsulun miqdarından asılı olmuşdu. Ümumi mənzərənin tez-tez dəyişməsinin səbəblərini izah edən aksiz idarəsinin rəisi L.L.Perşke qeyd edirdi ki, 1895-ci ildə istehsal edilən üzümün 39%-i emala cəlb edilmiş və 442 min vedrə şərab istehsal edilmişdisə, 1897-ci ildə məhsulun 56%-i emal sənayesinə daxil olmuş və 938 min vedrə şərab istehsal olunmuşdu [187, s. 107]. Statistik məlumatlara görə 1899-cu ildə Cənubi Qafqazda istehsal edilmiş spirtin 12%-i Bakı, 17,7%-i Yelizavetpol quberniyasının payına düşürdü [187, s. 117-119].

Aksiz vergisinin tam həcmdə ödənilməməsi nəticəsində xəzinə ciddi vəsait itkisi ilə üzləşirdi. 1891-ci ildə spirtin hər dərəcəsinə 5 qəpik aksiz qoyulmuş, hər dərəcəyə görə xəzinəyə 3 qəpik vergi daxil olmuşdu. 1894-cü ildə isə aksiz vergisi bir dərəcə üçün 7 qəpiyə qaldırılsa da xəzinəyə ödənilmiş vergi bir dərəcə üçün orta hesabla 2,46 qəpik təşkil etmişdi [187, s. 58]. Aksiz vergisi borcları XIX əsrin sonu və XX əsrin əvvəllərində də yüksələn xətt üzrə davam etmişdi. Xəzinənin itkiləri təkcə bununla məhdudlaşmırdı. Belə ki, L.L.Perşkenin qeyd etdiyi kimi, heç də həmin yüksək keyfiyyətli olmayan və ucuz yerli spirt daha yüksək aksiz gəlirləri verən buğda spirtinin istehsalına güclü zərbə vurmuşdu. Statistik məlumatlara görə, Cənubi Qafqaza Rusiyadan 1887-ci ildə 14 mln., 1888-ci ildə 12 mln., 1890-cı ildə 9,3 mln., 1893-cü ildə 4,7 mln. dərəcə buğda spirti gətirilmişdi [187, s. 60].

1887-1893-cü illərdə Rusiyadan Cənubi Qafqaza gətirilən buğda spirtinin həcmi 40 mln. dərəcə azalmış, bu müddət ərzində isə Cənubi Qafqazdan Rusiyaya 17,1 mln. dərəcə üzüm və tut spirti göndərilmişdi [187, s. 60]. 1887-1893-cü illərdə meyvə spirtinin hər dərəcəsinin üzərəinə 5-7 qəpik, buğda spirtinin dərəcəsinə isə 9-10 qəpik aksiz qoyulduğunu nəzərə alsaq dövlət xəzinəsinin nə qədər itirdiyini təsəvvür etmək olar. Buğda spirti ilə müqayisədə meyvə-giləmeyvə spirti üzərəinə güzəştli aksiz tariflərinin qoyulması yerli istehsalın genişlənməsi və nəticədə daha çox aksiz gəlirlərinin əldə edilməsi məqsədi daşısa da bu külli miqdarda aksiz borclarının yaranması nəticəsində istənilən nətəicəni verməmişdi.

1896-cı ilin dekabrında təsdiq edilən yeni qaydalar bağ sahiblərinin şərab istehsalına güclü zərbə vurdu [219, s. 347]. Belə ki, 1887-ci il 15 iyun tarixli qanunla bağ sahiblərinə verilmiş imtiyazlar – aksiz güzəştləri ləğv edildi. Beləliklə, XIX əsrin II yarısında, daha dəqiq desək 1873-1896-cı illər ərzində çarizmin aksiz siyasətində üç mərhələ aydın görünür. 1873-1887-ci illərdə sənaye şərabçılığını himayə edən hökumət 1887-1896-cı illərdə kustar istehsala qayğı göstərirdisə, 1896-cı ildən

yenidən sənaye şərabçılığını müdafiə etmək siyasətinə qayıtmışdı.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda araq, spirt və şərab istehsalı yüksələn xətt üzrə inkişaf edirdi. Təbii ki, aksiz vergilərinin mütəmadi olaraq artırılması nəticəsində çar hökuməti şərab, araq və spirt üzərinə qoyulmuş aksiz vergisindən böyük miqdarda gəlir götürürdü. Prof.T.T.Vəliyev çarizmin aksiz siyasətinin maraqlı bir məqamına toxunaraq qeyd edir ki, Şimali Azərbaycanda Rusiya imperiyasının iyirmi şəhərinə şəraba vurulmaq üçün göndərilən rektifikasiya spirtindən aksiz vergisi alınmırdı [100, s. 172]. Imperiyaya daha çox spirt göndərilməsi məqsədini güdən bu siyasət şərab istehsalçılarını həvəsləndirirdi. Müəllif göstərir ki, yalnız 1905-ci ildə Rusiyaya göndərilmiş spirt müqabilində Yelizavetpol quberniyası üzrə 94.146 rubl, Bakı quberniyası üzrə 57514 rubl aksiz vergisi alınmışdı [100, s. 172]. T.T.Vəliyevin zəngin arxiv və statistik materiallar əsasında tərtib etdiyi cədvəllər [100, s. 167-175] Şimali Azərbaycanda 1900-1914-cü illərdə istehsal edilən şərab, spirt, araq və konyak spirtinin həcmini dolğun əks etdirir.

Tərtib edilmiş cədvəllər əsasında apardığımız hesablamalar göstərir ki, 1900-1914-cü illər ərzində Şimali Azərbaycanda 336.903.791 dərəcə şərabı, rektifikasiya spirti, üzüm, tut arağı və konyak spirti istehsal edilmişdi. Orta hesabla il ərzində Şimali Azərbaycanda 24.064.556,5 dərəcə şərab məhsulları istehsal edilirdi. Şərabçılıq sənayesinə tətbiq edilmiş qaydalara əsasən istehsal edilmiş bir dərəcə məhsuldan 6 qəpik aksiz vergisi və 2,5 qəpik gerb rüsumu vergisi alınırdı. Yuxarıda göstərilən cədvəllərdən əldə etdiyimiz statistik rəqəmlər əsasında apardığımız hesablamalar göstərir ki, 1900-1914-cü illərdə çar hökuməti Şimali Azərbaycanda istehsal edilmiş şərab məhsullarından orta hesabla ildə 2.040.387 r. 30 qəpik aksiz və

gerb rüsumu vergisi əldə edirdi.*

***Cədvəl №17***

* Rusiyaya göndərilən və aksiz vergisindən azad edilən təmizlənmiş spirt bu məbləğdən çıxılmamışdır.

XIX əsrin II yarısında çar hökumətinin Şimali Azərbaycan iqtisadiyyatının aksiz vergisi tətbiq etdiyi sahələrindən biri də tütün sənayesi olmuşdu. XIX əsrin II yarısında tütün istehsalı Şimali Azərbaycanın bütün bölgələrində yayılsa da tütün fabrikləri əsasən Bakı və Nuxa şəhərlərində cəmlənmişdi. 1881-ci ildə Bakıda 4, 1883-1887-ci illərdə 3, 1888-1899-cu illərdə isə 2 tütün fabriki fəaliyyət göstərirdi [198, s. 142-143]. 1898-ci ildə Nuxada üçüncü tütün fabriki açılmışdı. Bakı və Nuxa şəhərlərindən başqa, XIX əsrin II yarısında Şamaxı, Yelizavetpol, Şuşa və Quba şəhərlərində də istehsal gücünə görə xırda tənbəki fabrikləri mövcud idi.

Statistik məlumatlar göstərir ki, 1879-1884-cü və 1899-1900-cü illərdə Şamaxıda 1, 1891-1897-ci illərdə 3, 1873-1890-cı illərdə Yelizavetpol şəhərində bir, 1873-1876-cı illərdə Şuşada iki, Quba şəhərində isə 1888-1890-cı illərdə iki, 1891-1894-cü illərdə isə bir tütün fabriki fəaliyyət göstərirdi [219, s. 382-384]. Akad. Ə.S.Sumbatzadənin tərtib etdiyi cədvəldə [219, s. 378] (bax: cədvəl №18) Bakı və Nuxa tütün fabriklərinin istehsal gücü öz əksini tapmışdır.

Statistikaya görə, Mirzəbekyan qardaşlarının fabriki 1889-1890-cı illərdə 30.852 min ədəd I növ, 16.517 min ədəd II növ papiros (bunun üçün 2345 pud tütün sərf edilmişdi), 4567 pud tənbəki, P.Mejlumov və A.Ter-Qriqoryevin fabriki isə 3000 pud tənbəki və papiros istehsal etmişdi [126, s. 139; 219, s. 379].

***Cədvəl №18***

Bakı və Nuxa tütün fabriklərinin istehsal gücü (rublla)

| Illər | Bakı şəhəri | | Illər | Nuxa şəhəri | |
|---|---|---|---|---|---|
| | Müəssisələrin sayı | Istehsal gücü (rublla) | | Müəssisələrin sayı | Istehsal gücü (rubulla) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1881 | 4 | 88.000 | 1876 | 1 | 3700 |
| 1883 | 3 | 100.000 | 1878 | 1 | 8300 |
| 1884 | 3 | 100.000 | 1879 | 2 | 15800 |
| 1885 | 3 | 376.694 | 1881 | 2 | 33240 |
| 1886 | 3 | 100.000 | 1882 | 2 | 27000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 1887 | 3 | 326.694 | 1883 | 2 | 27500 |
| 1888 | 2 | 326.619 | 1884 | 2 | 35000 |
| 1889 | 2 | 397.046 | 1885 | 2 | 17100 |
| 1890 | 2 | 644.000 | 1886 | 1 | 31537 |
| 1891 | 2 | 600.750 | 1887 | 1 | 34000 |
| 1892 | 2 | 633000 | 1888 | 1 | 3500 |
| 1893 | 2 | 460.000 | 1889 | 2 | 47632 |
| 1894 | 2 | 505.000 | 1890 | 2 | 33794 |
| 1897 | 2 | 1.079.000 | 1892 | 2 | 50.000 |
| 1899 | 2 | 1.200.000 | 1894 | 2 | 54.600 |
| | | | 1895 | 2 | 55260 |
| | | | 1897 | 2 | 54.860 |
| | | | 1898 | 3 | 96.000 |

Akad.Ə.S.Sumbatzadə Şamaxı, Yelizavetpol, Şuşa və Quba şəhərlərində olan tütün fabriklərinin istehsal gücü haqqında statistik məlumatları nəşr etdirmişdir [219, s. 382-384].

***Cədvəl №19***

Şamaxı, Yelizavetpol, Şuşa və Quba şəhərlərində olan
tütün fabriklərinin istehsal gücü

| Illər | Yelizavetpol | | Illər | Şamaxı | | Illər | Şuşa | | illər | Quba | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | müəssələrin sayı | istehsal gücü (rublla) | | müəssələrin sayı | istehsal gücü (rublla) | | müəssisələrin sayı | istehsal gücü (rublla) | | müəssisələrin sayı | istehsal gücü (rublla) |
| 1873 | 1 | 627 | 1879 | 1 | 8000 | 1873 | 2 | 8000 | 1888 | 2 | 20.000 |
| 1876 | 1 | 1300 | 1884 | 1 | 3000 | 1874 | 2 | 10.000 | 1889 | 2 | 17200 |
| 1878 | 1 | 1325 | 1891 | 3 | 4350 | 1876 | 2 | 26000 | 1890 | 2 | 16064 |
| 1879 | 1 | 1297 | 1893 | 3 | 3400 | | | | 1891 | 1 | 1000 |
| 1881 | 1 | 4000 | 1894 | 3 | 12000 | | | | 1892 | 1 | 10.000 |
| 1882 | 1 | 3500 | 1897 | 3 | 10590 | | | | 1893 | 1 | 1500 |
| 1883 | 1 | 2982 | 1899 | 1 | 2800 | | | | 1894 | 1 | 1500 |
| 1884 | 1 | 4960 | 1900 | 1 | 2500 | | | | | | |
| 1885 | 1 | 5000 | | | | | | | | | |
| 1886 | 1 | 5000 | | | | | | | | | |
| 1887 | 1 | 12924 | | | | | | | | | |
| 1888 | 1 | 14760 | | | | | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1889 | 1 | 14759 | | | | | | | | | |
| 1890 | 1 | 1200 | | | | | | | | | |

***Cədvəl №20***

Çar hökuməti Şimali Azərbaycanda tütün məhsulları üzərinə aksiz vergisi qoymaqla külli miqdarda gəlir əldə edirdi. Cənubi Qafqaz aksiz idarəsinin rəisi L.L.Perşkenin XIX əsrin 90-cı illərinin sonunda Bakı və Nuxa tütün fabriklərindən alınan aksiz vergisinin məbləği haqqında verdiyi statistik məlumatları maraq doqurur [198, s. 142-143].

L.L.Perşkenin məlumatına əsasən XIX əsrin 90-cı illərinin sonunda Şamaxıda Həsənovlara və Q.Abdullayevə məxsus iki tənbəki fabriki fəaliyyət göstərirdi. Statistik məlumatlara görə Həsənovların fabriki 1897-ci ildə 754 pud tütün məmulatı üçün 2680 rubl, 1898-ci ildə isə 907 pud məhsul üçün 2678 rubl aksiz vergisi ödəmişdi [198, s. 142-143]. Həsənovların fabriki yüksək aksiz vergisi nəticəsində 1899-cu ildə öz fəaliyyətini dayandırmalı olmuşdu. L.L.Perşkenin məlumatına görə Q.Abdullayevə məxsus olan fabrik 1897-ci ildə 678 pud, 1898-ci ildə 1031 pud, 1899-cu ildə 1271 pud, 1900-cu ildə 1502 pud tənbəki məmulatı istehsal etmiş və müvafiq olaraq xəzinəyə 1897-ci ildə 2102 rubl, 1898-ci ildə 3274 rubl, 1899-cu ildə 3950 rubl, 1900-cu ildə isə 5971 rubl aksiz vergisi ödəmişdi [198, s. 142-143]. Tütün məhsullarından yüksək aksiz vergisi alınması nəticəsində tütün fabriklərinin xəzinə qarşısında böyük həcmdə vergi borcları qalırdı. Bütün bu əngəllərə baxmayaraq, XX əsrin əvvəllərində Şimali Azərbaycanda tütün və tütün məmulatlarının istehsalı artmaqda davam edirdi. Prof.T.Vəliyev göstərir ki, tütün məmulatlarının hər pudundan 3-4 rubl aksiz vergisi alınırdı [198, s. 142-143]. Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar xəzinənin artmaqda olan xərəclərini ödəmək yollarından biri kimi çar hökuməti bəzi sənaye sahələrindən alınan aksiz vergisini yenidən qaldırmaq siyasətinə əl atdı. 1914-cü il noyabrın 11-də tütün məmulatlarından alınan aksiz vergisi də yüksəldilmişdi [198, s. 188]. Müharibə dövründə tütün məmulatına tələbatın artması istehsalın artmasına səbəb olmuşdu. Prof.T.T.Vəliyevin zəngin arxiv materialları və statistik məlumatlar əsasında tərtib etdiyi cədvəl [198, s. 188] (bax: cədvəl №21) 1900-1914-cü illərdə Şimali Azərbaycanda tənbəki istehsalının həcmi və onun inkişaf dinamikası haqqında əyani təsəvvür yaradır.

Cədvəldə yalnız tənbəki istehsalının həcmi öz əksini tapmışdır. Lakin Şimali Azərbaycanın tütün fabrikləri tənbəki istehsalı ilə yanaşı həm də papiros istehsal edirdi. Prof. T.T.Vəliyevin yazdığına görə, 1900-1912-ci illərdə Şimali Azərbaycanda tütün emalı müəssisələrinin istehsal gücü 1,5 dəfə artmışdı [100, s.188].

***Cədvəl № 21***

XIX əsrin sonunda Şimali Azərbaycanın tütün fabrikləri təxmini hesablamalara görə 700 min rubl aksiz vergisi ödəmişdi [219, s. 380-384]. XX əsrin əvvəllərində emal müəssisələrinin gücünün 1,5 dəfə və aksiz dərəcələrinin artmasını nəzərə alsaq, Şimali Azərbaycanın tütün məmulatları istehsal edən müəssisələrindən alınan aksiz vergisinin məbləği təxmini hesablamalara görə 1,8-2 mln. rubla bərabər olmuşdu.

XIX əsrin II yarısında çar hökumətinin aksiz vergisinə cəlb etdiyi sənaye sahələrindən biri də duz istehsalı sahəsi olmuşdu. Məlumdur ki, Şimali Azərbaycanda hələ qədim dövrlərdən başlayaraq Abşeron yarmadası və Kür sahillərində narın, şor, Naxçıvanda isə daş duz istehsalı geniş yayılmışdı. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Şimali Azərbaycanın duz mədənləri bəzi dövrlərdə xəzinənin ixtiyarında olmuş və əksər hallarda isə iltizama verilmişdi.

XIX əsrin II yarısında Abşeron göllərindən duz çıxarılması B.Şahqedanov, Mnasakanova [219, s. 74], XX əsrin əvvəllərində isə məşədi Əbdüləziz Kərimova [100, s. 74] və başqalarına icarəyə verilmişdi. Statistik məlumatlara əsasən Bakı göllərindən 1879-cu ildə 618, 371 pud, 1884-cü ildə 617 min pud, 1888-ci ildə 405.950 pud, 1897-ci ildə 507.640 pud [219, s. 226-230], Cavad qəzasından isə 1899-cu ildə 209.030 pud, 1900-cu ildə 271.265 pud duz istehsal edilmişdi [219, s. 231].

Naxçıvanın daş duz mədənləri 1856-1859-cu illərdə Makar Markuzova, 1859-1867-ci illərdə Mehdi bəy Ağa Hüseyn oğluna, XIX əsrin 60-80-cı illərində I.Canpoladova, 80-cı illərin II yarısından etibarən X.Avanesov və S.Xaçaturova [219, s. 239], 1898-1907-ci illərdə yenidən I.Canpoladova icarəyə verilmişdi [219, s. 239]. Naxçıvanın duz mədənlərinin bir hissəsi xəzinənin idarəsi altında qalırdı. Araşdırmalar göstərir ki, dövlət xəzinəsi Naxçıvan duz mədənlərinin iltizamından XIX əsrin 60-70-ci illərində ildə 22.500 rubl, 1874-cü ildən 80-ci illərin ortalarına qədər isə 32 min rubl gəlir götürürdü [219, s. 239]. Statistik məlumatlara görə Naxçıvan duz mədənlərindən 1860-cı

ildə 203.800, 1861-ci ildə 233 min, 1863-ci ildə 168.648, 1865-ci ildə 120.600, 1866-cı ildə 161.456, 1867-ci ildə 313.000, 1868-ci ildə 161.456, 1869-cu ildə 161 min, 1870-ci ildə 174.264, 1872-ci ildə 136125, 1873-cü ildə 607 min, 1874-cü ildə 130 min, 1875-ci ildə 108 min, 1879-cu ildə 104.400 pud duz istehsal edilmişdi [219, s. 238]. 1863-cü ildən etibarən duz istehsalının kəskin şəkildə azalmağa başlamışdır ki, bu da birbaşa çarizmin duz istehsalını aksiz vergisinə cəlb etməsi ilə bağlı olmuşdu. Çar hökuməti 1862-ci il mayın 14-də duz istehsalı üzərinə aksiz vergisi qoydu [163, s. 76]. Qanuna əsasən dövlət tədricən xəzinə tərəfindən duz istehsalına son qoyaraq duz istehsalını xüsusi mülkiyyətə verməli idi və xəzinəyə, xüsusi mülkiyyətə məxsus müəssisələrdə ayrı-ayrı şəxslər tərəfindən istehsal edilən xörək duzuna aksiz vergisi qoyulurdu. 1865-ci ildə çar hökuməti mal-qaranın yemlənməsində istifadə olunan duzları aksiz vergisindən azad etmişdi [219, s. 238]. Lakin 1868-ci ildə duzun hər pudundan alınan aksiz vergisinin 30 qəpiyə qaldırılması duz istehsalına ağır zərbə vurdu [219, s. 238]. Məhz bu siyasətin nəticəsi idi ki, 1867-ci ildə Naxçıvan mədənlərində 313 min pud duz istehsal edilmişdisə, 1868-ci ildə bu rəqəm 161.456 puda enmiş və XIX əsrin 80-ci illərinin əvvəllərinə qədər duz istehsalında artım baş verməmişdi [219, s. 238]. Duz istehsalında oxşar mənzərə bütün Qafqazda müşahidə olunurdu. Belə ki, 1870-ci ildə Qafqazda 1,7 mln. pud duz istehsal edilmişdisə, 1880–ci ildə bu rəqəm 1.024 mln. puda enmişdi [163, s. 79-80]. 1873-cü ildə Cənubi Qafqazda aksiz sisteminin qüvvəyə minməsi ilə əlaqədar olaraq çar hökuməti Şimali Azərbaycanda istehsal olunan duz üzərinə də vergi qoymağa başladı. Statistik məlumatlar əsasında tərtib etdiyimiz cədvəl duz aksizinin Cənubi Qafqazda qüvvədə olduğu dövrdə (1873-1881-ci illər) çar hökumətinin Şimali Azərbaycanda duz mədənlərindən əldə etdiyi aksiz gəlirləri haqqında dolğun təsəvvür yaradır.

*Cədvəl[*] №22*

Duz aksizindən alınan verginin məbləği (min rublla)

| Illər | Bütün Rusiya üzrə yığılan duz aksizi | Cənubi Qafqaz üzrə yığılan duz aksizi | Şimali Azərbaycan üzrə yığılan duz aksizi |
|---|---|---|---|
| 1873 | 11.682 | - | - |
| 1874 | 11.671 | 130.7 | 76.7 |
| 1875 | 11.284 | 107.3 | 57.3 |
| 1876 | 11.447 | 125.3 | 54.3 |
| 1877 | 10.164 | 175.4 | 59.8 |
| 1878 | 10.057 | 232.7 | 103.6 |
| 1879 | 13.408 | 187.6 | 85.2 |
| 1880 | 13.598 | 183.9 | 78.3 |
| 1881 | 1.208 | 94.9 | 33.5 |

Göründüyü kimi, Şimali Azərbaycandan dövlət xəzinəsinə daxil olmuş duz aksizinin rekord həcmi 1878-ci ildə qeydə alınaraq 103,6 min rubla çatmış, sonrakı illərdə isə tənəzzül prosesi baş vermişdi. XIX əsrin 70-ci illərində duz aksizinin artması duz istehsal həcminin artması hökumətin yeritdiyi iqtisadi siyasətlə bağlı olmuşdu. Belə ki, 1876-cı ildən qüvvəyə minmiş Cənubi Qafqazda duz mədənlərinin açıq hərrac yolu ilə icarəyə verilməsinin duz istehsalının inkişafına müsbət təsiri şəksizdir.

Lakin XIX əsrin 70-ci illərinin sonundan etibarən Şimali Azərbaycandan toplanılan duz aksizinin həcmi kəsgin şəkildə aşağı düşərək 1881-ci ildə 33,5 min rubla qədər azalmışdı. Rusiya imperiyası üzrə isə duz aksizinin mütəmadi olaraq artdığı bir dövrdə duz üzərinə qoyulan aksizin gözlənilmədən ləğv edilməsi maraq doğurur. Tədqiqatçıların fikrincə, duz aksizinin ləğv edilməsinin əsas səbəbi XIX əsrin 70-ci illərinə nisbətən 1880-cı ildə imperiya üzrə duz istehsalının azalması ilə

[*] Cədvəl aşağıdakı mənbələr əsasında hazırlanmışdır: Obzor Bakinskoy qubernii za 1873-1881 qq.; Otçet departamenta neokladnıx sborov za 1875-1882 qq.

bağlı olmuşdu [163, s. 79-80].

Məhz buna görə də, 1881-ci ilin yanvarın 1-dən etibarən duz üzərinə qoyulmuş aksiz vergisi ləğv edilmişdi. Duz aksizinin ləğvi dövlət xəzinəsinin hər il orta hesabla 11-13 mln. rubl itirməsinə gətirib çıxarmışdı. Lakin dövlət bu itgini istehsalın digər sahələrinə tətbiq edilən vergilərin artırılması ilə aradan qaldırmaqla doldurmağa cəhd göstərirdi.

1879-cu ildə spirtli içkilərin üzərinə əlavə vergilərin qoyulması, 1881-ci ildə buğda spirtinə tətbiq edilən aksizin artırılması, 1882-ci ildə isə tütün vergisi üzrə yeni nizamnamənin qəbul edilməsi bu qəbildən olan tədbirlər sırasına daxildir.

Beləliklə, XIX əsrin II yarısı – XX əsrin əvvəllərində xəzinə gəlirlərinin artırılmasına yönəlmiş aksiz siyasəti çarizmin uğursuz iqtisadi tədbirlərindən biri olmuş və sənayenin ayrı-ayrı sahələrinin inkişafına müəyyən əngəllər törətmişdi. Çarizmin 1881-ci ildə duz aksizinin ləğv etməsi dolayısı yolla olsa da, aksiz siyasətinin uğursuz iqtisadi tədbir olmasının hökumət tərəfindən etiraf olunması demək idi.

# NƏTICƏ

XIX əsrin II yarısı – XX əsrin əvvəlləri Şimali Azərbaycanın yeni tarixinin son dərəcə mühüm və maraqlı dövrlərindən biridir. Bu dövr Şimali Azərbaycan tarixində yeni istehsal münasibətlərinin-kapitalizmin formalaşması və sürətli inkişaf yoluna qədəm qoyması ilə xarakterizə olunur. XIX əsrin 30-80-cı illərində Rusiya imperiyasında baş vermiş sənaye çevrilişi imperiyanın ucqarlarında olan müstəmləkələrə, o sıradan Şimali Azərbaycana da təsirsiz ötüşmədi. Sənaye çevrilişinin başlanması, yeni istehsal münasibətlərinin daha dərinə nüfuz etməsi Şimali Azərbaycanın ümumrusiya bazarına cəlb olunmasına səbəb oldu. Şimali Azərbaycanın zəngin təbii sərvətləri və iqtisadi potensialı imperiyanın əsas xammal mənbələrindən birinə çevrildi. Rusiyanın fabrik-zavod sənayesinin əsas energetika bazası rolunu oynayan neft Şimali Azərbaycan sənayesinin aparıcı sahəsinə çevrildi. Neft sənayesinin inkişafında əsas əngəllərdən olan neft mədənlərində kəndlilərin məcburi əməyinin və iltizam sisteminin ləğvi neft sənayesinin çoşğun inkişafına gətirib çıxardı. XIX əsrin II yapısında Şimali Azərbaycanın neft sənayesinə xarici kapital axınının güclənməsi təkcə neft istehsalının yüksəlişinə deyil, həm də neft emalı və neftlə bağlı olan digər sənaye sahələrinin (kimya, mexaniki istehsal və s.) genişlənməsinə təkan verdi. XIX-XX əsrlərin ayrıcında Şimali Azərbaycan neft istehsalına görə dünyada birinci yerə çıxmış, lakin XX əsrin əvvəlində başlanmış iqtisadi böhran neft sənayesinin sonrakı inkişafına mənfi təsir göstərmişdi. Bütün bunlara baxmayaraq, Şimali Azərbaycan neft sənayesi imperiyanın süqutuna qədər iqtisadiyytın aparıcı sahəsi olmuşdu.

Çarizmin Şimali Azərbaycanın iqtisadi inkişafına

münasibətdə müstəmləkəçi siyasətinə baxmayaraq (iqtisadiyyatın birtərəfli – yalnız neft sənayesi əsasında qurulması) XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda dağ-mədən sənayesinin digər sahələri (filiz çıxarılması, duz emalı), ipəkçilik, şərabçılıq, balıqçılıq,pambıqçılıq, tütünçülük, yeyinti və yüngül sənayenin ayrı-ayrı sahələri də sürətli inkişaf yoluna çıxmışdı. Bu dövrdə Şimali Azərbaycan sənaye potensialının əhəmiyyətli hissəsi qəzaların payına düşürdü. XX əsrin əvvvəllərində Şimali Azərbaycan sənayesinin ümumi daxili məhsulunda qəzaların payı 35-42%-ə bərabər olmuşdu [98, s. 46-47]. 1913-cü ildə Şimali Azərbaycan qəzalarında istehsal edilən ümumi daxili məhsulun (375 mln. rubl) 144 mln.rublu (38,6%) qəzaların sənayesi, 731 mln.rublu (61,4%) isə kənd təsərrüfatının payına düşürdü [138, s. 15]. Qeyd edilən statistik rəqəmlər tarixi ədəbiyyatda özünə yer tapmış Şimali Azərbaycan qəzalarında patriarxal-feodal qaydalarının hökm sürməsi fikrinin əsassız olmasını sübut edir.

Tədqiq edilən dövrdə Şimali Azərbaycan iqtisadiyyatının mühüm sahələrindən biri də kənd təsərrüfatı idi. Ənənəvi olaraq Şimali Azərbaycanın kənd təsərrüfatının aparıcı hissəsini əkinçilik və maldarlıq təşkil edirdi. Bununla yanaşı, kənd təsərrüfatında ipəkçilik, tütünçülük, pambıqçılıq, bağçılıq təsərrüfatının ayrı-ayrı sahələrinin və s. rolu böyük idi. Şimali Azərbaycanın ümumrusiya və dünya bazarlarına cəlb edilməsi (Bakı-Tiflis, Bakı-Petrovsk dəmir yol xətləri və s.) kənd təsərrüfatında əmtəə-pul münasibətlərinin, muzdlu əməyin tətbiqi prosesini gücləndirmiş, kənd təsərrüfatı məhsulları daha çox əmtəə və sənaye xarakteri almağa başlamışdı. 1913-cü ildə Şimali Azərbaycanda istehsal edilmiş 737 mln.rublluq ümumi daxili məhsulun 506 mln.rublunun (68,7%) kənd təsərrüfatının payına düşməsi Şimali Azərbaycanın artıq sənaye-aqrar ölkəsinə çevrilməsindən xəbər verirdi [138, s. 14-15].

Şimali Azərbaycan kəndliləri əsasən iki kateqoriyaya bölünmüşdü. Ağa və bəy torpaqlarında yaşayanlar sahibkar

kəndliləri, xəzinəyə məxsus torpaqlarda yaşayanlar isə dövlət kəndliləri kateqoriyasına şamil edilmişdi. Hər iki kateqoriyadan olan kəndlilərin sayını dəqiq müəyyənləşdirmək məmkün olmasa da Şimali Azərbaycan kəndlilərinin mütləq əksəriy-yətinin, təxminən 68%-nin dövlət, 32%-nin isə sahibkar kəndlilərindən ibarət olması şəksizdir.

Şimali Azərbaycan kəndlilərinin əsas gəlir mənbəyini onların istifadəsində olan torpaq sahələri təşkil edirdi. XIX əsrin 80-ci illərinə qədər çar hökumıti dövlət kəndlilərinin taleyi ilə maraqlanmamış və yalnız dövlət kəndliləri Dövlət Əmlak nazirliyinin ixtiyarına verildikdən sonra hazırlanmış 2 iyun 1887-ci il və 1 may 1900-cu il tarixli qanunlarla dövlət kəndlilərinin torpaqdan istifadə qaydalarına müəyyən aydınlıq gətirilmişdi. 1900-cu il 1 may tarixli qnuna görə dövlət kəndlilərinin sərəncamlarında olan torpaqlardan nəsli istifadə hüququ verilmişdi. 1903-cü il 21 aprel tarixli əsasnamə dövlət kəndlilərinin torpaq quruluşu və pay torpaqlarının mərzləşdirilməsi məsələsini daha da mürəkkəbləşdirmişdi və bu proses çarizmin süqutuna qədər başa çatdırılmamışdı.

XIX-XX əsrin əvvəllərində sahibkar kəndlilərinin torpaqdan istifadə qaydalarını müəyyənləşdirən üç əsasnamə qəbul edilmişdi. 1847-ci il 20 aprel və 28 dekabr tarixli "Əsasnamə"lərə görə 15 yaşına çatmış kişi cinsindən olan bəy və ağa kəndlilərinə 5 desyatin pay torpağı verilməsi nəzərdə tutulurdu. 1870-ci il 14 may tarixli əsasnamə bu prinsipi təsdiq etsə də, sahibkara torpağın 1/3 hissəsini mənimsəmək hüququ verməklə əslində kəndliyə 5 desyatin pay torpağı verilməsi məsələsinin reallaşdırılmasını mümkünsüz edirdi.

1912-ci il 20 dekabr qanunu ilə sahibkar kəndliləri məcburi qaydada öz pay torpaqlarını xüsusi mülkiyyətə çevirməli idilər. Qanunvericilikdə kəndlilərə 5 desyatin pay torpağının verilməsi nəzərdə tutulsa da əslində buna əməl olunmurdu. Araşdırmalar göstərir ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində həm dövlət, həm də sahibkar kəndliləri aztorpaqlıq və torpaqsızlıqdan əziyyət çəkirdilər. Bu dövrdə hər iki kateqo-

riyadan olan Şimali Azərbaycan kəndlilərinin pay torpaqlarının orta hesabla həcmi 1-2 desyatin arasında tərəddüd edirdi ki, bu da Rusiyanın mərkəzi quberniyalarına nisbətən 2 dəfə az idi. Əhalinin sayının artması, çarizmin köçürmə siyasəti, torpaq sahiblərinin və qolçomaqların müxtəlif yollarla xəzinə və kəndli pay torpaqlarını zəbt etməsi, kapitalizmin inkişafı ilə əlaqədar ictimai təbəqələşmənin güclənməsi kəndlilərin torpaqsızlaşmasının əsas səbəbləri idi.

1852-ci il yeni vergi islahatına qədər işğalçı rejimin Şimali Azərbaycanın dövlət kəndlərində həyata keçirdiyi vergi siyasəti xanlıqlar dövrünün vergi siyasətindən heç nə ilə fərqlənmirdi. 1852-ci il islahatı nəticəsində natural vergilər pul vergisi ilə əvəzlənmiş və onun həcmi kəskin şəkildə artırılmışdı. Yeni islahata görə, kəndlilər torpağın sahəsi və keyfiyyətindən asılı olaraq dövlətə torpaq töycüsü və ümumi vergi ödəməli idilər. Torpaq töycüsünün həcmi 50 qəpik – 10 rubl, ümumi vergi isə 3 rubl müəyyən edilsə də əslində onların həcmi daha artıq idi. Kəndlilər üzərinə qoyulmuş ağır vergilərdən biri də zemski vergisi idi. Çar hökumətinin 1900-cü il 12 iyun tarixli qərarı ilə tüstü pulu və torpaq vergiləri töycü vergisi ilə əvəz olunmuşdu. Töycü vergisi kəndli təsərrüfatının gəlirinin 12% həcmində müəyyən edilsə də əslində onun həcmi 25-30%-ə çatırdı. 1908-ci ildə Dumanın qərarı ilə vergilər yenidən artırılmışdı. 1887-ci ildən Qafqazın müsəlman əhalisi yzərinə hərbi vergi də qoyulmuşdu. Bundan əlavə, dövlət kəndliləri qanunvericilikdə nəzərdə tutulmayan çoxsaylı mükəlləfiyyətlər də yerinə yetirirdilər. Araşdırmalar göstərir ki, mükəlləfiyyətlərin məbləği təxminən töycü vergisinin həcminə barəbər idi.

Şimali Azərbaycanda sahibkar kəndlilərinin üzərinə qoyulmuş vergi yükü dövlət kəndlilərinə nisbətən daha ağır və dözülməz idi. Belə ki, sahibkar kəndliləri həm öz ağaları, həm də dövlət qarşısında vergi və mükəlləfiyyətlər daşımaq məcburiyyətində qalmışdılar. Sahbkar kəndlilərinin mülkədarlar qarşısındakı vergi və mükəlləfiyyətləri 1847-ci il 20 aprel, 28 dekabr və 1870-ci il 14 may tarixli kəndli "Əsasnamə"ləri ilə

tənzimlənirdi. 1847-ci il "Əsasnamə"sinə görə sahibkar kəndliləri torpaqdan istifadəyə görə malcəhət, otlaqlardan istifadəyə görə çöpbaşı, köçəri əhali pul vergisi verməli, mülkədara xidmətçi göndərmək, biyar və əvrəz kimi mükəlləfiyyətlər icra etməli idilər. 1870-ci il 14 may "Əsasnamə"si yalnız biyarın pul vergisi ilə əvəzlənməsi qaydasını tətbiq etməklə əvvəlki vergi sistemini dəyişməz saxlamışdı. 1912-ci il 20 dekabr qanunu ilə kəndlilər mülkədar qarşısında vergi və mükəlləfiyyətlər daşımaqdan azad olunsalar da, dövlətin iqtisadi asılılığına düşdülər.

Aqrar qanunvericilikdə sahibkar kəndlilərinin üzərinə qoyulan vergilərin həcmi dəqiq müəyyən edilsə də vergi məmurlarının özbaşınalıqları vəziyyəti daha da mürəkkəbləşdirirdi. Sahibkar kəndliləri həmçinin dövlətə töycü, zemski vergisi, hərbi vergi ödəməklə bərabər həm mülkədar, həm də dövlət qarşısında çoxsaylı mükəlləfiyyətləri yerinə yetirirdilər. Bu dövrdə kəndlilər üzərinə qoyulan ağır vergilərdən biri də suvarma suyundan istifadəyə görə ödənilən bəhrə vergisi idi.

Hesablamalar göstərir ki, XIX əsrin II yarısı ilə müqayisədə XX əsrin əvvəllərində kəndlilər üzərinə qoyulan vergilərin məbləği iki dəfədən çox artmışdı. Şimali Azərbaycan kəndliləri qonşu Gürcüstan və Rusiya kəndlilərindən bir neçə dəfə artıq vergi ödəyirdilər ki, bu da çarizmin Şimali Azərbaycanda yeritdiyi ayrı-seçkilik, müstəmləkəçilik siyasətinin bariz nümunəsi idi.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycan sənayesinin bəzi sahələrində (neft emalı, duz istehsalı, tütünçülük və şərabçılıq) tətbiq etdiyi vergilərdən biri də aksiz vergisi olmuşdu. Əmlak üzərinə qoyulan birbaşa vergilərdən fərqli olaraq əlavə dövlət vergisi olan aksiz tələbat malları və ya insanların fəaliyyət növləri üzərinə qoyulurdu [150, s. 6]. Çar hökumətinin getdikcə artmaqda olan büdcə kəsirlərini doldurmaq məqsədi ilə tətbiq etdiyi vergilərdən biri olan aksiz hökumətin heç də uğurlu olmayan iqtisadi siyasətinin

təzahürlərindən biri olmuşdu. Təsadüfi deyildir ki, 1872-ci ildən neft sənayesində tətbiq edilən aksiz nəticəsində neft emalı məhsullarının keyfiyyəti kəskin şəkildə aşağı düşmüş və ABŞ-da istehsal edilən məhsullarla rəqabətə davam gətirməmişdi. Məhz bunun nəticəsində 1877-ci il 6 iyun tarixli fərmanla neft emalı məhsullarına qoyulmuş aksiz vergisi ləğv edilmişdi. Aksizin ləğvindən sonra neft sənayesi sürətli inkişaf yoluna çıxmış, emal məhsullarının keyfiyyəti nisbətən yüksəlmiş, satış qiymətləri 4,5 dəfə aşağı düşmüş [166, s. 108] və Rusiyaya neft emalı məhsullarının idxalı demək olar ki, dayandırılmışdı.

XIX əsrin 80-ci illərində neft emalı sənayesinin yüksəlişini nəzərə alan çar hökuməti 1888-ci il yanvarın 1-dən yenidən aksiz vergisini bərpa etmiş və bu siyasət oktyabr çevrilişinə qədər davam etmişdi. Onu da qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində rus-yapon, I dünya müharibəsi ilə əlaqədar olaraq dövlət xəzinəsini əlavə vəsaitlə təmin etmək üçün 1905 və 1904-cü illərdə aksiz vergisinin məbləği artırılmış və aksizə cəlb edilmiş məhsulların çeşidləri də genişləndirilmişdi. Neft sənayeçiləri aksizin artırılmasını etirazla qarşılasalar da əslində aksiz siyasətinin əsas zərbəsi neft emalı məhsullarının alıcılarının üzərinə düşürdü. Belə ki, neft sənayeçiləri aksiz vergisini emal məhsullarının maya dəyərinə daxil etməklə vəziyyətdən çıxırdılar.

Çar hökumətinin Şimali Azərbaycanın duz, tütün və şərab sənayesində tətbiq etdiyi aksiz siyasəti də son nəticədə uğursuz olmuşdu. 1873-cü ildən aksiz vergisinin duz istehsalına şamil edilməsi istehsalın kəskin şəkildə aşağı düşməsinə səbəb olmuş və nəticədə çar hökuməti 1881-ci il yanvarın 1-dən duz üzərinə qoyulmuş aksiz vergisini ləğv etmək məcburiyyətində qalmışdı.

1873-cü il iyulun 1-dən şərab və tütün sənayesinə tətbiq edilən aksiz siyasəti hər iki istehsal sahəsinin inkişafı qarşısında duran başlıca maneələrdən biri olmuşdu. Çar hökumətinin gah kustar, gah da sənaye üsulu ilə şərabçılıqla məşğul olan istehsalçıları himayə etməsi aksiz siyasətinin də bu və ya digər istiqamətdə dəyişməsinə səbəb olmuş, sonda isə sənaye üsulu ilə

şərab istehsalçıları üstünlük qazanmışdılar.

Ümumiyyətlə, çar hökumətinin aksiz siyasəti neft emalı sənayesində müəyyən pozitiv nəticələr versə də (xəzinə ildə orta hesabla neft aksizindən 30 mln. rubl əldə edirdi) [174, s. 198] duz, tütün və şərabçılıq sənayesində elə də ciddi uğur gətirməmişdi.

## ISTIFADƏ OLUNMUŞ QAYNAQLAR VƏ ƏDƏBIYYATIN QISA SIYAHISI


1. ARDTA, f. 1 (Qafqaz canişininin dəftərxanası), siy. 1, iş 23.
2. ARDTA, f. 9 (Qafqaz canişini yanında Silki torpaq komissiyası – keçmiş Qafqaz ölkəsi bölgələrindəsilki torpaq işlərinin tamamlama komissiyası), siy. 92-1, iş 1849.
3. ARDTA, f. 22 (Bakı quberniyası və Dağıstan vilayətinin torpaq və dövlət əmlakı idarəsi), siy. 4, iş 861.
4. ARDTA, f. 22, siy. 4, iş 903.
5. ARDTA, f. 22, siy. 4, iş 1020.
6. ARDTA, f. 43 (Bakı xəzinə palatası), siy. 1, iş 19.
7. ARDTA, f. 43, siy. 1, iş 20.
8. ARDTA, f. 43, siy. 1, iş 21.
9. ARDTA, f. 43, siy. 1, iş 22.
10. ARDTA, f. 43, siy. 1, iş 23.
11. ARDTA, f. 43, siy. 1, iş 24.
12. ARDTA, f. 43, siy. 1, iş 25.
13. ARDTA, f. 43, siy. 1, iş 26.
14. ARDTA, f. 43, siy. 1, iş 27.
15. ARDTA, f. 43, siy. 1, iş 29.
16. ARDTA, f. 43, siy. 1, iş 30.
17. ARDTA, f. 43, siy. 1, iş 32.
18. ARDTA, f. 43, siy. 1, iş 40.
19. ARDTA, f. 43, siy. 1, iş 42.
20. ARDTA, f. 43, siy. 1, iş 43.
21. ARDTA, f. 43, siy. 1, iş 44.
22. ARDTA, f. 43, siy. 1, iş 45.
23. ARDTA, f. 43, siy. 1, iş 62.
24. ARDTA, f. 43, siy. 1, iş 63.
25. ARDTA, f. 43, siy. 2, iş 819.

26. ARDTA, f. 50 (Bakı quberniyası şəhər işləri üzrə idarəsi), siy. 1, iş 51.
27. ARDTA, f. 51 (Bakı quberniyası kəndli işləri üzrə idarəsi), siy. 1, iş 6.
28. ARDTA, f. 51, siy. 1, iş 12.
28a. ARDTA, f. 51, siy. 1, iş 19-27.
29. ARDTA, f. 51, siy. 1, iş 92.
30. ARDTA, f. 51, siy. 1, iş 225.
31. ARDTA, f. 51, siy. 1, iş 275.
32. ARDTA, f. 51, siy. 1, iş 408.
33. ARDTA, f. 71 (Bakı quberniyası və Dağıstan vilayətinin Bakı qəzasının məskunlaşdırılmış torpaqlar və töycü maddələrinə nəzarət üzrə xüsusi tapşırıqlar dövlət əmlakı məmuru), siy. 1, iş 385.
34. ARDTA, f. 92 (Qafqaz dağ-mədən idarəsi), siy. 3, iş 276.
35. ARDTA, f. 92, siy. 1, iş 389.
36. ARDTA, f. 92, siy. 1, iş 731.
37. ARDTA, f. 202 (Bakı I dərəcə gömrükxanası), siy. 1, iş 44.
38. ARDTA, f. 351 (Xüsusi dəmiryolu sahəsi silisti), siy. 2, iş 77.
39. ARDTA, f. 429 (Qafqazda 3-cü su sahəsi mühəndis-hidravlikinin dəftərxanası), siy. 1, iş 32.
40. ARDTA, f. 429, siy. 1, iş 52.
41. ARDTA, f. 429, siy. 1, iş 130.
42. ARDTA, f. 429, siy. 1, iş 165.
43. ARDTA, f. 429, siy. 1, iş 188.
44. ARDTA, f. 429, siy. 1, iş 579.
45. ARDTA, f. 429, siy. 1, iş 738.
46. ARDTA, f. 429, siy. 1, iş 1065.
47. ARDTA, f. 509 (Bakı quberniyası fabrik inspeksiyası), siy. 1, iş 137.
48. ARDTA, f. 509, siy. 1, iş 617.
49. ARDTA, f. 798 (Nobel qardaşları Neft hasilatı Birliyinin Bakı şöbəsi), siy. 2, iş 2666.
50. ARDTA, f. 798, siy. 1, 1955.

50a.Azərbaycan tarixi. 3 cilddə, II cild. Bakı, 1964, 1004 s.
51. Azərbaycan tarixi. 7 cilddə, IV cild. Bakı, 2000, 456 s.
52. Azərbaycan tarixi. 7 cilddə, V cild. Bakı, 2001, 629 s.
53. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.Əliyarlının redaktorluğu ilə. Bakı, 1996, 870 s.
52a.GRDTA, f. 1, siy. 1, iş 391.
54. GRDTA, f. 3, siy. 1, iş 4770.
55. GRDTA, f. 3, siy. 1, iş 4776.
56. GRDTA, f. 12 (Qafqaz canişini Baş idarəsinin Dövlət əmlakı Departamenti), siy. 1, iş 1582.
57. GRDTA, f. 12, siy. 1, iş 2654.
58. GRDTA, f. 12, siy. 1, iş 2658.
59. GRDTA, f. 12, siy. 10, iş 94.
60. GRDTA, f. 12, siy. 10, iş 100.
61. GRDTA, f. 12, siy. 2, iş 876.
62. GRDTA, f. 13 (Torpaq Nazirinin Qafqazdakı Müvəkkili), siy. 4, iş 7.
63. GRDTA, f. 13, siy. 4, iş 72.
64. GRDTA, f. 13, siy. 4, iş 915.
65. GRDTA, f. 13, siy. 4, iş 1515.
66. GRDTA, f. 13, siy. 7, iş 136.
67. GRDTA, f. 13, siy. 7, iş 1042.
68. GRDTA, f. 13, siy. 7, iş 1598.
69. GRDTA, f. 13, siy. 7, iş 2141.
70. GRDTA, f. 13, siy. 7, iş 2654.
71. GRDTA, f. 13, siy. 15, iş 1176.
72. GRDTA, f. 13, siy. 21, iş 1623.
73. GRDTA, f. 13, siy. 23, iş 2049.
74. GRDTA, f. 14 (Torpaq Nazirinin Qafqazdakı Müvəkkili yanında Qafqazda köçürmə sahəsinin müdiri), siy. 1, iş 29.
75. GRDTA, f. 83 (Talış qəza idarəsi), siy. 1, iş 54.
76. GRDTA, f. 113 (Qafqaz Səhmdar Cəmiyyətinin Lif mallarının emalı üzrə Fabrik anbarı), siy. 1, iş 362.
77. GRDTA, f. 153 (Hərbi müstəntiq), siy. 2, iş 491.
78. GRDTA, f. 220 (Naxçıvan karantin-gömrük ilarəsi), siy. 1, iş

90.
79. GRDTA, f. 220, siy. 1, iş 391.
80. GRDTA, f. 220, siy. 10, iş 94.
81. GRDTA, f. 391 (Bakı III Aleksandr birinci kişi gimnaziyası), siy. 1, iş 292.
82. İsmayılov M. Azərbaycanın neft sənayesində icarədarlıq sisteminin ləğv edilməsinə dair // Azərbaycan SSR EA-nın Tarix və Fəlsəfə İnstitutunun əsərləri. 2 c. Bakı, 1952, s. 75-104.
83. İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960, 240 s.
84. İsmayılov M., İbrahimov M. Azərbaycanın neft sənayesinin tarixi. Bakı, 1991, 281 s.
85. İsmayılov M., Qazıyev M. 1905-1907-ci illər inqilabı ərəfəsində və inqilab dövründə Azərbaycanda kəndli hərəkatı // Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri. X c. Bakı, 1955, s. 246-275.
86. İsmayılov M. XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiya iqtisadiyyatının Azərbaycanın təsərrüfatının inkişafına təsiri // Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri. Bakı, 1956, s. 182-253.
87. Mehdiyev Ə. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə. Bakı, 2000, 127 s.
88. Məmmədov Ə. Şimal-qərbi Azərbaycan – Zaqatala dairəsi. Bakı, Adiloğlu, 2001, 115 s.
89. Nəbiyev T.Ə. Azərbaycanda aqrar münasibətlər. Bakı, 1970, 73 s.
90. Orucov H.Y. Stolıpin irticası dövründə Azərbaycanda çarizmin aqrar siyasəti haqqında // S.M.Kirov adına ADU-nun əsərləri, 1958, №1, s. 105-118.
91. Rəsulzadə M.Ə. Zaqafqaz zemstvo smeti. Əsərləri, 1 c. 1903-1909, Bakı, ADN, 1992, s.277-280.
92. Rəsulzadə M.Ə. Zemstvo islahatı barəsində – Əsərləri, 1 c. 1903-1909. Bakı, ADN, 1992, s.251-253.
93. Rəsulzadə M.Ə. Zemstvo islahatı xüsusunda – Əsərləri, 1 c.

1903-1909. Bakı, ADN, 1992, s.249-251.
94. Sadıqov H. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda sahibkar kəndlilərinin torpaqla təminatı // S.M.Kirov adına ADU-nun əsərləri, Tarix və fəlsəfə seriyası, 1973, №3, s. 72-78.
95. Stalin İ.V. Əsərləri, 5-ci cild. M., 1947, 486 s.
96. Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı. Bakı, 1965, 112 s.
97. Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı, Elm, 1980, 152 s.
98. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977, 146 s.
99. Vəliyev T.T. XIX əsrin sonu -XX əsrin əvvəllərində Azərbaycan qəzalarında sənayenin inkişafı // Tarix və onun problemləri, 1998, №3, s. 39-48.
100. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda pambıqçılıq, mahlıc istehsalı və səhmdar təsisçiliyi // Soüialğno-gkonomiçeskie i politiçeskie predposılki soüialistiçeskoy revolöüii v Azerbaydjane. Baku, 1983, 191 s.
101. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987, 251 s.
102. Авалиани С.А. Крестьянский вопрос в Закавказье. Т. I - III. Одесса, 1912; т. IV. Тифлис, 1920, 229 с.
103. Агаян Ц.П. Крестьянская реформа в Азербайджане в 1870 г. Баку, 1958, 403 с.
104. Акты, собранные Кавказской Археографической комиссией, тт. I-XII. Под редакцией А.Берже. Тифлис, тт. I – 816 с., II – 1218 с., III – 760 с., IV – 1257 с., V – 1170 с., VI – 942 с., VII – 994 с., VIII – 1010 с., IX – 1014 с., X – 998 с., XI – 1020 с., XII – 1558 с. 1866-1904.
105. Алескеров Я.И. Землевладение и землепользование владыческих крестьян Азербайджана в пореформенный период, Б., 1982, 68 с.

106. Алияров С.С. Нефтяные монополии Азербайджана в период первой мировой войны. Баку, 1974, 230 с.
107. Амиркулиев Г.Д. Из истории возникновения и развития электролитических методов производства меди и других металлов в Азербайджане в XIX в. // S.M.Kirov adına ADU-nun əsərləri, kimya elmləri seriyası. 1967, №3, s. 93-98.
108. Антелава И.Г. Государственные крестьяне Грузии в XIX в. Т. 1. Тбилиси, 1969, 483 с.
109. Антелава И.Г. Государственные крестьяне Грузии в первой половине XIX века. Т. 2. Сухуми, 1955, 351 с.
110. Анучин С.Н. Шелкодобывающая и шелкообрабатывающая промышленность Туркестана, Азербайджана, Грузии и центрально-промышленного района СССР. М., 1925, 108 с.
111. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной Бакинской нефтяной промышленности. М., 1959, 295 с.
112. «Бакинские губернские ведомости» qəzeti, 9 iyun 1912-ci il, №23.
113. «Баку» qəzeti, 1 sentyabr, 1910-cü il, №198.
112a. Бахтадзе И.Л. Податное обложение государственных крестьян Закавказского края // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1887, т. I ч. III.
114. Бовыкин В.И. Зарождение финансового капитала в России. М., 1967, 295 с.
115. Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1913 гг. // Исторические записки, т. 12, 1941, с. 220-227.
116. Брейтерман А.Д. Медная промышленность СССР и мировой рынок. Л., 1930.
117. Велиев Т.Т. Положение шелководства в Азербайджане в эпоху империализма // Известия АН Азерб. ССР, серия истории, философии и права, 1971, №1, с. 20-31.

116а. Вестник финансов, промышленности и торговли, 1892, № 3.
118. Всеподданнейший отчёт о произведенной в 1905 году, по высочайшему повелению, сенатором Кузминским ревизии города Баку и Бакинской губернии. Баку, 1906, 686 с.
119. Гасанов И.М. Земельная политика царизма в Азербайджане в первой половине XIX века // Известия АН Азерб. ССР, 1956, №4, с. 111-122.
120. Гасанов И.М. О повинности владельческих райятов Ширванской провинции в первой половине XIX века // Azərb. SSR EA Tarixi institutunun əsərləri, XI c., 1957, s. 93-110.
121. Гасанов И.М. О производственных отношениях в государственной деревне Азербайджана в конце XIX века // ДАН Азерб. ССР, 1956, №8, с. 599-606.
122. Гасанов И.М. Повинности государственных крестьян Азербайджана в конце XIX веке // Изв. АН Азерб. ССР. Серия общественных наук, 1962, №11-12, с. 25-38.
123. Гасанов И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века. Баку, 1957, 235 с.
124. Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., т. 1, Тбилиси, 1957, 343 с.
125. Гугушвили П.В. Шелководство в Грузии и Закавказье в XIX-XX вв. Тбилиси, 1960, 107 с.
126. Гулишамбаров С.И. Обзор фабрик и заводов Бакинской губернии. Тифлис, 1890, 278 с.
127. Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894, 277 с.
128. Гусейнов Дж. Движение качагов в Азербайджане в 1900-1910 гг. 2-я книга. Баку, Элм, 2004, 255 с.
129. Гусейнов Р. Очерки революционного движения в Азербайджане. Баку, 1926, 115 с.
130. Дадашев Г.А. О некоторых вопросах развития капита-

листических отношений в сельском хозяйстве Азербайджана // Коммунист Азербайджана, 1957, №12, с. 35-43.
131. Дадашев Г.А. О социально-экономическом строе пореформенного Азербайджана: Обсуждение в Институте истории // Изв. АН Азерб. ССР, 1956, №10, с. 151-158.
132. Дадашев Г.А. О феодально-крепостнических остатках в пореформенном Азербайджане // Труды Института истории партии при ЦК КПСС. Азербайджанского филиала ИМЛ, 1957, т. 20, с. 119-151.
132а. Дьяконов И.А. Нобеловская корпорация в России
133. Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 гг. СПб., 1907, 87 с.
134. Закавказское обозрение, №88, 31 декабря 1908 г.
135. Ибрагимов М. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, Элм, 1984, 204 с.
136. Исмаилзаде Д.И. Русское крестьянство в Закавказье (30-е годы XIX – начале XX вв.). М., 1982, 311 с.
137. Исмаилов М.А. Государственные крестьяне Азербайджана в конце XIX в.
138. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв. Баку, 1964, 306 с.
139. Исмаилов М.А. Об уровне социально-экономического развития Азербайджана в начале XX века // Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку, 1983, 191 с.
140. Исмаилов М.А. Промышленность Баку в начале XX века. Баку, 1976, 153 с.
141. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982, 165 с.
142. Исторический очерк развития горного дела на Кавказе (1801-1901). Тифлис, 1901, 146 с.
143. История Азербайджана. В трёх томах, т. 2, Баку, 1960, 953 с.

144. Кавказ в сельскохозяйственном отношении в 1899 г.
145. Кавказский календарь за 1883-1917 гг. 144 с.
146. Кадер С.А. Нефть и ее дериваты. Могилёв, 1907.
147. Кадырлы А.М. Из истории развития дореволюционной Бакинской нефтеперерабатывающей промышленности. Баку, 1970, 86 с.
148. Капиташвили Н.Л. Германский капитал в Закавказье. Деятельность фирмы «Сименс и Гольско». 1860-1917. Тбилиси, 1982.
149. Карзухин И. Металлическая промышленность России в 1910 г. // Обзоры главнейших отраслей промышленности и торговли за 1910 г., СПб., 1911.
150. Каспий, 1891, 5 июня, № 119.
151. Каяндор Н. Краткое изложение условий взимания акцизных сборов в России. Ревель, 1911.
152. Клубин Н. Шелковая промышленность СССР, М., 1931.
153. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-е годы XIX в., ч. 2., Л., 1936, 478 с.
154. Краткий очерк 50-летия акцизной системы взимания налога с крепких напитков и 50-летия деятельности учреждений, заведывающих неокладными сборами. СПб., 1913.
155. Кулин Н. Шёлковая промышленность СССР. М., 1931.
156. Лаверычев Н.Я. Монополии в текстильной промышленности России (1900-1907). М., 1963, 423 с.
157. Лебедев Н. Русские текстильщики пятьдесят лет назад. М., 1927.
158. Лисичкин С.М. Очерки по истории развития отечественно-нефтяной промышленности. М.-Л., 1954, 404 с.
159. Литвинов-Фалинский В.П. Шёлковая промышленность России. СПб., 1902, 344 с.
160. Лященко П.И. История народного хозяйства, т. 2, М., 1956.
161. Майснер В.И. Сельдяной промысел на Кавказском побережье Каспийского моря. СПб., 1914.

162. Малюженко Д.М. Санитарное и экономическое состояние шёлкомотальных заводов в Елизаветпольской губернии // Вестник общественной гигиены. СПб., 1905, №1.
163. Маневский А.Н. Обзор фабрично-заводской промышленности Елизаветпольской губернии. Елизаветполь, 1909.
164. Марголиус А.М. Соляные промыслы Закавказье, их прошлое, современное состояние и возможность будущее. Тифлис, 1906.
165. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, тт. I – 823 с., II – 812, III – 512, IV – 886 с., V – 571, VI – 309, VII – 767 с. Тифлис, 1884-1887.
166. Менделеев Д.И. Нефтяная промышленность в Пенсильвании и на Кавказе. Сочинения, т. 10, М.-Л., 1949, 831 с.
167. Монополистический капитал в нефтяной промышленности России 1914-1917 гг. Документы и материалы. Л., 1973, 552 с.
168. Монополистический капитал в нефтяной промышленности России. 1883-1814. Документы и материалы. М.-Л., 1961, 795 с.
169. Мочалов В.Д. Крестьянская реформа в Закавказье // Доклады и сообщения Института истории АН СССР. Вып. 3, М., 1954, с. 46-71.
170. Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье в конце XIX в. М., 1958, 492 с.
171. Мурадалиева Е.А. Города Северного Азербайджана во второй половине XIX в. Баку, изд. Бакинского университета, 1991, 172 с.
172. Наниташвили Н.Л. Германский капитал в Закавказье. Деятельность фирмы «Сименс и Гольско». 1860-1917. Тбилиси, 1982.
173. Нардова З.А. Начало монополизации нефтяной промышленности России (1880-1890-е гг.). Л., 1974, 151 с.

174. Народное хозяйство, 1920, №8.
175. Нефтяное дело, 1905, №20-21, 7687 с.
176. Нефтяное дело, 1914, №24, 7723 с.
177. Нефтяное дело, 1916, №3; №13; №21, 7727 с.
178. Новая речь, №236, 20 октября 1910 г.
179. Новое обозрение, №44, 17 марта 1906 г.
180. О положении акцизного дела в Закавказском крае и Закаспийской области за 1899 г. СПб., 1891.
181. Обзор Бакинской нефтяной промышленности за 1903 г. ч. 1. Баку, 1904, 481 с.
182. Обзор переселенческого дела в Закавказье. Тифлис, 1913.
183. Обзоры Бакинской губернии за 1897-1911 гг., за 1902 – 144 с., 1904 – 240 с.
184. Обзоры Елизаветпольской губернии за 1897-1911 гг., 123 с.
185. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях, ч. 2, СПб., 1836, 401 с.
186. Отчёт Департамента неокладных сборов за 1886-1898 гг. СПб., 1899.
187. Отчёт заведующего акцизными сборами Закавказского края Л.Л.Першке о ходе акцизного дела в 1900 г. Петербург, 1901, 147 с.
188. Отчёт о ходе акцизного дела в Закавказском крае и Закаспийской области, за 1890-1900 гг., 73 с.
189. Отчёты Бакинского губернатора, за 1879-1899 гг., 63 с.
190. Обзоры Бакинской губернии, за 1880-1899 гг., 190 с.
191. Отчёты Елизаветпольской губернии, за 1880-1899 гг., 31 с.
192. Очерк сельского и лесного хозяйства Лянкяранского уезда Бакинской губернии. Баку, 1914, 231 с.
193. Пажитнов К.А. Очерк истории текстильной промышленной дореволюционной России. М., 1958, 425 с.
194. Пажитнов К.А. Очерк по истории Бакинской нефтедо-

бывающий промышленности. М.-Л., 1940, 190 с.
195. Памятная книжка Елизаветпольской губернии на 1910 г.
196. Памятная книжка Эриванской губернии на 1910 г. Эривань, 1910.
197. Першке Л.Л. и Першке С.Л. Русская нефтяная промышленность её развитие и современное положение в статистических данных. Тифлис, 1913.
198. Першке Л.Л. Акцизно-бандерольная система табачного налога в России и Соединенных Штатах Северной Америки. Рига, 1890.
199. Першке Л.Л. Обзор отраслей промышленности в Закавказском крае за 1901 г. (свод с 1894 г. по 1901 гг.). Тифлис, 1902, 151 с.
200. Петрович П. Хлопководство в Закавказье. Тифлис, 1912.
201. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – нач. XIX вв. Л., 1949, 384 с.
202. Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. СПб., 1913.
203. Полное собрание законов. Собр., 2-е СПб., 1847.
204. Полное собрание законов. Собр., 2-е СПб., 1874.
205. Полное собрание законов. СПб., 1857.
206. Положение акцизного дела в Закавказском крае и Закаспийской области, за 1810-1900 гг. (по годам).
206а. Раевский А. Большевизм и меньшевизм в Баку в 1904-1905 гг. Баку, 1930.
207. Рогозин В.И. Нефть и нефтяная промышленность. СПб., 1884.
208. Рштуни В. Крестьянская реформа в Армении в 1870 г. Ереван, 1947, 364 с.
209. Садыхзаде С.М. Проникновение английского капитала в нефтяную промышленность Азербайджана. Баку, 1967, 34 с.

210. Самедов В.А. Нефть и экономика России (80-е и 90-е годы XIX вв.). Баку, Элм, 1988, 166 с.
211. Сборник законов Российской империи, ч. IX, СПб., 1889.
212. Сборник сведений по Бакинской губернии. Вып. 1. Баку, 1911, 309 с.
213. Сборник статистических данных о землевладений и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис, 1899.
214. Свод материалов для изучения экономического быта государственных крестьян Закавказского края. Тт. 1-5, Тифлис, 1887-1889.
215. Сегал И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис, 1912, 154 с.
216. Семин О. Великая годовщина. Аграрный вопрос и крестьянская реформа на Кавказе. Киев, 1911, 164 с.
217. Симонович В. Нефть и нефтяная промышленность в России. Историко-статистический очерк. СПб., 1909, 240 с.
218. Смирнов В. Рыбное хозяйство в водах Азербайджана за 1880-1922 гг. Баку, 1925, 84 с.
219. Старцев Т.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку, 1901, 88 с.
220. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, □9□□, 501с.
221. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958, 361 с.
222. Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане. М., Наука, 1972, 254с.
223. Сумбатзаде А.С. Экономические предпосылки победы Великой Октябрьской социалистической революции в Азербайджане. Расцвет экономики Азербайджанской СССР. Баку, 1967.
224. Тарновский К.Н. Формирование государственно-

монополистического капитализма в России в годы первой Мировой войны. М., 1958, 263 с.
224а. Тверский Н.С. Питейные сборы и акцизная система в России. СПб., 1890.
225. Тер-Ованесов Г.Г. Некоторые особенности развития рыбной промышленности Азербайджана в XIX – начале XX вв. // Труды Института Экономики АН Азерб. ССР, т. 4, Баку, 1958, с. 87-136.
226. Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1909-1911 гг. Тифлис, 1912.
227. Труды первого Кавказского съезда сельских хозяев. 15-24 ноября 1909 г., Тифлис, 1911, 149 с.
228. Умаев А.А. Возникновение и деятельность винодельческих фирм в дореволюционном Азербайджане // Вестник архивов Азербайджанской ССР. Баку, 1965, №3, с. 142-153.
229. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX вв. Баку, Элм, 2002, 530 с.
230. Устав об акцизных сборах. СПб., 1901, стб. № 1007.
231. Фадеев А.В. Развития капитализма вглубь в пореформенный период // Доклады и сообщения Института истории АН СССР, вып. 10, М., 1956, с. 3-17.
232. Фурсенко А.А. Нефтяные тресты и мировая политика. 1880-е годы. М.-Л., Наука, 1965, 496 с.
233. Хелимский Г.Г. Очерки чернозоводской промышленности Кавказского края. М., 1910.
234. Шавров Н. Значение разливов Аракса для Кавказской рыбопромышленности и меры к их наилучшему использованию. СПб., год издания отсутствует.
235. Шепелев Л.Е. Акционерные компании в России. Л., 1973, 347 с.
236. Эфендиев М.М. К вопросу о форме феодальной ренты у государственных крестьян Азербайджана в 50-х годах XIX в. // Azərbaycan SSR EA Xəbərləri, 1957, №6, s. 121-

136.
237. Эфес Г.М. Шёлковая промышленность в России и наша таможенная политика, ч. 1, М., 1918.
238. Юсупов И.Н. Хлопководство в Азербайджане. Автореферат канд. дисс. Баку, 1957.

# MÜNDƏRICAT

**Ön söz** ........................................ 3

**I FƏSIL. XIX ƏSRIN II YARISI– XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ŞIMALI AZƏRBAYCANIN SOSIAL-IQTISADI VƏZIYYƏTI** ........................................ 18
1.1. Kənd təsərrüfatının durumu ........................................ 18
1.2. Sənayenin ümumi vəziyyəti haqqında ........................................ 41
1.3. Çarizmin vergi siyasətinin müstəmləkəçi xarakteri ........................................ 71

**II FƏSIL. XIX ƏSRIN II YARISI VƏ XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ŞIMALI AZƏRBAYCAN KƏNDINDƏ ÇARIZMIN VERGI SIYASƏTI** ........................................ 80
2.1. Şimali Azərbaycan kəndlilərinin torpaq təminatı ........................................ 80
2.2. Dövlət kəndində vergilərin tətbiqi ........................................ 98
2.3. Sahibkar kəndindəki vergilər haqqında ........................................ 116

**III FƏSIL. SƏNAYEDƏ VERGI SIYASƏTI** ........................................ 137
3.1. Neft sənayesi və çarizmin vergi siyasəti ........................................ 137
3.2. Sənayenin digər sahələrində yığılan vergilərə dair ........................................ 154

**NƏTICƏ** ........................................ 175

**ISTIFADƏ EDILMIŞ QAYNAQLAR VƏ ƏDƏBIYYAT** ........................................ 182

Kompüter yığımı: Ruqiyyə Talıbova
Kompüter dizaynı: Aynur Məhərrəmli

Yığılmağa verilmişdir: – 5 yanvar 2010
Çapa imzalanmışdır: – 1 mart 2010

Sifariş: №
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 12,5 ç.v. Tirajı: 500
Qarnitur «A3 Times AzLat»

Kitab AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi
İnformasiya mərkəzində yığılıb-səhifələnmiş və
«Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
Müəssisənin direktoru professor **N.B.Məmmədli**
Tel. 497-16-32; 427-44-61; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev küç., 8-ci döngə, ev 4

*Məmmədova Rəsmiyyə Mürsəl qızı.*

*XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin tarixindən*

Qeyd üçün